**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ**

**BAKI DÖVLƏT UNİVERSİTETİ**

**SOSİAL ELMLƏR və PSİXOLOGİYA FAKÜLTƏSİ**

**PEDAQOGİKA KAFEDRASI**

# İrəvan müəllimlər seminariyasının 140 illiyinə həsr olunmuş “İrəvan müəllimlər seminariyası: Tarixilik və müasirlik” mövzusunda Respublika elmi konfransının

# MATERİALLARI

**22-23 noyabr 2022-ci il**

**B A K I – 2 0 2 3**

**İrəvan müəllimlər seminariyasının 140 illiyinə həsr olunmuş**
**“İrəvan müəllimlər seminariyası: Tarixilik və müasirlik”**
**mövzusunda Respublika elmi konfransının**

## T Ə Ş K İ L A T   K O M İ T Ə S İ

| | | |
|---|---|---|
| Rövşən Cavadov | Sosial elmlər və psixologiya kafedrasının dekanı | Sədr |
| Ləzifə Qasımova | Pedaqogika kafedrasının müdiri, professor | Sədr müavini |
| Nəzakət İmamverdiyeva | Pedaqogika kafedrasının dosenti | Elmi katib |
| İbrahim Zeynalov | Tarix fakültəsinin dekanı | Üzv |
| Elçin Məmmədov | Filologiya fakültəsinin dekanı | Üzv |
| Aydan Xəndan | Şərqşünaslıq fakültəsinin dekanı | Üzv |
| Qızılgül Abbasova | Elmi işlər üzrə dekan müavini | Üzv |
| Daxil Vəliyev | Tədris işləri üzrə dekan müavini | Üzv |
| Nəzakət Kərimova | Sosial məsələlər üzrə dekan müavini | Üzv |
| Rəbiyyət Aslanova | Fəlsəfə tarixi və mədəniyyətşünaslıq kafedrasının müdiri | Üzv |
| Səxavət Əliyeva | Psixologiya kafedrasının müdiri | Üzv |
| Rəna İbrahimbəyova | Gender və tətbiqi psixologiya kafedrasının müdiri | Üzv |
| Nübar Muxtarova | Pedaqogika kafedrasının professoru | Üzv |
| Məcid İsmixanov | Pedaqogika kafedrasının professoru | Üzv |
| Elza Mollayeva | Pedaqogika kafedrasının dosenti | Üzv |

## PROQRAM KOMİTƏSİ

| | | |
|---|---|---|
| Hikmət Əlizadə | Pedaqogika kafedrasının professoru | Sədr |
| Fərrux Rüstəmov | ADPU-nun İbtidai təhsil fakültəsinin dekanı | Üzv |
| Həsən Bayramov | BQU-nun Pedaqogika kafedrasının müdiri, professor | Üzv |
| Əsməd Muxtarova | Türk xalqları tarixi kafedrasının müdiri | Üzv |
| İqbal Ağayev | Asiya və Afrika ölkələri kafedrasının müdiri | Üzv |
| Səhər Orucova | Şifahi xalq ədəbiyyatı kafedrasının müdiri | Üzv |
| Bəylər Hacıyev | Humanitar fakültələri üzrə İngilis dili kafedrasının müdiri | Üzv |
| Akif Abbasov | Təhsil İnstitutunun elmi katibi, professor | Üzv |
| Rüfət Hüseynzadə | ADPU-nun Pedaqogika kafedrasının professoru | Üzv |
| Səfurə Allahverdiyeva | Pedaqogika kafedrasının dosenti | Üzv |
| Kəmalə Qəhrəmanova | Pedaqogika kafedrasının dosenti | Üzv |
| Gülarə Kərimova | Pedaqogika kafedrasının dosent əvəzi | Üzv |
| Sevinc Əliyeva | Pedaqogika kafedrasının dosent əvəzi | Üzv |
| Vəfa Çıraqova | Pedaqogika kafedrasının p.ü.f.d. | Üzv |
| Afət Bayramova | Pedaqogika kafedrasının baş müəllimi | Üzv |
| Şəhla Hüseynova | Pedaqogika kafedrasının müəllimi | Üzv |

# FİRUDİN BƏY KÖÇƏRLİ VƏ İRƏVAN MÜƏLLİMLƏR SEMİNARİYASI

***Ləzifə Nağı qızı Qasımova***
***BDU, Pedaqogika kafedrasının müdiri, pedaqoji elmlər doktoru, professor***

*1881-ci il, 8 noyabrda İrəvan şəhərində İrəvan Müəllimlər Seminariyası açılmışdır.* İrəvan Müəllimlər Seminariyası maarifçilik və pedaqoji hərəkatın inkişafında və müəllim kadrlarının hazırlanmasında xüsusi xidmətlər göstərmiş, pedaqoji fikrin əsas mərkəzlərindən biri kimi tanınmış və Qafqazda ictimai pedaqoji mühitin formalaşmasına, inkişçafına güclü təsir göstərmişdir.

Azərbaycanlı pedaqoji kadrlarının hazırlığında mühüm xidmətləri olan bu təhsil müəssisəsi 1918-ci ilin 6 avqustunda Uluxanlı məktəbi ilə eyni vaxtda bağlanmışdır. Seminariyanın direktoru, görkəmli maarifçi Yakop Stepanoviç Şuşevski əsas diqqəti tədris ocağını müəllim kadrları və şagird kontingenti ilə təmin etməyə yönəltmişdi. Onun səyi nəticəsində birinci il seminariyaya 9 müəllim və 42 şagird cəlb edilmişdi. Seminariyanın Azərbaycan bölümünün rəhbəri Axund Məmmədbağır Qazızadə olmuşdur. Seminariyaya Azərbaycanın müxtəlif bölgələrindən bura təhsil almağa gəlmişlər. İrəvan Müəllimlər Seminariyası xalqın maariflənməsində, intellektual potensialının yüksəlməsində mühüm rol oynamışdır. Seminariyanın fəaliyyətində Qori Müəllimlər Seminariyasının azərbaycanlı məzunlarının, xüsusilə böyük pedaqoq, maarif xadimi, görkəmli ədəbiyyatşünas Firudin bəy Köçərlinin böyük rolu olmuşdur. Görkəmli maarifçi-demokrat Firudin bəy Köçərlinin ilk pedaqoji fəaliyyəti İrəvan pedaqoji mühiti ilə bağlı olmuş, buradakı təhsil müəssisəslərində - İrəvan Kişi Gimnaziyasında, Uluxanlı kənd məktəbində və İrəvan Müəllimlər Seminariyasında dərs demiş, məhsuldar elmi pedaqoji fəaliyyət göstərmiş, geniş maarifçilik fəaliyyəti ilə məşğul olmuşdur.

Azərbaycan Respublikaının Prezidenti cənab İlham Əliyevin

29 dekabr 2021–ci il tarixində "İrəvan Müəllimlər Seminariyasının 140 illiyinin qeyd edilməsi haqqında" 3094 nömrəli verdiyi sərəncamda deyilir: "*1881-ci ilin noyabr ayında fəaliyyətə başlayan İrəvan Müəllimlər Seminariyası çar hakimiyyətinin bölgədəki maraqları naminə yaradılmasına baxmayaraq, 40 ilə yaxın müddətdə hazırladığı müasir dünyagörüşünə və düşüncə tərzinə malik yüksəkixtisaslı milli müəllim kadrları ilə azərbaycanlıların üstünlük təşkil etdiyi İrəvan mahalında ədəbi-ictimai, elmi-mədəni həyatın ənənəvi dolğunluğunun və canlılığının qorunub saxlanılmasında təqdirəlayiq xidmətlər göstərmiş, pedaqoji fikir salnaməmizə yaddaqalan səhifələr yazmışdır. Görkəmli maarifpərvər Firidun bəy Köçərli seminariyanın ilk müəllimlərindən olmuş, geniş mədəni-maarif işləri aparmışdır. Seminariyanın məzunları sırasında xalqımızın bir çox tanınmış şəxsiyyətləri və dövrünün görkəmli ziyalıları vardır"(1).*

İrəvan Müəllimlər Seminariyası Qafqaz məktəbləri üçün müəllim kadrlarının hazırlanmasında müstəsna rol oynamışdır. "Azərbaycanda pedaqogika elminin yayılması və inkişafı, xalq maarifinin bütöv bir dövrü İrəvan Müəllimlər Seminariyası məzunlarının və müəllimlərinin fəaliyyəti ilə bağlıdır. Görkəmli Azərbaycan maarifçisi Firudin bəy Köçərlinin pedaqoji fəaliyyəti də bu təhsil ocağında təkmilləşmiş və o 10 il bu təhsil müəssisəsində çalışmışdır" (4, s. 457).

Firudin bəy Köçərli həmçinin İrəvan Kişi Gimnaziyasında Azərbaycan bölməsinin müdiri, eyni zamanda Azərbaycan dili müəllimi vəzifəsində də çalışmış, maarif məsələlərinə dair dəyərli məqalələr yazmış, Zöhrabzadə ilə birlikdə "Təlimi-lisani-türki" adlı dərslik tərtib etmiş, "Təlimati-Sokrat" (1891) adlı fəlsəfi əsərini nəşr etdirmiş, rus klassikllərindən bədii tərcümələr də etmişdir. Daha sonra 1912-ci ildə uşaqlar üçün yazdığı "Balalara hədiyyə" kitabı çap olunmuş, 1913-cü ildə yazdığı "Azərbaycan ədəbiyyatı tarixi" adlı üç cildlik əsərini tamamlamışdır. 1920-ci ildə "Vətən dili"nin I hissəsinin yenidən işlənməsində böyük xidmətlər də göstərmişdir. Bir çox dərsliyə redaktorluq etmiş, nəzəri

materiallarıı, hekayələri artırmış,məzmunu zənginləşdirmişdir.

İrəvanda pedaqoji fəaliyyəti dövründə Firudin bəy Köçərlini düşündürən mühüm məsələlərdən biri əhalinin savadlanması, tərəqqi etməsi, təhsil alması idi. Amma, bu tərəqqinin qarşısını bir tərəfdən rus çarizmi alırdısa, digər bir qismi isə fanatik din xadimləri, xürafatçı mollalar idi.

İrəvan mühiti ilə yaxından tanış olan F.Köçərli öz təəssüratlarını belə bölüşürdü: "İrəvanın 202 üləması çox geridə qalmışdır. Onlar o dərəcədə cəhalətə qapılıblar ki, hətta "Tərcüman" qəzetini oxumağı, mühəriri İsmayıl Bəy Qaspıralı sünni olduğu üçün qadağan edirlər. Bunlar başa düşmürlər ki, inkişaf üçün nəinki Şərqdən, hətta xristian Qərbindən də kitab, qəzet gətirmək vacibdir".

Firidun bəy Köçərli İrəvan Müəllimlər Seminariyasında çalışdığı müddətdə xalqın maariflənməsində, tərəqqisində böyük işlər görmüşdür. İrəvan teatrının əsaslı fəaliyyəti demək olar ki, Firudin bəy Köçərli ilə başlanmışdı. 1886-cı ildə Firidun bəy Köçərli İrəvanda teatr tamaşası təşkil etmişdir. Həmin tamaşa - M.F.Axundovun "Müsyö Jordan və Dərviş Məstəli şah" komediyasının tamaşası İrəvan əhalisinin həyatında böyük mədəni hadisəyə çevrilmişdir. F.Köçərli İrəvan şairlərinin əsərlərini, folklor nümunələrini toplamış və seçilmiş əsərlərində "İrəvan şairləri"adlı məqaləsində yazırdı: "Şəhri İrəvan kjeçmişdə mərkəzi –üləma, füzəla və şüəra olub, Axund Molla Məhəmməd İrəvcanı kimi böyük alim və mücahidlər yetiribsə də axır vaxtıarda belə fazil və alim şəxslərdən və dəqiq ədiblərdən və xoştəb şairlərdən məhrum qalıbdır..."(2, II, s. 215).

Deyə bilərik ki, İrəvan Müəllimlər Seminariyası öz fəaliyyəti ilə Cənubi Qafqazda, o cümlədən Azərbaycanda xalq məktəbi və təhsilin, mədəni-maarif işinin inkişafında, pedaqoji kadrların hazırlığında böyük rol oynamışdır. Həmin təhsil ocaqlarının milli təhsil tariximizdəki yeri və rolu bu gün də öyrənilir, tədqiq edilir, gənc nəslin, tələbələrin elmi–pedaqoji biliyinin artırılmasında geniş istifadə edilir.

## Ədəbiyyat

1. Əliyev İ.H. "İrəvan Müəllimlər Seminariyasının 140 illiyinin qeyd edilməsi haqqında" 29 dekabr 2021–ci il tarixli, 3094 nömrəli sərəncam/ Xalq qəzeti, 30 dekabr, 2021 – ci il.
2. Firudin bəy Köçərli . Azərbaycan ədəbiyyatı. Iki cilddə. Bakı: Avrasiya, 2005. I cild, 564 s., II cild, 560 s.
3. Cəfərov C., Allahverdiyev C. İrəvanda milli maarifçilik mühiti. Bakı: Şərq-Qərb, 2017.
4. Hüseynzadə R.L. Azərbaycan məktəb və pedaqoji fikir tarixi.Bakı: ADPU, 2021, 538 s.

# İRƏVAN MÜƏLLİMLƏR SEMİNARİYASI MİLLİ TƏHSİL TARİXİMİZİN AYNASIDIR

***Hümeyir Əhmədov***
***Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi-pedaqoji kadr hazırlığı şöbəsinin müdiri, pedaqogika üzrə elmlər doktoru, professor, Rusiya Təhsil Akademiyasının xarici üzvü, RTA-nın Əməkdar elm və təhsil xadimi***
***humeyir@gmail.com, a.humeyir@arti.edu.az***

Cənubi Qafqaz, o cümlədən, Azərbaycan xanlıqları Rusiya tərəfindən işğal edildikdən sonra həyatın bütün sahələri Rusiya tərəfindən idarə olunmağa başladı. 1829-cu il avqustun 2-də Rusiya Maarif Nazirliyi "Zaqafqaziya məktəblərinin vəziyyəti haqqında" qəbul etmişdi. Burada qəza məktəblərinin yaranması və ümumi təhsil sistemi ilə idarə edilməsi öz əksini tapmışdı. Artıq XIX əsrin 70-ci illərində Cənubi Qafqazın müxtəlif yerlərində açılan həmin məktəblərdə elmin əsaslarını uşaqlara yeni üsulla tədris edən təhsil ocaqlarının ciddi şəkildə təşkilinə başlanıldı. Cənubi Qafqazda başlanan bu maarifçilik hərəkatına İrəvanda da onlarla tərəqqipərvər azərbaycanlı ziyalı qoşularaq, gənclərin təhsilə cəlb edilməsi uğrunda mübarizəyə başladı. 14 yanvar 1832-ci ildə İrə-

vanda açılan ilk qəza məktəbində müxtəlif millətlərin uşaqları ilə yanaşı, azərbaycanlı uşaqlar da təhsil almağa başladılar. 1832-ci ildə açılan İrəvan qəza məktəbi 1869-cu ildə progimnaziyaya, 31 mart 1881-ci ildən isə 5 sinifli gimnaziyaya çevrildi. 8 noyabr 1881-ci ildə İrəvanda daha bir təhsil müəssisəsi - İrəvan Müəllimlər Seminariyası fəaliyyətə başladı. Burada müxtəlif millətlərin nümayəndələri ilə yanaşı, azərbaycanlılar da təhsil alırdı. Yeri gəlmişkən onu da qeyd edək ki, İrəvan Müəllimlər Seminariyasının və gimnaziyasının təşkil edilməsi Cənubi Qafqazda maarifçiliyin daha geniş vüsət almasına ciddi təsir göstərdi. Seminariyada tatar dilini (Azərbaycan) Axund Məmməd Bağır Qazızadə tədris edirdi. O, 1853-cü ildə İrəvanda anadan olmuş, İrəvan progimnaziyasını bitirmişdir. Yüksək biliyə malik olan Axund Məmməd Bağır Qazızadə həm də seminariyada Azərbaycan bölməsinə rəhbərlik edirdi. O, 1911-ci ildə İrəvan müəllimlər seminariyasının bir qrup əməkdaşları ilə Tiflisdə Azərbaycan dilində nəşr olunmuş "Ana dili" dərsliyinin həmmüəlliflərindən biri idi. Aparılan araşdırmalardan məlum olur ki, seminariyanın Azərbaycan bölməsinin rəhbəri Axund Məmməd Bağır Qazızadə burada şəriət dərslərinin yüksək səviyyədə keçirilməsi, tədris şəraitinin yaxşılaşdırılması, gənc soydaşlarımızın seminariyaya daha çox cəlb edilməsi istiqamətində böyük rol oynamışdır.

Onu da qeyd edək ki, İrəvan Müəllimlər Seminariyasında 1904-cü ildə Rəşid bəy Şaxtaxtinski, 1907-ci ildə isə Həmid bəy Şahtaxtinski Azərbaycan (tatar) dili fənnini tədris etmişlər. Həmid bəy 5 iyun 1899-cu il tarixdə İrəvan Müəllimlər Seminariyasını bitirdikdən sonra Qafqaz Təhsil Dairəsinin əmri ilə 1 sentyabr 1899-cu il tarixdən İrəvan rus-tatar məktəbinə Azərbaycan dili müəllimi təyin edilir. 27 oktyabr 1901-ci il tarixdə isə Qafqaz Təhsil Dairəsi rəhbərinin 14622 №-li əmri ilə İrəvan Müəllimlər Seminariyasına tatar (Azərbaycan) dili müəllimi təyin edilir. Həmid bəy 23 oktyabr 1907-ci il tarixdə Qafqaz Təhsil Dairəsinin 19273 №-li əmri ilə İrəvan Müəllimlər Seminariyasının tatar dili müəllimi vəzifəsindən azad edilir. 1907-ci ildə Həmid bəy İrəvan

Müəllimlər Seminariyasından azad edildikdən sonra onun yerinə Mirzə Cabbar Məmmədzadə tatar (Azərbaycan) dili müəllimi təyin edilir. Mirzə Cabbar Məmmədzadə 19 yanvar 1913-cü il tarixə qədər İrəvan Müəllimlər Seminariyasında tatar (Azərbaycan) dili müəllimi işləmişdir. Seminariyada Bakıdan, Naxçıvandan, Dağıstandan və başqa şəhərlərdən də tələbələr təhsil alırdı. Seminariyanı bitirən məzunlara kənd ibtidai məktəb müəllimi vəsiqəsi verilirdi.

Seminariyada rus dili, Azərbaycan dili, riyaziyyat, coğrafiya, idman və s. fənlərlə yanaşı, musiqi fənni də tədris edilirdi. İrəvan Müəllimlər Seminariyasının məzunları Cənubi Qafqazda milli maarifçiliyin inkişaf etdirilməsi istiqamətində çox böyük rol oynamışlar. Onlar azərbaycanlılar yaşayan bölgələrdə yeni məktəblərin açılmasında, azərbaycanlı balalarının təhsilə cəlb edilməsində fəal iştirak etmişlər. Bu maarif fədailəri daha çox İrəvanda, Naxçıvanda, Azərbaycanın müxtəlif bölgələrində milli intibah istiqamətində böyük fədakarlıq göstərirdilər.

Ümumiyyətlə, Qərbi Azərbaycanda xalqın maariflənməsində, Abbasqulu bəy Şadlinskinin yaratdığı "Qırmızı tabor"un tərkibində erməni şovinistlərinə qarşı mübarizədə İrəvan Müəllimlər Seminariyasının və Gimnaziyasının Azərbaycan şöbəsini bitirənlərin böyük xidmətləri olmuşdur.

Beləliklə, Azərbaycan məktəblərinin yeni məzmunda təşkili istiqamətində ilk addımları atılaraq, birillik, ikiillik və xüsusi məktəblər ləğv edildi. Yeni tipli məktəblər təşkil olunaraq fəaliyyətə başladı. Yeni tipli məktəblər təşkil edildikdən sonra İrəvanda və eləcə də azərbaycanlılar yaşayan bütün bölgələrdə doğma dilimizdə təhsil ocaqları şəbəkəsinin genişlənməsi orada təhsil alan şagirdlərin sayının sürətlə artmasına səbəb oldu.

1924-cü ilin oktyabr ayının 15-də İrəvan Müəllimlər Seminariyasının xələfi olan İrəvan Türk Pedaqoji Texnikumu açıldı.

Beləliklə, İrəvan Türk Pedaqoji Texnikumunun açılması ilə Azərbaycan məktəblərində müəllim kadrlara olan ehtiyacın aradan qaldırılması işinin müəyyən dərəcədə qaydaya

1930-cu ildə ümumi icbari təhsilin tətbiq edilməsi istər məktəblərin, istərsə də orada təhsil alan şagirdlərin sayının sürətlə artmasına təkan verdi. 1949-cu ilə qədər fəaliyyət göstərən İrəvan Türk Pedaqoji məktəbi təkcə tədris müəssisəsi kimi deyil, eyni zamanda, Qərbi Azərbaycanda ədəbiyyatımızın, mədəniyyətimizin, incəsənətimizin inkişafında, formalaşmasında və qorunmasında çox böyük rol oynamışdır. Bolşevik cildinə bürünmüş erməni daşnaklarının məkrli siyasəti nəticəsində təhsil tariximizin ən şanlı səhifələrindən birini təşkil edən böyük, şərəfli tarixi bir yol keçmiş bu təhsil ocağı da kollektiv şəkildə deportasiyaya məruz qoyularaq 1949-cu ildə Azərbaycanın Xanlar rayonuna köçürülmüş, 1972-ci ilə qədər orada fəaliyyət göstərmişdir.

Onu da xüsusi qeyd edək ki, Prezident İlham Əliyevin 30 avqust 2006-cı ildə İrəvan Azərbaycan Dram Teatrının 125 illik yubileyinin, 29 dekabr 2006-cı ildə İrəvan mahalı Uluxanlı məktəbinin 125 illik yubileyinin keçirilməsi haqqında sərəncamları, o cümlədən, Qarabağın müxtəlif bölgələrinə etdiyi səfərlər zamanı İrəvan, Göyçə, Zəngəzur və digər qədim yurd yerlərimizlə bağlı səsləndirdiyi fikirlər, eyni zamanda, tarixi toponimlərimizlə bağlı ortaya qoyduğu konkret faktlar bir daha təsdiq edir ki, tarixin danılmaz və inkaredilməz həqiqətlərini, milli-mənəvi dəyərlərimizi daim diqqət mərkəzində saxlanılmalıdır!

## Ədəbiyyat


1. Azərbaycan tarixi, 7 cilddə, 4-cü cild (XIX əsr). Bakı: Elm, 2000, 503 s.
2. Azərbaycan Müəllimlərinin Qurultayları. Bakı, Çaşıoğlu, 2008, 784 s.
3. Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin 2001-ci il, yeni əsr, yeni üçüncü minnillik münasibətilə Azərbaycan xalqına müraciətində.
4. Ağayev Ə., Rzayev V. Güney Qafqaz xalqlarının pedaqoji əlaqələri tarixindən. Bakı: "Təhsil", 2004, 136 s.

# XIX ƏSRİN SONU XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ QƏRBİ AZƏRBAYCAN TƏHSİLİ

***İramin Namaz oğlu İsayev***
***ADPU, Ümumi pedaqogika kafedrasının müdiri, professor***
***iramin.isaev@mail.ru***

Qərbi Azərbaycan məvhumunun işlənməsi indiki zamana təsadüf etsə də, Cənubi Qafqazda tarixən böyük bir ərazini özündə birləşdirən Azərbaycanın zamanın müxtəlif mərhələlərində tamahkar, torpaq hərisi, gözü götürməyən dövlətlər tərəfindən parçalanmış bir ölkənin acı taleyindən "Qərbi, Cənubi Şərqi Azərbaycan" xəbər verir. Qədim və zəngin mədəniyyət tarixinə malik Azərbaycan xalqının taleyi elə gətirmişdir ki, onun yaşadığı ərazi iki yüz il ərzində üç yerə parçalanmış, ərazinin bir hissəsi - Şimali Azərbaycan Rus imperiyası tərkibinə daxil edilmiş, əhalinin əksəriyyətinin yaşadığı ərazi – Cənubi Azərbaycan İran dövlətinin tərkibində qalmış, qədim türk-oğuz tayfalarının məskəni olan Qərbi Azərbaycan, azərbaycanlılardan ibarət İrəvan xanlığı və digər mahallar erməni vilayəti adlandırılmış, sonra 1918-ci ildə isə ərazi Azərbaycan şəhəri olan İrəvan Ermənistana verilmişdir. Parça-parça doğransa da, dövrün ağır sınaqlarından şərəflə çıxaraq öz varlığını və müstəqilliyini əldə etmiş, vahid Azərbaycanın mövcudluğunu özündə ehtiva etmişdir. Tarixən dənizdən dənizə qədər böyük bir ərazidə məskunlaşan azərbaycanlıların indi əzəl torpaqlarının qaytarılması uğrunda (indiki Ermənistan respublikası ərazisi) mübarizəyə qoşulması vaxtı çatmışdır. Təsadüfi deyil ki, son dövrlərdə Azərbaycan, Ermənistanın və onun bəzi havadarlarının bütövlükdə saxtakarlıq, yalan üzərində tarix və dövlət yaratdığı faktını beynəlxalq ictimaiyyətin diqqətinə çatdıran, ölkə prezidentimiz İ.Əliyevulu öndər H.Əliyevin bu sahədə tarixi strateji missiyasını davam etdirərək təcavüzkar erməni dövlətinə qarşı davamlı ideoloji mübarizəyə başlamışdır. Hazırda bu mübarizəni məqsədyönlü davam etdirən prezidentimiz, Ali Baş Komandan İl-

ham Əliyev çağdaş dünyada hadisə və faktlara müxtəlif və qeyri obyektiv yanaşma tərzinin mövcud olduğu bir şəraitdə bütün imkanlardan istifadə edərək erməni və Ermənistan siyasətçilərinin fikirlərini obyektiv, ardıcıl və məntiqi surətdə ifşa edərək tarixi reallıqları ön plana çəkir.

Öz arqumentlərinin düzgünlüyünü tarixi faktlar, arxiv sənədləri ilə təsdiqləyən İlham Əliyev bütün rəsmi və qeyri-rəsmi görüşlərində bu problemi daim gündəmdə saxlamaqla öz konsepsiyasına sadiqlik nümayiş etdir və davamlı olaraqAzərbaycan haqqında olan həqiqətləridünya ictimaiyyətinin diqqətinə çatdırır. Ölkə prezidenti bu strateji xətti 2008-ci ilin fevral ayında Ağdam ictimaiyyəti ilə görüşdə tarixi reallıqları əks etdirən açıqlamasında daha aydın ifadə edərək, Ermənistanın yalnız 90 il əvvəl Xalq Cümhuriyyətinin güzəşti ilə İrəvanı əldə etməsini və dövlət qurmaq fürsəti ələ keçirməsini tam təzkibolunmaz məntiqlə əsaslandırır: "Biz heç kimin torpağını zəbt etməməmişik. Halbuki indiki Ermənistan dövləti tarixi Azərbaycan torpaqlarında formalaşmışdır. İrəvan şəhərini Azərbaycan Xalq Cümhuriyyətinin rəhbərliyi 1918-ci ildə Ermənistana hədiyyə edibdir. Yumşaq desək, o böyük bir səhv idi... İrəvan xanlığı əzəli Azərbaycan torpaqlarıdır. Bir daha demək istəyirəm ki, ermənilər bu bölgəyə qonaq kimi gəlmişdir. Ona görə haqq-ədalət, tarixi həqiqət, beynəlxalq hüquq, iqtisadi imkanlar, hərbi potensial bütün bu amillər tərəzinin bir gözündə, Ermənistanın qeyri-konstruktiv və heç bir beynəlxalq normalara sığmayan siyasəti tərəzinin başqa gözündədir".

Tarixi məxəzlərə istinadən aparılan tədqiqatlar İrəvanın qədim Azərbaycan şəhəri olmasını, onun əsasının azərbaycanlılar tərəfindən qoyulduğunu təsdiq edir. Araşdırmalardan aydın olur ki, Çuxur-Səd adlanan ərazi Şah İsmayıl Xətainin sərkərdəsi Rəvanqulu xanın şərəfinə İrəvan adlandırılmışdır. İrəvan və onun ətraf ərazilərində ancaq azərbaycanlılar məskunlaşmışdır. Vaxtilə Təpəbaşı, Toxmaxgöl, Şəhər, Qırmızı, Dəmirbulaq, Gedərçay məhəllərini özündə birləşdirən bu şəhərdə, Göy məscid, Novruzəli məscidi, Günnüklü məscidi, Hüseynəli məscidi, Qala məscidi,

Hacı bəyim məscidi, Şəhər məscidi, Zal xan məscidi və s. mövcud olmuş, burada fəaliyyət göstərən məscid məktəbləri azərbaycanlıların ilkin savad alması üçün xüsusi rol oynamışdır. Məhz bu məscid və məktəblər İrəvan ziyalılarının toplanaraq elmi və ədəbi söhbətlər apardığı məbədlər olmuşdur. Hələ 1837-ci ildə İrəvan və Naxçıvan məktəblərindən bəhs edən İ.Şopen yazırdı: “Gənclər bədii ədəbiyyatla daha çox məşğul olurlar. Onların bir çoxu Rüdaki, Firdovsi, Ənvəri, Nizami, Cami, Hafiz, Sədi və digər məşhur söz ustalarının əsərlərini əzbərdən bilirlər. Hətta bəzi orijinal şairlər İrəvan muzalarını ilhama dəvət edir və müxtəlif hadisələrə həsr edilmiş xüsusi şeirlər qoşurlar. Öz əqlini poeziyanın ən əsas cəhətlərinə həsr edən Mirzə adlı birisi isə özünə Mirzə Bülbül təxəllüsü götürmüşdür”.

Tədqiqatlar sübut edir ki, 1604-cü ildə əsası qoyulan İrəvan xanlığı əsrlərlə mövcud olmuş və azərbaycanlılar tərəfindən idarə edilmişdir. Yaranmasından keçən 200 ildən çox zaman kəsiyindən sonra rusların İrəvan qalasına hücumu (1804) zamanı onun şücaətli müdafiəçiləri də məhz, azərbaycanlılar olmuşdur. Göründüyü kimi, Çar Rusiyasının işğalına qədər İrəvan və onun ətraf rayonlarında məskunlaşmış əhalinin böyük əksəriyyətini azərbaycanlılar təşkil etmişdir. Rusların işğalından sonra da Qərbi Azərbaycan, o cümlədən İrəvan şəhərinin əhalisi azərbaycanlılar idi. Məşhur səyyah və etnoqraf Y.Şopen yazırdı: “Keçən əsrin (XIX əsr nəzərdə tutulur – İ.İ.) əvvəllərində təkcə İrəvan şəhərində 2400 azərbaycanlı ailə - 12 min nəfər azərbaycanlı yaşayırdı... Rus imperiyasında birinci dəfə keçirilən əhalinin siyahıya alınmasına görə 1897-ci ildə Qərbi Azərbaycanda İrəvan quberniyasında 5.313.178 nəfər azərbaycanlı yaşamışdır”. Ermənilərin dövlət yaratmaq iddiasının həyata keçirilməsinə havadarlıq edən rus imperiyası XIX əsrin əvvəllərindən başlayaraq İran və Türkiyədə yaşayan erməni millətindən olan insanların azərbaycanlıların əzəli torpaqlarına köçürülməsinə başlamışdır. Kütləvi erməni axınına baxmayaraq, həmin ərazidə azərbaycanlılar əhalinin əsas hissəsini təşkil edirdi. Bu faktı erməni alimi Zaven Korkolyan da təsdiq-

ləyir: “1883-cü ildə İrəvan şəhərinin 18776 nəfər əhalisinin 15992 nəfəri, 1886-cı ildə isə 27246 nəfərindən 23626 nəfəri, 85.2 faizi azərbaycanlı olmuşdur” (Sovet Ermənistanı əhalisi: 1831-ci il adlı kitabı). Təkcə bu tarixi gerçəkliyin özü də İrəvanın tezliklə Azərbaycan şəhəri, ətraf əyalətlərinin isə Azərbaycan (Zəngəzur, Vedibasar, Zəngibasar, Göyçə, Ağbaba, Dərəçiçək, Sisyan, Qafan, Qəmərli, Qaraqoyunlu, Qırxbulaq, Sürməli, Seyidli və s.) torpaqları olduğunu təsdiqləyir. XIX əsrin sonlarından başlayaraq “Böyük Ermənistan” yaratmaq xülyalarını həyata keçirmək uğrunda mübarizəyə başlayan ermənilər XX əsrin sonlarına qədər müxtəlif vaxtlarda Azərbaycan xalqına qarşı soyqırım törətmiş, onu öz əzəli torpaqlarından departasiyaya məruz qoymuşlar. Ötən illər ərzində Qərbi Azərbaycanda şəhər, kənd, yer adları erməniləşdirilsə də, faktlar sübut edir ki, torpaqlar azərbaycanlıların ən sıx yaşadığı yerlər olmaqla, tarixdə zəngin maddi və mənəvi sərvətləri, folklor ədəbiyyatı, aşıq sənəti, kütləvi məktəb şəbəkəsi, incəsənət, memarlıq abidələri, qabaqcıl ziyalıları, alimləri, şair və yazıçıları ilə diqqəti cəlb edir.

## QƏRBİ AZƏRBAYCAN PEDAQOJİ MÜHİTİ VƏ TƏHSİL

***İramin Namaz oğlu İsayev***
***ADPU, Ümumi pedaqogika kafedrasının müdiri, professor***
***iramin.isaev@mail.ru***

Qərbi Azərbaycan xalq maarifi və məktəb təhsili sahəsində özünəməxsus inkişaf yolu keçmişdir. Qərbi Azərbaycanda məktəb bütöv Azərbaycan maarifinin mühüm tərkib hissəsi olmaqla özünü göstərən pedaqoji yeniliklər bura da nüfuz etmişdir. Zaqafqaziyada o illərin İrəvan məktəbləri və məktəbdarları bəzi yenilikləri ilə hətta irəli gedir. XIX əsrin ikinci yarısında QTD-nin bərpası ilə əlaqədar İrəvanda yeni məktəblər açılmağa başlayır. Bu isə 1867-ci ildə Qafqaz məktəbləri üçün təsdiq edilmiş nizamnamədə öz ifadəsini tapır. Nizamnaməyə görə Tiflis, Stavropol,

Kaban, Kutaisi, Bakı şəhərlərində olduğu kimi, İrəvan məktəblər direksiyası da yaradılması öz əksini tapır. Nəhayət, mərkəzihökumətin 1876-cı il 27 yanvar tarixli yeni qərarı əsasında Qafqaz tədris dairəsində yuxarıda qeyd olunan şəhərlərlə yanaşı, İrəvan-Yelizavetpol (Gəncə) xalq məktəblər direksiyası təsis edilir. Bu da İrəvanda (azərbaycanlılar üçün) dövlət məktəblərinin yaranmasına səbəb olur. Beləliklə, 1881-ci ildən müəllimlər seminariyası, gimnaziyalar, o cümlədən qız gimnaziyası, pansionatlar, Rus-Azərbaycan məktəbləri fəaliyyət göstərməyə başlayır. Azərbaycanda, o cümlədən Bakıda açılan Rus-Azərbaycan məktəbinin təsiri ilə İrəvanda da belə məktəblər meydana gəlir. Belə məktəblərin şəbəkəsi, xüsusilə İrəvan quberniyasında genişlənir.

1896-cı il oktyabrın 21-də açılan İrəvan Rus-Azərbaycan məktəbi əhalinin maddi və mənəvi yardımı ilə idarə olunurdu. Məktəbə ilk dəfə nəzərdə tutulan 70 şagird əvəzinə, 110 şagird qəbul edilmişdi və onların sayı get-gedə çoxalırdı. Əhali tərəfindən yaradılan Rus-Azərbaycan məktəbini təsis edən komissiyanın tərkibinə Abbasqulu xan Erivanski (sədr), İrəvan gimnaziyasının Azərbaycan dili müəllimi İsmayıl bəy Şəfibəyov, İrəvan Müəllimlər Seminariyasının Azərbaycan dili müəllimi Rəhim Xəlilov və b. daxil idi. Məktəbin tədris planında Azərbaycan, rus, fars və ərəb dilləri, şəriət, hesab və s. fənlər öz əksini tapmışdı. Ana dili səs üsulu ilə A.O.Çernyayevskinin "Vətən dili" (I-II hissə), fars dili Sədinin "Gülüstan", rus dili M.Volperin "Rus dili" (I, II, III hissələr), hesab Yevtuşevskinin "Məsələlər kitabı", müqəddəs tarix isə F.Köçərlinin tərtib etdiyi kitab üzrə tədris edilirdi. Təhsil müəssisəsinin müdiri Həşimbəy Nərimanbəyov idi. İkinci müəllim R.Xəlilov, sonralar isə Şaxtaxtinski olmuşdur. Azərbaycan dilini Mirzə Məmməd Vəli Qəmərlinski, şəriət dərslərini isə Axund Mirzə Abdulla Qarayev aparırdı.

Qafqaz ölkələrində yaşayan müsəlmanlar arasında qızların təhsilə cəlb olunması, onların dünyəvi təhsil almasının gündəmə gəlməsi, İrəvan əhalisini də hərəkətə gətirdi. Onlar İrəvanda yaşayan Azərbaycan qızlarını təhsilə qovuşdurmaq üçün qız məktəbləri

açmaq təşəbbüsünə böyük həvəs və istəklə qoşuldular. Azərbaycan məktəb tarixi üzrə araşdırmalar aparan akad.H.Əhmədov yazırdı ki,bu işdə İrəvan quberniyası daha da irəlidə gedirdi. Gürcüstan respublikasının MDA-də saxlanılan sənədlər içərisində İrəvan şəhəri, Şərur-Dərələyəz, Naxçıvan və Eçmiədzin qəza sakinlərinin vəsait toplamaları haqqında kifayət qədər sənədlər vardır. Bu sənədlərdə insanların məktəbə, maarifə olan marağı aydın ifadə olunurdu. Bütün bunların nəticəsi idi ki, İrəvan rus-Azərbaycan məktəbinin müsbət təcrübəsi əsasında İrəvanda rus-Azərbaycan qız məktəbinin əsası qoyulmuşdur.

Həmvətənlərinin maariflənməsi elm və təhsilə qovuşmasında məktəbin rolunu yüksək qiymətləndirən İrəvan ziyalılarının, şair və pedaqoqların XIX əsrin II yarısı və XX əsrin əvvəllərində böyük bir dəstəsi yetişərək fəaliyyət göstərmişdi. Bunlardan məşhədi İsmayıl Hacı Kazımzadə (“Bəzmi”), Mirzə Kazım Qazi Əsgərzadə Axund Əhməd (“Mütəlle”), Cabbar Baxçabani İrəvani, Axund Mirzə Əli, Mirzə Abbas Məhəmmədov, Mirzə Ələkbər Elxanov və digərlərinin diqqətəlayiq fəaliyyəti İrəvanda elmi-pedaqoji mühitin formalaşmasına əsaslı təsir etmişdir. Məsələn, M.Ə.Elxanov 1828-ci ildə İrəvan şəhəri yaxınlığındakı Uluxanlı kəndində anadan olmuş, İrəvan şəhəri baş məscid nəzdində ruhani məktəbini bitirmiş, 1856-cı ildə Tiflis gimnaziyasında imtahan verərək Azərbaycan dili müəllimi adı almışdır. O, 30 ilə qədər İrəvan dövlət məktəblərində fəaliyyət göstərmişdir. M.Ə.Elxanovun pedaqoji fəaliyyəti müəllimliklə məhdudlaşmamış, mütərəqqi rus pedaqoji fikrinə, xüsusən də K.D.Uşinskinin pedaqoji ideyalarına istinadən Azərbaycan məktəblərində tədris ehtiyacını ödəmək üçün dərslik tərtibetmişdir. M.Ə.Elxanov 1880-ci ildə “Azərbaycan dili əlifbası” adlı dərslik yazmışdır. Bu barədə Qafqaz təlim dairəsi popeçitelinin 1883-cü ilə dair hesabatında qeyd edilir ki, “İrəvan gimnaziyasının Tatar-Azərbaycan dili müəllimi Mirzə Elxanovun “Tatar dili dərsliyi”, Uşinskinin “Vətən dili” kitabı nümunəsində tərtib olunmuşdur”.

***İrəvan ziyalılarının ana dilində məktəb açmaları***

İrəvan ziyalılarının ana dilində yeni üsullu məktəblər açılması işində fəaliyyəti də diqqəti cəlb edən faktlardandır. İrəvan pedaqoji mühitinin aparıcı nümayəndələrindən şair-müəllim İsmayıl Hacı Kazımovun bu sahədə fəaliyyətini göstərmək olar. İrəvanda yeni üsullu məktəblərin meydana gəlməsində xüsusi əmək sərf etmiş, məhz ilk belə məktəb Məşədi Molla İsmayıl Hacı Kazımov tərəfindən açılmışdır. Kazımovun ana dilində məktəb açmasına icazə verilməsi QTD popeçitilinin 1882-ci il fevralında İrəvan və Gəncə xalq məktəblər direktoruna göndərdiyi məktubunda öz əksini tapmışdır. "Cənab qubernatorun keçən 23 yanvar 246 saylı məktubuna əsasən İrəvan birsinifli şəhər məktəbinin müəllimi Məşədi Molla İsmayıl Hacı Kazımovun İrəvan şəhərində rus dili və rus dilində hesab tədris edilməsi şərtilə 3-cü dərəcəli xüsusi tatar (Azərbaycan – İ.İ) məktəbi açılmasına icazə verirəm". Beləliklə, Kazımovun xüsusi məktəbi 1882-ci il martın 28-də açılmışdır. Kazımovun ana dili məktəbi qısa müddət ərzində bütün İrəvan quberniyasında böyük şöhrət və rəğbət qazanmışdır. Bu rəğbətin əsas səbəbi onun məktəbində tətbiq etdiyi yeni üsulu və bir müəllim kimi şəxsiyyəti, millətin mənəvi zənginliyi qayğısına qalması sahəsində göstərdiyi əməli fəaliyyət idi. Bu fəaliyyət dövrün görkəmli şəxsiyyətlərinin də diqqətindən kənarda qalmamışdır. Mirzə İsmayıl Kazımovun şəxsiyyəti və onun məktəbi, tətbiq etdiyi yeni təlim üsulları barədə F.B.Köçərli öz fikirlərini belə ifadə etmişdir: "Bu həqir bəndə İrəvan gimnaziyasına yeni müəllim təyin olunan vaxtlarda Mirzə İsmayıl ilə tanış olub və bəzi vaxtlar onunüsuli-tədrisi ilə aşinə olmaq üçün məktəbinə gedərdim və onun artıq şövq ilə məşğul olmağını görüb, dəxi də artıq onunla yaxınlaşmağa və dostluq əlaqəsini bağlamağa səy edərdim.... Məşədi İsmayıl bizim məktəblərdə babadan bəri işlənən köhnə qayda üzrə dərs verməyin küsurunu anlayıb, üsuli-sövti ilə təlim etmək üçün özü təzə bir əlifba tərtib etmişdi. Amma mərhumun bu işi nə qədər əhəmiyyətli və xeyirli idisə də köhnə qaydanı sevən və işıqdan bixəbər olan avamlara o, xoş gəlmədi. Mərhumun təzə əlifbası avam və əhli-qərəz insanında gülünc və istehza

üçün bir alət oldu. Amma möhtərəm müəllim bu istehza və kinayələrə əsla mültəlif olmayıb, öz işində sabit, qədəm və möhkəm dururdu".

Mirzə Kazım Qazi Əsgərzadə Axund Əhmədov ("Mübtəle") İrəvan ziyalıları sırasında sayılıb-seçilən, həmvətənlərinin təlim və tərbiyəsi qayğısına qalaraq, onların himayədarı kimi özünü göstərən şəxslərdən idi. O, əslən İranlı olsa da, çox gənc yaşlarında İrəvana gəlmiş, İran konsulluğunda çalışmışdır. Sonra bu işdən imtina edərək, pedaqoji işə çox maraq göstərdiyindən İrəvanda xüsusi məktəb açıb müəllimlik etmişdir. Mirzə Kazımın müəllimlik fəaliyyətindən bəhs edən ədəbiyyatşünas alim-tarixçi F.B.Köçərli onu məktəb içlərini müasir üsullarla və səliqəli aparan bir rmaarifçi kimi dəyərləndirmişdir.Bu keyfiyyətlərinə görə də İrəvan əhlinin böyük hörmət və ehtiramını qazanmışdır. Belə hörmət sahibi olan Mirzə Kazım bu səbəbdən də ömrünün sonuna qədər İrəvanda yaşamışdır.

İrəvan pedaqoji mühitində özünə yer tutan şəxslərdən biri də Mirzə Həsən Rüşdiyyənin qardaşı Axund Mirzə Əlidir. Mirzə Kazım kimi, Axund Mirzə Əli də əslən Cənubi Azərbaycanlı olsa da, Qərbi Azərbaycanda yaşayan həmvətənlərinin təlim, tərbiyəsi ilə məşğul olmağa daha çox üstünlük vermişdir. Mirzə Kazımla dostluq əlaqələri quraraq məktəbdarlıq etmişdir. F.B.Köçərlinin yazdığına görə, Mirzə Abbas Məmmədov XIX əsrdə İrəvanda yeni üsullu məktəb açan ziyalılardan olmaqla İrəvanda məktəbdarlıqla məşğul olan ziyalılarımızdan biri idi.

Dövrün mühüm pedaqoji problemləri və onun həlli baxımından İrəvan mühitinin təcrübəsinin ictimaiyyət tərəfindən qiymətləndirilib qəbul edilməsi faktı, Azərbaycanın digər bölgə maarifpərvərlərinin qabaqcıl pedaqoji təcrübələrində də özünü göstərirdi. Bunu biz Azərbaycanda, o cümlədən, İrəvanda ana dili məktəbi, xalq maarifi sahəsində həyata keçirilən yeniliklərin Cənubi Azərbaycanın mütərəqqi maarifçi-pedaqoqlarının diqqətini cəlb etməsindən aydın görürük. Bu sahədə ilk təşəbbüs göstərənlərdən biri də maarifçi-demokrat Mirzə Həsən Rüşdiyyə Təbrizi olmuş-

dur. Mütərəqqi təlim-tərbiyə üsullarını Cənubi Azərbaycanda (İranda) yaymağı qarşısına məqsəd qoyan M.H.Rüşdiyyə İrəvana gəlmiş, pedaqoji elmin yeniliklərini öyrənmiş, nəzəri məsələlərlə məşğul olmuşdur. Öz nəzəri biliklərini təcrübədə yoxlamaq üçün hətta 1883-cü ildə İrəvanda məktəb açmışdır. Həmin məktəb qısa müddətdə İrəvan pedaqoji ictimaiyyətinin rəğbətini qazanmışdır. Nəhayət kifayət qədər elmi-pedaqoji və təcrübi bilik qazanaraq Təbrizə qayıtmış, pedaqoji fəaliyyətini davam etdirmişdir.

Onu da qeyd etmək lazımdır ki,İrəvan və Qərbi Azərbaycan pedaqoji mühitinin qabaqcıl nümayəndələri öz fəaliyyətini bir məkanla məhdudlaşdırmayıb, digər ərazilərdə yaşayan həmvətənlərinin də məktəbə, elmə, təhsilə olan ehtiyaclarını ödəmək üçün ciddi cəhd göstərmişlər.

Yuxarıda bəhs etdiyimiz kimi, Cənubi Azərbaycandan gəlib (Təbrizdən) İrəvanda məktəb açaraq, yeni təlim üsullarını öyrənib vətənə qayıdanlar olduğu kimi, İrəvandan Təbrizə və ya Cənubi Azərbaycanın digər şəhərlərinə gedib, İrəvan pedaqoji mühitinin zəngin təcrübəsini tətbiqi sahəsində fəaliyyət göstərənlər də olmuşdur belə şəxsiyyətlərdən biri də İrəvanda anadan olmuş, gənclik illərindən başlayaraq müəllim kimi (gizli olaraq evlərdə qızlara dərs demişdir) fəaliyyət göstərərək “Kavkaz” qəzeti və “Molla Nəsrəddin” jurnalında əməkdaşlıq etmiş, 1913-cü ildə İrəvan şəhərində nəşr olunan “lək-lək” satirik jurnalın redaktoru vəzifəsində çalışmış, Cabbar Baxçebani İrəvani olmuşdur. Cabbar Baxçebani İrəvanda göstərdiyi pedaqoji maarifçilik fəaliyyəti ilə yanaşı, Cənubi Azərbaycan maarifçilik tarixində özünəməxsus yer tutmuşdur.

XIX əsrin II yarısıvə XX əsrin əvvəlləri zamanı çərçivəsində İrəvan və ümumən, Qərbi Azərbaycanın bizə bəxş etdiyi elm, mədəniyyət, ədəbiyyat və digər xadimlərin göstərdiyi xidmətlərinə çoxcildlik kitablar həsr edilməsi mümkünlüyünü nəzərə alıb fikrimi bu qısa ümumiləşdirmələrlə yekunlaşdırıram. Elə bu qısa tarixi faktlar Cənubi Azərbaycanın xalqımızın əzəli torpaqları, İrəvanın isə Azərbaycanın elm və mədəniyyət mərkəzlərindən biri olmasını bir daha təsdiqləyir.

# ВОЗВРАЩЕНИЕ К СВОЕЙ ИСТОРИЧЕСКОЙ ПАМЯТИ - ЦЕЛЬ КАЖДОГО АЗЕРБАЙДЖАНЦА!

***Нубар Мухтар кызы Мухтарова***
***БГУ, проф.кафедры «Педагогики»***

«Мы не должны забывать и, не забываем наши исторические земли. Это должно стать ориентиром для нашей дальнейшей деятельности»

Президент Ильхам Алиев

После блестящей победы одержанной в 44-дневной Отечественной войне 2020 года, Азербайджан создал в регионе новые реалии и наметил новые стратегические цели. Пришло время, нынешнему поколению взять на себя полную ответственность и стать хозяевами исторического наследия созданного нашим народом, предками на исконных азербайджанских землях и Распоряжение Президента Азербайджана Ильхама Алиева о праздновании 140-летия Иреванской учительской семинарии на государственном уровне подтверждение этому.

Если проведём экскурс в историю создания Иреванской учительской семинарии, то узнаем, что она являлась ценным культурно-просветительским наследием. Воспитавшей не один десяток передовых деятелей азербайджанской культуры, которые сыграли огромную роль в политико-идеологическом, культурно-духовном и в научно-педагогическом развитии не только азербайджанского общества. Но надо помнить, что и до создания светского образования, Иреванское ханство было одним из ведущих центров науки и образования мусульманского национального просвещения. Здесь в мечетях и медресе обучали учеников шариату, чтению, письму и точным наукам, многие представители иреванской интеллектуальной элиты выросли именно в этих медресе, ко-

торые в то время были единственными учебными заведениями. Примером является выпускник, выдающийся врач, ученый Гаджи Сулейман ибн Салман Гаджар Иревани, живший в XVIII веке.

К сведению, как точно описана история Эриванское (Ireванского) ханства в третьем томе Армянской Советской Энциклопедии (стр. 571), доказывает, что с конца XIV века до 1828 года Иреванским ханством управляли азербайджанцы. На указанной странице, в списке, в хронологической последовательности перечислены все правители Иревана. Это подтверждает имена нижеперечисленных правителей в списке: 1. Эмир Саад (конец XIV века - 1410); 2. Пир Гусейн (сын Эмира Саада), Пир Гаиб (сын Пир Гусейна) - (1410-1420);3. Абдуль (сын пир Гусейна) (1430);4. Ягуб бек (1440); 5. Гасан Али Гарагоюнлу (1460);6. Див Султан Румский (1515); 7. Гусейнджансултан Румский (1550);8. Шахгулусултан Румский (1550-1575);9. Мухаммед хан Тохмах Устаджлы (1576-1583) 10. Хыдыр Паша (1583); 11. Мухаммед Шариф Паша (1604);12. Эмир-Гуна хан Гаджар (1605-1625);13. Тохмаз Гулу хаг Гаджар (1625-1635);14. Келбели хан (1636-1639);15. Джагата Кётук Мухаммед хан (1639-1648);16. Кейхосров хан (1648-1652);17. Мамед хан (1652-1656);18. Наджафгулу хан (1656-1663);19. Аббасгулухан Гаджар (1663-1666);20. Сефигулу хан (1666-1674);21. Сархан бек (1674-1675);22. Сефигулу хан (1675-1679);23. Зал хан (1679-1688);24. Муртузагулу хан (1688-1691);25. Мухаммедгулу хан (1691-1694);26. Фарзали хан Гаджар (1694-1700);27. Зохраб хан (1700-1705);28. Абдуль Мухаммедхан (1705-1709);29. Мехрали хан (1709-1719);30. Аллахгулу хан (1719-1725);31. Раджаб Паша (1725-1728);32. Ибрагим Паша и Мустафа Паша (1728-1734);33. Али Паша дефтердар (1734);34. Мухаммедгулу хан (1735-1736);35. Гаджи Гусейн Паша (1735)36. Пирмехметхан (1736);37. Халил хан Узбек (1752-1755);38. Гасанали хан Гаджар (1755-1762);39. Гусейнали хан Гаджар (1762-1783);40.

Гуламали хан Гаджар (1783-1784);41. Мухаммедхан Гаджар (1784-1805);42. Мехтигулу хан Гаджар (1805-1806);43. Ахмед хан Марагалы (1806-1807);44. Гусейн хан Гаджар (1807-1827).

Еще в начале XIX века Ireванское ханство состояло из следующих 15 уездов: Гырхбулаг, Зангибасар, Гарнибасар, Ведибасар, Шарур, Сурмели, Дерекенд-Парчанис, Саадли, Талин,Сеидли-Ахсаглы, Сардарабад, Кёрпюбасар, Абаран, Деречичек, Гёкча. Из-за оккупации в 1828 г. Иреванского ханства Россией, на землях древнего Азербайджана была создана «Армянская область», что послужило в течении последних столетий, причиной негаснущего очага трагических событий нашей истории.

Иреван стал стратегически важным пунктом на юге российской империи. Появилась острая необходимость в образовательных учреждениях, которые служили бы только интересам России: внедрять русский язык, русскую культуру и православие коренному населению. Необходимо было оперативно решать создание хорошо подготовленные, именно местные кадры, так как местное население не говорило на русском языке, была ситуация полного непонимания. Для этого нужны были новые светские образовательные учреждения, таковыми стали не только Иреванская, но и Горийская учительские семинарии. Но, при этом они оказали существенное влияние на распространение просвещения на Южном Кавказе. Выпускники семинарии внесли большой вклад в формирование общественно-гуманитарной мысли не только в Иреване и Тифлисе, но и на всем Кавказе.

Создание новой школьной системы в Иреване относится именно к 30-м годам XIX века, где была основана первая светская двухклассная казенная школа, позже преобразована в трехклассную казенную школу, а в 1869 году она была переформирована в четырехклассную прогимназию. И только в ноябре 1881 года начала свою работу Иреванская учитель-

ская семинария с 9 учителями и 42 учениками. При семинарии действовал пансион. Вначале принимались только православные юноши, а затем стали разрешать мусульманам учиться в семинарии наравне с православными.

Учеников обучали русскому языку, математике, теологии, истории, географии, физике, естественным наукам, пению, каллиграфии, живописи и черчению. Изучив русский язык, русские традиции, историю и географию, азербайджанские дети могли продолжать обучение вместе с детьми христиан. Детей, не владеющих русским языком, принимали в младшие подготовительные классы. Со дня открытия семинарии, первым педагогом - азербайджанцем, преподававшим в Иреванской учительской семинарии, был выдающийся азербайджанский просветитель и педагог ахунд Мамедбагир Газизаде, который преподавал теологию и азербайджанский язык и сыграл особую роль в подготовке учителей для азербайджанских школ в семинарии. С 1892 года, по рекомендации своего учителя ахунда Мамедбагира Газизаде, Мирза Рагим Халилов. был назначен учителем. В семинарии преподавали и Ахунд Мамедбагир Кязимзаде, Мирза Мамедвели Гамерли, Рашид бек Шахтахтинский, Гамид бек Шахтахтинский, Джафар бек Джафарбеков, Мамед Ахундов, Ахунд Мамедбагир Тагизаде, Мирза Джаббар Магомедзаде, которые с огромной любовью и высоким профессионализмом преподавали в семинарии шариат, азербайджанский язык. Примечательным было то, что выпускники - азербайджанская молодежь, с огромным вдохновением начинали свою педагогическую деятельность, передовая свет науки в азербайджанские села, в начальных школах. Именно выпускники семинарии, стали инициаторами создания первых учебников на азербайджанском языке, публиковались статьи, как на русском, так и на азербайджанском языках, занимались литературной деятельностью. Они стали ядром новой интеллигенции, которая стала во главе общественно-педагогического движения не

только Западного Азербайджана, Среди них Джалил Мирзоев, Таги бек Сафиев, Мамед бек Газиев, Ибадулла бек Муганлинский, Джаббар Мамедов, Шамдан Махмудбеков и др. В Иреванской семинарии получили образование около 500 азербайджанцев. Но, к большому сожалению, факт остаётся фактом, что в 1918 году из-за этнических чисток, совершенных армянскими варварами против коренных азербайджанцев, семинария прекратила свою деятельность. Часть преподавателей и студентов была жестоко убита, а другие нашли убежище, как в Турции, так и в Азербайджане.

Но, потомки славных представителей выпускников Иреванской учительской семинарии и, питомцы, которым они преподавали, вернули долг армянским правнукам кровавых событий 1918 года, а также сыновьям и внукам армянских оккупантов Карабаха во время нашей исторической освободительной победы за 44 дня под «Железным кулаком» азербайджанского народа, под командованием Верховного Главнокомандующего, героя – освободителя, живой легенды 21 века – Ильхама Алиева!

Враг должен помнить – «Кто к нам с мечом придёт, тот от меча и погибнет» -Александр Невский, и об этом никогда не забывать!!!

## Литература


1. Сайт Президента Азербайджанской Республики - https://president.az/
2 Х.Вердиева, Р. Гусейн-заде. История Азербайджана Т-1., Баку, 1960.
3. Х.Вердиева, Р. Гусейн-заде. История Азербайджана Т-2, Баку, 1960.
4, Х.Вердиева, Р. Гусейн-заде. История Азербайджана Т-3, Баку, 1960.
5. Энциклопедический словарь Брокгауза и Ефрона. «Эривань».

# ВЫДАЮЩИЙСЯ УЧЕНИК ГОРИЙСКОЙ УЧИТЕЛЬСКОЙ СЕМИНАРИИ – НАРИМАН НАРИМАНОВ!


***Нубар Мухтар кызы Мухтарова***
***БГУ, проф.кафедры «Педагогики»***


Если проведём экскурс в историю Закавказской (Горийской) 4-летней учительской семинарии, то узнаем, что семинария функционировала с 1876 по 1917 гг., готовила кадры учителей. В семинарии, процессом образования и воспитания занимались прогрессивно настроенные для своего времени педагоги, которые преподавали европейские языки, географию, арифметику и другие предметы. Особое место уделялось изучению русского языка и литературы, а так же произведения классиков мировой литературы. Первыми выпускниками азербайджанского отделения семинарии в 1881 году, ставшие в недалёком будущем цветом азербайджанской политической и интеллектуальной элиты - Сафарали бек Велибеков из Шуши, Теймур Байрамалибеков из Ленкорани и Мирза Халилов из Нахичевани. Сафарали бек Велибеков как специалист высшей категории после отличного завершения обучения был оставлен в семинарии, как преподаватель азербайджанского языка.

По инициативе Мирзаы Фатали́ Аху́ндова — азербайджанского писателя, поэта, философа-материалиста и общественного деятеля, члена Российского императорского географического общества; зачинателя азербайджанской драматургии, а так же основоположника литературной критики в азербайджанской литературе, которого называли «мусульманским Мольером» и муфтия Гаибзаде, в 1879 году было открыто азербайджанское отделение, пользовалось авторитетом на уровне с русским, грузинским и армянским отделениями. Интересно знать, что создание первого фундаментально-

го азербайджанского учебника «Вэтэн дили» («Родное слово») связано с Закавказской учительской семинарией. Первая часть для учеников первых классов была составлена А. Черняевским в 1881 году. А вторая часть для учеников вторых и третьих классов была составлена и издана в 1888 году А. Черняевским совместно с Сафарали беком Велибековым.

Горийская специализированная учительская семинария была специальным учебным заведением, которое сыграла исключительную роль в деле образования и воспитания целой плеяды азербайджанской интеллигенции, ставшей авангардом небывалого культурного пласта начала XX века, которая распространяла прогрессивные веяния и в культуру. Именно выпускники семинария применяли новые научные методы, формировали новую прогрессивную общественную мысль. К ним относился и Нарима́н Кербалаи Наджа́ф оглы́ Нарима́нов. - один из выдающихся общественных и государственных деятелей Азербайджана, просветитель и врач, вступивший на стезю профессионального революционера, член Бакинской городской думы, родился 14 апреля 1870 году в г.Тифлисе в азербайджанской семье со среднем материальным достатком, что позволило родителям отдать сына в Горийскую учительскую семинарию, которую он успешно окончил. Нариман Нариманов был талантливым и трудолюбивым юношей, за отличные показатели в учёбе, при поддержку миллионера-мецената Зейналабдина Тагиева поступил в престижный Императорский Новороссийский университет (ныне «Одесский университет»). Но, несовпадение взглядов по определённым революционным вопросам, студенту Нариману пришлось самому отказаться от материальной помощи и, в дальнейшем обучение оплачивал сам. В 1908 году успешно окончил и получил высшее медицинское образование, долгое время работал врачом не только в городе Баку. Всю свою жизнь посвятил служению народу, идеи просветительства и гуманизма. Постоянно искал пути выхо-

да из тяжелого положения, в котором оказался его народ в те годы. Главной его мечтой было просвещение азербайджанского народа, которую он всегда старался претворять в действительность.

Предлагаем вашему вниманию несколько примеров из жизни Нариман Нариманова, этой многогранной, но при всех своих заблуждениях цельной личности, которые и Вам дадут пищу для размышления:

- Участвовал в создании национальной публичной библиотеки-читальни, самолично собирал комплекты газет, а также произведения выдающихся поэтов и писателей. Его радости не было границ, когда в 1894 году в Баку открылась первая в Азербайджане общедоступная библиотека-читальня с литературой на родном азербайджанском языке, вход для бедняков был бесплатным и, в последствии превратилась в просветительский центр для мусульманского населения всего Кавказа. Он стал признанным и активным членом среди творческой интеллигенции Азербайджана.
- Нариман Нариманов занимался также писательской деятельностью, он автор первой в истории азербайджанской литературы исторической трагедии «Надир-шах» (1899). Долгое время царские власти препятствовали постановке трагедии и она была поставлена на азербайджанской сцене лишь после первой русской революции, написал так же роман "Бахадур и Сона".
- В 1899 году, Нариман Нариманов впервые издал сразу два учебника: «Краткую грамматику тюркско-азербайджанского языка» и «Самоучитель русского языка». Горел желанием, чтобы обучение велось на родном языке, но эта идея не нашла широкой поддержке.
- В повести «Пир», Нариманов выступает против религии, бичует фанатизм и разоблачает духовенство царской России. Так же является автором нескольких учебных пособий и переводов на азербайджанский язык ряда произве-

дений иностранных авторов.

- В этом же духе Нариман Наримановым написана и другая повесть «Наданлыг» («Невежество). В 1915 году был опубликован его рассказ «Приключения одного селения».
- Перевел пьесу Гоголя "Ревизор" и сам, с большим успехом, Нариман Нариманов сыграл в ней городничего, а затем написал и собственную пьесу "Беда от языка" и, с успехом поставил ее в Тагиевском театре. Нариман Нариманов сыграл роль Наджаф-бека в "Разоренном гнезде" Ахвердова, а так же поставил и сыграл главную роль в комедии Тургенева «Холостяк».
- Многогранная деятельность Нариманова, была направленна на развитие культуры и просвещения азербайджанского народа, что не нравилась и армянским националистам и, другим врагам, пробравшимся в первое Азербайджанское демократическое правительство. Они всячески пытались отстранить Нариманова от активного участия в общественной и государственной службы, оклеветав и скомпрометировав его, добились высылки из Азербайджана на 5 лет в Астрахань.
- Находясь 1912-ом году в Астрахани, патриот Нариманов соприкасаясь с большими трудностями, всегда пропагандировал и азербайджанскую культуру. Создав первый в истории города Астрахани мусульманский театр, стал и его режиссером и, исполнителем многих мужских ролей.
- После Октябрьской революции 1917 года революционер Нариман Нариманов становится председателем азербайджанской социал-демократической организации «Гуммет» и борется за утверждение Советской власти в Закавказье.
- В 1920 году в Азербайджане была установлена советская власть, Нариман Нариманов, принявший активное участие в создании нового правительства, стал одним из его руководителей. С одной стороны, на Нариманове лежал груз политической ответственности, за молчаливое соглаша-

тельство при раздаче азербайджанских территорий в угоду центру (но следует отметить особую роль Нариман Нариманова в предотвращении отсоединения Карабаха). С другой стороны, он вступил в острую политическую борьбу за защиту азербайджанских интересов, что центру очень не понравилось…

- Нариман Нариманов высоко ценил национально – духовные ценности своего народа, выступал с речью в мечетях, решительно протестуя против преследований верующих.
- По инициативе Нариман Нариманова и его поддержке была открыта первая на Востоке Азербайджанская Государственная Консерватория, что большим вкладом в азербайджанскую культуру и искусство.
- Накануне создания независимого азербайджанского государства, несмотря на то, что Османская империя сама была на грани развала, на помощь братьям азербайджанцам была отправлена армия под командованием опытного командира Нуру Паши. В составе турецкого контингента воевала более 5000 турецких солдат, 1137 из них пали шахидами за независимость Азербайджана.
- Турецкий народ под руководством Мустафа Кемаля вел освободительную войну в очень тяжелых условиях. Захватившие и поделившие между собой территории бывшей Османской империи государства-оккупанты ждали капитуляции турецкого народа. В 1920 году Турция переживала свои самые трудные времена, Мустафа Кемаль Ататюрк искал пути выхода из сложившейся ситуации. Выход из положения он видел в обращении к братскому Азербайджану и, были установлены первые официальные отношения между Азербайджанским и Турецким правительствами. По просьбе Ататюрка Азербайджанское государство оказало помощь Турции. Именно с этого времени между Нариман Наримановым и Ататюрком установились дружеские и братские отношения. До 1922-го года Азер-

байджан отправил Турции более 9 тыс. тон керосина, 350 тон бензина, Нариманов приказал отправить в Турцию 10 млн. золотых рублей. Он радовался каждой победе Турции, писал Ататюрку поздравительные письма, заверяя его в том, что всегда будет готов оказать помощь. После чего Ататюрк лично написал письмо Нариманову с просьбой о дополнительной помощи, которая была срочно оказана. Прошло время, Турция окрепла и заявила о том, что готова начать выплату долга. На что Нариман Нариманов написал Мустафа Кемаль Ататюрку: "*У нас брат брату дарит, а не одалживает. Брат всегда протянет брату руку помощи. Как братья, мы всегда помогали вам и будем помогать в будущем*".

*Прошло 100 лет и, мы живые свидетели, видели и чувствовали как во время 44 дневной освободительной войне турецкий народ и его правительство всегда и во всём нас поддерживало и поддерживает.*

Выдающий общественный и государственный деятель Нариман Нариманов, за свое титаническое трудолюбие, широкий кругозор, знание нескольких языков, всё это дали ему возможность занимать самые высокие посты как в Азербайджане, так и на территории СССР. 1920 году Нариман Нариманов был назначен председателем Азербайджанского революционного комитета (Азревкома), а вскоре после этого - председателем Совета Народных Комиссаров (Совнаркома) Азербайджанской Советской Республики. В апреле и мае 1922 года он участвовал в Генуэзской конференции в составе советской делегации. В 1922 году он был избран председателем Союзного Совета Закавказской Федерации . 30 декабря 1922 года первая сессия ЦИК СССР избрала Нариманова одним из четырех председателей ЦИК СССР, фактически совместно с Лениным руководил советским союзом, всё это очень тревожило наших нерадивых соседей еще и в те далёкие времена.

Достойный сын азербайджанского народа Нариман Нариманов скончался 19 марта 1925 года, в Москве. В день его похорон на два дня во всех учреждениях, по всему Советскому Союзу был объявлен траур, его останки были кремированы, а прах был захоронен в Некрополе Кремлевской стены, он там единственный азербайджанец.

*Благодаря мудрой и справедливой политики Общенационального лидера Гейдара Алиева* только в 1972 году гордость азербайджанской нации Нариман Нариманова был полностью реабилитирован на своей родине. *Азербайджанский народ увековечил память и о выдающем Гражданине Наримане Нариманове. Один из районов города Баку носит его имя. В столице по указанию Общенационального лидера Гейдар Алиев, воздвигнут один из самых величественных памятников, памятник Нариману Нариманову А один из проспектов нашей столицы назван в его честь и много, много других мест названных в честь этой неординарной личности. По всему Азербайджану был торжественно проведён 100-летний юбилей, азербайджанский народ и сегодня помнит эту гениальную личность!*

*Помнят и чтут память о достойном Гражданине - Азербайджанце Наримане Нариманове не только на территории бывшего Советского Союза, но и далеко за его пределами.*

## Литература


1. Гейдар Алиев. Электронный сборник документов. - https://heydaraliyev.preslib.az/
2. Ахмедов Т. Нариман Нариманов. - Баку: Язычы, 1988.
3. Нариманов Н. Избранные произведения. - Баку: Азернешр, 1988. - Т. I.
4. Нариманов Н. Избранные произведения. - Баку: Азернешр, 1989. - Т. II.

# İRƏVAN MÜƏLLIMLƏR SEMİNARİYASININ MƏZUNLARININ MAARİFÇİLİK FƏALİYYƏTİNİN İSTİQAMƏTLƏRİ

***Hikmət Əbdül oğlu Əlizadə***
***BDU, Pedaqogika kafedrasının professoru***

XIX əsrin əvvəllərində bütün Qafqazda dünyəvi fənlər tədris edən məktəblər yox dərəcəsində idi. Təlim müəssisəsi kimi dini məktəblər fəaliyyət göstərirdi. Azərbaycanlılar əsasən məscidlərin nəzdində mollaxanalar və mədrəsələrdə təhsil alırdılar. Amma mollaxana və mədrəsələr xalqımızın təhsilə olan təlabatını və mədəni yüksəlişini təmin edə bilmirdi.

1829-cu il avqustun 2-də Rusiya Maarif Nazirliyi "Zaqafqaziya məktəblərinin vəziyyəti haqqında" qərar qəbul etdi. Rusiya İmperiyasının Zaqafqaziyada dünyəvi təhsil verən məktəblər açmaqda məqsədi bölgələrdə öz mövqelərini möhkəmləndirmək üçün dayaq nöqtələri yaratmaq və yerli əhali arasından hazırlayacağı kadrlardan öz siyasətini həyata keçirmək üçün istifadə etmək olmuşdu. Qeyd olunan qərara əsasən Qafqazda qəza məktəblərinin yaranması nəzərdə tutulurdu. Qəza məktəblərində tədris yeni üsullarla həyata keçirilirdi. Qafqazda həyata keçirilən bu yenilik İrəvanda yaşayan mütərəqqipərvər Azərbaycanlı ziyalılar tərəfindən yüksək qiymətləndirildi və onlar İrəvan ərazisində də təhsil müəssisələrinin açılması uğrunda mübarizə aparmağa başladılar. Bu fəaliyyətin nəticəsi kimi 1832-ci ildə İrəvanda ilk iki sinifli qəza məktəbi açıldı. İki sinifli qəza məktəbi 1839-cu ildə üç sinifli qəza məktəbinə, 1869-cu 4 sinifli progimnaziyaya, 1881-ci ildə isə 5 sinifli gimnaziyaya çevrildi. Lakin bu məktəblərdə dərs deyən yerli kadrlar yox dərəcəsində idi. Həmin dövrdə mövcud olan “Müəllimlər seminariyaları haqqında əsasnamə”yə görə müsəlmanlar seminariyalarda təhsil ala bilməzdilər. 1875-ci ildə “Müəllimlər seminariyaları haqqında” yeni təlimat hazırlandı. Bu təlimatda Müəllimlər seminariyalarının ilk əsasnamələrindən fərqli olaraq müsəlmanların da təhsil almasına icazə verildi. Təlimatın

hazırlanmasında beş il sonra, 1880-ci ildə Rusiya İmperiyasının Dövlət Şurasının 20 oktyabr tarixli qərarına əsasən İrəvan Müəllimlər Seminariyası yaradıldı. Müsəlmanların seminariyalarda təhsil alması Qafqazda maarifçilik hərəkatının güclənməsinə təkan verdi. Bu təhsil ocağı 1918-ci ilə qədər fəaliyyət göstərmişdi.

Seminariyada bütün Qafqazda yaşayan müxtəlif millətlərin uşaqları (rus, azərbaycanlı, erməni, gürcü və s.) təhsil alırdılar. İrəvan müəllimlər seminariyasında rus dili, riyaziyyat, coğrafiya, idman, musiqi kimi fənnlərlə yanaşı Azərbaycan dili fənni və şəriət dərsləri də tədris edilirdi. Azərbaycan dili fənninin və şəriət dərslərinin tədris edilməsinin səbəbi kimi seminariyanın xalqımızın qədim torpaqları olan İrəvan quberniyasında yaradılması idi. Bu quberniyada yaşayan insanların əksəriyyəti azərbaycanlılar idi. Maraqlıdır ki, İrəvan müəllimlər seminariyasında müxtəlif şəhərlərdən gəlmiş azərbaycanlılar (Bakı, Naxçıvan, Dağıstan, Tiflis və s.) da təhsil alırdılar.

İrəvan müəllimlər seminariyasında Azərbaycan dili fənnini və şəriət dərslərini Axund Məmməd Bağır Qazızadə tədris edirdi. O, həm də seminariyada Azərbaycan bölməsinə rəhbərlik edirdi. Axund Məmməd Bağır Qazızadə ilə yanaşı müxtəlif illərdə İrəvan Müəllimlər Seminariyasında Rəşid bəy Şaxtaxtinski, Həmid bəy Şahtaxtinski, Mirzə Cabbar Məmmədzadə Azərbaycan dili müəllimi kimi fəaliyyət göstərmişlər.

Tədqiqatlar maraqlı bir faktı aşkar etmişdi. 1906-cı ildə Cəlil Məmmədquluzadə İrəvan müəllimlər seminariyasında qabaqcıl azərbaycanlı ziyalılarla, müəllim və tələbələrlə görüş keçirmişdi. Bu görüş İrəvanda maarifçilik hərəkatına təkan verməklə yanaşı, "Molla Nəsrəddin" jurnalının və digər mətbu orqanların İrəvanda yayılmasında böyük rol oynamışdır.

Tarix göstərdi ki, İrəvan müəllimlər seminariyasının tələbələri təhsillərini başa vurduqdan sonra azərbaycanlılar yaşayan ərazilərdə maarifçilik fəaliyyəti ilə məşğul olmuş, əhalinin mədəni səviyyəsinin yüksəlməsində nəhayətsiz dərəcədə böyük işlər görmüşlər. Onların gördüyü işləri beş istiqamətdə mənalandıra bilərik:

I - Məzunların bir qrupu (Məmməd Axundov, İbadullah bəy Muğanlinski, Məmməd Vəli Qəmərlinski, Cəfər Kərimov və başqaları) İrəvanda xalqımızın mədəni yüksəlişi yolunda həyatlarını və maddi imkanlarını da bu taleyüklü məsələnin reallaşmasına yönəltmişlər. Onların fəaliyyəti həm yeni məktəblərin açılması, həm də gənc nəslin təhsilə cəlb edilməsi baxımından əlamətdar olmuşdu.

II - Məzunların bir qismi yeni məktəblər açmağa nail olmuşlar:

-Cəfərbəy Cəfərbəyov İrəvanda III dərəcəli xüsusi məktəb açmış və açdığı pansionata rəhbərlik etmişdir.

-Əsgər Axundov İrəvanda III dərəcəli 1 sinifli pansionlu məktəb açmağa nail olmuşdur.

III - Məzunların bir qismi kənd məktəblərində müdir kimi çalışmışlar:

Vedili Şəmdin bəy Mahmudbəyov 1903-cü ildən 1917-ci ilə kimi Uluxanlı kənd məktəbinin, Şıxəli bəy Firudinbəyov Qəmərli kənd məktəbinin, Yusif Babayev Dvin-Aysor kənd məktəbinin, Mirzə Cabbar Məmmədov Göyməsçid kənd məktəbinin, İbadullah bəy Muğanlinski Dərəçiçək kənd məktəbinin müdirləri olmuşlar.

IV – Seminariyanın bir çox məzunu məktəblərdə öz fəaliyyətlərini müəllim kimi (İlya bəy Mahmudbəyov, Əhməd Haşimov Çobankərə kəndində, Şıxəli bəy Firudinbəyov, Cəlil Məmməd oğlu Mirzəyev, Mirzə Məhəmməd Axundov Qəmərli kəndində, Həsənbəy Axund Molla Xəlil bəy oğlu Qaziyev, Axund Məmməd Bağır Qazızadə İrəvanda, Məmməd bəy Lütvəli bəy oğlu Qaziyev Uluxanlıda, Fərəməz bəy Mahmudbəyov Böyük Vedidə, Cəfər Kərimov Şərurda, Tağı bəy Səfiyev də uzun müddət Naxçıvanın Nehrəm kəndində, Həsən Səfərli "Rüşdiyyə" məktəbində) şagirdlərə bilik və bacarıqlar aşılamağa sərf etmişlər.

V - Rus dili və riyaziyyat müəllimi olan Həsən Səfərli müəllimlik fəaliyyəti ilə yanaşı, 1919-cu ildə Naxçıvanda kimsəsiz uşaqlar evinin müdiri işləmişdi. O hətta 1965-ci ildə Əməkdar müəllim fəxri adına layiq görülmüşdü.

İrəvan müəllimlər seminariyası fəaliyyət göstərdiyi müddətdə qarşısına qoyulan məqsədləri yerinə yetirə bilmişdir. Məktəbin yetirmələri gənc nəslin təlim-tərbiyəsi işi ilə böyük həvəslə məşğul olmuşlar. Lakin məzunlarının təkçə maarifçilik fəaliyyəti ilə məşğul olduğunu demək düzgün olmazdı. Onların fəaliyyəti həm də Azərbaycan xalqının ictimai şüurunun və mədəni səviyyəsinin yüksəlməsi baxımından mühim əhəmiyyət kəsb etmişdi.

**Ədəbiyyat**


1. Rüstəmov F. Milli müəllim kadrları hazırlayan təhsil ocağı. Azərbaycan müəllimi qəzeti, 07 yanvar 2022.
2. Cəbrayılov İ. Seminariyanın Azərbaycan təhsilinə verdiyi töhfələr. Azərbaycan müəllimi qəzeti, 22 aprel 2022.


## İRƏVAN MİLLİ MAARİFÇİLİK MÜHİTİ VƏ TƏDRİS MÜƏSSİSƏLƏRİ


***Rüfət Lətif oğlu Hüseynzadə***
***Pedaqoji elmlər doktoru, professor, Əməkdar müəllim.***
***prof.rufat@mail.ru***


1881-ci ildə İrəvanda 3 böyük tədris müəssisəsi – İrəvan Kişi Gimnaziyası, İrəvan Müəllimlər Seminariyası və İrəvan qız progimnaziyası açılmışdır.

İrəvan Kişi Gimnaziyası 4 illik olmuş, müxtəlif peşələr üzrə ixtisaslı kadrlar hazırlamışdır. Gimnaziyanın ilk direktoru Vladimir İosifoviç Brajnikov, Azərbaycan şöbəsinin müdiri isə İsmayıl bəy Şəfibəyov olmuşdur. İrəvan Kişi Gimnaziyasının müəllimlərindən aşağıdakıların adlarını çəkə bilərik: Mirzə Ələkbər Elxanaov - 1856-1885-ci illərdə ana dili və şəriət müəllimi, Molla Tağı Mahmud oğlu – 1836-1856-cı illərdə ana dili və şəriət müəllimi, Firudin bəy Köçərli - 1850-1895-ci illərdə ana dili, hüsnxət və şəriət müəllimi olmuşdur. Həmçinin İsmayıl bəy Şəfibəyov, Rəhim

Xəlilov, Mirzə Məmmədvəli Qəmərlinski, Axund Məmmədbağır Tağızadə və başqaları bu gimnaziyada dərs demişlər.

İrəvan Kişi Gimnaziyasının aşağıdakı məzunlarından bir neçəsinin adını da qeyd edə bilərik:

Mustafa bəy Topçubaşov (1895-1981)- İrəvan Kişi Gimnaziyasını sonuncu qızıl medalçısı olmuşdur. O sonralar Kiyev universitetinin tibb fakültəsində təhsil almış, görkəmli cərrah, ictimai və dövlət xadimi, akademik olmuşdur.

Əziz Əliyev (1897-1962)- elm və dövlət xadimi. İrəvan Kişi Gimnaziyasını 1917-ci ildə fərqlənmə diplomu ilə bitirmiş, Hacı Zeynalabdin Tağıyevin maliyyə yardımı ilə Sankt-Peterburq Hərbi Tibb Akademiyasında təhsil almış, Səhiyyənin, təhsilin müxtəlif sahələrində, dövlət işlərində yüksək vəzifələrdə çalışmış, 1929–1932-ci illərdə Azərbaycan Klinik İnstitutunun rektoru, Azərbaycan Dövlət Tibb İnstitutunun rektoru, 1937-ci ildə Azərbaycan Dövlət Universitetinin rektoru olmuş, professor, "Əməkdar həkim", ictimai və dövlət xadimi olmuşdur.

Əhməd Rəcəbli (1898-1963) 1907-ci ildə Gimnaziyaya daxil olmuş və 1916-cı ildə oranı gümüş medalla bitirmişdir. 1919-cu ildə AXC hökuməti Ə. Rəcəblinin İtaliyaya oxumağa göndərmiş, qayıtdıqdan sonra Moskva Universitetində dərs demişdir. Azərbaycan Kənd Təsərrüfatı Elmlər Akademiyasının akademiki, bitkiçilik bölməsinin akademik katibi olmuşdur.

Heydər Hüseynov (1908-1950) – Şərqşünas alim olaraq müxtəlif elm sahələrində, dövlət işlərində, yüksək vəzifələrdə çalışmışdır.

Mehdi Kazımov - (1890-1954), Miryusif Mirbabayev (1889-1951), Səid Rüstəmov (1907-1983) və daha başqa görkəmli tanınmış şəxsiyyətlər İrəvan Kişi Gimanziyasını bitirmişlər.

1881-ci il, 8 noyabrda İrəvan şəhərində İrəvan Müəllimlər Seminariyası açılmışdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 29 dekabr 2021-ci il tarixində imzaladığı "İrəvan Müəllimlər Seminariyasının 140 illiyinin qeyd edilməsi haqqında" Sərəncamı mühüm

elmi, pedaqoji, siyasi və tarixi əhəmiyyət kəsb edir. Sərəncamda deyilir: "Biz tarixi torpaqlarımızı da unutmamalıyıq və unutmuruq. Bu, gələcək fəaliyyətimiz üçün istiqamət olmalıdır, necə ki, biz bu gün də bu istiqamətdə iş görürük. Bizim tarixi torpaqlarımız İrəvan xanlığıdır, Zəngəzur, Göyçə mahallarıdır. Bunu gənc nəsil də, dünya da bilməlidir. Mən şadam ki, bu məsələ ilə bağlı - bizim əzəli torpaqlarımızın tarixi ilə bağlı indi sanballı elmi əsərlər yaradılır, filmlər çəkilir, sərgilər təşkil olunur. Biz növbəti illərdə bu istiqamətdə daha fəal olmalıyıq və dünyanın müxtəlif yerlərində sərgilər, təqdimatlar keçirilməlidir. Çünki İrəvan bizim tarixi torpağımızdır və biz azərbaycanlılar bu tarixi torpaqlara qayıtmalıyıq. Bu, bizim siyasi və strateji hədəfimizdir və biz tədricən bu hədəfə yaxınlaşmalıyıq" (1). Bu sərəncam İrəvan mahalında azərbaycanlıların min illər boyu yaşayıb-yaratdığı tarixi-mədəni irsə sahib çıxmağa çağırış, qan yaddaşımızı oyatmağa yönələn mühüm tarixi bir sərəncamdır.

37 il fəaliyyət göstərən bu təhsil ocağı 1918-ci ilin 6 avqustunda bağlanmışdır. Seminariyanın Azərbaycan bölümünün rəhbəri Axund Məmmədbağır Qazızadə olmuşdur. Seminariyanın fəaliyyətində **Firudin bəy Köçərli, İsmayıl bəy Şəfibəyov, C.Ələkbərbəyov, Cəlil Məmmədquluzadə, M.Terequlov** və başqalarının böyük xidmətləri olmuşdur. İrəvan Müəllimlər Seminariaysının Azərbaycan şöbəsinin müxtəlif vaxtlarda direktorları Məmmədbağır Qazızadə, Rəşid Bəy Şahtaxtinski, Həmid Bəy Şahtaxtinski, Cəfər Bəy Cəfərbəyov olmuşdur:

Xalqımızın bir sıra tanınmış nümayəndələri, maarif xadimləri - Həbib bəy Səlimov, Haşım bəy Nərimanbəyov, Nəcəf bəy Vəzirov, Haşım bəy Vəzirov, Tağı bəy Səfiyev, Mirzə Abbas Məhəmmədzadə, Cabbar Məhəmmədzadə, Hüseynəli bəy Rüstəmov, Vahid Musabəyov, Fərrux Ağakişibəyov, İbadulla Muğanlinski, Ş.Mahmudbəyov, C.Məmmədov, Tağı bəy Şəfibəyov, Mirzə Cəlil Şürbi, Eynəli bəy Sultanov, Sadıq Xəlilov, Vahid Musabəyov, Fərrux Ağakişibəyov, İbrahim Səfiyev, Məmmədqulubəy Kəngərli, Rəhim Xəlilov, Axund Məmmədbağır Kazımzadə, Məm-

məd Axundov, Hacı Məmmədəli oğlu, Məmmədbəy Qazıyev, Qasım bəy Camalbəyov və İrəvan Müəllimlər Seminariyasından məzun olmuşlar.

1824-1949-cu illərdə fəaliyyət göstərmiş İrəvan Pedaqoji Məktəbi pedaqoji kadr hazırlığında mühüm xidmətləri olmuşdur. "İstiqalal" ordenli, Əməkdar müəllim, dosent **Lətif Hüseynzadə** 1930 -cu ildə Azərbaycan Dövlət Universitetinin Şərqşünaslıq fakültəsindən məzun olaraq təyinatla İrəvan Pedaqoji Məktəbinə Azərbaycan dili və ədəbiyyat müəllimi kimi göndərilmişdir. Lətif Hüseynzadə daha sonralar İrəvan Pedaqoji İnstitunun Azərbaycan şöbəsində dərs demiş, pedaqoji kadrların hazırlığında xidmətlər göstərmiş və İrəvan yazıçı və şairlərinin ədəbi orqanı olan "Ədəbi Ermənistan" almanaxının redaktoru vəzifəsində də çalışmışdır.

İrəvan Pedaqoji Məktəbinin məzunları olmuş sonralar yüksək elmi dərəcələrə nail olmuş, uzun illər elm və təhsil sahəsində çalışmış, **akademik Budaq Budaqov, akademik Zərifə Budaqova, prof. Əli Fərəcov, prof. Yusif Yusifov, prof. Cəfər Cəfərov, prof. Süleyman Məmmədov, prof. Nəriman Əliyev, prof. Fərhad Fərhadov, prof. Qasım Mustafayev, prof. Tapdıq Əmiraslanov, Əməkdar müəllim, filologiya üzrə fəlsəfə doktoru, dosent Nəcəf Nəcəfov, ictimai xadim Qəşəm Aslanov, dosent Zəhra Əliyeva və ADPU-nun professoru olmuş Kövsər Tarıverdieva** və başqaları da bu məktəbin fəal məzunları olmuş, xalqımızın fədakar, peşəkar müəllimləri, elm adamları, ictimai xadimləri kimi xalqa, vətənə ləyaqətlə xidmət etmişlər. Azərbaycanın bir çox görkəmli ziyalıları – **akademik Yusif Məmmədəliyev, Ələşrəf Bayramov, Cəlil Məmmədquluzadə, Əli Nazim, Mir Cəlal Paşayev, Səməd Vurğun, Mikayıl Rəfili, Yusif Məmmədəliyev** və başqaları bu pedaqoji məktəbdə olmuş, tələbələrlə görüşmüş, müəyyən dövrlərdə dərs də demişlər (2, 25).

1925-ci ildə İrəvanda iki illik müəllimlər kursu, 1936-cı ildə İrəvan Dövlət Qiyabi Pedaqoji İnstitutu, 1937-ci ildə iki illik Müəllimlər İnstitutu, 1945-1988-ci illərdə İrəvan Pedaqoji İnstitutunun Azərbaycan şöbəsi fəaliyyət göstərmişdir.

İrəvan Pedaqoji İnstitunda dos. Əkbər Yerevanlı, dos. Lətif Hüseynzadə, dos. Əli Dalqılıcov, dos. Fərrux Rzayev, dos. İsrafil Məmmədov, dos. Mehdixan İrəvanski, dos. Hüseyn İsmayılov, dos. Məhərrəm Hüseynov, dos. Vilayət Əliyev, prof. Fərhad Fərhadov, prof. Rəhim Allahverdiyev, prof. Həmid Əliyev, prof. Mirəli Seyidov, Adil Süleymanov, Sabir Əsədov, Arzuman Qəmbərov, Təvəkkül Kərimov kimi tanınmış pedaqoq alimlər dərs demişlər.

İrəvan pedaqoji İnstitutunda dərs demək üçün müxtəlif illərdə Bakıdan müəllimlər də dəvət olunmuşdur: Prof. İnayət Bektaşi, prof. Firudin Hüseynov, prof. Əkbər Bayramov, prof. Əhməd Seyidov, prof. Hüseyn Əhmədov, prof. Xalid Əlmirzəyev, prof. Cəfər Cəfərov, prof. Abbas Zamanov, prof. Mürsəl Həkmov, prof. Nizami Xudiyev, prof. Cəlil Nağıyev, Bəxtiyar Vahabzadə və başqalarının xalqa, millətə fədakar xidmətləri olmuşdur (3).

**Ədəbiyyat**


1. İlham Əliyev. "İrəvan Müəllimlər Seminariyasının 140 illiyinin qeyd edilməsihaqqında" Sərəncam. Bakı şəhəri, 29 dekabr 2021-ci il/https:/ /president.az/az/articles/view/55116.
2. Cəfərov C.Ə.,Allahverdiyev C.V. Təhsil tariximizdən: İrəvan pedaqoji məktəbi. Bakı: Orxan NPM, 2017.240 s.
3. Hüseynzadə R.L. Azərbaycan məktəb və pedaqoji fikir tarixi. Bakı: ADPU, 2021, 538 s.


## İRƏVAN MÜƏLLIMLƏR SEMİNARİYASI QORİ SEMİNARİYASININ XƏLƏFİ KİMİ


***Məcid Abdulla oğlu İsmixanov***
***BDU-nun Pedaqogika kafedrasının professoru***
***m.ismixanov@mail.ru***


Cənubi Qafqazda yeni təhsil sisteminin yaradılması XIX əsrin əvvəllərinə təsadüf edir. Yerli xalqları təsir altında saxlamaq, ruslaşdırma siyasətini həyata keçirmək, çarizmin hökmranlığını möhkəmlətmək məqsədilə təhsil sistemini yeni əsasda qurmaq,

mövcud olan dini məktəbləri yeni tipli məktəblərlə əvəz etmək istiqamətində geniş iş aparıldı: qəza məktəbləri, rus-tatar (müsəlman) məktəbləri, gimnaziyalar açıldı. Bu məktəblərdə işləmək üçün müəllim kadrları hazırlamaq məqsədilə müəllimlər seminariyaları yaradıldı. 1876-cı ildə Gürcüstanın Qori şəhərində, 1881-ci ildə İrəvan quberniyasında Müəllim Seminariyaları təsis edildi.

İrəvan Müəllimlər Seminariyasının pedaqoji heyətinin formalaşmasında əsasən, Qori Müəllimlər Seminariyasının məzunlarından istifadə edilmişdir. Orada təhsilin dünyəvi məzmunda, yeni prinsip və metodlarla təşkilində Qori Müəllimlər Seminariyasının, onun məzunlarının böyük rolu olmuşdur. Qori Müəllimlər Seminariyasının məzunlarının bir qismi İrəvan pedaqoji mühiti ilə sıx bağlı olmuş, habelə gimnaziya və pedaqoji texnikumunda çalışmış, onların fəaliyyətinə birbaşa və ya dolayısı ilə təsir göstərmişlər [7]. Bunu bir neçə nümunədə nəzərdən keçirək.

Görkəmli maarifçi-pedaqoq, ədəbiyyatşünas alim Firudin bəy Köçərli Qori Müəllimlər Seminariyasını bitirdikdən sonra İrəvan gimnaziyasına müəllim göndərilmişdi [1, s. 337]. Burada 10 il işlədikdən sonra o, məzunu olduğu Qori Müəllimlər Seminariyasına işə dəvət olunmuşdur. F.Köçərli müəllimlik etməklə yanaşı, tədrisin səmərəli təşkili üçün axtarışlar aparmış, sistematik olaraq nümunəvi açıq dərslər keçirmiş, ədəbi-bədii, pedaqoji mövzularda mətbuatda çıxışlar etmişdir. Mətbuatdakı çıxışlarında təhsilin problemləri, qadın təhsili, qız məktəblərinin açılması, ana dilində təlim, müəllim hazırlığı, yeni əlifba və digər məsələlər geniş yer tuturdu. Qori Müəllimlər Seminariyasında F.Köçərlinin müəllimi olmuş tanınmış pedaqoq K.D.Uşinskinin davamçısı A.O.Çernyayevski yazırdı: "Hazırda elə bir mətbu orqanı yoxdur ki, müəllim F.Köçərli orada xalqının ədəbiyyatı, tarixi haqqında çıxış etməsin... Ərəb əlifbası və onun nöqsanları ilə bağlı silsilə yazıları həm ziyalılar, həm də xalq arasında böyük marağa səbəb olub" [6, s. 225].

F.Köçərli Seminariyada işlədiyi müddətdə yeni tədris proqramları, dərslik və dərs vəsaitləri tərtib etmişdir. O, Azərbaycan dili proqramını yeni pedaqoji prinsip əsasında – sadədən mürək-

kəbə, asandan çətinə keçmək qaydasına uyğun qurmaqla mənimsəmə keyfiyyətini yüksəltməyə nail olmuşdur. Böyük pedaqoq-alimin tədris proqramı və dərslikləri, "Balalara hədiyyə" kitabı müəllim hazırlığı və gənc nəslin formalaşması baxımından mühüm əhəmiyyət kəsb edir.

Tanınmış maarif xadimi, yazıçı və alim Rəşid bəy Əfəndiyev 1900-1916-cı illərdə Qori Müəllimlər Seminariyasında ana dili və şəriət fənlərini tədris etmiş, Azərbaycan şöbəsində pedaqoji təcrübəyə rəhbərlik etmişdir. O, 1916-cı ildə İrəvan quberniyasında müsəlman məktəblərinin inspektoru vəzifəsində çalışmışdır. O, eyni zamanda məktəbləri savadlı müəllim kadrları ilə təmin etmək üçün 3 aylıq müəllim kursları təşkil etmiş, özü də burada dərs demişdir [1, s. 328]. 1917-ci ildə bu işi Naxçıvanda davam etdirmiş, sonralar Bakıda Müəllimlər Seminariyasına, Şəkidə darülmüəllimata rəhbərlik etmişdir.

R.Əfəndiyev, Qori Seminariyasının məzunu və tələbə həmkarı F.Köçərli kimi, çalışdığı təhsil müəssisələrində geniş yaradıcılıq fəaliyyəti göstərmiş, Azərbaycan məktəbləri üçün savadlı müəllim kadrları hazırlanmasına böyük əmək sərf etmişdir. O, müəllimlərin pedaqoji biliklərə, təlim metodlarına və ana dilinə mükəmməl yiyələnmələrinə xüsusi əhəmiyyət vermişdir. Onun fikrincə, ana dili biliklərə yiyələnməyin əsas vasitəsidir. K.D.Uşinskinin davamçısı kimi, R.Əfəndiyev Azərbaycan məktəbləri üçün "Uşaq bağçası" və "Uşaq aləmi" dərsliklərini və onlara rəhbərlikləri yazmış, bu zaman özünün və qabaqcıl məktəblərin təcrübəsinə istinad etmişdir. O, qızların təhsilinə, qadınların savadlanmasına, onlar üçün məktəblərin və təlim kurslarının açılmasına çalışmışdır. Bu məqsədlə "Qadın məsələsi" kitabında və digər bədii əsərlərində ("Qızılgül", "Qan ocağı", "Qonşu qonşu olsa, kor qız ərə gedər", "Oğul məhəbbəti", "Yol azmış uşaq", "Pul dəlisi və b.) gənclərə aşılanacaq müsbət mənəvi keyfiyyətlərə, eləcə də ənənəvi məktəbin nöqsanlarına, ailə tərbiyəsindəki mənfi hallara, onların tənqidinə geniş yer verilmişdir. R.Əfəndiyevin fikrincə, hər bir millətin səadəti və xoşbəxtliyi anaların təhsil və mədəni

səviyyəsindən asılıdır [6, s. 231-232].

Qori Müəllimlər Seminariyasının məzunlarından olan Cəlil Məmmədquluzadə Seminariyanı bitirdikdən sonra 1887-ci ilin sentyabr-oktyabr aylarında İrəvan Quberniyasının Uluxanlı kənd ibtidai məktəbində, sonralar isə Naxçıvanda Baş Noraşen, Nehrəm kənd məktəblərində müəllimlik etmişdir. C.Məmmədquluzadə istər müəllimlik fəaliyyətində, istərsə də jurnalistik və bədii yaradıcılığında mənsub olduğu xalqın maariflənməsi və mədəni tərəqqisi yollarında yorulmadan çalışmışdır [4]. O, xalqı avamlıq və cəhalətdən qurtarmağın əsas yolunu məktəbdə görürdü. "Danabaş kəndinin məktəbi" əsərində görkəmli maarifçi – pedaqoq bu məsələni ətraflı təsvir etmişdir. O, öz seminariyalı həmkarları kimi təlimin ana dilində aparılmasını, səlis və anlaşıqlı olmasını vacib saymış, "Anamın kitabı" əsərində bu məsələni daha təsirli və inandırıcı şəkildə təsvir etmişdir.

C.Məmmədquluzadə ərəb əlifbasından latın əlifbasına keçid uğrunda ardıcıl mübarizə aparmış, Yeni Türk Əlifbası Komitəsinin işində fəal iştirak etmiş, bu əlifba ilə nəşr olunan "Yeni yol" qəzetinin redaktoru olmuşdur. C.Məmmədquluzadə həm də təsis etdiyi "Molla Nəsrəddin" jurnalının səhifələrində müntəzəm olaraq təhsil, tərbiyə, dil, əlifba, müəllim, elm, mədəniyyət, qadın təhsili, ailə tərbiyəsi, mədəniyyət və incəsənət məsələlərinə dair çoxsaylı məqalə, felyeton, karikaturalar çap etdirmişdir. Böyük maarifçi-pedaqoq əməli pedaqoji fəaliyyətində də xalqın maariflənməsi, təlimin yeni əsaslarda qurulması məsələlərini daim diqqət mərkəzində saxlamışdır. O, çalışdığı Uluxanlı, Nehrəm kənd məktəblərində təlimin yeni pedaqoji prinsiplər əsasında qurulmasına, qızların təhsilə geniş cəlb edilməsinə böyük diqqət yetirmişdir. Məsələn, o, cəmi 26 nəfər şagirdlə qəbul etdiyi Nehrəm kənd məktəbində şagirdlərin sayını tezliklə 40 nəfərə çatdırmış, 8 nəfər yeni qız uşağını təhsilə cəlb edilmişdir. Bu Nehrəm kimi dindar bir kənddə böyük hadisə idi, həm də Azərbaycanda qadın təhsili sahəsində atılan ilk addımlardan biri olmuşdur [6, s. 241].

Qori Müəllimlər Seminariyasının yetirmələri içərisində böyük

Azərbaycan bəstəkarı, musiqişünas alim, pedaqoq, ictimai xadim Üzeyir Hacıbəyli mühüm yer tutur. 1904-cü ildə Seminariyanı bitirdikdən sonra Cəbrayıl qəzasının Hadrut kəndində müəllimliyə başlamış, geniş maarifçilik işi aparmışdır. O, təlim prosesini ənənəvi qaydada yox, yeni pedaqoji prinsiplər əsasında qurmuş, K.D.Uşinskinin və digər tanınmış pedaqoqların mütərəqqi ideyalarını yaradıcı tətbiq etməyə çalışmışdır. Təlimdə "Kəşf yolu ilə öyrənmə" ideyası onun adı ilə bağlıdır (Ə.Ə.Əlizadə, H.Ə.Əlizadə). Sonralar bu ideya Qərbdə, ABŞ-da xüsusi nəzəriyyə şəklində işlənməyə başlanmışdır [1, s. 294]. Böyük maarifçi-pedaqoq, dünya şöhrətli musiqiçi Üzeyir bəy Qori Seminariyasının digər məzunları kimi təkcə dərs deməklə kifayətlənməmiş, geniş maarifçilik işi aparmış, əhalinin savadlanmasında yaxından iştirak etmişdir. O, müəllimlər üçün də bir çox pedaqoji-metodik əsərlər yazmışdır. Bu əsərlər içərisində "Türki-rus və rus-türki lüğəti", "Hesab məsələləri" xüsusi yer tutur, onlardan təlimdə dərs vəsaiti kimi istifadə edilmişdir.

Qori Müəllimlər Seminariyasının məzunlarından olan tanınmış maarifçi, ictimai xadim Nəriman Nərimanov da öz həmkarları kimi müəllimlik fəaliyyətinə kənd məktəbində (Qızıl Hacılı məktəbində) dərs deməklə başlamışdır. Burada, köhnə kənddə baş verən hadisələri – dəhşətli mənzərələri, müəllimin çəkdiyi əzab-əziyyətləri, yeniliklə köhnəliyin mübarizəsini "Nadanlıq" dramında təsvir etmişdir. Sonralar N.Nərimanov Bakıya gəlib xüsusi progimnaziyada və oğlan gimnaziyasında Azərbaycan dili müəllimi kimi çalışmışdır. O, müəllim işlədiyi dövrdə əhalinin savadlanması məqsədilə Azərbaycanda ilk kitabxana – oxu mərkəzi açmış, "Türk-Azərbaycan dilinin müxtəsər sərf-nəhvi", "Azərbaycanlılar üçün rus dili, ruslar üçün Azərbaycan dilini öyrənməyə rəhbərlik" (1899) adlı dərsliklər yazmışdır. N.Nərimanov S.M.Qənizadə ilə birlikdə "Sovqat" adlı şəkilli uşaq jurnalı, "Məktəb" adlı elmi-pedaqoji aylıq jurnal nəşr etmək təşəbbüsündə də olmuşdur.

N.Nərimanov istər elmi-pedaqoji fəaliyyətində, istərsə də bədii yaradıcılıq və jurnalistika sahəsində geniş xalq kütlələrinin maarif-

lənməsi işində mühüm rol oynamışdır. Xalqın maariflənməsində məktəbin rolunu yüksək qiymətləndirərək yazırdı: "Heç bir millət tüfənglə, qılıncla qabağa getməyibdir. Hansı millət irəli gedib tərəqqi edirsə, ancaq elmin gücünə xoşbəxt olubdur. Məktəb, ancaq məktəb bizi cəhalətdən qurtara bilər [1, s. 377]. N.Nərimanov ərəb qrafikasından latın əlifbasına keçilməsində, Azərbaycanın elmi-mədəni quruculuğunda fəal rol oynamışdır. N.Nərimanovun dekreti ilə Bakıda ilk Azərbaycan Dövlət Pedaqoji İnstitutu yaradılmışdır (1921). Dinin dövlətdən ayrılması istiqamətində də o, böyük iş aparmış, yeni istedadlı pedaqoq nəsli yetişdirmişlər.

**Ədəbiyyat**


1. Əlizadə Ə.Ə., Əlizadə H.Ə. Yeni pedaqoji təfəkkür: psixopedaqogikaya giriş. B., ADPU, 2008
2. Əhmədov H.M. Şərəfli yol//Xəbərlər (Pedaqoji və psixoloji elmlər seriyası). B., 2009, № 2
3. Həbibbəyli İ.Ə. Cəlil Məmmədquluzadə: mühiti və müasirləri. Naxçıvan, 2009
4. Hüseynzadə R.L. İrəvan pedaqoji mühiti. Elmin inkişafına dəstək ictimai birliyi. 13 yanvar, 2016


## TƏHSİL TARİXİMİZİN ÖNƏMLİ MƏRHƏLƏSİ


***Məcid Abdulla oğlu İsmixanov***
***Nəzakət Bəylər qızı İmamverdiyeva***
***BDU-nun Pedaqogika kafedrasının professoru***
***m.ismixanov@mail.ru***


Bu il 140 illiyini qeyd etdiyimiz İrəvan Müəllimlər Seminariyası təhsilimizin, milli-mənəvi dirçəlişimizin inkişafına böyük töhfə vermişdir. Seminariyanın açılışı, fəaliyyəti, sonrakı inkişafı müəyyən tarixi, ictimai-siyasi, pedaqoji mühitlə bağlıdır. İrəvanda yeni məktəb sisteminin yaradılması XIX əsrin 30-cu illərinə

təsadüf edir. Tədqiqatlar (M.Mərdanov, F.Rüstəmov, Nazim Mustafa və b.) göstərir ki, XIX əsrin 70-ci illərinədək bütün Qafqazda dünyəvi fənləri tədris edən, bu fənlərdən dərs demək üçün pedaqoji kadrlar hazırlayan hər hansı bir təhsil ocağı olmamışdır. Azərbaycanda olduğu kimi, bizim tarixi torpağımız olan İrəvanda da məscidlər nəzdində mollaxana və mədrəsələr fəaliyyət göstərirdi. Öz fəaliyyəti dövründə bu dini müəssisələr xalqımızın mədəni inkişafını təmin edə bilməmiş, bu prosesi ləngitmişdir.

XIX əsrdə Cənubi Qafqazda baş verən siyasi proseslər müxtəlif sahələrdə olduğu kimi, təhsil və məktəb sahəsində yeni meyllərin yaranmasına səbəb oldu. Ənənəvi təlim müəssisəsi kimi fəaliyyət göstərən mollaxana və mədrəsələr getdikcə tənəzzülə uğrayır, öz yerini dünyəvi məktəblərə verməyə məcbur olurdu. XIX əsrin əvvəllərində Şimali Azərbaycan Rusiyanın tərkibinə daxil edildikdən sonra yeni tipli məktəblər – qəza məktəbləri, rus-tatar məktəbləri açılmağa başladı. Bu hal əzəli Azərbaycan torpağı olan İrəvan xanlığında da özünü göstərmişdir. Yerli xalqları itaətdə saxlamaq, çarizmin hökmranlığını möhkəmləndirmək məqsədilə 1832-ci ildə İrəvan şəhərində ilk dünyəvi məktəb – ikisinifli qəza məktəbi yaradıldı. Müəyyən vaxtdan sonra – 1839-cu ildə bu məktəb üçsinifli qəza məktəbinə, 1869-cu ildə isə dördsinifli progimnaziyaya, 1881-ci ildə isə gimnaziyaya çevrildi [10].

İrəvanda qəza məktəbləri və gimnaziya ilə yanaşı yeni üsullu məktəblər də açıldı (Mirzə Kazım Əsgərzadə, Mirzə Kazım Rüşdiyyə). Quberniyada ildən-ilə ibtidai məktəblərin açılması bu məktəblərdə dərs deyə bilən müəllimlərin hazırlanmasına ehtiyac yaratmışdı. Həmin ehtiyacı nəzərə alaraq Rusiya Dövlət Şurası 1880-ci il oktyabrın 20-sində Kutaisi və İrəvan quberniyalarında Müəllimlər Seminariyasının təşkili haqqında qərar qəbul etdi. İrəvan Seminariyası 1881-ci il noyabrın 8-də fəaliyyətə başladı [8].

İrəvan Müəllimlər Seminariyasında təhsilin məzmunu yeni əsasda qurulur, dünyəvi təhsil verən dərslər geniş yer tuturdu: rus dili, hesab, həndəsə, coğrafiya, tarix, biologiya, Azərbaycan şöbəsində tatar (Azərbaycan dili) tədris olunurdu. Öyrənilən biliklər

yeni tipli məktəblərdə tədris olunurdu. Seminariyanın nəzdində bu məqsədlə hazırlıq sinfi və nümunəvi ibtidai məktəb fəaliyyət göstərirdi. Tələbələr pedaqoji təcrübəni həmin məktəbdə keçir, bacarıq və vərdişlərə yiyələnirdilər.

Seminariyada Azərbaycan şöbəsi də fəaliyyət göstərmişdir. Şöbənin müdiri kimi, müxtəlif dövrlərdə görkəmli maarifçi-pedaqoqlar – Axund Məmmədbağır Qazızadə, Rəşid bəy Şahtaxtinski, Həmid bəy Şahtaxtinski, Cəfər bəy Cəfərbəyov və b. fəaliyyət göstərmişlər. Təhsilə, elmə olan maraq nəsildən-nəslə keçərək mənəvi dəyərə, ənənəyə çevrilmiş, övlad, nəvə və nəticələrə də sirayət etmişdir. Hazırda Məmmədbağır Qazızadənin nəticələri – prof. Sevinc xanım Əkbərova, prof. Paşa Qəlbinur babalarının yolu ilə gedərək tanınmış elm adamları kimi yetişmişlər [8].

İrəvan Müəllimlər Seminariyasında təlimin yeni əsaslarda təşkili, yeni pedaqoji ideya və metodların tətbiqi, pedaqoji prosesə yaradıcı yanaşma, tələbələrin tədqiqat işlərinə cəlb edilməsi geniş yer tuturdu. Bu sahədə Qori (Zaqafqaziya) Müəllimlər Seminariyasının, onun məzunlarının böyük xidməti olmuşdur. Seminariya məzunlarının bir qismi İrəvan məktəbləri, gimnaziya, pedaqoji texnikum və seminariya ilə təmasda olmuş, onların fəaliyyətinə birbaşa və ya dolayısı ilə təsir göstərmişlər. Belələrinə misal olaraq Firudin bəy Köçərlini, Rəşid bəy Əfəndiyevi, Cəlil Məmmədquluzadəni, Üzeyir Hacıbəylini, Nəriman Nərimanovu və başqalarını göstərmək olar. İrəvan Seminariyasında, gimnaziya və pedaqoji texnikumunda çalışan müəllimlər öz sələflərindən, onların pedaqoji və maarifçilik təcrübələrindən, bədii və jurnalistik fəaliyyətindən, yazdıqları dərslik və proqramlarından yararlanaraq faydalanırdılar. Onlar da təlimi yeni üsullarla, yeni ideya və prinsiplər əsasında qurur, xalqın maariflənməsi, qızların təhsilə cəlb edilməsi, oxu materiallarının, dərs vəsaitlərinin, proqramların hazırlanması sahəsində geniş iş aparır, müəyən irəliləyişə nail olurdular. İrəvan Müəllimlər Seminariyasının fəaliyyət göstərdiyi çox da böyük olmayan bir müddətdə Seminariyanın 63 azərbaycanlı tələbə bitirmişdir. Onların içərisində sonralar tanınmış ziyalılar, elm, təhsil, mədəniyyət və incəsənət adamları yetişmişdir. Bu o

qədər də asan olmamışdır. 1918-ci ildə ermənilərin azərbaycanlılara qarşı törətdikləri etnik təmizləmə səbəbindən İrəvan Müəllimlər Seminariyası fəaliyyətini dayandırmış, müəllim və tələbələrin bir qismi amansızlıqla qətlə yetirilmiş, sağ qalanlar isə doğma yurdlarını tərk edərək Türkiyəyə və Azərbaycana pənah aparmışlar. Çar Rusiyasının bilavasitə dəstəyi ilə təsis edilən İrəvan quberniyasının əsasında ilk erməni dövləti (Ararat) yaradıldı. Bu torpağın qədim sakinləri – azərbaycanlılar isə öz vətənlərində azsaylı xalqların birinə çevrildilər [10].

Buna baxmayaraq milli qeyrətli ziyalılarımızın (Bala Əfəndiyev, Mehdi Kazımov, Mustafa Hüseynov və digərlərinin) xalqa söykənən möhkəm iradəsi, təkidli tələbləri və müntəzəm mübarizəsi sayəsində 1924-cü ilin oktyabrında İrəvan Müəllimlər Seminariyasının xələfi olan İrəvan Türk Pedaqoji Texnikumu açıldı. Bir il sonra texnikuma görkəmli dövlət xadimi Nəriman Nərimanovun adı verildi.

İrəvan Türk Pedaqoji Texnikumu öz fəaliyyətində İrəvan Müəllimlər Seminariyasının qayda və ənənələrinə əsaslanırdı. Texnikumun məzunu olmuş akad. Budaq Budaqov bu təhsil ocağı haqqında yazırdı ki, İrəvan pedaqoji məktəbi müəllimlərin pedaqoji ustalığı, ensiklopedik biliyi, hazırlanan kadrların yüksək savad səviyyəsi bu məktəbə haqlı şərəf, şöhrət, nüfuz gətirmişdir. Pedaqoji məktəbə daxil olmaq ən yüksək müsabiqəli ali məktəbə qəbuldan çətin idi. Məktəbdə olan daxili intizam, yüksək təhsil vermək, yaxşı oxuyanların hörmətini layiq olduğu səviyyəyə qaldırmaq ənənəsi bizi valeh edirdi.

Pedaqoji texnikumda təhsil həm də türk mədəniyyəti və ənənəsinə söykənirdi. 1935-ci ildə pedaqoji texnikumda müəllim və tələbələrlə görüş zamanı görkəmli maarifçi ziyalımız, yazıçı Məmməd Səid Ordubadi tədris ocağının fəaliyyətini yüksək qiymətləndirərək demişdi: “Türk Pedaqoji Texnikumu bizdə böyük intibahlar yaratdı. Türk mədəniyyətinin nə qədər böyük inkişafda olduğunun canlı şahidi olduq” [8].

Belə müsbət cəhətlərinə baxmayaraq Türk Pedaqoji Texnikumu erməni daşnaklarının məkrli siyasəti nəticəsində deportasiya-

ya məruz qalmış, 1949-cu ildə Azərbaycana – o zamanki Xanlar, indiki Göygöl rayonuna) köçürülmüş, 1936-cı ildə İrəvan Azərbaycanlı Pedaqoji Məktəbi adlandırılmış, 1972-ci ilədək fəaliyyət göstərmişdir [8].

48 illik fəaliyyəti dövründə (1824-1972-ci illər) İrəvan Pedaqoji Texnikumu Azərbaycan elminə və maarifinə yüksək hazırlıqlı müəllimlər, görkəmli ziyalılar bəxş etmişdir. Vaxtilə bu texnikumda işləmiş akad. Yusif Məmmədəliyev bir sıra tanınmış ziyalılara dərs demiş, yüksək səviyyəli mütəxəssislər, alim və pedaqoqlar yetişdirmişdir. İrəvan Pedaqoji Texnikumunun və ya İrəvan Azərbaycanlı Pedaqoji Məktəbinin adlı-sanlı məzunları çoxdur. Onların sırasında aşağıdakıları göstərmək olar: akad. Budaq Budaqov, AMEA-nın müxbir üzvü Zərifə Budaqova, professorlar Nəzər Paşayev, Yusif Yusifov, Qurban Bayramov, Əli Fərəcov, Cəfər Cəfərov, Həmid Əliyev, eləcə də onlarla elmlər namizədi, o cümlədən qadın alimlərdən Kövsər xanım Tarverdiyeva, qabaqcıl təhsil işçiləri Tapdıq Əmiraslanov, Məmmədəli Məhərrəmov, ictimai xadimlər – Qəşəm Aslanov, Məhərrəm Bayramov və başqaları.

İrəvan Pedaqoji Texnikumun bu uğurlarında Qori və İrəvan Müəllimlər Seminariyalarının yetirmələri olan tanınmış maarifçi ziyalıların böyük rolu olmuşdur. İrəvan Müəllimlər Seminariyası 37 illik fəaliyyəti dövründə (1881-1918-ci illər) Azərbaycan təhsilinə, elminə, mədəniyyət və incəsənətinə 100-lərlə ziyalı, maarif fədaisi, alim və dövlət xadimləri yetişdirmişdir. Tarixçi alim Nazim Mustafa qeyd edir ki, Sovet hakimiyyətinin süqutunadək əslən İrəvan şəhərindən olan, elmin müxtəlif sahələrini əhatə edən 6 azərbaycanlı akademik, Akademiyanın 3 müxbir üzvü, 27 elmlər doktoru, 73 elmlər namizədi yetişmişdir. Bunlardan əlavə onlarla tanınmış mədəniyyət, incəsənət, ictimai və dövlət xadimləri İrəvan təhsil mühitindən çıxmışlar [9]. Onların sırasında görkəmli elm və dövlət xadimi Əziz Əliyev, böyük bir nəslin nümayəndələri – tanınmış ictimai və elm xadimləri: akad. Mustafa bəy Topçubaşov, Əlimərdan bəy Topçubaşov, Mirzə Cəfər Topçubaşov, Mustafa Topçubaşov, İbrahim Topçubaşov, eləcə də görkəmli bəstəkar Səid Rüstəmov, ədəbiyyatşünas alim, akademik Heydər

Hüseynov, tanınmış dövlət xadimi Həsən Seyidov, məşhur ədəbiyyatşünas alim, akad. Cəfər Xəndan, şair Əhməd Cəmil, ədəbiyyatşünas alim, prof. Mirəli Seyidov, məşhur xalçaçı rəssam Kamil Əliyev, vaxtilə İrəvan Pedaqoji Texnikumunun direktoru, sonralar Azərbaycan XDİ-nin rektoru işləmiş pedaqoq-alim Əfsan xanım Qədimbəyova, görkəmli kinoşünas, sənətşünas, elmlər doktoru Sabir Rizayevi və b. göstərmək olar [9]. Onlar ilk təhsillərini İrəvanda almış, sonralar seminariya və digər ali məktəblərdə davam etdirmişlər.

1988-ci ildə Qarabağda erməni separatçılarının növbəti dəfə baş qaldırması, Ermənistanda azərbaycanlıların kütləvi şəkildə deportasiya olunması və bununla da zəngin ənənəyə malik olan təhsil ocaqlarının birdəfəlik məhv edilməsi ilə nəticələndi. Ümumiyyətlə, 1988-1989-cu illərdə təlim Azərbaycan dlində aparılan 150 məktəb və 38 beynəlmiləl azərbaycanlı bölməsi bağlandı. 4868 şagird və 3992 müəllim Ermənistandan zorakılıqla deportasiya edildi. Tarixən Azərbaycanın elm, maarif və mədəniyyət mərkəzlərindən biri olan İrəvan şəhəri XX əsrin sonlarında etnik təmizlənməyə məruz qoyularaq sırf erməni şəhərinə çevrildi [9].

140 il əvvəl qədim Azərbaycan torpağı olan İrəvanda fəaliyyətə başlamış Müəllimlər Seminariyası şərəfli yol keçmiş, təhsilimizin, maarif və mədəniyyətimizin inkişafında mühüm rol oynamışdır. Təhsil tariximizin və pedaqoji fikrimizin tanınmış tədqiqatçısı prof. H.M.Əhmədov Qori Müəllimlər Seminariyasının tarixi rolu ilə bağlı deyirdi: “M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin məzunları Rusiyada elm, mədəniyyət və incəsənətin inkişafında hansı xidmətləri göstərmişdilərsə Qori Müəllimlər Seminariyasının məzunları da Azərbaycan üçün həmin xidmətləri göstərmişlər” [2]. Bu haqlı və obyektiv fikri Qori Müəllimlər Seminariyası ilə onun xələfi olan İrəvan Müəllimlər Seminariyası barəsində də demək mümkündür. Qori Müəllimlər Seminariyasının məzunları Zaqafqaziyada elm, mədəniyyət və incəsənətin inkişafında hansı xidmətləri göstərmişdilərsə İrəvan Müəllimlər Seminariyasının məzunları da Azərbaycan üçün onun təhsil, elm, milli-mədəni inkişafı üçün həmin xidmətləri göstərmişlər.

**Ədəbiyyat**


1. Əlizadə Ə.Ə., Əlizadə H.Ə. Yeni pedaqoji təfəkkür: psixopedaqogikaya giriş. B., ADPU, 2008
2. Əhmədov H.M. Şərəfli yol//Xəbərlər (Pedaqoji və psixoloji elmlər seriyası). B., 2009, № 2
3. Həbibbəyli İ.Ə. Cəlil Məmmədquluzadə: mühiti və müasirləri. Naxçıvan, 2009
4. Hüseynzadə R.L. Azərbaycan pedaqoji kadrlarının hazırlanmasında İrəvan Müəllimlər Seminariyasının fəaliyyəti. Azərb.TPİ, konfrans materialları. B., Mütərcim, 2012
5. Hüseynzadə R.L. İrəvan pedaqoji mühiti. Elmin inkişafına dəstək ictimai birliyi. 13 yanvar, 2016
6. İbrahimov F., Hüseynzadə R. Pedaqogika, II c., B., Mütərcim, 2013
7. İrəvan Müəllimlər Seminariyasının Azərbaycan pedaqogika tarixində rolu. Oxu az., 6 fevral, 2022
8. Misir Mərdanov, Cəlal Allahverdiyev. Azərbaycan təhsil tarixinin şərəfli səhifəsi. 525-ci qəzet, 28 avqust, 2021


## AZƏRBAYCAN MAARİFÇİLİYİNİN HƏRƏKƏTVERİCİ QÜVVƏSİ: İRƏVAN MÜƏLLİMLƏR SEMİNARİYASI


***İntiqam Hilal oğlu Cəbrayılov***
***pedaqogika elmləri doktoru, professor,***
***ARTİ-nin Təhsilin nəzəriyyəsi və tarixi şöbəsinin müdiri***
***intiqamcebrayilov@mail.ru***


Xaqımızın tarixi keçmişinin öyrənilməsində Vətən tarixinin tərkib hissəsi olan təhsil tarixi mühüm əhəmiyyət kəsb edir. Təhsil tarixində qədim zamanlardan bu günədək olan dövrdə xalqın təhsil ənənələri, məktəb və pedaqoji fikir, təhsilin idarə edilməsi, məzmunu və bütövlükdə təhsilin inkişaf dinamikası, xüsusiyyətə-

ri öz əksini tapmışdır. Məlumdur ki, qədim dövr və orta əsrlərdə əsasən dini məktəblər mövcud olmuş və təhsilin məzmununda bu istiqamət üstün rol oynamışdır. Lakin zaman keçdikcə məktəblərdə dünyəvi məsələlərin də geniş öyrənilməsinə diqqət artırılmış, məktəbin idarə edilməsi, təhsilin məzmunu xeyli dəyişmişdir. Xüsusilə XIX yüzillikdə maarifçilik hərəkatının geniş vüsət aldığı bir dövrdə təhsil sahəsində daha çox dəyişikliklərin edildiyi və xalqın bu istiqamətdə tələblərinin daha da gücləndiyi hiss olunur. XIX yüzillikdə Azərbaycanda yeni təhsil sistemi formalaşmışdı. Bu yeni sistemin yaranmasının əsas amilləri ilk növbədə Şimali Azərbaycanın çar Rusiyası tərəfindən işğalı, ölkəmizin imperiyanın müstəmləkəsinə çevrilməsi, eyni zamanda bütövlükdə gedən ciddi proseslərlə bağlı Azərbaycanda Avropa tipli yeni məktəblərin, o cümlədən seminariya adı ilə təhsil müəssisələrinin yaradılması məhz bu dövrə təsadüf edir. Tarixi mənbələr göstərir ki, 1828-ci ildə Cənubi Qafqaz, Şimali Azərbaycan çar Rusiyası tərəfindən işğal edildikdən dərhal sonra bu bölgədə yeni təhsil sisteminin formalaşdırılmasına başlandı.Əvvəlcə qəza məktəbləri, sonra şəhər məktəbləri, progimnaziya və gimnaziyalar və nəhayət, seminariyalar yarandı. Seminariyaların yaradılması məqsədlərinədn bir ibtidai məktəbləri müəllim kadrları ilə təmin etməkdən ibarət idi. Eyni zamanda çar hökuməti çalışırdı ki, ümumiyyətlə, onun açdığı məktəblərdə təhsil alan şagirdlər, tələbələr Rusiyanın sadiq, sədaqətli təbəəsi kimi yetişsinlər. Tədris proqramlarının məzmunundan aydın olur ki, əsas məqsədlərdən biri çar Rusiyasının slavyanlaşdırma, ruslaşdırma siyasətinin reallaşdırılması olmuşdur. Qaydalara görə hətta, təhsil müəssisələrinə daxil olanadək hələ kiçik yaşlarından uşaqlara rus dili, rus adət və ənənələrinin öyrədilməsi vacib idi. Əks halda onların məktəblərə cəlb edilməsi və təhsil alması əslində mümkün deyildi. Bu, seminariya tipli müəssisələrdə, o cümlədən İrəvan Müəllimlər Seminariyasında daha ciddi tələb kimi qoyulmuşdu. Belə ki, seminariyada hazırlanacaq kadrların təfəkkürünün, düşüncə tərzinin millilikdən uzaq olması imperiya məqsədlərinin rahatlıqla həyata keçi-

rilməsinə şərait yaradırdı. Tarixi mənbələr göstərir ki, İrəvan Müəllimlər Seminariyasının rəsmi açılışı 1881-ci il noyabrın 8-də olmuşdur. Doğrudur, bu seminariya "Kutaisi və İrəvan quberniyalarında müəllimlər seminariyalarının təşkil edilməsi haqqında " Rusiya imperiyasının Dövlət Şurasının 20 oktyabr 1880-ci il tarixli qərarı əsasında yaradılmışdı. Lakin təşkilati hazırlıq işlərinin görülməsi təhsil müəssisəsinin praktik fəaliyyətə başlamasına, açılışın həyata keçirilməsinə də təsir göstərmişdi. Seminariya fəaliyyətə başlayarkən təhsilalanların sayı 42 nəfər olmuş, 1914-cü ilədək olan müddətdə bu təhsil müəssisəsini 63, 1915-ci ildə isə 22 nəfər azərbaycanlı bitirmişdir. Seminariyanın nəzdində hazırlıq sinfinin olması, nümunəvi ibtidai məktəbin fəaliyyət göstərməsi, burada tələbələrin pedaqoji təcrübə keçmələri barədə mənbələrdə geniş məlumatlar vardır. Struktur baxımından bu komponentlərin mövcudluğu təhsil müəssisəsi kimi seminariyada kadr hazırlığına qoyulan ciddi tələblər kimi qeyd edilə bilər. İlk növbədə seminariyada təhsil almaq istəyənlər əsasən hazırlıq mərhələsini keçməli idi. Məhz hazırlıq mərhələsində rus adət-ənənələrini, rus dilini mənimsəmək tələbləri qoyulurdu. Seminariyada azərbaycanlılar şəriət dərslərini keçsələr də, əsas diqqət dünyəvi elmlərə yönəldilirdi. Xüsusilə rus dilinin tədrisinə geniş yer verilir və bununla yanaşı hesab, həndəsə, tarix, coğrafiya, musiqi və s. kimi fənlər də öyrədilirdi. Bunların sırasında ana dili-Azərbaycan dili fənninin də xüsusi yeri olduğunu qeyd etmək lazımdır. Bu fənnin tədrisi şagirdlərin milli ruhda böyüməsinə, onlarda doğma dilimizə, tariximizə, adət-ənənələrimizə məhəbbət hissinin formalaşdırılmasına geniş imkanlar açırdı. Eyni zamanda burada çalışan azərbaycanlı müəllimlər şagirdlərə milli ideyaların aşılanmasında böyük rol oynayırdılar.

Əsasnaməyə görə seminariyaya qəbulun əsas şərtlərinən biri bu idi ki, bu təhsil müəssisəsində yalnız oğlanlar təhsil ala bilərdilər. Qəbulda digər bir şərt isə bu idi ki, yalnız 16 yaşdan yuxarı olan oğlan uşaqlarının seminariyaya qəbul imkanları vardı.Seminariyanı uğurla bitirənlər kənd ibtidai məktəb müəllimi statusunu

alır, bu ixtisası alanlara xüsusi vəsiqə verilirdi. Bu təhsil müəssisəsini bitirib xüsusi vəsiqə alanlar qaydalara görə təyinatla kənd məktəblərinə göndərilir və o, həmin kənddə 6 il məcburi işləməli idi. Bu qaydaya əməl etməyənlərin xəzinəyə 520 rubl pul ödəməsi tələbi qoyulmuşdu.

Seminariyada təhsilalanlar isə müxtəlif millətlərin nümayəndələri idi. Ruslar, ermənilər, gürcülər və digər millətlər, o cümlədən azərbaycanlıların burada təhsil almaq imkanları vardı. Burada təhsil alan azərbaycanlılar sırasında isə təkcə İrəvan bölgəsindən deyil, Bakı, Naxçıvan, Dağıstan və Tiflisdən gələnlər də vardı. Lakin digər millətlərlə müqayisədə azərbaycanlıların bu seminariyada təhsil alması üçün çox çətinliklər, maneələr törədilirdi. Daha çox xristian mənşəli uşaqların təhsil almalarına geniş şərait yaradılırdı. Bu çətinliklərə baxmayaraq azərbaycanlılar milli mənafe, milli maraqlara uyğun davranmağı, mübarizə aparmağı bacarır, dövrünün görkəmli ziyalıları, maarifçi xadimləri kimi yetişirdilər. Qeyd etməliyik ki, bu inadlı mübarizənin önündə İrəvan Müəllimlər Seminariyasının Azərbaycan bölməsinin rəhbəri, Azərbaycan dili və ilahiyyat (şəriət) müəllimi Axund Molla Məhəmmədbağır Hacı Molla Mehdi oğlu Qazızadə ( 1829-1911) gedirdi. O, İrəvanda doğulmuş, ilk təhsilini evdə atasından almış, daha sonra dini məktəblərdə təhsilini davam etdirmiş, İrəvanda mədrəsədə və qəza məktəbində oxumuşdur. Məhəmmədbağır Qazızadə bununla da kifayətlənməmiş, nəhayət, Nəsəf şəhərində ali dini təhsilə yiyələnmişdir. O zaman qaydalara görə Nəcəfdə ali dini təhsil müəssisəsini bitirərkən əlavə olaraq ikinci bir ixtisas kimi dünyəvi elm sahələrinə aid bir ixtisas da seçilə bilərdi. Məmmədbağır Qazızadə ali dini təhsillə bərabər ixtisas kimi riyaziyyat elmini də seçmiş və bu sahə üzrə səriştəli bir mütəxəssis kimi tanınmışdı. Həm riyaziyyat, məntiq, həm də ana dili-Azərbaycan dili, tarix, ədəbiyyat fənləri üzrə dərin biliklərə yiyələnmiş Məhəmmədbağır Qazızadənin, eyni zamanda rus, ərəb, fars dillərinə dərindən bələd olması, Quranın mükəmməl bilicisi kimi tanınması onu seminariya müəllimləri arasında xüsusi fərqləndirirdi. Onun təkcə se-

minariya tələbələri arasında deyil, bütövlükdə İrəvan bölgəsində böyük nüfuzu vardı. 1893-cü ildə o, İrəvan Quberniyası Ruhani Məclisinin sədri və qazisi təyin edilmiş və ömrünün sonuna kimi bu vəzifəni ləyaqətlə daşımışdır. Bir neçə dil bilən Məhəmməd-bağır Qazızadəyə böyük şəxsiyyət kimi hər kəs ehtiram göstərir, onunla imperiyanın yuxarı dairələrində də hesablaşırdılar. Seminariyada azərbaycanlıların sıxışdırılması, onlara qarşı biganəlik hallarına görə M.Qazızadə bir neçə dəfə imperiyanın rəhbərləri ilə Sankt-Peterburqda görüşmüş və azərbaycanlılara qarşı ayrıseçkiliyə son qoyulmasını tələb etmişdi. M.Qazızadə həm də həmkarları ilə birlikdə proqram və dərsliklərin, müxtəlif adda tədris resurslarının hazırlanmasında iştirak edir, milli ruhlu gənclərin formalaşmasına çalışırdı. Həmkarları ilə birgə hazırladığı və 1911-ci ildə Tiflisdə nəşr olunan “Ana dili” dərsliyi seminariyada ciddi vəsait kimi qəbul edilmiş və təhsilalanlar Azərbaycan dilinin nəzəri və praktik məsələlərini məhz bu dərslik əsasında öyrənmişlər.

Məhəmmədbağır Qazızadənin çoxşaxəli fəaliyyətini araşdırarkıən onun qızlar üçün məktəb açması ( 1902-ci ildə) faktını da qeyd etmək zəruridir. Məlumdur ki, İrəvan Müəllimlər Seminariyasında yalnız oğlanların təhsil almasına imkan yaradıldığından qızların təhsil məsələsi həllini tapmamışdı. Yalnız M.Qazızadənin təşəbbüsü ilə İrəvanda açılan bu məktəb azərbaycanlı qızların maariflənməsi, geniş dünyagörüşünə malik gələcək anaların təhsillənməsində böyük rol oynadı. M.Qazızadənin öz evində açılmış bu rus-azərbaycanlı məktəbi əslində İrəvan Müəllimlər Seminariyasının təsir gücünün nəticəsi, seminariyadakı milli maarifçilik mühitindən doğan bir həyat çeşməsi, zülməti boğan, bağrını dələn bir işıq selinin parıltısı idi.

M.Qazızadə Həmid bəy Şahtaxtinski (1880-1944), Həbib bəy Səlimov (1881-1920), Mirzə Cabbar Məmmədzadə(1882-1938), Haşım bəy Vəzirov(1868-1916), İbadulla bəy Muğanlinski ( təx.1880-1948), Rəşid bəy İsmayılov (1877-1942), İbrahim Səfi (1898-1983) və digər onlarla maarifçi şəxsiyyətlərin yetişməsində

böyük rol oynamış və həmin şəxsiyyətlər də öz müəllimlərinin yolu ilə gedərək milli təfəkkürlü insanların həyata hazırlanmasında, onlarda milli təəssübkeşlik, vətəndaşlıq, dövlətçilik şüurunun formalaşmasında xüsusi xidmətlər göstərmişlər.

Onlardan bəzilərinin həyat yoluna nəzər yetirməyi məqsədəuyğun bilirik. Həmin şəxsiyyətlərdən biri- M.Qazızadənin yetirmələrindən olan Həmid bəy Şahtaxtinskinin (1880-1944) həyat və fəaliyyəti bu gün örnək olaraq diqqəti cəlb edir. O, Naxçıvan qəzasının Şahtaxtı kəndində doğulmuş, ilk təhsilini mollaxanada almış, sonra üçüncü dərəcəli şəhər məktəbində təhsilini davam etdirmişdir. 1899-cu ildə İrəvan Müəllimlər Seminariyasını bitirmiş və həmin ildə İrəvan rus-tatar (azərbaycanlı) məktəbinə müəllim təyin edilmişdir. Həmid bəy Şahtaxtinskinin İrəvan Müəllimlər Seminariyasında təhsil alarkən öz fəallığı ilə diqqəti cəlb etmiş, müəllimlərinin böyük rəğbətini qazanmış və təyinatla işlədiyi məktəbdə də işgüzarlığı, qabaqcıllığı ilə seçilmişdir. Həmid bəy Şahtaxtinskinin mütəxəssis kimi fəaliyyəti 1901-ci ildə Qafqaz Tədris Dairəsi Təhsil İdarəsi tərəfindən yüksək dəyərləndirilmiş və ona İrəvan Müəllimlər Seminariyasında türk dili fənnini tədris etmək təklif edilmişdir. O, 1902-1907-ci illərdə-5 il müddətində burada dərs demiş, eyni zamanda seminariyanın müsəlman şöbəsinin müdiri olmuş, sonra öz xahişilə işdən azad olunaraq təhsilini yenidən davam etdirmək üçün Odessa Universitetinin hüquq fakültəsinə daxil olmuşdur. 1912-ci ildə universiteti bitirmiş, Bakıya qayıdaraq müəllimlik fəaliyyətini davam etdirmişdir. O, Bakıda Ramanada, Gəncə Müəllimlər Seminariyasında, Qazaxda, Şəkidə müəllimlik etmişdir. O, Azərbaycan Xalq Cümhuriyyəti dövründə Maarif və Dini Etiqad naziri kimi (4-cü hökumət kabinetində və 5-ci hökumət kabinetində) müəyyən müddət fəaliyyət göstərmişdir. O, Bakı Dövlət Universitetinin açılışının təşkilndə əsas təşkilatçılardan olmuş, universitetdə müəllim, prorektor (1919-1925) vəzifəsində işləmişdir. Sonralar Tiflisdə Zaqafqaziya Universitetinin Tibb fakültəsini bitirmiş (1928 ) və Azərbaycan Tibb Universitetinin professoru olmuşdur(1929-1940).

O, ümumi təhsilin məzmunca milliləşdirilməsində yeni proqram və dərsliklərin hazırlanmasında böyük əmək sərf etmiş, latın qrafikalı Azərbaycan əlifbasının yaradılmasında iştirak etmişdir.

Həmid bəy Şahtaxtinski 1941-cildə repressiya olunmuş, həbs edilərək Arxangelsk vilayətinə sürügünə göndərilmişdir. Böyük maarifçi, İrəvan Müəllimlər Seminariyasının yetirməsi və ömrünü təhsilə, elmə həsr edən böyük şəxsiyyət 1944-cü il fevralın 3-də sürgündə vəfat etmişdir. Həmid bəy Şahtaxtinskinin ömür yolunu təhlil edərkən aydın olur ki, o, hansı vəzifədə işləməsindən asılı olmayaraq həmişə maarifçiliyə xüsusi önəm vermiş, maarifçiliyi özünün başlıca amalı saymışdır. Adlarını qeyd etdiyimiz Həbib bəy Səlimov, Mirzə Cabbar Məmmədzadə, Haşım bəy Vəzirov, İbadulla bəy Muğanlinski, Rəşid bəy İsmayılov, İbrahim Səfi və digərləri də seminariyanın şərəfli tarixində mühüm rol oynamış, seminariya məznunu kimi fəaliyyətləri ilə Azərbaycan maarifçiliyinə, elminə, mədəniyyətinə böyük töhfələr vermişlər. İstər müəllimlik fəaliyyətləri, istər əsərləri, ümumiyyətlə, bütövlükdə onların nəzəri və ya praktik yaradıcı irsi həmişə öyrənilməyə, təbliğ və tədqiq olunmağa, həyatı örnək olaraq nümunə göstərilməyə layiqdir.

Qeyd etməliyik ki, Həmid bəy Şahtaxtinskinin, həmçinin seminariyanın digər məzunlarının həyatda uğur qazanmaları, onların fəaliyyətində bilavasitə maarifçiliyə üstün yer vermələri ilk növbədə onların mükəmməl təhsil aldığı İrəvan Müəllimlər Seminariyasının adı ilə sıx bağlıdır. Burada müsəlman şöbəsinin müdirləri olmuş Məhəmmədbağır Qazızadə, Rəşid bəy Şaxtaxtinski, Həmid bəy Şahtxtinski, Cəfər bəy Cəfərbəyovun adları əlbəttə, xüsusi qeyd edilməlidir. Məhz seminariyanın təhsil mühiti milli təəsübkeş ziyalıların, yaradıcı mütəxəssislərin yetişməsində əsas rol oynamış və beləliklə, seminariyanın fəaliyyəti Azərbaycan pedaqogikası və təhsil tarixində bir mərhələyə çevrilmişdir.

XIX yüzilliyin sonu, XX yüzilliyin əvvəllərində milli maarifçilik hərəkatının inkişafında müstəsna xidmətləri olan və milli qürur mənbəyimizə çevrilən İrəvan Müəllimlər Seminariyasının tarixi ilə bağlı müxtəlif aspektlərdən araşdırmalar aparılmışdır. Bu baxımdan

H.M.Əhmədov, F.A.Rüstəmov, C.V.Allahverdiyev, N.Y.Mustafa, H.B.Bayramov, Ə.M.Zeynalov, R.L.Hüseynzadə və başqalarının tədqiqatları təqdirəlayiqdir. Müasir dövrdə bu problemlə bağlı tədqiqatların daha da genişləndirilməsi, davamlı olaraq aparılması Azərbaycan övladı, vətəndaşı kimi hər bir tədqiqatçının şərəf işidir.

37 il fəaliyyət göstərmiş İrəvan Müəllimlər Seminariyasının (1881-1918) Azərbaycan maarifçiliyinin hərəkətverici qüvvələrindən biri, təhsil tarixində xüsusi bir mərhələ təşkil etməsi burada ilk növbədə müəllim kadrlarının hazırlanması, yeni tipli məktəblərin yaradılması, milli maarifçilik hərəkatının inkişafı ilə bilavasitə bağlıdır. Seminariyanın fəaliyyət istiqamətlərindən bəhs edərkən bu məsələlərə xüsusi diqqət yetirilməsi və onların pedaqogika elminin, pedaqoji fikrin, milli təhsilin tarixinə verdiyi töhfələrin qeyd edilməsi, Azərbaycan elminin müvafiq sistem əsasında ardıcıl və uğurlu inkişafında hərəkətverici rolunun ön plana çəkilməsi vacibdir.

## Ədəbiyyat


1. Allahverdiyev C.V. İrəvan Müəllimlər Seminariyası.Bakı: Elm və təhsil. 2022, 272 s.
2. Bayramov, H.B. İrəvan müəllimlər seminariyası və onun yaranmasını şərtləndirən maarifçi zəmin. ARTİ-nin Elmi əsərləri. Cild 89, №1,2022, s.74-81.
3. Cəbrayılov İ.H. Azərbaycan təhsil tarixində xüsusi mərhələ: İrəvan Müəllimlər Seminariyası. Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr olunmuş «İnsan kapitalının inkişafı və təhsil»mövzusunda Respublika elmi konfransının materialları. Bakı, 5-6 may 2022-ci il.Bakı,Füyuzat, 2022. s.363-367.
4. Hüseynzadə R.L. İrəvan maarifçiliyi. Azərbaycan məktəbi jurnalı. 2018, №1, s.61-68
5. İrəvan Müəllimlər Seminariyasının 140 illiyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinin Sərəncamı//29 dekabr 2021. president.az/articles/view/55116

# İRƏVANDA GİMNAZİYA

*Qahirə Lələ qızı Şahbazova*
*ADPU-nun Şamaxı filalının pedaqoji fakültəsinin dekanı*

**1881-ci ildə İrəvan şəhrində İrəvan Kişi Gimnaziyası açılmışdır ki, onun ilk** direktoru Vladimir İosifoviç Brajnikov olmuşdur. İlk açılış ilində yəni - 1881-ci ildə burada 216 tələbə təhsil almşıdır. Gimnaziyann milli tərkibi erməni, rus və azərbaycanlılardan ibarət olmuşdur.

Gimnaziyada təhsil müddəti 4 il olmuşdur. 1883-cü ildə gimnaziyada 37 azərbaycanlı tələbə oxuyurmuş. Gimnaziyanın ilk buraxılışı 1885-ci ildə olmuşdur. 1881-1915-ci illər ərzində Gimnaziyada ümumilikdə 582 azərbaycanlı təhsil almışdır. Bu gimnaziyanın pansionu var idi ki, görkəmli ədəbiyyatşünas alim, Əməkdar Elm Xadimi Əziz Şərif də burada hazırlıq mərhələsi keçmiş, sonra da İrəvan Kişi Gimnaziyasında təhsilini davam etdirmişdir.

**Firudin bəy Köçərli** 1892-ci ildən İrəvan Kişi Gimnaziyasında Azərbaycan bölməsinin müdiri, eyni zamanda Azərbaycan dili müəllimi işləmişdir. Bu böyük maarif xadimi gimnaziyada müsəlman şöbəsinin müdiri və gimnaziyanın tərkibində olan pansionun müdiri vəzifələrində də çalışmışdır. İrəvan Kişi Gimnaziyasında çalışdığı illərdə F.Köçərli maarif məsələlərinə dair dəyərli məqalələr yazmış, Zöhrabzadə ilə birlikdə"Təlimi-lisani-türki" adlı dərslik də tərtib etmişdir.

F.Köçərli İrəvan gimnaziyasında 10 illik fəaliyyətindən sonra 1895-ci ilin oktyabr ayından Qori Müəllimlər Seminariyasında pedaqoji fəaliyyətini davam etdirmişdir.

**İrəvan Kişi Gi**mnaziyasının görkəmli məzunları olmuşdur:

**Əziz Əliyev (1897-1962** ) Akademik. - İrəvan Kişi Gimnaziyasını 1917-ci ildə fərqlənmə diplomu ilə bitirmiş, Hacı Zeynalabdin Tağıyevin maliyyə yardımı ilə Sankt-Peterburq Hərbi Tibb Akademiyasında təhsil almış, Səhiyyənin müxtəlif sahələrində yüksək vəzifələrdə çalışmış, Tibb İnstitutunun rektoru olmuş,

professor, "Əməkdar həkim", ictimai və dövlət xadimi olmuşdur.

**Əhməd Rəcəbli** (1898-1963) Akademik. 1907-ci ildə Gimnaziyaya daxil olmuş və 1916-cı ildə oranı gümüş medalla bitirmişdir. Azərbaycan Kənd Təsərrüfatı Elmlər Akademiyasının akademiki, bitkiçilik bölməsinin akademik katibi olmuşdur.

**Heydər Hüseynov** (1908-1950) - Akademik. Əmək fəaliyyətinə 1924-cü ildən başlamış, pedaqoji texnikumun kitabxanasında işləmişdir. 1931-ci ildə ADPİ -nin ictimai elmlər fakültəsinin qiyabi şöbəsini bitirmişdir. 1931-1932-ci illərdə Azərbaycan Elmi - Tədqiqat İnstitutunun aspirantı olmuşdur. 1939-cu ildə "M.F.Axundovun fəlsəfi görüşləri" mövzusunda namizədlik, 1944-cü ildə isə doktorluq dissertasiyası müdafiə etmişdir. 1936-1940-cı illərdə Heydər Hüseynov SSRİ Elmlər Akademiyası Azərbaycan filialı Ensiklopediya və Lüğətlər İnstitutunun direktoru olmuşdur. 1939-1945-ci illərdə SSRİ Elmlər Akademiyası Azərbaycan Filialı sədrinin müavini, 1945- 1950-ci illərdə Azərbaycan SSR Elmlər Akademiyasının vitse prezidenti olmuşdur. 1943-1945-ci illərdə Azərbaycan Dövlət Universitetinin əvvəl fəlsəfə kafedrasının müdiri, 1945-1950-ci illərdə Azərbaycan Partiya Tarixi İnstitunun direktoru olmuşdur. O, Bəhmənyar, Nizami Gəncəvi, Bakıxanov, Mirzə Kazım Bəy, Həsən Bəy Zərdabi və başqaları haqqında 100-dən artıq dəyərli elmi-tədqiqat işləri aparmışdır.

**Mehdi Kazımov** - (1890-1954) İrəvanda azərbaycanlı ziyalıların təşəbbüsü ilə yaradılan ilk təhsil ocaqlarında rus dili dərsi dərs demiş, 1924-cü ildə İrəvan Türk Pedaqoji Texnikumunun açılmasının təşəbbüskarı və ilk direktoru olmuşdur.

**Miryusif Mirbabayev** (1889-1951) Miryusif Mirbabayev ilk təhsilini İrəvan rus-tatar məktəbində, daha sonra İrəvan Kişi gimnaziyasında almışdır. O, 1916-cı ildə Moskva Universitetinin hüquq fakültəsini bitirmişdir. Azərbaycan Xalq Cümhuriyyəti qurulduqdan sonra M. Mirbabayev Azərbaycan İrəvandakı diplomatik nümayəndəliyində katib işləmişdir. Onun 4 cildlik "Rusca-azərbaycanca lüğət"inə görə 1948-ci ildə ona yüksək dövlət mükafatı

verilmişdir. Miryusif Mirbabayev 1951-ci ildə Bakıda vəfat etmişdir.

**Maqsud Məmmədov**-ictimai xadim, 1929-cu ildə Bakı Dövlət Universitetinin rektoru, maarif naziri olmuşdur.

**Adil və Əslidar Muğanlinski -** qardaşları Gimnaziyanı bitirdikdıən sonra Almaniyanın Leypsiq Universitetində təhsil almışlar.

**Eynəli bəy Sultanov** - 1880-cı ildə İrəvan Kişi Gimnaziyasına daxil olmuş, 1886-cı ildə oradan məzun olmuş və ona müəllimlik hüququ verilmişdir. Gimnaziyanı bitirdikdən sonra Eynəli bəy 1886-1891-ci illərdə fasilələrlə Naxçıvanda yaşamış, müəllimlik etmiş, O, xarici dillərdən rus, latın, yunan və fransız dillərini, habelə riyaziyyat, fizika, tarix, coğrafiya, ilahiyyat, ədəbiyyat kimi fənnləri də mükəmməl öyrənmiş, Qarsda "Mühüm işlər üzrə məmur" vəzifəsində çalışmışdır.

Eynəli bəy Sultanov geniş ədəbi, pedaqoji, publisistik fəaliyyəti ilə yanaşı, həm də folklorumuzun mahir bilicilərindən olmuş, Naxçıvan folklorunun toplanmasında, yayılmasında böyük əmək sərf etmişdir.

**Səid Rüstəmov** (1907-1983) - Görkəmli bəstəkar, dirijor, pedaqoq. Azərbaycanın xalq artisti. 1921-ci ildə o, Bakıya köçərək müəllimlər seminariyasını, 1929-cu ildə Musiqi Texnikumunu və 1932-ci ildə Azərbaycan Pedaqoji İnstitutunun kimya fakultəsini bitirmişdir.

Səid Rüstəmov musiqi sənətinə ilk dəfə tarzən kimi gəlmiş, bu sənətin sirlərini Azərbaycan professional musiqisinin banisi Üzeyir Hacıbəyovdan və tarzən Mansur Mansurovdan mənimsəmişdir. S.Rüstəmov 1931-ci ildə Ü. Hacıbəylinin təşkil etdiyi ilk notlu Azərbaycan xalq çalğı alətləri orkestrinin yarandığı gündən əvvəl konsertmeyster, daha sonra isə həmin orkestrin bədii rəhbəri və baş dirijoru kimi uzun illər fəaliyyət göstərmişdir. 1930-cu illərdə bəstəkarlığa başlayan S.Rüstəmovun ilk əsəri "Bayatı-kürd" muğamı əsasında fantaziya məhz xalq çalğı alətləri orkestri üçün yazılmışdı. Sonralar o, həmin orkestr üçün "Cəngi" və "Qəhrəma-

ni” pyeslərini, üç süita, tar konserti və bir sıra kantatalar bəstələmişdir.

Daha başqa görkəmli tanınmış şəxsiyyətlər: Həsən Seyidov, Hüseyn Şahtaxtinski, Mirhəsən Mirbababayev, Əbdülhəmid Qənizadə, Əsədula Bəy Kəngərlinski, Abbasqulu Bəy Şadlinski, Rza Bəy Səfərbəyov, Abbas Ağa Fərəcov, Qulam Fərhadov, Əjdər bəy Hacıbəylinski, Əbdülhəmid Qənizadə, Hüseyn Şahtaxtinski, Rza Ağayev, Əkbər bəy Qazıyev, Həbib bəy Səlimov və başqaları İrəvan Kişi Gimanziyasını bitirmişlər.

1918-ci il avqustun 6-da İrəvanda erməni daşnaklarının törətdiyi fəlakətlər nəticəsində həm İrəvan Kişi Gimnaziyası, həm də İrəvan Müəllimlər Seminariyası fəaliyyətini dayndırmışdır.

## İRƏVAN MÜƏLLİMLƏR SEMİNARİYASI: TARİXİLİK VƏ MÜASİRLİK

***Həsən Bayramov***
***Bakı Qızlar Universiteti, “Pedaqogika” kafedrasının müdiri, pedaqoji elmləri doktoru***

*Məqalədə xalqımızın qədim maarif və mədəniyyət mərkəzlərindən olan İrəvan xanlığı, İrəvan təhsil mühiti, İrəvan maarifçiləri və onların Azərbaycan pedaqoji fikir tarixinin zənginləşməsindəki rolundan bəhs edilir. Məqalədə çarizmin işğalından sonrakı dövrlərdə İrəvan mədəni-maarifçilik mühitində “üsuli cədid” məktəblərinin genişlənməsi, İrəvan Müəllimlər Seminariyasının Azərbaycan şöbəsinin yaradılması və fəaliyyətilə bağlı tarixi gerçəkliklər öz əksini tapır. Məqalədə həmçinin İrəvan – Naxçıvan – Təbriz ictimai-maarifçi arealı kontekstində İrəvan maarifçiliyinin Naxçıvan və Təbriz maarifçi mühitinin yaranmasına təsiri ilə bağlı tarixi faktlar müqayisə edilir.*

İrəvan şəhəri tarixən azərbaycanlıların köklü yaşadığı böyük elm, maarif və mədəniyyət mərkəzlərindən biri kimi şöhrət tap-

mışdır. Şəhərdə Azərbaycan xalqına məxsus son dərəcə zəngin ədəbi-mədəni mühit formalaşmışdır. İrəvan xanlığı çar Rusiyasının tərkibinə qatıldıqdan sonra burada dünyəvi təhsilə xüsusi diqqət yetirilməsində həmin mühitin özü əhəmiyyətli rol oynamışdır. XIX əsrin ikinci yarısından etibarən Cənubi Qafqazda maarifçilik hərəkatı geniş vüsət aldı. Regionda dünyəvi təhsil verən yeni tipli məktəbin – İrəvan Müəllimlər Seminariyasının açılması da məhz bu vaxtlara təsadüf edir.

Xalqımızın tarixində xüsusi mərhələ olan Çar və Sovet Rusiyasının işğalı dövrü xalq maarifi, məktəb təhsili və pedaqoji fikrin prioritetləri dövlət müstəqilliyi kontekstində yeni-yeni tədqiqatlara, yanaşmalara və elmi qənaətlərlə daha da dolğunlaşmaqdadır.

Azərbaycan Respublikası Prezidentinin imzaladığı Sərəncamda deyildiyi kimi, 1881-ci ilin noyabr ayında fəaliyyətə başlayan İrəvan Müəllimlər Seminariyası Çar hakimiyyətinin bölgədəki maraqları naminə yaradılmasına baxmayaraq, 40 ilə yaxın müddətdə hazırladığı müasir dünyagörüşünə və düşüncə tərzinə malik yüksək ixtisaslı milli müəllim kadrları ilə azərbaycanlıların üstünlük təşkil etdiyi İrəvan mahalında ədəbi-ictimai, elmi-mədəni həyatın ənənəvi elolğunluğunun və canlılığının qorunub saxlanılmasında təqdirəlayiq xidmətlər göstərmiş, pedaqoji fikir salnaməmizə yaddaqalan səhifələr yazmışdır. Yeri gəlmişkən, İrəvan gimnaziyasının müəllimi Firidun bəy Köçərli və Uluxanlı kənd məktəbinin müəllimi Cəlil Məmmədquluzadə seminariya ilə yaxından əməkdaşlıq etmişlər. İlk dövrlərdə kənd məktəblərini müəllim kadrları ilə təmin etmək üçün Axund Məmmədbağır Qazızadənin rəhbərliyi ilə eksterin imtahan mərkəzi də burada fəaliyyət göstərmiş, bir çox savadlı gənclərə ibtidai məktəb müəllimi sertifikatı verilmişdir.

Görkəmli maarifçi F.Köçərli yazırdı: "Onlardan bəziləri dərsliklər tərtib etmək, başqaları rus ədəbiyyatından tərcümələr etməklə məşğul olur, bəziləri də povest və romanlarda öz gücünü sınayır, bir hissəsi də özlərini tamamilə dramatik ədəbiyyata həsr

edirdilər" . Cənubi Qafqazda milli təhsilimizin inkişafında böyük rol oynamış tədris ocaqlarından olan İrəvan Müəllimlər Seminariyası Rusiya İmperiyasının Dövlət Şurasının 20 oktyabr 1881-ci il tarixli qərarı əsasında "Kutaisi və İrəvan Quberniyalarında" müəllimlər seminariyaları təşkil edilməyə başlanmışdır. Üç maddə və qətnamədən ibarət olan həmin qərarda qeyd edilir: "1)İmperiyada İrəvan Müəllimlər Seminariyası və Zaqafqaziya Müəlimlər Seminariyası haqqında əsasnamələr əsasında Kutaisi və İrəvan quberniyalarının hər birində bir Müəllimlər Seminariyası açılsın. 2) Ştatların layihələri üzrə seminariyaların saxlanması üçün Kutaisi seminariyasına – 27.800 rubl., İrəvan seminariyasına 28.350 rubl., yekun olaraq isə Zaqafqaziya diyarının yerli büdcəsinə ildə 6.150 rubl. keçirilsin...".

8 noyabr 1881-ci ildə İrəvan Müəllimlər Seminariyası fəaliyyətə başladı. Yakob Şuşevski seminariyanın direktoru təyin edilmişdi. Axund Molla Məhəmməbağır Hacı Molla Mehdi oğlu Qazızadə şəriət və ana dili müəllimi təyin edilmişdir. Yeri gəlmişkən Y.S.Şuşevski 1883-1896, M.A.Miropiyev 1893-1902, İ.A.Pasuteviç 1903-1904, A.M.Zazuboviç 1905-1907, S.N.Streletski 1908-1911, V.V.Dobrınin 1914-1917-ci illərdə məktəbə rəhbərlik etmişlər.

Seminariyada uzun müddət şəriət və ana dili fənlərini İrəvan şəhərinin tanınmış ziyalılarından olan Axund Məmmədbağır Qazızadə, sonralar isə Rəhim Xəlilov, Ələsgər Kərimov, Mirzə Vəli Qəmərlinsk, Rəşid və Həmid Şahtaxtınskilər, nəhayət, Mirzə Cabbar Məmmədzadə tədris etmiş, ana dili müəllimi kimi fəaliyyət göstərmişlər.

Burada müxtəlif millətlərin nümayəndələri ilə yanaşı azərbaycanlılar da təhsil alırdı. Yeri gəlmişkən onu da qeyd edək ki, İrəvan Müəllimlər Seminariyasının və gimnaziyasının təşkil edilməsi Cənubi Qafqazda maarifçiliyin daha da geniş vüsət almasına ciddi təsir göstərməklə İrəvan ictimai-pedaqoji mühitinin yeni tarixi transformasiyaya uyğun formalaşması prosesi, ərəb-farsdilli müsəlman təhsilindən rusdilli təhsilə keçid prosesi başlandı. İrəvan-Naxçıvan ictimai-pedaqoji mühiti böyük müsəlman maarifçi-

si İsmayıl bəy Qaspiralının üsuli-cədid (yeni təhsil üsulu) hərəkatının yerli ziyalılarından Mirzə Həsən Rüşdiyyə, Mirzə Cabbar və Mirzə Kazım Əsgərzadələr, Mirzə Abbas Məmmədzadə və Mirzə Məhəmmədtağı Sidqinin açdıqları yeni tipli məktəblərlə növbəti mərhələsinin daşıyıcısına çevrildilər. Sonralar Mirzə Həsən Rüşdiyyənin simasında Təbrizdə dövlər səviyyəsində bu tip məktəblərə xüsusi diqqət yetirilməsi İrəvan-Naxçıvan ictimai-maarifçi mühitin, Qori seminariyasının azərbaycanlı müdavimlərinin ölkənin hər yerində yeni tipli maarifiçilik ideyasını ortaya atmaqla cənublu-şimallı ümumazərbaycan ictimai-maarifçi hərəkatının, -yəni milli-düşüncənin, son nəticəsində isə ümumazərbaycan davasının əsaslarına çevrildi. Seminariyada tatar dilini (Azərbaycan) Axund Molla Məhəmmədbağır Hacı Molla Mehdi oğlu Qazızadə tədris edirdi. O, 1813-cü ildə İrəvanda anadan olmuşdur. İlk təhsilini atası Hacı Molla Mehdi oğlu Qazızadədən almışdır.

Sonra isə mədrəsədə dini təhsil almış, dini təhsilini başa vurduqdan sonra, Şərqdə elm və bilik mərkəzi kimi tanınan Nəcəf şəhərinə gedərək orada ali dini təhsil almışdır. Nəcəf şəhərindəki ali dini tədris mərkəzində on il təhsil almış, yüksək elmi və dini biliklərini daha da təkmilləşdirmişdir. Nəcəf şəhərindəki on illik təhsil dövrü Məhəmmədbağırın ərəb dilinin daha da incəliklərinə və eyni zamanda qədim və müasir riyaziyyat sahəsində dərin biliklərə yiyələnməsinə böyük stimul vermişdir. Yeri gəlmişkən onu da qeyd edək ki, Qazızadələr soyu 18-19-cu əsrlərdə nəinki Cənubi Qafqazda, yaxın Şərqdə tanınırdılar. Yüksək elmi və dini biliklərə sahib olan Molla Məhəmmədbağır Qazızadə axund tituluna yiyələnmək üçün Zaqafqaziya ruhani idarəsində imtahan verərək, həmin adı almağa layiq görülmüşdü. Onun ilahiyyət və dəqiq elmlər sahəsindəki dərin biliyi, təşkilatçılıq qabiliyyəti və istedadı, ictimai-siyasi, pedaqoji, dini fəaliyyəti həmişə onun uğurlara nail olmasına böyük rəvac vermişdir. O həm də qədim Şərq ədəbiyyatının gözəl bilicisi idi. Axund Molla Məhəmmədbağır Qazızadə İrəvan progimnaziyasını bitirmişdir. Yüksək biliyə malik olan Axund Məhəmmədbağır Qazızadə həm də seminariyada

azərbaycanlı bölməsinə məsul idi. O, 1911-ci ildə bir neçə İrəvan müəlliminin Tiflisdə Azərbaycan dilində nəşr etdirdiyi "Ana dili" dərsliyinin həmmüəlliflərindən biri olmuşdur. Aparılan araşdırmalardan məlum olur ki, seminariyanın azərbaycanlı bölməsinə məsul olan Axund Məhəmmədbağır Qazızadə burada şəriət dərslərinin yüksək səviyyədə keçirilməsi, tədris şəraitinin yaxşılaşdırılması, soydaşlarının seminariyaya daha çox cəlb edilməsi istiqamətində böyük rol oynamışdır. Onu da qeyd edək ki, Axund Məhəmmədbağır Qazızadə İrəvanın ictimai-siyasi, mədəni həyatında böyük rol oynamış, demək olar ki, azərbaycanli əhalinin hüquqlarının keşiyində dayanan bir şəxs olmuşdur. O, azərbaycanlılarının elmə, təhsilə cəlb edilməsində böyük fədakarlıq göstərmişdir. Onun fədakər və qabaqcıl müəllim kimi əməyini yüksək qiymətləndirən soydaşlarımızın tələbi ilə o, dövlət tərəfindən gümüş medalla təltif edilmişdir.

İrəvan müəllimlər seminariyasının müəllim və tələbələrindən bəziləri həm dövri mətbuat orqanlarında öz yazılarını və məqalələrini dərc etdirir, həm də bir sıra mətbuat orqanlarının İrəvan üzrə müxbirləri idilər. Onlar İrəvanda Azərbaycan maarifinin, mədəniyyətinin, teatrının inkişafına da öz töhfələrini verirdilər. Onlar bir çox tamaşalarda müxtəlif rolların, hətta qadın rollarını belə, böyük cəsarətlə və məharətlə ifa etmişlər. Məlumat üçün onu da bildirək ki, İrəvanda Mirzə Cabbar Əsgərzadənin redaktorluğu və Mir Məhəmməd Mir Fətullayevin nasirliyi ilə işıq üzü görən həftəlik "Leylək" satirik jurnalının səhifələrində İrəvanda maarifçilik məsələlərinə də diqqət ayrılırdı. Xalqda elmə, maarifə böyük maraq oyanırdı. İrəvan Quberniyasında dünyəvi məktəblərin açılması və bu məktəblərdə təlim tərbiyənin, tədrisin pedaqoji prinsiplərə əsaslanması da jurnalda müəyyən yer tuturdu.

Bakıda "Bəhlul", "Ari", "Zənbur", Tiflisdə "Tartan-parton", Təbrizdə "Ənkabud", Tehranda "Suri-İsrafil", "Peşətdə", "Nəsimi-Şimal", nəhayət İrəvanda "Lək-lək" (Leylək) və "Burhani-həqiqət" durna qatarına qoşuldu. "Leylək" jurnalının ilk nömrəsi 22 fevral 1914-cu ildə çıxdı. Onun nəşrinə 22 fevral 1914-cü ildə

icazə verilmişdir.

İrəvan Müəllimlər Seminariyasının müəllimləri, tələbə və məzunları haqqında ardıcıl, sistemli məlumatlar obyektiv səbəblər üzündən tamamlanmamışdır.

Bununla bağlı müxtəlif mənbələrə istinadən aparılmış müqayisələr İsrafil Məmmədovun Ermənistan Mərkəzi Dövlət Tarixi Arxivinin müxtəlif illər üzrə qovluqlarından topladığı materiallara daha uyğun gəlir. Arxiv mənbələrinə görə 1881-1895-ci illərdə 123 nəfər; 1896-1913-cü illərdə 63 nəfər; 1914-1918-ci illərdə 86 nəfər bitirib. Beləliklə, fəaliyyət göstərdiyi 1881-1918-ci illərdə seminariyanın 272 məzunu olmuşdur. Yeri gəlmişkən, orada 1883-cü ildə 7 nəfər buraxılış qeydə alınıb. Bu səhvdir. Çox ehtimal ki, bu 7 nəfər məktəbə yüksək qiymətlə daxil olduqlarından birbaşa II sinifə qəbul olan 7 nəfərdir (H.B). Həmin ildə buraxılış mümkün deyildi. Ilk buraxılış 1884-cü ildə olmuşdur. Uşaqların birbaşa ikinci sinfə qəbulu ilə 1884-1895-ci illər üzrə 123 məzundan 26-i azərbaycanlı olmuşdur. Bütün məzunlar haqqında tam məlumat əldə edilmədiyindən 123-ün 26-a nisbətinə əsaslansaq 272 məzundan təqribən 60 nəfər azərbaycanlı məzun ehtimal etmək olar. Illər üzrə məzunların təsnifatı aşağıdakı kimi olmuşdur: 1883-7 ??; 1884-9; 1885-9; 1886-14; 1887-6; 1888-10; 1889-13; 1890-12; 1891-12;1892-14; 1893-5; 1894-9; 1895-14. 1896-1913-cü ilədək 63 nəfər məzun buraxılış olub. 1914-22; 1915-19; 1916-22; 1917-23; 1918-20; Bütün illər üzrə cəmi 272 nəfər məzun olmuşdur. O cümlədən 1890-cı ildə 12 məzundan 6-sı İrəvan Yelizavetpol məktəblərində; 4 nəfər kilsə ruhani; 1 nəfər Stavropolda, yəqin ki, Armavirdə işləyir. Onlardan 5-i qeyri-müsəlman, 7 nəfəri azərbaycanlı olubdur. 1884-1890-cı illər üzrə 39 məzundan 69 nəfər İrəvan-Yelizavetpol, 2 nəfər Bakı-Dağıstan, 1 nəfəri Kutaisi Stavropolda çalışıb, qalanlarn iş yerləru haqqında məlumat yoxdur. 1891-1895-ci illərdə 54 nəfər məzun olmuşdur. Onlardan İsrafil Məmmədov erməni arxivlərindən bir çoxlarının adlarını müəyyən etmişdir. Görkəmli İrəvanşünas Nazim Mustafa isə 317 nəfərin bitirdiyini, bunların da 64 nəfərinin azərbaycanlı

olduğunu qeyd edir. (Vedibasar qəzeti. 1-28 fevral 2022-ci il, № 03-09 (458-459)). C.Cəfərov və C.Allahverdiyev isə seminariyanın 1881-1915-ci ilədək 85 nəfər azərbaycanlının bitirdiyini qeyd edirlər. İsrafil Məmmədov müxtəlif mənbələrdən aşağıdakı məzunları müəyyən edə bilmişdir.

- Məmməd Əliyev iş №1530
- Əkbər Əkbərov- (1907-ci il məzunu fond 19, siy-2. Sıra 99)
- Əhməd Haşımov- F.19 siy 2, iş 362
- Əhmədbəy Qazıyev: 1891-ci ildə bitirib. Şəhadətnamə №223
- Cəfərbəy Cəfərbəyov-1901-ci ildə bitirib. Qovluq siyahı 395
- Əli Əşrəf Qazıyev-1886-ci ildə bitirib.
- Həsən bəy Axund Molla Xəilbəy oğlu Qazıyev 1900-cu ildə bitirib. Iş 522
- Cabbar Məmmədov (Mirzə Cabbar Mirzə Abbas oğlu Məmmədzadə-1894-cu ildə bitirib. Qovluq sırası 711)
- Fərəməz Mahmudbəyov, Əsgər bəy Baxşəlibəyovun oğlu Mahmudbəyov 1917-ci ildə bitirib qovluq sırası 799
- Məmməd bəy Əlibəy oğlu Mahmudbəyov ehtimal 1913-də bitirib, qovluq sırası 820
- Həsən bəy Nəsirbəyov: qovluq sırası 843, ehtimal ki, 1886-da bitirib.
- Saleh bəy Güllicinski Məşədi Teymur oğlu ehtimal 1915-də qovluq sırası 833
- Ağabəy Rəhimbəy oğlu Firudinbəyov 1905-ci il məzun qovluq sırası 924
- Abbas Allahverdi oğlu Qədimov 1901-də bitirib. F.133 siy. 1 i. 32

Cəfər Cəfərov və Cəlal Allahverdiyev isə kitabında əlavə olaraq aşağıdakı məzunları qeyd etmişlər:

Xəlil Məmmədəliyev; Qasım Fətəliyev; Mir Haşım bəy Vəzirov; Əli Sultanov; Fərrux Atakişibəyov; Əli Cəlilzadə; Mirzə Bağır Əliyev; Şıxəli bəy Firidunbəyov; İbrahim Şahtaxtlı; Əsgər Axundov; Şəmdin bəy Mahmudbəyov; İlya bəy Mahmudbəyov; Cəlil Məmməd oğlu Mirzəyev; Mirzə Məhəmməd Axundov; Tağı

bəy Şəfiyev; Həsən Səfərli; Hüseynəli bəy Rustəmbəyov; Vahid Mustafayev; İbrahim Şəfi; (Türkiyədə məşhur rəssam).

Çar Rusiyasının işğalından sonra 1918-ci ildə İrəvanda təşkil edilmiş erməni-azərbaycanlı qırğınları ucbatından Seminariyanın fəaliyyətinə son verildi. Ziyalılarımız Çar Rusiyasının işğalından sonra İrəvan xanlığı ərazisində Ermənistan Sovet Respublikasının yaradılmasından sonra mübarizəni yeni müstəviyə keçirməli oldular. Ermənistanda yeni quruculuq prosesində ermənilərlə paralel olaraq dövlət və partiya vəzifələrində geniş təmsilçiliyə nail olsalar da, sonralar Moskvanın himayəsi sayəsində həmvətənlərimiz sıxışdırılmağa, etnik çoxluğa çevrildilər.

Sonralar 1905-1906, 1918-1920, 1947-1953, 1988-1989-cu illərdə tətbiq edilən diskriminasiya prosesi hamılıqla deportasiya səviyyəsində başa çatdırıldı.

İrəvan Müəllimlər Seminariyasının azərbaycanlı müəllim, tələbə və məzunlarının qətiyyəti sayəsində 1924-cü ildə İrəvan Pedaqoji Texnikumu təsis edildi. Müxtəlif illərdə Texnikuma rəhbərlik edən Mehdi Kazımov, Bəhlul Yusifov Ermənistan adlı ərazidə azərbaycanlıların maariflənməsi ilə məşğul oldular.

SSRİ Nazirlər Sovetinin sədri İ.V.Stalinin əmrilə «Ermənistan SSR-dən kolxozçuların və digər azərbaycanlı əhalinin Azərbaycan SSR-nin Kür-Araz ovalığına köçürülməsi haqqında» 1947-ci ilin 23 dekabr tarixli 4083 nömrəli və 1948-ci il 10 mart tarixli 7754 nömrəli qərarlarına əsasən köçürülməsi vacib olan obyektlər siyahısına İrəvan Pedaqoji Texnikumu da daxil edildi. 1948-ci ildə İrəvan Pedaqoji Texnikumu Azərbaycana indiki Göygöl şəhərinə ( o vaxtlar Xanlar adlanırdı – H.B) köçürüldü.

Beləliklə, ənənəvi Azərbaycan müsəlman məktəblərinin əsasını təşkil edən maarifçilik ənənələrindən qaynaqlanan yeni dünyəvi məktəblərdə bilik alıb formalaşan Azərbaycan ziyalıları öz vətənlərində nəinki qabaqcıl dünya və Avropa mədəniyyətinin təbliğatçılarına, ölkədə mövcud olan ətalət, cəhalət və digər geriliklərə qarşı mübarizənin fəal iştiraksılarına çevrildilər, həmçinin məhz onların sırasından Azərbaycan milli şüurunun formalaşdırılmasın-

da mühüm rol oynamış görkəmli elm adamlarımız, ictimai-siyasi xadimlərimiz yetişdi ki, onlar da çarizmə qarşı azadlıq mübarizəsinin ön sıralarında dayanaraq müstəmləkə boyunduruğunun atılmasında, uzun illik fasilədən sonra Azərbaycan milli dövlətçiliyinin bərpasında əvəzsiz xidmətlər göstərdilər.

Rusiya işğalı dövrü Azərbaycana yönəlik təhsilə baxışın prioritetlərinin müəyyən edilməsi müasir təhsil quruculuğu kontekstində çox vacibdir. Unifikasiya niyyətindən qaynaqlanan ikili standartlardan milli kimlik uğrunda mübarizəni ehtiva edən tarixi-pedaqoji paradıqmanın formalaşmasınadək aparılan mucadilədə, yəni 200 illik bir dövrdə xalqımız iki imperiyanın – Çar və Sovet imperiyalarının, sonralar da bəzi yaxın qonşuların məlum basqılarına baxmayaraq şərəfli yol keçmiş, çağdaş, modern dövlət nümunəsini ortaya qoya bilmişdir. Azərbaycan müstəqillik əldə edəndən sonra müasir pedaqojı elmin tələblərinə cavab verən yeni milli təhsil quruculuğu mövcud tarixi təcrübə nəzərə alınmadan sözsüz ki, müvəffəqiyətlə yerinə yetirilə bilməzdi. Çünki Azərbaycanda dünyəvi ibtidai, orta və ümumtəhsil müəssisələrinin formalaşması prosesi məhz həmin dövrdə baş vermişdir. Zaman keçdikcə dünyəvi məktəb dini təhsilin domunant, hakim rolunu tam aradan götürməklə, avropa meylli təhsilin təşəkkülünü təmin etmiş, məhz bu tarixi təcrübə müsbət və mənfi cəhətlərilə həm Azərbaycan Demokratik Respublikasında, həm də sonralar Sovet Azərbaycanında milli təhsil quruculuğu prosesi üçün ciddi zəmin olmuşdur. Həmin tarixi dövrdə Azərbaycanda ictimai tərbiyənin və təhsilin istiqamətinin bütövlüklə dəyişməsi nəzərə çarpır. Təhsil ənənəvi, yəni orta əsr müsəlman dövrünün nümunələrinə arxalanan formadan sosiumun aktual tələblərinə cavab verən dünyəvi təhsil sisteminə doğru böyük təkamül yolu keçmişdir. Bu təcrübə müasir Azərbaycan pedaqoqikası üçün xüsusən qiymətlidir, çünki yeni tipli məktəb şəbəkəsinin formalaşması prosesində bir sıra məsələlər, xüsusilə, milli təhsil müəssisələrinin yaranması zəminində milli və beynəlxalq təcrübənin uzlaşması müəyyən dərəcədə həll olunmuşdu. Ondan əlavə, ilk Azərbaycan dili dərslikləri yaranır,

tədrisin metodikası işlənib hazırlanır, milli maarifçi ziyalıların, pedaqoqların formalaşması prosesi güclənir və başqa mühüm işlər görülürdü. Nəhayət, dünyəvi təhsilin və dini tərbiyənin "qızıl ortası"nı müəyyən etməyin optimal yolları müəyyən edilirdi ki, bu da həmin zaman kəsiyində olduğu kimi, müasir dövrdə də müsəlman ölkələri ilə qarşılıqlı əməkdaşlıq baxımından aktual olan ciddi məsələdir. 1881-ci ildən 1971-ci ilədək 90 illik bir dövrdə fəaliyyət göstərən İrəvan məktəbləri, onun müəllim və məzunlarının formalaşdırdıqları İrəvan ictimai-maarifçi mühiti ölkəmizdə əhatəli şəkildə araşdırılmış, xüsusən bu baxımdan Professor Hüseyn Əhmədovun "XIX əsr Azərbaycan məktəbi" əsərinin təkrar nəşri, "Avrasiya xaqlarının məktəb və pedaqoji fikir tarixinə dair oçerklər", "Azərbaycan məktəb və pedaqoji fikir tarixi", "Azərbaycan pedaqoji antologiyası (XIX əsr və XX əsrin əvvələri)" əsərləri, akademik İsa Həbibbəylinin "Nuhçıxandan Naxçıvana", "Cəlil Məmmədquluzadə: Mühiti və müasirləri" monoqrafiyasının təkmilləşdirilmiş ikinci nəşri və "Azərbaycan ədəbiyyatı: dövrləşdirmə konsepsiyası və inkişaf mərhələləri", Fərrux Rüstəmovun "Pedaqogika tarixi", Firəddin İbrahimovla Rüfət Hüseynzadənin "Pedaqogika tarixi" dərslikləri, eləcə də akademik Misir Mərdanovun "Azərbaycanın təhsil tarixi" çoxcildliyi, Cəfər Cəfərov və Cəlal Allahverdiyevin "İrəvan maarifçi mühiti", İbrahim Mollayevin "Orta əsr Azərbaycan mütəfəkkirləri təlim-tərbiyə haqqında", Rüfət Hüseynzadənin "Erkən orta əsrlər dövründə Azərbaycanda məktəb və pedaqoji fikir", akademik İsmayıl Hacıyevin "Naxçıvan Azərbaycanın dövlətçilik tarixində", akademik Zəhmət Şahverdiyevin "Naxçıvan bölgəsi XIX-XX əsrin əvvələrində", İbrahim Bayramov və Mustafa Nazimin "Həqiqətin onomastikası", İbrahim Bayramovun "Qərbi Azərbaycan: tarixi həqiqətlər və ya Ermənistanın etnik təmizləmə siyasəti", Vahid Rzayevin "Naxçıvan məktəb və pedaqoji fikir tarixi. XIX əsr-XX əsrin əvvələri", Həsən Bayramovun "Çar Rusiyasının Azərbaycandakı təhsil siyasəti: unifikasiya prosesi və tarixi-pedaqoji paradiqmanın formalaşdırılması", İsrafil Məmmədovun "Tariximiz, tor-

pağımız, taleyimiz" toplusu, nəhayət, Fərrux Rüstəmovun "İrəvan Müəllimlər Seminariyası və onun məzunları" və Cəlal Allahverdiyevin "İrəvan Müəllimlər Seminariyası" monoqrafiyaları son dövrlərin sanbalı tarixi-pedaqoji tədqiqatlarındandır.

Beləliklə, Çarizmin İrəvan və Naxçıvan xanlıqlarının işğalı nəticəsində İrəvan quberniyasının yaradılması ilə regionda yaranmış siyasi-ictimai-tarixi vəziyyət ərəb-farsdilli müsəlman təhsilindən rusdilli rəsmi təhsilə tarixi transformasiya mərhələsinə keçməklə İrəvanın ictimai-maarifçi mühiti də yeni prioritetlərin paradiqması zəminində formalaşmağa başladı.

İrəvan Müəllimlər Seminariyasının yaranması ilə bu proses yeni təşkilatlanma mərhələsinin mərkəzinə çevrildi. İrəvan dini və dünyəvi təhsilini təmsil edən klerikal maarifçi pleyada yuxarıda qeyd edilən nüanslar nəzərə alınmaqla Azərbaycan məktəb və pedaqoji fikir tarixinin tərkib hissəsini təşkil edərək bir tərəfdən İrəvanda dini təhsilin yeniləşməsi, yeni dünyəvi rusdilli təhsilin şəbəkələşməsi, bir tərəfdən də anadilli məktəblərin və müəllim kadrların hazırlığı sahəsində ciddi baza rolunu oynayan üsuli-cədid islahatçı təhsilin güclü bazası sayəsində ümumazərbaycan təhsil arealının formalaşmasında fəal iştirak etdilər. Beləliklə, İrəvan Müəllimlər Seminariyası və onun azərbaycanlı müəllim və məzunları aşağıdakı istiqamətlər üzrə yeni ictimai-maarifçi hərəkatın tarixi təşəkkülünə ciddi töhvə verdilər:

- seminariyanin tədris-pedaqoji mühitinə daxil olmaqla aktiv maarifçi fəaliyyətə başladılar;
- seminariyanın azərbaycanlı qisminin toparlanmasını təmin etdilər;
- gimnaziya ilə birlikdə tədris müəssisələri üçün proqramlar, köməkçi metodiki vəsaitlər, hətta dərslik hazırlığına girişdilər;
- "Lək-lək" və "Burhani-həqiqət" jurnallarının simasında mətbuatda maarifləndirici ictimai və tədris metodiki məqalələrlə çıxış etməklə həm də onun yaxın ərazilərə yayılmasını təmin etdilər;
- İrəvan seminariyası və gimnaziyası, eləcə də əyaləti əhatə

edən qəza kənd məktəblərinin şəbəkələşməsi zəminində yeni tipli milli maarifçiliyin təşəkkülünü təmin etdilər;

- "Molla Nəsrəddin", "Tüti", "Zənbur", "Iqdam", "İrşad", "Babayi-Əmir", "Məzəli", "Kaspi", "Şəlalə", "Sovqat", "Kəşkül", "Tərcüman" və b. jurnalların ərazidə yayılmasına rəhbərlik etməklə, müəllim və tələbələrin milli dünyagörüşünün formalaşmasına çalışdılar;
- Bakı, Təbriz, Gəncə, Qars, Tiflis, Qarabağ ictimai mühiti ilə qarşılıqlı əlaqədə həm regionlarda, həm də ölkədə məktəb və pedaqoji mühitin inkişafını yeni mərhələyə daşıyaraq mövcud tarixi şəraitdən maksimum bəhrələnməyə nail oldular;
- Seminariyanın müəllim və məzunları sonralar İrəvan-Naxçıvan ictimai maarifçi pleyadasının qabaqcıl dəstəsinin yetişməsini təmin etdilər ki, bununla da "...Azərbaycanda maarifçilik məfkurəsinin yaranması üçün münbit zəmin hazırlandı. Milli ziyalılar yeni yaradılan dünyəvi məktəbləri maarifçiliyin, milli şüur təliminin müqəddəs idealı hesab edirdilər.
- İstanbul, Təbriz, Qahirə, Nəcəf, Sank-Peterburqda və Kazanda müxtəlif sahələr üzrə təhsil alıb Vətənə dönən ziyalılar Rusiya-Türkiyə-İran üçgənində baş verən ictimai-siyasi proseslərə rəğmən anadilli maarifçiliyin tarixi transformasiyana nail olaraq ümumazərbaycan davasını milli mücadilənin əsas qaynağına çevirməklə Azərbaycan Demokratik Respublikasının yaranmasına, sonralar isə Azərbaycan SSR-in nümunəsində yeni ictimai-siyasi və elmi maarifçiliyin təşəkkülünü təmin edərək müstəqil Azərbaycan Respublikasına, üçüncü Respublikaya nail oldular.
- Nəhayət, Sovet Rusiyası dönəmində İrəvan xanlığı ərazisində Sovet Ermənistanın yaradılması ilə burada azərbaycanlılara qarşı etnik təmizlənmə dövlət siyasəti səviyyəsinə qaldırıldı. 1905-1906; 1918-1920; 1947-1953; 1988-1989-cu illərdə tətbiq edilən bu prosesin İmperiyanın mərkəzi olan Moskvadan dəstəklənməsi ilə ərazinin qədim sakinləri olan azərbaycanlıların İrana, Türkiyəyə, Azərbaycana, Orta Asiyaya və Rusiyaya köç etməsi Sovet Ermənistanında ikinci etnik topluma çevrilməsi ilə nəticələndi. So-

vet imperiyasının süqutu ilə proses yerli əhalinin tamamilə Azərbaycana deportasiya edilməsi ilə başa çatdı. Bununla İrəvanlılar mübarizəni yeni mərhələyə daşımalı oldular.

Tədqiqat materiaıarından da göründüyü kimi azərbaycanılar Çar və Sovet Rusiyası dövrlərində milli maarifçiliyin o cümlədən ana dilində tədris ideyasının, xüsusilə milli mətbuatın, təhsilin şəbəkələşməsi uğrunda daim mübarizə aparmaqla, həmin ərazilərdə var olmaq üçün hər cür imperiya və erməni təhdidlərinə qarşı dirənmişlər. Bu, sovet dövründə xüsusilə yeni xarakter almış, ölkəmizə qarşı nəinki Qarabağın ələ keçirilməsi, eləcə də bütün sərhədyanı ərazilərimizdə anneksiya prosesinin genişlənməsi ilə davam etmişdir. Bütün təhdidlərə baxmayaraq, 44 günlük ikinci Qarabağ savaşı ilə əldə edilmiş razılaşma sazişi uzunillik Şimal və Cənub təhdidlərini ciddi şəkildə məhdudlaşdırmış, Türk Dövlətləri Şurasının simasında ona yeni həlledici məzmun vermişdir.

Çox böyük güclərlə “Azərbaycan davası” adlı milli mücadilə bununla yeni mərhələyə daxil olmuş, regionun yeni mənzərəsinin taleyini həll etmişdir. Bütün Azərbaycan xalqının, o cümlədən onun tərkib hissəsi olan İrəvan azərbaycanlılarının da həm Çar, həm Sovet imperiyaları, həm də müstəqillik dönəmində birgə apardıqları milli maarifçilik ideyaları milli dövlətçilik kursu ilə uğurla başa çatdırılmış, hərtərəfli inkişaf etmiş müasir, modern Azərbaycan Respublikasını brendə çevirmişdir. Bu, uğurla davam etdirilən “Azərbaycan davası”nın dönməz xarakterinin təcəssümü, tarixi missiyanın təcəllasıdır!

Çox böyük güclərlə Azərbaycan davası adlı milli mücadilə sözün böyük mənasında dünən də davam edirdi, bu gün də davam edir, sabah da davam edəcəkdir! Bu, Azərbaycan milli və siyasi maarifçiliyinin üzərinə götürdüyü tarixi missiyadır!

***P.S.*** Ölkəmizdə İrəvan Ali Müəllimlər Seminariyasının açılması xüsusi ictimai-siyasi əhəmiyyətə malikdir. Hələ əvəllər Bakıda fəaliyyəti davam etdirilən İrəvan Azərbaycanlı Dövlət Dram Teatrı kimi mühüm siyasi-tarixi və milli əhəmiyyətə malik olmaqla elmi-pedaqoji ictimaiyyətin dəstəklədiyi sosial-maarifçi

çağırış kimi də dəyərləndirilməlidir. SSRİ Nazirlər Sovetinin 1947-ci il dekabrın 23-də "Ermənistan SSR-dən kolxozçuların və başqa əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar tədbirlər haqqında və 1948-ci il martın 10-da yenə həmin qərara əlavə olaraq qəbul edilən "Ermənistan SSR-dən kolxozçuların və digər azərbaycanlıların Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar tədbirlər haqqında" qərarlarından sonra İrəvanlıların daha kompakt köçürüldüyü Kür-Araz ovalığındakı Şirvan şəhərində həmin institutun açılması həm qaçqınların ruhuna ehtiram əlaməti olardı, həm də respublika səviyyəli şəhər statusu daşıyan iri yaşayış məskənlərimizdən yeganəsidir ki, orada ali məktəb yoxdur.

## XIX ƏSRDƏ PEDAQOJİ KADR HAZIRLIĞI PROBLEMLƏRİ

*Nigar Eldar qızı Zeynalova*
*nigarzeynalova777@gmail.com*
*ADU-nun Pedaqogika kafedrasının müdiri, dosent*

XIX əsr Azərbaycanda tərəqqi və maarifçilik dövrünın inkişaf mərhəsi hesab olunur. Milli dramaturgiyanın, realist nəsrin, təhsil mühitinin genişləndirilməsi və inkişafı xalqın demokratik baxışında, milli şüurunda əsaslı dəyişiklik yaradıldı. Ana dilində qəzet və jurnalların nəşri, yeni üslubda məktəblərin açılması, şübhəsiz ki, bu tərəqqini surətləndirirdi. Mədəni sərvətlərin və tərəqqinin daşıyıcısı, ilk növbədə, yaradıcılığını vətəndaşlıq hissləri ilə birləşdirən ziyalılar təbəqəsidir. Mədəniyyətin ən ümdə həlqəsi olan elm və təhsil ocaqlarının inkişafı, Azərbaycan ərazilərində genişləndirilməsi o dövrün aktual problemləri kimi nəzərə çarpır. Gənc nəslin təlim və tərbiyəsi ilə məşğul olan məktəb anlayışı məhz bu dövrlərdə yaranmağa başladı. Mollaxana və mədrəsələrdə təhsil alan gənclər məktəblərdə davamlı olaraq təhsillərini inkişaf etdirirdi.

Çar Rusiyasının tabeliyində olan Azərbaycan xalqı əzmkarlıq göstərərək tərəqqiyə can atırdı. Lakin ölkəmizdə olan kadr hazırlığı problemi təhsil mühitinin genişləndirilməsinə imkan vermirdi. 1881-ci illədək Azərbaycanda ali təhsil verən müəssisələr fəaliyyət göstərmirdi, Azərbaycanda Pedaqoji kadrların çatışmamazlığı məktəblərin bölgələrdə və regionlarda inkişafına zəmin yaratmırdı. Çox az sayda insan təhsil ala bilirdi ki, bu da kənd və şəhərlərdə müəllimlərə olan tələbatı ödəyə bilmirdi.

Bu dövrdə Azərbaycanda fəaliyyət göstərən şəhər və kənd məktəblərində, savad məktəblərində, qəza məktəblərində və s. tədris əsasən rus pedaqoqları tərəfindən aparılırdı, çünki yerli pedaqoqlar yox idi. Rusiyadan isə Azərbaycana tədris üçün gələn pedaqoqlar azlıq təşkil edirdi. Bu kimi problemlərin həlli üçün Çar Rusiyası Azərbaycanda Zemstvo məktəblərini təşkil edir. Bu tip məktəblərdə sinifdə uşaqlar 3 qrupa bölünürdü və eyni sinif otağında həmin qruplara bir pedaqoq tərəfindən dərslər tədris olunurdu.

1876-cı ildə Gürcüstanın Qori şəhərində Zaqafqaziya Müəllimlər Seminariyasında ibtidai sinif müəllimlərini hazırlığına başlanılmışdır. Qori Müəllimlər Seminariyası kimi tanılan bu seminariya Azərbaycan təhsil tarixində, Pedaqoji kadr problemlərinin həllində əsaslı rol oynamışdır.

Bu seminariyada uyezdni şkolanı bitirən 16-19 yaşlı yeniyetmələr təhsil ala bilərdilər. Təhsil 3 ili əhatə edirdi. Zaqafqaziya Müəllimlər Seminriyasının 1875-ci il 8 aprel tarixli “Əsasnamə”sinə görə 20 nəfər erməni və gürcü padşahlıq xərcləri hesabına, müsəlmanlar isə öz vəsaitləri hesabına burada təhsil ala bilərdilər.

İlk başda azərbaycanlıların bu seminariyada təhsil almasında çətinliklər olsada, dini baxımdan ayrı seçkilik qoyulmurdu. Lakin 1902-ci ildə Qori Seminariyasına direktor təyin olunan ermənipərəst Miropyev azərbaycanlılara qarşı amansız bir mövqe tutur və bir neçə azərbaycanlını haqsız olaraq seminariyadan qovdurur. Tənəffüsdə ana dilində danışmaq azərbaycanlı tələbələrə qadağan edilir, hətta Üzeyir bəy Hacıbəyliyə ana dilində danışdığına görə töhmət verilir. Butün haqızlıqdan cana doyan Borçalı Mustafa "vəh-

şi asiyalı" sözünə görə erməni Ter-Arutyunovu öldürür. Bu hadisədən sonra Mirzə Fətəli Axundov, Mirzə Hüseyn Qayıbzadə Qafqaz canişini, knyaz Mixail Nikolayeviç Romanova dəfələrlə məktub yazaraq qeyd edirlər ki, məktəblərdə heç olmasa kargüzarlıq vəzifəsində bir azərbaycanlının işləməsi üçün onların burda təhsil alması labüddür. Fransada, Almaniyada, Rusiyada təhsil alan Azərbaycanlılar heç də geridə qalmış xalq deyillər. Azərbaycanlıların bu seminariyada təhsil almalarının çətinliyini əsaslandıraraq seminariyanın Azərbaycanda filialının açılmasını xahiş edirlər.

Qori müəllimlər seminariyasında təhsil alanlar sırasında Firidun bəy Köçərli, Soltan Məcid Qənizadə, Üzeyir bəy Hacıbəyli, Cəlil Məmmədquluzadə, Rəşid bəy Əfəndiyev, Müslüm Maqomayev, Süleyman Sani Axundov, Hacıbaba Süleymanov, Nəriman Nərimanov, Osman Əfəndiyev, İsfəndiyar Vəkilov, Fərhad Ağazadə və s. kimi Azərbaycan ziyalılarının adlarını qeyd etmək olar.

1906-cı ildə Azərbaycan Müəllimlərinin I qurultayında Zaqafqaziya Müəllimlər Seminariyasının 1879-cu ildə açılmış Azərbaycan bölməsinin Azərbaycanın hansısa bir şəhərinə köçürülməsi haqda qərar qəbul edilmişdi. 40 il Qori şəhərində fəaliyyət göstərən seminariyanın Azərbaycan bölməsi 1918-ci ildə Qazax şəhərinə gətirildi. Bu Firudin bəy Köçərlinin fədakarlığı və maddi vəsaiti hesabına baş tutdu.

Digər ali təhsil verən müəssisələrdən biri də İrəvan Müəllimlər Seminariyasıdır. Zaqafqaziya müəllimlər Seminariyasından fərqli olaraq İrəvan Müəllimlər Seminariyasında Azərbaycan bölməsi fəaliyyət göstəriridi və seminariyada əsasən azərbaycanlılar təhsil alırdı. Seminariyada dərs deyən ilk azərbaycanlı müəllim dövrünün görkəmli alimi, maarifçi-pedaqoq Axund Məmmədbağır Qazızadə olmuşdur. İrəvan Müəllimlər Seminariyasında şəriət və Azərbaycan dilindən dərs deyən Molla Məmmədbağır Qazizadə müqəddəs Nəcəf şəhərində dini təhsil almışdır. Şəriət və Azərbaycan dilindən dərs deyən Firudin bəy Köçərli Zaqafqaziya Müəllimlər Seminariyasında təhsil almışdır, Həmid bəy Şahtaxtinski, Mirzə Məmmədvəli Qəmərlinski və Mirzə Cabbar Məmmədzadə

isə elə seminariyada təhsil almış pedaqoqlar idi.

İrəvan Müəllimlər Seminariyasını bitirən tələbələr sırasında Rəşid bəy Şaxtaxtinski, Həmid bəy Şahtaxtinski, Haşım bəy Nərimanbəyov, Haşım bəy Vəzirov, Tağı bəy Səfiyev, Vahid Musabəyov və s. adlarını qeyd etmək olar.

Lakin İrəvan Müəllimlər Seminariyasının taleyi daha fərqli oldu. 1918-ci illərdə ermənilər tərəfindən azərbaycanlıların kütləvi şəkildə soyqırımına məruz qalması nəticəsində İrəvan Müəllimlər Seminariyasınında fəalyyəti dayandırıldı.

Azərbaycan təhsilinin inkişafında və pedaqoji fikir tarixinin formalaşmasında hər iki təhsil müəssisələrini bitirən mütəxəssisələrin rolu böyük olmuşdur. Yeni dövlət məktəblərinin və şəxsi məktəblərin açılmasında bu mütəxəssislər yaxından iştirak etmişdir. Əhalinin savadlanması və maarifləndirilməsi istiqamətində daim çalışmışdılar:

- Rəşid bəy Əfəndiyevin “Uşaq bağçası”,“Bəsirətul -Ətfal”;
- Mahmud bəy Mahmudbəyovun “Türk əlifbası və ilk qiraət”, eləcə də bir neçə müəllimlə birgə tərtib etdiyi “İkinci il”, “Üçüncü il”, “İmlamız”;
- Firudin bəy Köçərlinin “Balalara hədiyyə”;
- Nəriman Nərimanov, Üzeyir Hacıbəyli, Soltan Məcid Qənizadənin ana dilimizə dair qrammatika kitabları, lüğətləri və s. bunun bariz nümunəsidir.

## Ədəbiyyat


1. Cəfərov C. Allahverdiyev C. Təhsil tariximizdən: İrəvan pedaqoji məktəbi. - Bakı: “Orxan NPM”, - 2017, - səh 464
2. Quliyev Ə. Qazax müəllimlər seminariyasının yaranması tarixindən. URL: https://www.muallim.edu.az/news.php?id=3022
3. Məhərrəmov Z. İrəvanda məktəbdarlıq və maarifçilik (1800-1920-ci illərdə ədəbi-mədəni mühit), Bakı, “Nurlan”, 2010, - 320 səh.

# XIX ƏSRİN İKİNCİ YARISI, XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ İRƏVANDA MAARİFÇİLİYİN İNKİŞAFI

***Fərrux Rüstəmov***
***Azərbaycan Dövlət Pedaqoji Universiteti professoru***

1.İrəvan quberniyasında yaşayan azərbaycanlılar Bakı və Gəncə quberniyalarından sonra sayca üçüncü yeri tuturdu. Orta əsrlərdə olduğu kimi, XIX əsrin əvvəllərində də İrəvanda uşaqların təhsili məscidlərin nəzdində və şəxsi evlərdə təşkil edilən ənənəvi məktəb və mədrəsələrdə həyata keçirilirdi. Məktəb işləri ruhanilərin nəzarətində idi. Burada ənənəvi məktəb və mədrəsələrin geniş şəbəkəsi mövcud idi. İrəvanın əhalisinin kameral siyahıya alınmasını həyata keçirən İ.İ.Şopenin yazdığına görə, *XIX əsrin 20-ci illərinin sonunda İrəvanda 8 böyük məscid fəaliyyət göstərirdi ki, bunlardan da 2-si qalanın içərisində* yerləşirdi [1,s.467]. İrəvanda fəaliyyət göstərən məscidlərin demək olar ki, hamısında mollaxana (ibtidai müsəlman məktəbi), böyük məscidlərdə isə mədrəsələr fəaliyyət göstərirdi. Yalnız Hüseynqulu xan məscidində 200 şagird oxuyurdu. Yerli azərbaycan əhalisi böyüyən nəslin dini təhsil almasına böyük önəm verirdi. Mədrəsələrdə təhsilin məzmunu digər Şərq mədrəsələrində olduğu kimi, mürəkkəb və çətin idi. Burada ərəb dilinin qaydaları, tarix, təftil, təcvid "Quran"ın təfsiri, hədislər, fiqh və məntiq, riyaziyyat, həndəsə, astronomiya, nəzəri fəlsəfə və tibb öyrədilirdi. 1864-1865-ci illərdə İrəvan quberniyasında 183 məscid, 70 ibadət evi azərbaycanlı əhalinin dini ehtiyaclarını qarşılayırdı.

2.1862-ci ildə İrəvan quberniyasında 206 təhsil müəssisəsi (dini və dünyəvi) fəaliyyət göstərirdi ki, orada 293 müəllim (azərbaycanlı, erməni və rus) dərs deyirdi. Təhsil alan şagirdlərin 4256-sı oğlan, 117-si qız idi ki, onlardan 1500 nəfərdən çoxunu müsəlmanlar təşkil edirdi [2,s.30].

3.İrəvanda yeni məktəb sisteminin yaradılması XIX əsrin 30-cu illərinə təsadüf edir. Yerli xalqları itaətdə saxlamaq, ***ruslaşdırma,***

***xristianlaşdırma*** və ***rusiyalaşdırma*** siyasətini həyata keçirmək, çarizmin hökmranlığını möhkəmləndirmək məqsədilə milli ucqarlarda qəza məktəblərinin açılmasını nəzərdə tutan 2 avqust 1829-cu il tarixli Zaqafqaziya məktəblərinin ilk nizamnaməsi qəbul olundu.

4.Zaqafqaziya məktəblərinin ilk nizamnaməsinə görə, Cənubi Qafqazın Gəncə, Şuşa, Nuxa (Şəki), Şamaxı, Quba, Bakı, Naxçıvan Ordubad, İrəvan şəhərlərində, Qazax distansiyasında və digər bölgələrdə 20 qəza məktəbi açılmalı idi. Azərbaycan ərazisində ilk qəza məktəbi 1830-cu il dekabrın 30-da ***Şuşa şəhərində*** 19 şagirdlə fəaliyyətə başladı. Sonrakı illərdə Nuxada (1831), Bakıda (1832), Gəncədə (1833), Şamaxı (1837), Naxçıvanda (1837) qəza məktəbləri açıldı.

5.İrəvanda ikisinifli ***qəza məktəbi*** 14 yanvar 1832 -ci ildə açıldı [3,s.97]. Bəzi tədqiqatlarda [4,s.137] qəza məktəbinin 11 yanvar 1931-ci ildə açıldığı bildirilir. Məktəbin ilk müdiri Moskva Universitetinin məzunu ***F.Zuboev*** olmuşdur. 8 fevral 1834-cü ilin məlumatına görə, qəza məktəbində 37 şagird təhsil alırdı. İrəvan qəza məktəbinin direktoru F.Zuboevun verdiyi məlumata görə 1836-cı ildə İrəvan şəhərindəki qəza məktəbində 60 şagird təhsil alırdı. Bundan başqa şəhərdə Eçmiədzindən köçürülmüş 1 erməni və 8 tatar (azərbaycanlı -R.F.) məktəbi fəaliyyət göstərirdi. Şagirdlər sosial vəziyyətlərinə uyğun olaraq 20 qəpikdən 1 rubla (gümüş pulla) kimi ödəniş edirdilər. İrəvan qəza məktəbi 1839-cu ildə üçsinifli qəza məktəbinə çevrildi. Məktəbin müəllim heyətinin tərkibi 5 nəfər təsdiq edildi. Həmin müəllimlərdən biri rus dili, coğrafiya və tarix, ikincisi hesab, hüsnxət, rəsm və rəsmxət, üçüncüsü isə birinci sinifdə oxu və yazı, hesabdan ilk dörd əməli öyrətməli, iki müəllim isə ilahiyyat və dilləri tədris etməli idi.

6.1869-cu ildə üçsinifli qəza məktəbi 4 sinifli progimnaziyaya çevrildi. Progimnaziyanın nəzdində 20 nəfərin yaşaması və təhsil-tərbiyə alması üçün pansion təşkil edildi. İrəvan progimnaziyasında 1869-1879-cu illərdə 2621 nəfər təhsil almşdır ki, ondan da 238 (9%) nəfərini azərbaycanlılar təşkil etmişdir.

7. 31 mart 1881-ci ildə isə *İrəvan kişi progimnaziyası* 8 sinifli

***İrəvan kişi gimnaziyasına*** çevrildi. 1883-cü ilin yanvarın 1-də gimnaziyada 231 nəfər təhsil alırdı ki, onlardan da 37 nəfəri azərbaycanlı idi [5]. 1885-ci ildə gimnaziyanın 6 nəfərdən ibarət ilk buraxılışı olub. Görkəmli Azərbaycan maarifçisi F.B.Köçərlinin [6] pedaqoji fəaliyyətinin mühüm bir hissəsi bu gimnaziya ilə bağlı olmuşdur. O, 1885-1895-ci illərdə İrəvan gimnaziyasında Azərbaycan dili müəllimi işləyib, hətta bir müddət həm də şəriət dərslərini keçib.

8. İrəvanlı ziyalılar yeni məktəbləri maarifçiliyin milli şüur təliminin müqəddəs idealı hesab edirdilər. Onlar dərk edirdilər ki, orta əsrlərdə Azərbaycanda elmin, mədəniyyətin, maarifin inkişafında çox böyük tarixi rol oynamış məktəb və mədrəsələr yeni maarifçiliyin ideya və təşkilati mərkəzi, hərəkat və fəaliyyət orqanı ola bilməz. Yeni maarifçilik hərəkatının qarşısında onu dəyişmək, yeni dövr məktəbinə çevirmək dururdu. Məşədi İsmayıl Hacı Kazımzadə (1845-1888) və Mirzə Kazım Əsgərzadə (1832-1893) 1882-ci ildə, Mirzə Həsən Rüşdiyyə (1851-1944) 1883-cü ildə Təbrizdən İrəvana gələrək orada yeni üsullu məktəblər açdılar.

9.İrəvan maarifçilərinin və 104 nəfər şəhər sakininin tələbi, təklifi və vəsaiti hesabına İrəvanda yeni bir ***rus-tatar*** (Azərbaycan -F.R.) ikisinifli oğlan məktəbi açıldı. Bu məqsədlə xüsusi komissiya yaradılmışdı. Komissiya üzvləri dövlət tərəfindən belə bir məktəbin açılması təşəbbüsü ilə çıxış etsələr də istəklərinə nail ola bilmədilər. Ona görə də komissiya üzvlərinin təklifi ilə şəhər sakinlərdən yığılan pul vəsaiti ilə məktəb açmaq qərarına gəlindi. 14 nəfərlik komissiyanın tərkibinə *Abbasqulu xan İrəvanski* (sədr), İrəvan gimnaziyasının Azərbaycan dili müəllimi *İsmayıl bəy Şəfibəyov*, İrəvan Müəllimlər Seminariyasının Azərbaycan dili müəllimi *Rəhim Xəlilov, Eynulla Sultanov* (katib) və b. daxil edildi. Məktəbin açılışı 21 oktyabr 1896-cı ildə baş tutdu. İlk tədris ilində məktəbə nəzərdə tutulan 70 şagird əvəzinə 110 şagird qəbul edildi. 1899-cu ildə Haşım bəy Nərimanbəyovun təşəbbüsü ilə məktəbin nəzdində yaşlı müsəlmanlar üçün ***axşam kursları*** açılmışdır. Orada rus dili, hesabdan dörd əməl və ana dili öyrədi-

lirdi. Rus dili və hesab fənnini Haşım bəy Nərimanbəyovun özü, ana dili fənnini ***Mirzə Məmmədvəli Qəmərlinski*** tədris edirdi.

10.İrəvanda azərbaycanlı qızların təhsilə cəlb olunmasında 1877-ci ildə xanım Stasyuleviç tərəfindən açılan Sofiya pansionu mühüm rol oynadı. Pansion şəxsi təhsil müəssisəsi idi. S.Zelenskinin verdiyi məlumata görə, 1877-ci ildə pansionda təhsil alan 105 şagirddən 58 nəfəri azərbaycanlı, 43 nəfəri erməni idi [7]. Pansionda təhsil alanların 55,2 %-nin azərbaycanlı qızlardan ibarət olması və erməniləri üstələməsi o dövr üçün çox yüksək göstəricidir.

11.Bakıda ilk müsəlman rus-müsəlman qız məktəbinin açılması məşhur messanat Hacı Zeynalabdin Tağıyevin adı ilə bağlı olduğu kimi, İrəvanda ilk rus-müsəlman məktəbinin açılması ***Məhəmmədqulu bəy Kəngərlinin*** adı ilə bağlıdır .

12.XIX əsrin sonu, XX əsrin əvvəllərində İrəvanda təhsil və maarifçilik mühitinin inkişafı qızların ibtidai təhsillə yanaşı, həm də gimnaziya və ali təhsil almasına imkan vermişdi. 1911-ci ildə 1-ci və 2-ci Bakı qadın gimnaziyalarında cəmi 17 nəfər azərbaycanlı qız təhsil alırdısa, İrəvan qadın gimnaziyasında 16 nəfər azərbaycanlı qız oxuyurdu. İrəvan qadın progimnaziyasında 4 nəfər azərbaycanlı qız oxuduğu halda, Balaxanı qadın progimnaziyasında oxuyan 76 nəfər qızın içərisində 1 nəfər də olsun azərbaycanlı yox idi. İrəvanın vitse-qubernatoru İsmayıl bəy Qazıyevin qız nəvəsi *Tacı xanım* İrəvan qadın gimnaziyasını qızıl medalla bitirmişdi. İrəvan şəhər dumasının üzvü olan Mir Bağır Mirbabayevin hər iki qızı *Kübra və Ruqiyyə* İsveçrədə ali təhsil almışdı. Ruqiyyə xanım tibb, Kübraxanım isə ümumi humanitar fənlər ixtisasına yiyələnərək İrəvana qayıtmışdılar.

Avropaya ali təhsil almağa gedən ilk azərbaycanlı qadın İsasultan Nəcəf oğlu Şahtaxtinskinin qızı ***Leyla xanım Şahtaxtinskaya*** olmuşdur. O, 1886-cı ildə Qars şəhərində anadan olmuş, 1902-ci ildə Tiflis Nücəba Qızlar İnstitutunu bitirmişdir. H.Z.Tağıyevin vəsaiti ilə İsveçrəyə ali tibb təhsili almağa göndərilmiş, 1904-1907-ci illərdə İsveçrədə Tibb Universitetində oxumuşdur. Təhsilini başa vurmasına 2 il qalmış xəstələnərək orada vəfat etmişdir.

Molla Nəsrəddin" jurnalının 1908-ci ilin 52-ci nömrəsində Leyla xanım haqqında dərc edilən nekroloqda deyilirdi: *“İki ildən sonra həkimlik dərsini qurtarıb şəhadətnamə alacaq idi və gəlib vətənində biçarə müsəlman övrətlərinin min-min dərdlərinə şəfa verəcəkdi...**Yevropada elm dalınca gedən müsəlman qızlarından Leyli xanımdan savayı biz özgəsini eşitməmişik.”***

**Ədəbiyyat**


1. Шопен, И.И. Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи: В тип. Имп. Академии наук, 1852
2. Сборник статистических сведений о Кавказе.Том I. (составитель: И. Воронов). Тифлис – 1869
3. Məmmədov İ. İrəvan dəftəri. Bakı:Adiloğlu, 2002
4. Əmrahov Z. İrəvan quberniyasının tarixi (1850-1917). Bakı:Nurlar, 2022
5. Ermənistan DTA .f.1.siy.1,iş.311, v.1
6. Rüstəmov F. Firidun bəy Köçərli müəllim kadrları hazırlığı haqqında //”Kaspi” qəzeti, 26 noyabr 2014-cü il


## XIX ƏSRİN SONU-XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ AZƏRBAYCANDA QIZ MƏKTƏBLƏRİNİN AÇILMASININ SOSİAL-PEDAQOJİ ƏHƏMİYYƏTİ


***Rəhimə Mahmudova***
***BDU, Pedaqogika kafedrasının dosenti***


XIX əsrin ortaları - XX əsrin əvvəllərində Azərbaycanda baş verən tarixi hadisələri araşdırarkən Azərbaycan qadınlarının cəmiyyətdəki sosial-siyasi vəziyyətlərindən danışmamaq olmaz. Bu dövrdə Azərbaycanı işğal etmiş Rusiyada və Avropada qadın azadlığı ilə bağlı baş verən hadisələr Şimali Azərbaycanda da öz

əksini tapmışdır. XIX əsrin ikinci yarısında Şimali Azərbaycanda həm ədəbiyyat, həm də mədəniyyət sahəsində böyük uğurlar qazanmış qadınlar yaşayıb yaratmışlar. Həmin qadınlar arasında Qarabağ xanının qızı Xurşudbanu Natəvanın adını xüsusilə qeyd etmək lazımdır. XIX əsrin tanınmış şairəsi olan bu qadın Şuşa şəhərindəki «Məclisi-Fəramuşan» (1870) və «Məclisi-Üns» (1872) kimi ədəbi cəmiyyətlərin əsasını qoymuşdur.

XIX əsrin əvvəllərində Azərbaycan xalq maarif sistemində qadın təhsili ilə bağlı heç bir layihə yox idi və bu səbəbdən qızlar evlərdə xüsusi qadın müəllimlərdən təhsil alırdılar. XIX əsrin əvvəllərinə aid mənbələrdən məlum olur ki, Bakıda İçərişəhərdə 25 nəfər qız 2 qadın müəllimin yanında təhsil alırdı. Sonralar Azərbaycanın müxtəlif bölgələrində dövrün çətinliyinə baxmayaraq bir sıra qız məktəbləri fəaliyyətə başladı. Qadın təhsilinin ilk qaranquşları olan belə məktəblər Şuşa, Şamaxı, Gəncə və Nuxada açılmış və bu məktəblər qadın təhsili sahəsində əhəmiyyətli rolu ilə bərabər, həm də onun inkişafına təsir etmişdir. Belə məktəblərdən biri haqqında, 1850-ci ildə Şamaxının maarifpərvər qadını Güllübəyim xanım tərəfindən açılmış qız məktəbi haqqında akademik H.Əhmədov yazır: «Sırf ruhani məktəblərindən fərqli olan bu məktəbdə şəriət ilə yanaşı ana dili, hesab, fars dili, tarix, nəğmə və rəsm tədris edilirdi. Bundan əlavə əl işi, güləbətin sapla tikiş tikmək öyrədilirdi. Güllübəyim xanımın məktəbi özünün orijinallığı və mütərəqqiliyi ilə diqqəti cəlb edirdi».

Çarizmin Azərbaycanda həyata keçirdiyi kadr siyasətində rus dilinə daha çox önəm verilməsi rus qız məktəblərinin açılmasına rəvac verdi. Bu məktəblərin açılmasında ilk təşəbbüs qaldıran Qafqazın o dövrdəki canişini M.S.Vorontsov 1846-cı ildə Tiflisdə «Müqəddəs Nina» adlı xeyriyyə cəmiyyətinin təsis edilməsinə nail oldu. Elə həmin ildə Tiflisdə, daha sonra Şamaxıda eyniadlı qız məktəbi yaradıldı və çox keçmədi ki, Şamaxıda yaradılmış «Müqəddəs Nina» qız məktəbi Zaqafqaziyanın şərq hissəsində və Xəzərətrafı vilayətlərində mövcud olan ən böyük yeganə qız məktəbinə çevrildi. «Müqəddəs Nina» xeyriyyə cəmiyyətinin Şa-

maxı qız məktəbinin cəmi 11 il yaşamasına baxmayaraq, bu məktəb Azərbaycanda qadın təhsilinin inkişafına xeyli təsir göstərdi. Təhsilin rus dilində aparılması və şagird heyətinin varlı təbəqədən olması bir daha onu sübut edirdi ki, qadın və qızların təhsilli olması və onların cəmiyyət daxilində müəyyən fəaliyyət göstərməsi artıq yüxarı təbəqələr tərəfindən müsbət qarşılanır, qadınlara münasibət az da olsa müsbət tərəfə dəyişirdi.

Sonralar məktəb Bakıya köçürüldü və «Müqəddəs Nina» qız məktəbi adlandırıldı.

XIX əsrin ortalarında Qafqazdakı sosial-siyasi və mədəni durumun təhlili onu deməyə əsas verir ki, bu regionda qadın təhsili çox ağır vəziyyətdə idi. Yeganə pedaqoji cəhətdən düzgün təşkil edilmiş «Müqəddəs Nina» məktəbi istisna olmaqla, qızların təhsilinə cəmiyyət çox biganə idi və azərbaycan qızları da dünyəvi təhsildən məhrum idilər ki, bu da qadınlarla kişilərə dövlətin münasibətindəki asimetriyasını əks etdirirdi.

1858-ci il mayın 30-da hökumətin qız məktəblərinin ilk nizamnaməsini təsdiq etməsi ölkənin ictimai həyatında yaranan canlanmanın qadın təhsilinə də sirayət etməsindən xəbər verirdi. XIX əsrin ortalarında qız məktəblərinin açılmasına 60-cı illərdə dünyada və Qafqazda cərəyan edən hadisələrin də güclü təsiri oldu. 1864-cü ildə Zaqatalada yaradılan qız məktəbi az bir vaxt içərisində əhalinin rəğbətini qazandı və əhalinin qadın təhsilinə tələbatının artması ilə bağlı olaraq 1904-cü ildə Marinski qız məktəbinə çevrildi.

Qadın təhsilinə dövlətin diqqətinin az da olsa artması 1870-ci ildə hökumətin qız gimnaziya və progimnaziyalarının yeni nizamnamələrini təsdiq etməsi ilə nəticələndi. Bu nizamnamə qızların təhsilini 7 sinif olmaqla 7 il müddətinə nəzərdə tuturdu.

XIX əsrin sonlarına doğru Avropada feminist qadın hərəkatlarının getdikcə güclənməsi Rusiyanın və onun işğalı altında olan xalqların qadın azadlığı hərəkatına öz güclü təsirini göstərməkdə idi. Qadın təhsilinin cəmiyyətin inkişafına aparan yolda əsas amil olmasını yaxşı başa düşən qabaqcıl fikirli insanlar hər vasitə ilə

qadın təhsilini Azərbaycanda təbliğ edir və onun əldə edilməsinə çalışırdılar. Məhz bu təbliğat və mübarizə nəticəsində XIX əsrin 70-ci illərində Şuşada xüsusi qız məktəbi yaradıldı ki, onun da məqsədi qəbul edilmiş nizamnaməyə əsasən milliyyətindən və dinindən asılı olmayaraq qızlara ibtidai təhsil vermək idi. 1894-cü ildə bu məktəb Marinski qız məktəbinə çevrildi.

Yuxarıda deyilənlərdən belə nəticəyə gəlmək olar ki, XIX əsrdə Azərbaycanda qadın təhsilinin vəziyyəti heç də ürək açan deyildi və məktəb yaşlı qızların böyük əksəriyyəti yenə də təhsildən kənar idi. Qızların cəmiyyətdə rolunu qəbul etməyən və şəriət qanunlarını əsas götürən bir çox valideynlər öz qızlarını ruhani məktəblərində oxutmaqla kifayətlənirdilər. Əslində qadın təhsilinə ögey münasibət heç də Azərbaycanda yaşayan bütün millətlərə aid deyildi. Belə ki, əhalinin digər millətlərdən olan hissəsi üçün təşkil edilən və cəmi 5 məktəbdən ibarət olan bu rus qız məktəbləri daha mütəşəkkil xarakter daşıyıb, varlı təbəqəyə aid idi.

Azərbaycanın bir çox bölgələrində açılan qız məktəbləri, o dövrdə azərbaycanlı qızların digər millətlərin nümayəndələri ilə birlikdə təhsil almaları cəmiyyətdə təhsil və tərbiyə sahəsində gedən tərəqqidən xəbər verirdi. XIX əsrin sonlarına doğru qadınların sosial-siyasi vəziyyətlərinin yaxşılaşmasında, onların kişilərlə hüquq bərabərliyinə nail olmalarının yeganə çıxış yolunu təhsildə görən Azərbaycan maarifçiləri bu yolda durmadan mübarizə aparırdılar. Qadın təhsilinin qızğın tərəfdarı olan H.Zərdabi bu xüsusda yazırdı: «Kişilər üçün nə qədər məktəb açsaq da arzu etdiyimiz məqsədə çata bilməyəcəyik. Qadınlar elmdən və təhsildən kənarda qalırlar, halbuki gənc nəslin tərbiyəsində qadın böyük rol oynayır» . Qadın təhsili ilə bağlı problemlərin həllində bütün vasitələrdən istifadə edən maarifpərvər özünün təsis etdiyi «Əkinçi» qəzetində bu məsələyə mütəmadi olaraq xüsusi yer verirdi və onun pedaqoji-publisistik fəaliyyətində qadın təhsili məsələsi mühüm yer tuturdu.

Qadın təhsilinin əhəmiyyətini dərindən dərk edən mütərəqqi fikirli insanlar bu nəticəyə gəlirdi ki, qızlar üçün ayrıca məktəblər

açılmasa belə onları heç olmasa oğlan məktəblərinə çəlb etmək lazımdır. Belə bir mütərəqqi addımı atanlardan biri mütəfəkkir yazıçı C.Məmmədquluzadə olmuşdur. Hələ 1890-1897-ci illərdə Nehrəm kəndində məktəb müdiri vəzifəsində çalışan C.Məmmədquluzadə qızları oğlanlar təhsil alan məktəbə cəlb etməyə nail olmuş və nəticədə 8 qız bu məktəbdə təhsil almağa başlamışdır. Tarixi baxımdan əhəmiyyətli olan bu addımı görkəmli maarifçi-demokrat belə səciyyələndirir: «Mənə həvalə olunmuş məktəbdə bu ilin yanvar ayında 8 nəfər tatar (azərbaycanlı-E.M.) qızının təhsilə başlamasını Siz əlahəzrətə bildirməyi özüm üçün şərəf sayıram». O bununla kifayətlənməyib həmin qızlardan xüsusi hazırlıq sinfi təşkil etmək xahişi ilə İrəvan-Gəncə quberniyasına, xalq məktəbləri direktoruna müraciət edir. Belə bir məktəbin açılmasına nail olduqdan sonra orada dərs demək və qızların təlim-tərbiyəsinə nəzarət üçün qadınları bu işə cəlb edir, çünki qızlara kişi müəllimlərin dərs deməsi avam kütlə tərəfindən çox vaxt yaxşı qarşılanmırdı.

C.Məmmədquluzadənin qadın təhsili ilə bağlı apardığı işlər Xalq məktəbləri rəhbərliyi tərəfindən yüksək qiymətləndirilmişdir. Bunu onun adına göndərilmiş məktub da təsdiq edir. Məktubda deyilirdi: «Sizə tapşırılmış məktəbə oxumaq üçün 8 qızın daxil olduğuna dair bu il yanvarın 18-də yazdığınız 10№-li raportla əlaqədar olaraq, hörmətli cənab, müsəlman qızları arasında savadı yaymaq üçün göstərdiyiniz qayğıkeşlik üçün Sizə səmimi təşəkkürlərimi bildirməyi özüm üçün xoş vəzifə hesab edirəm».

Artıq XIX əsrin 90-cı illərindən etibarən Azərbaycanın bir sıra şəhərlərində oğlan məktəbləri yanında qız siniflərinin açılması təşəbbüsü yüksək vüsət aldı. Belə məktəblərdən Naxçıvanda M.T.Sidqinin, Nuxada Məmməd Əmin Şeyxzadənin təşkil etdikləri məktəbləri misal çəkmək olar.

Azərbaycanda qız məktəblərinin açılmasının qaçılmaz bir proses olduğunu başa düşən hökumət dairələrinin yetərincə olmasa belə qız məktəblərinin açılmasına icazə verməsi maarifçiləri yeni tipli və daha yüksək nüfuza malik qız məktəblərinin açılmasına

ruhlandırırdı. Bu sahədə ilk təşəbbüs H.Zərdabiyə aid idi və «o, Azərbaycan qadınlarının maariflənməsini həm cəmiyyətdə öz hüququ uğrunda mübarizəsi üçün, həm də gənc nəslin təlim-tərbiyəsinin yaxşılaşmasına ciddi təsir göstərən mühüm və qüdrətli amil hesab edirdi».

Onun 1896-cı ildə təhsil müddəti 3 il olmaqla birsinifli məktəb açmağa hazırlaşması xəbəri bölgədə qadın təhsilinin yeni vüsət almasına təsir göstərdi və onun bu mütərəqqi ideyası Bakıda əvvəlkilərdən fərqli, daha mütərəqqi xarakterli məktəbin yaradılmasını sürətləndirdi. Ancaq H.Zərdabinin belə qız məktəbinin açılması uğrunda apardığı mübarizə heç bir nəticə vermədi və «Bakı qubernatoru heç bir səbəb göstərmədən H.Zərdabinin xahişini rədd etdi» .

Bütün bu çətinliklərə baxmayaraq H.Zərdabi başçılıq etdiyi «Əkinçi» qəzeti vasitəsilə qadın təhsili, hüquqları uğrunda mübarizəsini davam etdirirdi və «Əkinçi» qəzeti qadın azadlığı və təhsili ideyasını tərənnüm edən ilk Azərbaycan qəzetidir.

Ümumilikdə götürdükdə bu dövrdə qız məktəblərinin açılması ideyası nə qədər mütərəqqi hal olsa belə, onların təşkilində gender baxımından qeyri-bərabərlik özünü çox qabarıq göstərirdi. Bunu o dövrün patriarxal qanunlarının daha güclü olması, ziyalıların bu qayda-qanunlar şəraitində tərbiyə almaları ilə əlaqələndirmək daha düzgün olardı və əslində bu sahədə də maarifçilər arasında fikir ayrılığına rast gəlirik. Bu xüsusda akademik H.Əhmədov yazır ki, onların bir hissəsi öz həmvətənlərinin dini görüşlərini nəzərə alaraq və ona hörmət əlaməti olaraq, qız məktəblərini orada yalnız qadın müəllimlərinin dərs deməsi şərtilə açmağı məqsədə daha müvafiq hesab edirdilər. Ziyalıların bir dəstəsi isə bundan asılı olmayaraq imkan daxilində qızların düzgün təşkil edilmiş dünyəvi məktəblərə cəlb edilməsinə cəhd edirdilər.

Ümumiyyətlə, XIX əsrin sonu-XX əsrin əvvəllərində açılmış qız məktəbləri qadın təhsilinin sonrakı inkişafında əsaslı rol oynadı.

# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ DÖVRÜNDƏ MAARİFÇİLİK

***Mehparə Alış qızı Quliyeva***
***BDU-nun Pedaqogika kafedrasının dosenti***
***mehparequliyeva7@gmail.com***

***İlahə Sərdar qızı Qədirova***
***Xarici Dillər Universitetinin psixol.ü.f.d.***
***ilashka.sh@gmail.com***

Azərbaycan Xalq Cümhuriyyəti dövründə digər sahələrdə olduğu kimi təhsilin inkişafı üçün də böyük işlər görülmüş, mühüm islahatlar həyata keçirilmişdir. Bu istiqamətdə Hacı Zeynalabdin Tağıyevin xalqı üçün açdığı işıqlı yolu Azərbaycan Xalq Cümhuriyyəti davam etdirmişdir.

Azərbaycan Xalq Cümhuriyyətinin təhsil sahəsində həyata keçirdiyi ilk tədbirlərdən biri hökumətin 1918-ci il 27 iyun tarixli qərarı ilə Azərbaycan (türk) dilinin dövlət dili elan edilməsi idi. Azərbaycan hökuməti ilk günlərdən başlayaraq, milli kadrların hazırlanmasına, bu sahədə təhsilin tamamilə yenidən qurulmasına xüsusi əhəmiyyət verirdi. Nazirliyin təhsil sahəsində həyata keçirdiyi ilk və ən mühüm tədbirlərdən biri məktəblərin milliləşdirilməsi oldu.

Azərbaycan Cümhuriyyəti hökumətinin 1918-ci il 28 avqust tarixli qərarına əsasən, bütün ibtidai tədris müəssisələrində təhsil şagirdlərin ana dilində aparılmalı, dövlət dili olan Azərbaycan dilinin tədrisi isə məcburi surətdə həyata keçirilməli idi. Ali, ibtidai və orta tədris müəssisələrində dərslər dövlət dilində həyata keçirilməli idi. Azərbaycan dilini bilməyən şagirdlər üçün 3-cü və 4-cü siniflərdə Azərbayan dili şöbələri açılmalı və burada Azərbaycan dili elə intensiv tədris olunmalı idi ki, iki ildən sonra həmin şagirdlər artıq bu dildə təhsillərini davam etdirə bilsinlər.

Cümhuriyyət hökumətinin həyata keçirdiyi tədbirlər nəticəsində artıq 1919-cu ilin əvvəllərində Azərbaycanda dövlət hesabına

23 orta ixtisas təhsili məktəbi və 637 ibtidai məktəb fəaliyyət göstərirdi.

Müəllimlər seminariyaları istisna olmaqla, 1919-20-ci tədris ilində Azərbaycanın orta məktəblərində 9611 şagird təhsil alırdı ki, onların da 3115 nəfəri azərbaycanlı uşaqlarından ibarət idi. Xalq təhsilini milli zəmin üzərində yenidən qurmaq üçün ixtisaslı müəllim kadrları və dərs vəsaitlərinə böyük ehtiyac var idi. O dövrdə Azərbaycanda mövcud müəllim kadrları və dərs vəsaiti heç də kifayət qədər deyildi. Vəziyyətdən başlıca çıxış yolu Türkiyədən müəllim kadrları dəvət etmək idi. XMN məktəbləri dərs vəsaitləri ilə təmin etmək məqsədilə xüsusi komissiya yaratmışdı. Həmin komissiyanın fəaliyyətinə o dövrün görkəmli pedaqoqları Hüseyn Cavid, Mahmud bəy Mahmudbəyov, Abdulla Şaiq, Cəmo Cəbrayılbəyli, Səməd bəy Acalov, Fərhad Ağazadə, Abdulla bəy Əfəndizadə və b. cəlb edilmişdilər.

1919-cu il sentyabrın 18-də Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin qərarı ilə xalq məktəbləri üçün Türkiyədən dərs kitabları almaq məqsədilə Xalq Maarifi Nazirliyinə bir milyon manat vəsait ayrılmışdı.

Azərbaycan Xalq Cümhuriyyəti hökuməti və Xalq Maarifi Nazirliyi ölkədə Bakı Dövlət Universitetinin, Əkinçilik İnstitutunun və Dövlət Konservatoriyasının təsis edilməsi barədə məsələ qaldırdı. Bunlardan ancaq birini – Bakı Dövlət Universitetini açmaq mümkün oldu.Azərbaycan Xalq Cümhuriyyəti dövründə ibtidai təhsil şəbəkəsinin genişləndirilməsi mümkün oldu. 1919-cu ildə ölkədə dövlət hesabına 15 ali ibtidai məktəb fəaliyyət göstərirdi. Bakı, Gəncə, Şuşa, Nuxa (Şəki), Zaqatala və Qazaxda yaşlılar üçün xüsusi kurslar açıldı.

Xalq maarifinin milli konsepsiyada təşkili ön plana çəkildi; ümumi icbari təhsil layihələri hazırlandı; kənd və şəhərlərdə yeni məktəblər açıldı. Məktəbin tərəqqisinin müəllimlərlə bağlı olduğunu dərk edən nazirlik milli məktəblər üçün müəllim hazırlanması probleminin həllini darülmüəllimlər şəbəkəsinin genişləndirilməsində görürdü.

1918-1919-cu illərdə Gəncə Müəllimlər Seminariyası milliləşdirilmiş, Bakıda Darülmüəllim və Darülmüəllimat, Nuxada Darülmüəllim açılmış, Zaqatala, Ağdam və Şuşada belə tipli müəssisələrin yaradılması nəzərdə tutulmuşdu. 1918-ci il sentyabrın 1-də Qori Müəllimlər Seminariyasının Azərbaycan şöbəsinin bütün kitablarını, avadanlığını və vəsaitini vaqonlara doldurub Qazax şəhərinin 9 kilometrliyində olan Ağstafa stansiyasına gətirmişdilər. Bütün bu işlər F.B.Köçərlinin rəhbərliyi və bilavasitə iştirakı ilə görülmüşdü. Sentyabrın 17-də seminariyada dərslər başlanmış, Firudin bəy Köçərli Qori Seminariyasının məzunları Y.Qasımov, İ.Vəkilov, Ə.Hüseynov, M.Hüseynovu müəllim sifəti ilə seminariyaya cəlb etmişdi.

Cümhuriyyət dövründə maarif sahəsində fəaliyyət təkcə bunlarla məhdudlaşmırdı. Tədqiqatların nəticələrində qeyd olunur: Azərbaycan Demokratik Cümhuriyyəti zamanı Xalq Maarifi Nazirliyi bir tərəfdən xalqın gələcəyini təmin edə biləcək ürfan ordusunun hazırlanması üçün ali, orta və ibtidai məktəblər açır, kurslar təşkil edir, digər tərəfdən nəşriyyat-tərcümə komissiyasının köməyi ilə dərsliklər, tədris vəsaitləri hazırladıb çap etdirirdi.

Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin təhsil sahəsində uğurlu tədbirlərindən biri də təhsil tariximizdə ilk dəfə olaraq dövlət səviyyəsində məktəbəqədər tərbiyə müəssisələrinin nümunəsini yaratması idi. Bu dövrdə peşə-ixtisas təhsili müəssisələri şəbəkəsinin təşkili, yaxud mövcud olanların inkişaf etdirilməsi sahəsində də konkret addımlar atılmışdı.

Azərbaycan Xalq Cümhuriyyəti hökuməti və parlamenti təkcə mümkün olanların deyil, hətta o zamana görə mümkünsüz sayılan bir çox ümummilli problemlərin həllində real addımlar atmış, yaxud da tariximizin ondan sonrakı dövrlərində həyata keçirilmiş çoxsaylı maarif, təhsil, mədəniyyət məsələlərinin təməlini, əsasını qoymuş, görüləcək bir çox işlərin ilkin layihələrini hazırlamış, ideya əsaslarını vermişdir.

Azərbaycanda dövlət universitetinin açılması haqqında rəsmi qanun 1919-cu il sentyabrın 1-də Azərbaycan Parlamenti tərəfin-

dən qəbul olunmuşdur. Tarix filologiya, fizika-riyaziyyat, hüquq və tibb fakültələri olacaq ali məktəbdə ilk dərslər həmin il noyabrın 15-də başlamışdır. Ali təhsil sahəsində AXC-nin fəaliyyəti təkcə Bakı Dövlət Universitetini yaratmaq, bu yolla ölkə üçün yüksək ixtisaslı kadrlar hazırlamaq məsələsini həll etməklə məhdudlaşmamışdır. Xaricdə ali təhsilli mütəxəssis hazırlığı məsələsi dövlət və hökumət səviyyəsində müzakirə obyekti oldu.

Azərbaycan Parlamenti 1919-cu il sentyabrın 1-də Bakıda dövlət universitetinin açılması haqqında qanunla bərabər, 1919-20-ci tədris ilində dünyanın müxtəlif ali məktəblərində dövlət hesabına təhsil almaq üçün 100 nəfər azərbaycanlı gəncin xaricə göndərilməsi haqqında da qərar qəbul etdi. Bunun üçün 7 milyon manat vəsait ayrıldı. Avropa ali məktəblərinə göndərilən hər tələbəyə 400 frank təqaüd təyin olundu və 1000 frank yol xərci ayrıldı. Dövlət hesabına təhsil alacaq tələbələr ali məktəbi bitirdikdən sonra dörd il icbari qaydada Azərbaycan hökumətinin təyinatına əsasən göndərildiyi yerdə işləməli idilər.

XX əsrin əvvəllərində sosial-siyasi, ictimai-iqtisadi sahələrdə oyanış va intibah ümummilli hərəkatın faktorlarına çevrilmiş, nəticədə dünyəvi təhsili qurub inkişaf etdirmək üçün müəllim kadrları hazırlığı vacib və ümdə amil sayılmışdır. Xalq təhsilini möhkəm milli zəmin üzərində yenidən qurmaq üçün ixtisaslı müəllim kadrlarına və dərs vəsaitinə böyük ehtiyac var idi. O dövrdə ölkədəki mövcud müəllim kadrları ilə bu işin öhdəsindən gəlmək mümkün deyildi. Bu vəzifəni yerinə yetirmək üçün başlıca yol Türkiyədən müəllim dəvət etmək və qısamüddətli kurslarda Azərbaycan dilində savadlı olan şəxslərdən müəllim kadrları hazırlamaq idi. 1918-ci il iyulun 23-də Azərbaycan hökuməti ölkənin tədris müəssisələri üçün Türkiyədən müəllim kadrları dəvət etmək və dərs vəsaiti tədarükü haqqında xüsusi qərar qəbul etdi. Türkiyə həyatı ilə yaxından tanış olan Əhməd bəy Ağayevin bu məqsədlə İstanbula ezam edilməsi Xalq Maarifi Nazirliyinə tövsiyə olundu. Millətinin hər dərdinə qalan Hacı yenə də xeyir işin başında oldu. Cümhuriyyət qurucuları həm onun təcrübəsindən,

həm də maddi dəstəyindən yararlandılar. Tədris müəssisələrinin milliləşdirilməsinin və genişləndirilməsinin daha uğurla həyata keçirilməsi üçün 1919-cu ilin yayında ibtidai və orta məktəblərin aşağı siniflərini müvafiq milli kadrlarla təmin etmək məqsədilə qısamüddətli pedaqoji kurslar təşkil olundu.

Hökumətin qərarına görə bu məqsədlə Xalq Maarifi Nazirliyinin sərəncamına 2 milyon 390 min manat vəsait ayrılır. Bakı, Gəncə və Nuxada kişi və qadın, Şuşa, Qazax, Qusar, Salyan və Zaqatalada kişi pedaqoji kursları açılır. Hər kursda ən azı 50 nəfər müdavim təhsil alır. Kursları bitirənlərin demək olar ki, hamısına məktəblərdə müəllim yeri verilirdi. Cümhuriyyət hökuməti dərs vəsaitlərinin hazırlanması və nəşrinə də ciddi diqqət yetirirdi. Bunun üçün Maarif Nazirliyinin xüsusi komissiyası təşkil edilmişdi. 1919-cu ildə "Türk əlifbası", "Təzə elmi hesab", "İkinci il", "Yeni məktəb", "Ədəbiyyat dərsləri", "Müntəxəbat", "Türk çələngi", “Tarixi-təbii", "Rəhbər cəbr" dərslikləri nəşr olundu. Dərsliklərin hazırlanmasında Azərbaycan maarif və ədəbiyyatının görkəmli nümayəndələri Firudin bəy Köçərli, Hüseyn Cavid, Mahmud bəy Mahmudbəyov, Abdulla Şaiq, Camo bəy Cəbrayılbəyli, Səməd ağa Ağamalıoğlu, Fərhad Ağazadə, Ağa bəy İsrafilbəyov, Abdulla bəy Əfəndizadə və başqaları fəal iştirak edirdilər. Azərbaycan parlamentinin 1919-cu il 18 sentyabr tarixli qərarı ilə türk dilində yeni kitablar almaq üçün Xalq Maarifi Nazirliyinin sərəncamına 1 milyon manat vəsait ayrılır. Azərbaycan hökumətinin həyata keçirdiyi tədbirlər nəticəsində artıq 1919-cu ilin əvəllərində ölkədə dövlət hesabına 637 ibtidai məktəb və 23 orta ixtisas təhsilli məktəb fəaliyyət göstərirdi. Orta məktəblər arasında 6 kişi və 4 qadın gimnaziyası, 5 realni məktəb, 3 müəllimlər seminariyası, 3 müqəddəs Nina qız tədris müəssisəsi, politexnik məktəb və kommersiya məktəbi var idi. 1919-cu ilin əvvəllərində Bakı qadın müəllimlər seminariyası kişi müəllimlər seminariyasına çevrildi. Təhsil alanlar üçün 40 nəfərdən ibarət pansion açıldı. Atalar-analar artıq heç nədən çəkinmədən qızlarını məktəbə göndərirdilər. Hökumət xalqın milli ənənələr, vətənpərvərlik ruhunda tərbiyə olunmasında mühüm rol oynayan muzeylərin, digər maarif və sənət ocaqlarının açılması sahəsində də

mühüm tədbirlər həyata keçirirdi. Bir sözlə, Azərbaycan Xalq Cümhuriyyəti zamanında "dünyəvi dövlət, dünyəvi təhsil və mədəniyyət" prinsipləri ardıcıl həyata keçirilmişdir...

**Ədəbiyyat**


1. Firudin bəy Köçərli . Azərbaycan ədəbiyyatı. Iki cilddə. Bakı: Avrasiya, 2005. I cild, 564 s., II cild, 560 s.
2. Hüseynzadə R.L. Azərbaycan məktəb və pedaqoji fikir tarixi.Bakı: ADPU, 2021, 538 s.


## M.Ə.RƏSULZADƏNİN PEDAQOJİ İDEYALARI HAQQINDA


***Mehparə Alış qızı Quliyeva***
***Pedaqogika kafedrasının dosenti***
***mehparequliyeva7@gmail.com***


Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2013-cü il, noyabrın 22-də Azərbaycan Cümhuriyyətinin yaradıcılarından biri Məmməd Əmin Rəsulzadənin anadan olmasının 130 illik yubileyi ilə əlaqədar sərəncam imzalamışdır. Sərəncamda respublikanın Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan MEA, Təhsil, Səhiyyə Nazirliklərinə və bir sıra müəssisələrə tapşırıqlar verilmişdir ki, M.Ə.Rəsulzadənin ictimai, siyasi fəaliyyəti ilə əlaqədar geniş tədbirlər planı hazırlayıb, hayata keçirilməsinə nail olsunlar.

Yeni il ərəfəsində qəbul edilmiş bu sərəncam xalqımızın ürəyincə olan mühüm bir dövlət sənədidir.

Biz bilirik ki, Azərbaycan Demokratik Respublikası milli ənənələrin, əbədi, hüquqi, fəlsəfi fikrin, milli "mən" və milli dövlət şüurunun, bütövlükdə xalqın azadlıq hərəkatı tarixinin qanunauyğun, məntiqi yekunu kimi təşəkkül tapmışdır. M.Ə.Rəsulzadənin qısa tərcümeyi-halına nəzər saldıqda bunun canlı şahidi oluruq.

Məmməd Əmin Rəsulzada 1884-cü il, yanvarın 31-də Bakının

Novxanı kəndində, ruhani ailəsində anadan olmuşdur. O, S.M.Qənizadənin müdir olduğu ikinci "Rus-müsəlman" məktəbində oxumuş, oranı bitirdikdan sonra təhsilini Bakı texniki məktəbində rus dilində davam etdirmişdir. O, on yeddi yaşında ikən müsəlman gənclər təşkilatı yaratmış, həm də Müsəlman sosial demokratları, "Hümmət" təşkilatının yaradıcılarından biri olmuşdur. Mühacirətdə olarkən (1910) İran Demokrat Partiyasının əsasını qoymuşdur. Rəhbəri olduğu Müsavat partiyası Azərbaycanın müstəqillik bayrağını qaldırmış, özü isə Azərbaycan Milli Şurasının sədri seçilən kimi Azərbaycan Demokratik Cümhuriyyətinin yaranmasını (1918, 28 may) bütün dünyaya bəyan etmişdir. ADC az vaxtda çox işlər görmüş, xalqın oyanmasına və özünəməxsusluğunu dərk etməsinə çalışmış, tarixi əhəmiyyəti olan işlər görmüşdür. Gənc cümhuriyyət yarandığı ilk gündən xalqın maariflənməsini ön plana çəkərək, maarif sahəsində bir sıra islahatların aparılmasına nail olmuşdur. Cümhuriyyət illərində təlimin ana dilində aparılması, Azərbaycan dilinin rəsmi dövlət dili elan edilməsi və ana dilində dərsliklərin nəşri zəruri sayılmışdır. Azərbaycan Demokratik Cümhuriyyəti ümumi ibtidai təhsil layihəsinin hazırlanmasını, kəndlərdə, şəhərlərdə yeni məktəblərin açılmasını, milli məktəblər üçün müəllim kadrlarının hazırlanması vəzifələrini həll etmək üçün Qori Müəllimlər Seminariyasının Azərbaycan bölməsinin Qazağa köçürülməsini lazım bilmişdir. Mahir pedaqoq va metodist, ikicildlik "Azərbaycan ədəbiyyatı tarixi"nin müəllifi F.Köçərlinin sayı nəticəsində 1918-ci ilin noyabrında seminariya öz qapılarını gələcəyin gənc müəllimlərinin üzünə açmışdır.

Tədris işlərinin həyata keçirilməsi üçün Türkiyədən müəllimlər dəvət olunmuşdu. Azərbaycan Demokratik Cümhuriyyətinin fəaliyyəti dövründə məktəb şəbəkəsi genişləndirilərək qızlar üçün məktəblər açılmış, məktəb yaşından böyük vətəndaşlar üçün gecə, qadınlar üçün gündüz kursları təşkil edilmişdir. Azərbaycan Demokratik Cümhuriyyəti gəncliyi elm və texnika əsrinə hazırlamaq məqsədilə Bakı Universitetinin açılmasına nail olmuş, yüzə yaxın gənci müxtəlif sahələrdə təhsil almaq üçün dövlət hesabına Avropa universitetlərinə və texniki məktəblərinə göndərmişdi.

Təsadüfi deyil ki, IV Stalinin "Bu bir il yarımlıq hakimiyyətiniz ərzində xalqa nə verə bildiniz?" sualına cavabında M.Ə.Rəsulzadə belə demişdir: "Çox şey verə bilmədik, amma milli azadlığın nə olduğunu başa saldıq. Az da olsa, milli istiqlal dadızdırdıq".

Eyni fikri Fətəli xan Xoyski də təsdiq etmiş və demişdir: "Hökumətin fəaliyyətində nə qədər qüsur, nöqsan olmuşsa da, yol göstərən işıqlı yıldızı bu olmuşdur: millətin hüququ, istiqlal və xeyri". Azərbaycan Demokratik Cümhuriyyəti yaşadığı 23 ay ərzində mühüm siyasi, mədəni tədbirlər həyata keçirməklə yanaşı, həm də mədəniyyət, məktəb, vətənə, xalqa xidmət, milli fədakarlıq tərbiyəsi sahəsində də böyük işlər görmüşdür. Azərbaycan Demokratik Cümhuriyyəti təhsilin məzmununun demokratikləşdirilməsi, humanistləşdirilməsi ilə yanaşı, müəllim şəxsiyyəti haqqında da qiymətli fikirlər irəli sürmüşdür. Cümhuriyyət təhsilin demokratikləşdirilməsi ideyasının əsasını xalqın öz ədəbiyyatını, tarixini, mədəniyyətini dərindən öyrənməsində və bu biliklərdən dünya mədəniyyətinə körpü salmaqda görürdü.

M.Ə.Rəsulzadə "Nicat", "Nəşri-maarif", "Səfa" xeyriyyə cəmiyyətlərinin, məktəblərin, darül-müəllimatın açılmasını xüsusi qeyd edərək deyirdi ki, həmin xeyriyyə cəmiyyətlərinin müstəsna əhəmiyyəti vardır. O, ana dilinə yüksək qiymət verir və "Milli dirilik" adlı məqaləsində yazırdı: "Cəmiyyətin ümdə əsasını təşkil edən şey dildir. Dil xalq, millət deməkdir. Milliyyət gəmimizin sükanını bərk-bərk tutub, onu məqsədinə doğru yüksəltməliyik."

M.Ə.Rəsulzadə həmin məqaləsində milli diriliyin bir çox amilləri: lüğətlər tərtib etmək, xalq ədəbiyyatını toplamaq, xalq rəvayətlərini, əfsanələri toplayıb, elmi əsasda təhlil və təsnif etmək, dini dəyərlərə düzgün qiymət vermək, xalqın tarixini, adət və ənənələrini öyrənmək haqqında, bütün bunları gənc nəslə öyrətmək haqqında qiymətli fikirlər söyləmişdir. O deyirdi: "Bir millətin öz tarixini bilməsi qədər bir ittihad (birlik) və təməddüd (mədəniləşmə) amili təsəvvür oluna bilməz. Tarixi öyrənmək və millət arasında tarix dərslərini inkişaf etdirmək (yaymaq) ittihad və ittifaqın zəruri şərtlərindəndir".

M.Ə.Rəsulzadə maarifin, elmin yayılmasında mətbuata, xüsusilə, qəzetlərin inkişafına qiymət verərək deyirdi ki, türk mətbuatı xalqın hisslərini oyadır, xalqı maarifə, təhsilə yiyələnməyə çağırır. Mətbuatın işıqlandırdığı maarif, elm, təhsil, məktəb məsələlərini M.Ə.Rəsulzadə belə təsnif etmişdir:

- yeni metod məsələsi - məktəblərdə türkcənin üsuli-sövti ilə tədrisi və mədrəsə proqramına cədid (yeni) fənlərin daxil edilməsi;
- milli məktəblərin təsis edilməsi və genişləndirilməsi - əvvəlcə mövcud məhəllə, Göy came məktəblərində fars dili əvəzinə türkcə oxumaq və əsrin üsulları ilə yeni məktəblər yaratmaq;
- hökumət məktəblərində türkcənin tədrisini tələb etmək və s.

M.Ə.Rəsulzadə öz yaradıcılığında milli əxlaqa yüksək qiymət verərək deyirdi ki, milli əxlaq hər şeyin millət uğrunda mübarizəyə xidmət göstərməsini tələb edir: "Milli əxlaqın birinci vəzifəsi millətin birliyini və bütövlüyünü qorumaqdır. Milli əxlaqın ikinci vəzifəsi türklük və milli istiqlal prinsiplərinə mütləq sədaqətdir. Milli əxlaqın üçüncü vəzifəsi verilən sözə, bağlanılan anlaşmalara riayət etməkdir. Milli əxlaqın dördüncü vəzifəsi haqqı, azadlığı, sülhü və demokratiyanı qorumaq va müdafiə etməkdir."

Bakı Dövlət Universitetinin açılmasında xüsusi səyi olan M.Ə.Rəsulzadə haqqında universitetin ilk rektoru, professor V.İ.Razumovski belə yazırdı: "M.Ə.Rəsulzadənin sayəsində, onun güclü, maarifçilik köməyi ilə Müsavat partiyasında universitetin açıq və gizli düşmənləri partiyanın qərarına tabe olmağa məcbur olmuşlar". M.Ə.Rəsulzadə qüvvətli və sağlam məntiqi, təmiz qəlbi, doğru sözü, mətanəti, fədakarlığı ilə Azərbaycan xalqına, gənc nəslə ən gözəl bir örnəkdir. Onun həyatı və fəaliyyəti ən yaxşı tərbiyə məktəbidir.

## Ədəbiyyat

1. Azərbaycan Demokratik Respublikası Azərbaycan hökuməti (1918-1920). Bakı: "Gənclik", 1990.
2. Rəsulzadə M.Ə. Azərbaycan şairi Nizami. Bakı: "Gənclik", 1991.

# КРАТКИЙ ИСТОРИЧЕСКИЙ ПУТЬ СУЩЕСТВОВАНИЯ ИРЕВАНСКОЙ УЧИТЕЛЬСКОЙ СЕМИНАРИИ

***Гамар Гусейнали кызы Тагиева***
***БГУ, Доцент кафедры Педагогики***
***gamartagiyeva@gmail.com***

Распоряжение Президента Азербайджанской Республики "О праздновании 140-летия Иреванской учительской семинарии" от 29 декабря 2021 года призвано освежить нашу память. Каждая нация – народ должен знать свою историю. Прошлое столь же тесно взаимосвязано с настоящим, как будущее. Для будущих поколений мы должны основательно изучить свою историю, свое прошлое и стать хозяевами моральных ценностей, создавшими нашими предками на протяжении веков. В этой связи распоряжение о праздновании 140-летия Иреванской учительской семинарии представляет важную научно-педагогическую, политико-идеологическую и культурно-духовную значимость. Народ Азербайджана должен знать свою историю, быть хозяевами своего исторического наследия.

В середине XIX века был принят устав закавказских школ (1829г), предусматривающий открытие уездных царских властей, которые имели при этом свои цели. В Будущем осуществить христианизацию местного населения. В 1832 Ширване была открыта первая светская двухклассная казенная школа. В 1839 году она была преобразована в трехклассную казенную школу, а в 1869 году – в прогимназию и в 1881 году в гимназию. Выпускниками гимназии насчитывали около 600 человек. Среди них было очень много известных деятелей науки и культуры, которые внесли огромный вклад в развитие просвещения Азербайджана. Всем нам известны имя Азербайджанского просветителя Фируддин бека Кочар-

линского. В споре в Иреване были открыты школы нового образца, где преподавание велось уже на родном языке. В 1882 году Мешеди Молла Исмаил Гаджи Кязымов Аскерзаде. В 1883 году – Мирза Хасан Рушзия, прибыв из Тебриза в Иреван открыли новые учебные заведения. Открытие уездных и начальных сельских школ способствовало появлению острой необходимости в преподавателей, так как кадров подготавливали в семинариях и педагогических институтах. Если согласно первому уставу учительской семинарии, в учебное заведение быть приняты христиане старше 16 лет, то согласно второму уставу т.е. 1875 году Инструкция об учительских семинариях разрешала обучать в семинариях как христиан, так и мусульман.

В 1880 году Государственный совет России издал указ о «об Организации учительских семинарий в Кутаисской и Иреванской губерниях».

Иреванская учительская семинария начала свою деятельность 8 ноября 1881 году с 9 учителями и 42 учащимися. Первым директором семинарии был выдающийся просветитель Якоб Степанович Сушевский. Обучение длилось 3 года. При семинарии действовал подготовительный класс и начальная школа, где студенты могли проходить педагогическую практику. При семинарии действовало также общежитие. Наряду с азербайджанцами, здесь учились армяне, грузины, русские. В семинарии преподавали учителя разной национальности. Иреванская учительская семинария состояла из 4 классов. Каждый год объявлялся новый набор учащихся в подготовительную группу и первый класс. Обучение начинали с первого класса и учеников во второй, и третьи классы не допускали. Вступительный экзамен в первый класс проходил в виде экзамена по теологии, русскому языку, истории, географии, геометрии, биологии. Учебные часы в подготовительной группе составляли 36 часов, в первом классе-38, во втором-39, в четвёртом классе-40 часов. С каждым го-

дом количество учеников возрастало и к концу 1882 года в семинарии обучалось уже 54 ученика. Через год число учеников возросло до 61. В 1890 возросло до 82. В подготовительное отделение принимались дети мусульман, не знавшие русского языка и их обучение в семинарии не считали обязательным. Занятия для детей в подготовительном отделении проводились 6 раз в неделю. На уроки русского языка и математики отводили 5 часов, на уроки теологии отводилось 4 часа, а на все остальные предметы, т.е. историю, географию, физику, биологию, черчение по 2 часа. В целом, занятие составляло 30 часов. Азербайджанские дети, знавшие русский язык и имеющие определённый уровень подготовки, принимались в старшие подготовительные классы. Первым азербайджанским педагогом, преподававшим в Иреванской учительской семинарии, был выдающийся учёный, педагог-просветитель ахунд Мамедбагир Газизаде. Он преподавал теологию и азербайджанский язык.

Начиная с 1892 года Азербайджанский язык в семинарии преподавал Мирза Рагим Халилов, который сам когда-то учился в этой семинарии. Азербайджанский язык м шариат в семинарии преподавали в разное время такие преподаватели как: Мамедали Гамарли, Рашид бек Шахтахтинский, Джафар бек Джафар беков, Мамед Ахундов, ахунд Мамедбагир Тагизаде, Мирза Джаббар Мухаммед заде. Обучение было платным, но часть учеников обучались за государственный счет.

По статистике за 1913 год из 130 учеников гимназии 46- были русскими, 37- армянами,30 -азербайджанцами, а остальные учащиеся были представителями других национальностей. Первый выпуск семинаристов был 1888 году. Выпускниками азербайджанцами было всего 5 человек. В 1895 году Джалил Мирзоев, Таги бек Сатиев, Мамед бек Газиев, а в 1902 году Ибадулла бек Муганминский, Джаббар Мамедов, Шамдан Махмудбеков стали сельскими учителя-

ми. Они обязались работать в сельских школах по распределению в течении 6 лет. Если же это обязательство не исполнялось, то выпускник должен был выплатить неустойку в размере 520 рублей. Выпускником семинарии был один из выдающихся художников Турции Ибрагим Сахри.

Иреванская учительская семинария была не просто учебным заведением, но и центром науки и культуры. За период существования ее выпускниками стали 63 азербайджанцев. Иреванская учительская семинария существовала до 1918 года, до момента этнических происшествий, совершенных армянами против азербайджанцев. Иреванская учительская семинария прекратила свое существование. Большая часть учителей и студентов были жестко убиты, часть вернулись на Родину в Азербайджан, часть иммигрировали в Турцию и в другие страны. При поддержке России на территории Иреванской губернии, на исконно азербайджанских землях, было создано первое армянское государство Арарат. Из истории мы знаем, что это Агырдаг переименованное в будущем в Арарат, также как Гейча переименовали в озеро Севан и т.д.

Исконные жители этих мест – азербайджанцы стали малочисленным народом на своей Родине.

## İRƏVAN MÜƏLLİMLƏR SEMİNARİYASININ AZƏRBAYCAN PEDAQOJİ FİKİR TARİXİNDƏ YERİ VƏ ROLU

***Safura Bayram qızı Allahverdiyeva***
***BDU, Pedaqogika kafedrasının dosenti, Əməkdar müəllim***
***allahverdiyevasafura@gmail.com***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 29 dekabr 2021-ci il tarixində imzaladığı “İrəvan Müəllimlər Seminariyasının 140 illiyinin qeyd edilməsi haqqında” sərəncamı azərbaycanlıların min illər boyu yaratdığı tarixi irsə sahib çıxmaqla tarixi

yaddaşımızı bərpa etməyə hədəflənib. Çünki, Qədim Azərbaycan şəhəri olan İrəvan bölgədə təhsil-tərbiyə mədəniyyətinin, maarifin və maarifçiliyin inkişafında çox önəmli rol oynayıb. XX əsrin əvvəllərinə kimi əhalisinin çoxunu azərbaycanlılar təşkil etmiş və 438 il (1390-cı ildən 1828-ci ilədək) azərbaycanlılar tərəfindən idarə olunub. İrəvan xanlığı Rusiya tərəfindən ilhaq edildikdən sonra (1828-ci ildə əhalinin milli tərkibi nəzərə alınmadan Erməni vilayəti yaradılır və İrandan 40 min, Osmanlı dövlətindən 84600 erməni Azərbaycan torpağına köçürülür. Bu demoqrafik dəyişikliyə baxmayaraq həmin illərdə şəhər əhalisinin 9710 nəfərindən 7331 nəfəri azərbaycanlı olub.

F.B.Köçərlinin dediyi kimi, üləma, füzəla və şüəra yurdu olan İrəvan qısa bir vaxtda ictimai-siyasi, ədəbi-bədii və pedaqoji fikrin mərkəzinə çevrilmişdi. Belə ki, burada Mirzə Qədim İrəvani, Fazil İrəvani, Axund Molla Məhəmməd İrəvani, Əbdülqasım İrəvani, Abbas Məmmədzadə, Cabbar Əsgərzadə, Rəşid bəy İsmayılov, Nəriman bəy Nərimanov, Mustafa bəy Topçubaşov, Əziz Əliyev, Maqsud Məmmədov, Heydər Hüseynov, Cəfər Xəndan, Əhməd Cəmil, Mirəli Seyidov, Kamil Əliyev kimi şəxsiyyətlər formalaşmışdır. Bu mənada ölkə prezidentinin "İrəvan şəhəri tarixən azərbaycanlıların köklü yaşadığı böyük elm, maarif və mədəniyyət mərkəzlərindən biri kimi şöhrət tapmışdır. Şəhərdə Azərbaycan xalqına məxsus son dərəcə zəngin ədəbi-mədəni mühit formalaşdırır" fikri çox dəyərlidir. Qədim Azərbaycan quberniyası olan İrəvanda yaşayan azərbaycanlıların sayı Bakı və Gəncə quberniyalarında yaşayanlardan üç dəfə çox idi.

XIX əsrin 20-ci illərində İrəvanda 8 məscid fəaliyyət göstərirdi. Zalı xan, Novruzəli bəy, Sərtib xan, Hüseynəli xan, Hacı İmam, Hacı Səfər bəy məscidləri adlanırdı. Çar Rusiyasının işğaldan sonra həmin məscidlərin birində silah, digərində isə ərzaq anbarı kimi istifadə olunurdu. Necə ki, 30 il ərzində Qarabağda mənfur ermənilər yaşayış yerlərini yerlə-yeksan, etdi, məscidləri dağıdaraq onlardan tövlə kimi istifadə etdilər. Bu gün 30 il düşmən tapdağı altında qalan torpaqlarımız Ali Baş Komandan İlham

Əliyevin düzgün siyasəti və Dəmir yumruğu, rəşadətli ordumuzun gücü ilə azad edildi və Qarabağ torpağında, qədim Şuşada quruculuq işləri həyata, keçirilir, məscidlərimizdən azan səsləri eşidilir.

Qədim İrəvan xanlığında gənc nəslin dini təhsilinə-tərbiyəsinə xüsusi qayğı göstərilirdi. Belə ki, mədrəsələrdə, digər Şərq mədrəsələrində olduğu kimi uşaqlara ərəb dilinin qaydaları, tarix, məntiq, riyaziyyat, həndəsə, astranomiya, nəzəri fəlsəfə və tibb öyrədilirdi. Bu mədrəsələrdə konkret təhsil yox idi, sadəcə təhsil müddəti tələbələrin dərsi mənimsəmə səviyyəsindən asılı idi. Bundan fərqli olaraq mollaxanalarda, yəni ibtidai müsəlman məktəblərində təhsilin məzmunu çox sadə idi. Uşaqlara oxu, yazı, ərəb və fars dilləri öyrədilir, dərs dili "Quran"ın avazla oxunması ilə başa çatırdı.

İrəvan Müəllimlər Seminariyası XIX əsrin sonu, XX əsrin əvvəllərindən (1881-ci il noyabrın 8-dən) fəaliyyət göstərən təhsil ocağıdır. Seminariyada Q.Qənbərov, Məmmədbağır Qazızadə, Mixail Klopov və digərləri Azərbaycan dili, rus dili, ədəbiyyat və başqa fənlərdən dərs demişlər. Axund Məmmədbağır Qazızadə uzun illər (1883-cü ildən başlayaraq) İrəvan Müəllimlər Seminariyasında Azərbaycan dili və şəriət dərslərini tədris etmişdi. Seminariyada Azərbaycan dilinin tədris edilməsi təsadüfi deyildi, çünki bu mahalda yaşayan əhalinin əksəriyyəti Azərbaycan türkləri və müsəlmanlar idi. Bu həm də dövrün tələbi idi. Belə ki, seminariyada təhsil alan azərbaycanlı gənclər təhsili başa vurduqdan sonra kənd məktəblərində müəllim kimi fəaliyyət göstərərək elm və maarifin yayılmasına, savadsızlığın aradan qaldırılmasına xidmət edirdilər.

XIX əsrin əvvəllərində Cənubi Qafqazda baş verən ictimai-siyasi prosesler təhsil və məktəb sahəsində yeni meyillərin yaranmasına səbəb oldu. Belə ki, artıq mollaxana və mədrəsələr öz yerini dünyəvi məktəblərə verməyə məcbur oldu. Bu səbəbdən Azərbaycanda müəllim hazırlığı problemi ölkənin qabaqcıl ziyalılarını çox düşündürürdü.

Dövrün dəyərli maarifçi – ziyalıları M.F.Axundovla H.B.Zərdabinin yazışmaları çox maraqlıdır. Belə ki, Axundov Zərdabiyə məktubunda müəllim hazırlığı, ana dilində tədris və məktəb məsələlərini diqqətə çatdıraraq yazır: "Bizim əzizimiz və gözümüzün işığı Həsən bəy! Sən hər qəzetində biz müsəlman tayfasına elmin fəzilətini və səmərəsini zikr edib, bizə hey təklif edirsən elm öyrənin, elm öyrənin! Çox yaxşı, sözün bimənə və nəsihətin, müfid və xeyirxahlığın sabit, indi biz hazırıq ki, sənin nəsihətini əmələ gətirək. Bizə de görək elmi harada öyrənək, kimdən öyrənək va hansı dildə öyrənək".

Bu mənada İrəvan Müəllimlər Seminariyası mövcud olduğu 37 il ərzində Cənubi Qafqazda milli təhsilimizin və mədəni maarif işinin inkişafında mühüm rol oynamışdır. 1881-ci ildə İrəvan Müəllimlər Seminariyası ilə bərabər Uluxanlı və İrəvan gimnaziyası da yaradılmışdır. Qori Müəllimlər Seminariyasının məzunu F.B.Köçərli 1885-ci ildən İrəvan gimnaziyasında 10 il dil və şəriət dərslərini tədris etmişdir. F.B.Köçərli ilə yanaşı C.Məmmədquluzadə də 1887-ci ildə Qori seminariyasını bitirdikdən sonra İrəvan və Uluxanlı məktəbində müəllim kimi fəaliyyət göstərmişdir. Göründüyü kimi istər Qori, istərsə də İrəvan seminariyasının məzunlarının Azərbaycanda yeni tipli məktəblərin yaranmasında və təhsilin inkişafında xüsusi xidmətləri olmuşdur. Bu maarif fədailərindən Həmid bəy Şahtaxtinski, Haşım bəy Nərimanbəyov, Haşım bəy Vəzirov, Tağı bəy Səfiyev, Vahid Musabəyov, Fərruv Ağakişibəyov, İbadulla Muğanlinski, Ş.Mahmudbəyov, C.Məmmədov və başqalarının adlarını iftixarla çəkmək olar. Bir məsələni xüsusi qeyd etmək vacibdir ki, 1905-1907-ci illirdə Azərbaycan dili müəllimlərinin hazırlanmasında Bakı və Dağıstan vilayətinin açdığı kursların, Tağıyevin qız məktəbinin və 1915-ci ildən fəaliyyət göstərən qadın pedaqoji kurslarının böyük xidmətləri olmuşdur.

Göründüyü kimi, Azərbaycanda təhsilin, mədəniyyətin, ədəbiyyat və incəsənətin inkişafında İrəvan və Qori müəllimlər seminariyasının məzunlarının xidmətləri əvəzsizdir.

Bu təhsil ocaqlarının milli tariximizdəki yerini və rolunu yük-

sək dəyərləndirən ölkə prezidentimiz cənab İ.Əliyevin bu sərəncamı ("İrəvan Müəllimlər Seminariyasının 140 illiyinin qeyd edilməsi haqqında" 29 dekabr 2021-ci il) hər bir ölkə vətəndaşının, ziyalısının qarşısında yeni-yeni tələblər qoyur. Hər birimiz tariximizə, keçmişimizə qarşı daha diqqətli olmalı, gerçəkləri, milli dəyərlərimizi yetişən gənc nəslə doğru-dürüst öyrətməklə onlarda torpağımıza, dövlətimizə, dövlətçiliyimizə, dilimizə, vətənimizə məhəbbət hissi formalaşdırmağa xüsusi diqqət yetirməliyik. Çünki bugünkü gənclik bizim sabahımızdır, gələcəyimizdir. Bütöv Azərbaycanın sakinləri, yaradıcıları onlardır, bu yolda onlara uğurlar!

## XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ İRƏVAN TƏHSİL MÜHİTİNDƏ QIZ MƏKTƏBLƏRİNİN VƏZİYYƏTİ

***Elza Mollayeva***
***BDU, Pedaqogika kafedrasının dosenti***

XIX əsrin sonunda Azərbaycanın qədim torpağı olan İrəvan quberniyasında yaradılmış İrəvan müəllimlər Seminariyası milli pedaqoji kadr hazırlığına mütərəqqi təsiri ilə bağlı, həm də bu bölgədə illərlə öz həllini gözləyən qadın təhsilində də müəyyən irəliləyişlərə güclü təkan verdi. Qadın təhsili XIX əsrin sonu-XX əsrin əvvəllərində Azərbaycan cəmiyyətinin mütərəqqi dünyagörüşlü ziyalılarını narahat edir, bu problemin həlli ilə bağlı zaman-zaman müəyyən addımların atılmasına zərurət onları qadın məktəblərinin açılması ilə bağlı təşəbbüslərə sövq edirdi. Bu sahədə H.Zərdabinin qız məktəbi açmaq təşəbbüsünə Qafqaz canişinliyindən verilən əsassız imtina məktubu bu problemin həllinə əngəl ola bilmədi və nəticədə Azərbaycanın xeyriyyəçi oğlu H.Z.Tağıyev böyük çətinliklərə rəğmən, 1901-cü il, oktyabrın 9-da Bakıda Aleksandriya rus-müsəlman qadın məktəbini açmağa nail oldu. Bu hadisədən bir neçə il əvvəl isə İrəvan quberniyasında, Naxçıvanda qadın təhsilində atılan addımlar bu məsələlərin sonrakı həllində baza rolunu oynadı.

XIX əsrin sonu - XX əsrin əvvəllərində İrəvan quberniyasında qadın təhsilinin inkişafında burada yaradılmış “ Müqəddəs Ripsime” qadın cəmiyyəti fəal rol oynamışdır. Bu cəmiyyət 1850-ci ildə İrəvanda qızlar üçün məktəb açmaqla bərabər, xeyriyyə işləri ilə məşğul olurdu. Əvvəlcə cəmiyyətin 63 qadın üzvündən ancaq 7-si azərbaycanlı idi. Ancaq zaman keçdikcə buradakı azərbaycanlı qadınların sayı artaraq, 1865-ci ildə 42 nəfərə çatdı. Bunlar dövlət məmurlarının, şəhər aristokratlarının, bəylərin həyat yoldaşları idi. Bu qadınların demək olar ki, hamısı zadəgan ailələrindən çıxmış təhsilli qadınlar idilər və onların əsas məqsədi müsəlman qadınlarına yardım etmək və onları milli, Qərbi Avropa və rus mədəniyyələri ilə yaxından tanış etmək idi. Bu məqsədlə onlar xeyriyyə hərəkatına qoşulmuş, öz övladlarına Qərbi Avropada və Rusiyada ən yaxşı ali təhsil müəssisələrində təhsil almalarına, təhsilini başa vurduqdan sonra isə Vətənə dönüb məktəblər açması və xalqını maarifləndirmək işində dəstək olurdular.

XX əsrin əvvələrində İrəvanda ibtidai və orta təhsil verən müəssisələr, İrəvan müəllimlər seminariyası, fərdi məktəblərlə bərabər, mollaxanalar da fəaliyyət göstərirdi.1902-ci ilə aid “ İrəvan quberniyasının yaddaş kitabı” adlı mənbədə İrəvan kişi gimnaziyası ilə bərabər, İrəvan qız Gimnaziyası, 2 sinifli İrəvan qız məktəbinin də adı çəkilir(1, 78-82). XX əsrin əvvələrində Azərbaycanın əzəli torpağı olan Qərbi Azərbaycanda qız məktəblərinin açılışı təhsildə yeni hadisə idi və oğlanların təhsilə cəlb edilməsindən fərqli olaraq, qızlar təhsildən kənarda qalırdılar. İrəvanda azərbaycanlı qızların dünyəvi təhsil alması üçün münbit şərait ancaq XX əsrin əvvəllərində yarandı və 1901-ci ildə burada azərbaycanlı qızlar üçün rus-tatar məktəbi açıldı. Bu məktəbin aşılmasında təşəbbüskar Antonina Valentina Kalinina olmuşdur(2, 99). Bu məktəb Qafqazda mövcud olan üç ibtidai müsəlman qız məktəblərindən biri idi və o, Bakıda açılmış analoji qız məktəbinə uyğun olaraq qurulmuşdur. Məktəbdə oxuyan qızlar Azərbaycan dili ilə yanaşı, həm də rus dilində təhsil alırdılar (3, 117).

İrəvanda qız məktəblərinin açılması sonrakı dövrlərdə də davam

etdi və 1913-cü il, sentyabrın 15-də ikinci şəhər qız məktəbi açıldı. Onun təşəbbüskarı P.V.Miansarova quberniya məktəblər idarəsinə məktubunda yazırdı: "Sentyabrın 16-da məktəbin açıldığını elan etmişdik. Şagirdlərin gəlmədiyini nəzərə alaraq, ancaq sentyabrın 30-da məşğələlərə başlaya bildik.Cəmi 8 şagirdimiz var idi. İndi 18 şagirdimiz var" (4). Bu məktəbdə təhsil iki şöbədə həyata keçirilirdi: birinci şöbədə evdarlıq, davranış qaydaları, məişət məsələləri öyrənirdilər. Ancaq ikinci şöbədə isə proqram birinciyə nisbətən daha geniş idi. 1915-16-cı tədris ilində məktəbin birinci şöbəsində 19, ikinci şöbəsində isə 5 azərbaycanlı qız təhsil alırdı.

Çox zaman carizm ideologiyasına-ucqar xalqlara qarşı "Parçala, hökm sür" ideyasına sadiq qalan car Rusiyası qadın məktəblərinin yaranmasına süni əngəllər yaradırdı. Belə əngəllər 1911-ci ildə sentyabrın 1-də İrəvanda açılacaq 7 sinifli realnı məktəbin açılaşında yaradıldı və sonralar onun yerinə ticarət məktəbi yaradıldı. Mütərəqqi fikirli ziyalılıarın təşəbbüslərinə baxmayaraq, İrəvan quberniyasında ibtidai təhsilin vəziyyəti azərbaycanlılar üçün qənaətbəxş deyildi. Belə ki, 1916-cı il yanvarın 1-nə aid olan məlumata görə həmin il İrəvan quberniyasının ibtidai məktəblərində 7562 kişi, 1820 qadın cinsindən olan uşaqlar təhsil almışdır. Təhsil alan uşaqlar içərisində ermənilər 5629 oğlan, 1283 qızla təmsil olunduqları halda, bu rəqəm azərbaycanlılar üçün müvafiq olaraq belə idi: 1090 oğlan, və 96 qız (5,310). Yəni azərbaycanlılar ibtidai məktəblərdə təhsil alan şagirdlərin 11,2%-ni təşkil edirdi.

Bütün maneələrə baxmayaraq, sonrakı illərdə qızların təhsilalanlar içərisində sayı müəyyən qədər artırdı. Belə ki, 1914-cü il, yanvarın 20-nə olan statistik məlumata görə, İrəvan quberniyası ərazisində olan 15 rus tatar məktəbində 911 şagird təhsil almışdır ki, bunlardan da 60 nəfəri qız idi (6,99). XX əsrin əvvəllərində məktəblərdə oxuyan azərbaycanlı şagirdlərin sayı digər millətlərlə müqayisədə sonrakı illərdə o qədər də dəyişməmişdi. 1902-ci ilin statistikasına görə bu ildə İrəvan kişi gimnaziyasında təhsil alan 376 şagirdin 61 nəfərini, yaxud 16,2 %-ni azərbaycanlı oğlanlar (6,78), qadın gimnaziyasında təhsil alan 333 şagirdin 4 nə-

fərini, yaxud 1,2 %-ni azərbaycanlı qızlar təşkil edirdi(6,79).

İrəvan quberniyasında azərbaycanlıların əhalinin tərkibində üstünlük təşkil etməsinə baxmayaraq, digər xalqlarla müqayisədə (erməni və rus) dünyəvi məktəblərə cəl edilməsindəki maneələr bir sıra subyektiv amillərlə şərtlənirdi. Burada azərbaycanlı oğlanlara nisbətən azərbaycanlı qızların məktəbə getməsinə əngəl kimi o dövrdə qadın təhsilinə mane olan stereotipləri, patriarxal adət-ənənələri və mental düşüncə tərzini göstərmək olar. Doğrudur, təhsil alan qızların demək olar ki, hamısı varlı ailədən olsalar belə, İrəvan quberniyasında təhsilalanların yalnız 5,2%-ni azərbaycanlı qızlar təşkil edirdi.1916-cı il məlumatına əsasən İrəvan şəhərində oxuyan şagirdlərin təhsil müəssisələri və milli mənsubiyyətə görə bölgüsü (7, 284-304) də bunu təsdiq edir:

| Təhsil müəssisələri | Şagirdlərin ümumi sayı | Ruslar | Gürcülər | Ermənilər | Azərbaycanlılar | Digər xalqlar |
|---|---|---|---|---|---|---|
| İrəvan Gimnaziyası | 727 | 94 | 14 | 437 | 141 | 41 |
| Müəllimlər seminariyası | 117 | 36 | 4 | 35 | 22 | 20 |
| Ripsime gimnaziyası | 405 | 115 | 245 | 13 | 14 | 18 |
| Ali ibtidai məktəblər | 88 | 16 | 1 | 42 | 22 | 7 |
| Kilsə ibtidai məktəbləri | 367 | 110 | ----- | 46 | 2 | 209 |

Bu cədvəldən də aydın görünür ki, ibtidai məktəb şagirdlərinin içərisində azərbaycanlı şagirdlərin sayı 1916-cı ildə 1902-ci ilə nisbətən artaraq 19,3%-ə çatmışdır. Azərbaycanlı təhsilalanların cinsinə görə təsnifatında isə qızların sayının oğlanlara nisbətən ikiqat az olması faktı üzə çıxır.

Çarizmin milli ucqarlarda apardığı siyasətin sosial-siyasi və ictimai təhlilindən belə nəticəyə gəlmək olar ki, o, özünün ruslaşdırma siyasəti ilə bərabər, təkcə İrəvan quberniyasında deyil, bütün Cənubi Qafqazda ictimai həyatın müxtəlif sahələrində, eyni zamanda təhsildə mütərəqqi addımların qarşısını hər vəchlə alırdı. Bu məqsədlə çar Rusiyası XX əsrin əvvəllərində Qərbi Azərbaycanda olan bir çox məktəbləri müxtəlif bəhanələrlə bağladı və 1920-ci ildə bu bölgədə ancaq 15 rus-tatar məktəbi qalmışdı. Bu məktəblərin

bağlanmasında ermənilərin rolunu inkar etmək olmaz. Ermənilərin azərbaycanlılara qarşı 1905-06, 1918-cı illərdə törətdikləri soyqırım hadisəsi, 1918-ci ildə Qərbi Azərbaycanda erməni daşnakları tərəfindən Ararat respublikasının yaradılması bu bölgənin yerli xalqı olan azərbaycanlılara qarşı bütün sahələrdə təzyiqə münbit şərait yaratdı. Ermənilər eyni zamanda mədəniyyətin, inkişafın beşiyi olan məktəbləri də bağlamağa başladılar. Bütün bu çətinliklərlə bərabər, İrəvanın maarif həyatında önəmli rol oynamış qadın təhsili haqqında tendensiya tarixi və müasirlik baxımından əhəmiyyətli hadisə kimi qiymətləndirilməlidir.

## Ədəbiyyat


1. Кавказский календарь на 1904 г. Типография А.В. Кутателадзе. Тифлис.1903.
2. Памятная книжка Эриванской губернии на 1902. Эриван.1902. отд 1.
3. İ.Məmmədov. İrəvan dəftəri. İçtimai fikir tariximizin qəribsəyən üfüqləri.Bakı, Adiloğlu, 2002.
4. Ermənistan MDA, F.117 iş 459, s.124-125.
5. Кавказский календарь на 1917 г. Типография канцелярия Е.И.В. Наместника на Кавказе. Казенный дом. Тифлис.1916.


# ŞUŞALI QADINLARIN FƏALİYYƏTİ


***Kamalə Kamal qızı Qəhrəmanova***
***BDU, Pedaqogika kafedrasının dosenti***
***kamala.qahraman@yahoo.com***


Azərbaycanın kiçik dağlıq şəhərində dünyaya göz açan Şuşalı qadınnlar Azərbaycan mədəniyyətinin inkişafında kişilərlə bərabər böyük xidmətləri olmuşdur.

Qarabağın paytaxt şəhəri Azərbaycanın mədəniyyət mərkəzi olan Şuşa gözəlliyi ilə yanaşı ədəbi mühiti ilə də diqqəti cəlb

edib. Şuşa əhli hər zaman ədəbiyyata, musiqiyə, oxumağa meylli olmuşlar.

Qadın təhsilinə olan tələbat Şuşada daha çox idi. Şuşalılar qızların ana dilində təhsil alması ilə bərabər rus dilində də təhsil almasına cəhd edirdilər. 1875-ci ildə oktyabrın 26-da Şuşada xeyriyyə cəmiyyəti tərəfindən qız məktəbinin əsası qoyuldu. (H.Əhmədov,səh.146) XIX əsrin 90-cı illərində Nəvvab Şuşada yeni üsullu ana dili məktəbi açmışdır.( H.Əhmədov, səh.192)

Şuşalı Qarabağ xanlıqlarının sonuncu vərəsəsi el arasında isə «Xan qızı» çağırılan Xurşidbanu Natəvan (1832-1897**)** doğma dili ilə bərabər, ərəb və fars dillərini də öyrənmiş, onların vasitəsilə klassik ədəbiyyata bağlamışdır. Xurşidbanu "Məclisi-üns" ədəbi məclisinə rəhbərlik edib, şairləri ətrafına yığmışdı. Dövrün ədəbi mühitinin formalaşmasında Xurşudbanu Natəvanın gördüyü işlərin böyük rolu vardı. O, xüsusi fond ayırmışdır, yoxsul amma istedadlı insanlara yardım edir, məktəblər tikdirib, yollar çəkdirmişdi. Aşıq Pəri yaradıcılığını araşdıranlar onu işvəli bir nazənin kimi təqdim edərək bədahətən şeirlər deyən, azad ruhlu, həyatsevər bir qadın olduğunu yazıblar.

Kəminə xanım1841-ci ildə Şuşada ziyalı ailəsində anadan olmuşdur.Mir Möhsün Nəvvab "Təzkireyi-Nəvvab" əsərində Kəminə xanım haqqında məlumat verərkən, bildirmişdir ki, o, dörd yüzə yaxın şer yazmış,Şuşada Mir Mövsün Nəvvabın başçılıq etdiyi "Məclisi-fəramuşan"da yaxından iştirak etmişdir. Kəminə şairə Natəvanın başçılıq etdiyi "Məclisi-üns" ədəbi məclisinin üzvləri ilə yaxın olmuş, onlarla şeirləşmişdir.

Məhbubə xanım 1902 Şuşada Azərbaycanın ilk ali təhsilli həkimi Kərim bəy Mehmandarovun və Bəhmən Mirzə Qacarın qızı Zəringül (Şahbacı) xanımın ailəsində dünyaya göz açıb. 1911-ci ildə Şuşada ilk dəfə qızlar məktəbinin açılması da Kərim bəyin təşəbbüsü ilə olmuşdu.

Məhbubə xanımı 1911-ci ildə Şuşada açılan ilk rus-tatar qız məktəbinə qoymuşdu. İbtidai təhsilini Şuşada bitirən Məhbubə xanım 1914-cü ildən etibarən təhsilini Bakıda davam etdirmişdi. O,

hər zaman yüksək savad və biliyi ilə seçilir, eyni zamanda ictimai-mədəni fəallığı ilə də diqqət çəkir, öz məktəbində və qızların oxuduğu digər məktəblərdə müxtəlif tədbirlərin təşkilatçısı olurdu.

Həmidə Məmmədquluzadə 1873-cü ildə Şuşada anadan olmuşdu. Cəlil Məmmədquluzadənin həyat yoldaşı Azərbaycanın ilk maarifçı qadınlarından olan Həmidə xanım xeyriyyəciliyi ilə də öz adını tarixə yazdırıb. Bir əlində qələm tutan xanim Vətən təhlükədə olanda onu müdafiəsi üçün ayağa qalxmaq güçündə və qüdrətinə sahib idi.

Həmidə xanım ata-baba yurdu Kəhrizli kəndində məktəb tikdirib, ətraf ərazilərdə yaşayan uşaqları, gəncləri təhsilə, savada cəlb edib. Bu vətənpərvər insan bununla yanaşı, Kəhrizlidə toxuculuq sexi, dəyirman inşa etdirib, geniş təsərrüfat və suvarma işlərinə başçılıq edib, əhalinin sağlamlığının qorunması, yoluxucu xəstəliklərin qarşısının alınması üçün sakinlərin, xüsusilə uşaqların peyvənd olunması məqsədi ilə ciddi tədbirlər görüb. Yüksək intellektə malik ziyalı olan Həmidə xanım 1912-ci ildə Tiflisdə keçirilən Zaqafqaziya pambıqçılarının qurultayında Qarabağ bölgəsinin o zamankı bütün problemlərini cəsarətlə dilə gətirib, onların həlli yollarını göstərib...

Həmidə xanım 1918-1920-ci illərdə erməni cəlladlarının ölkəmizin hər yerində soydaşlarımıza qarşı törətdikləri vəhşiliklərə, kütləvi qırğınlara kəskin mövqeyini nümayiş etdirib. O, öz silahlı atlı dəstəsi ilə Əsgəran qalasını yarıb keçərək, Şuşaya yardım göstərilməsinə nail olub.

(Ə.Nəcəfov "Həmidə xanım Məmmədquluzadənin maarifçilik fəaliyyəti" adlı kitabı)

Azərbaycan mədəniyyətinin və elminin inkişafında Azərbaycan qadınının fəaliyyəti Azərbaycan xalqının maariflənməsinə, qadının azad şəxsiyyət kimi formalaşmasına və ictimai həyatda daha fəal iştirak etməsinə xidmət etmişdir.

Cəmiyyətə layıq həqiqi vətəndaşlar yetişdirmək üçün çalışmışdı. Türkiyənin ilk qadın vəkili azərbaycanlı Sürəyyə Ağaoğlu Əhməd bəy Ağaoğlunun qızı Sürəyya Ağaoğlu,Azərbaycanın ilk qa-

dın reportyoru Məryəm Zöhrabova, Azərbaycanın ilk riyaziyyatçı qadın alimi Maya Hüseynəli qızı Hacıyeva, biologiya sahəsində ilk qadın elmlər doktoru, professoru, Azərbaycanın ilk qadın akademiki Validə tutayuq, ilk qadın piano ifaçısı Firuzə Qacar Şuşada anadan olmuşdur

Mənəvi dəyərlərin keşiyində dayanan Şuşalı qadınların cəmiyyətin formalaşmasında xüsusi rol oynamışdı.

## MÜƏLLİMLƏR SEMİNARİYALARI VƏ ŞUŞALILAR

***Kamalə Kamal qızı Qəhrəmanova***
***BDU, Pedaqogika kafedrasının dosenti***
***kamala.qahraman@yahoo.com***

Qori və İrəvan müəllimlər seminariyaları təhsil tariximizdə olduqca əhəmiyyətli rol oynamışlar, seminariyaların məzunlarının təhsilimizin, mədəni-maarif işinin inkişafında xidmətləri böyükdür. Bu seminariyalara təhsil almaq üçün Azərbaycanın müxtəlif bölgələrindən öyrəncilər gəlmiş, təhsil aldıqdan sonra da xidmət etmək üçün bütün quvvələrini səfərbər etmişlər.

Ilk Azərbaycan seminaristlərinin müəllimi A.O.Çernyayevski seçərək oxumağa apardıqları istedadlı uşaqların içində şuşalılar da vardı. Qori və İrəvan Seminariyalarında təhsil almış və çalışmış şuşalılar elm və incəsənətimizə öz töhvələrini vermişlər, Firidun bəy Köçərli, Üzeyir Hacıbəyov, Səfərəli bəy Vəlibəyov, Fərhad Ağazadə, Z.Hacıbəyov və b. kimi. Şuşa füsünkar gözəlliyi ilə məftun etməklə yanaşı ədəbi mühiti ilə də diqqəti cəlb edib. Şuşa əhli hər zaman ədəbiyyata, musiqiyə, oxumağa meylli olub.

Azərbaycan ərazisində ilk qəza məktəbi 1830-cu ilin dekabrın otuzunda Şuşada cəmi 19 şagirdlə fəaliyyətə başladı. (H.Əhmədov,səh.74) Şəhər məktəbləri mövcud qəza məktəbləri əsasında yarandı.1874-cü ildə ilk dəfə Şuşada qəza məktəbi şəhər məktəbinə çevrildi. (H.Əhmədov, səh.119). Çarizmin mürtece siyasətinə bxmayaraq, əhalinin qabaqcıl dəstəsi, xalq maarifi işçiləri hər cür

vasitə ilə təhsilin yayılmasına ciddi cəhd edirdi. Bu xeyirxah işdə Şuşa, Nuxa, Gəncə və Qazax qəzalarının sakinləri xüsusilə fərqlənirdi.( H.Əhmədov,səh.121)

Zaqafqaziya Qori Seminariyasının bitirən 3 azərbaycanlıdan biri əslən şuşalı olan Səfərəli bəy Vəlibəyov1861-ci ildə Şuşada anadan olub. 1881-ci idən pedaqoji fəaliyyətə başlamışdı. Tətil zamanı Şuşaya gələn Vəlibəyov Şuşadakı uşaqlara pulsuz dərs deyib, savad öyrədib, ali məktəbə daxil olmaq üçün hazırlayıb. 1883-cü ildə Şuşada Səfərəli bəy tərəfindən ana dili məktəbi açılıb. Səfərəli bəy yaxşı müəllim, görkəmli maarif xadimi, bacarıqlı tərcüməçi idi.

1882-ci ildə ilk dəfə nəşr edilən A.O.Çernyayevskinin "Vətən dili" (I hissə) və S. Vəlibəyovla birlikdə hazırlanaraq 1888-ci ildə dərc olunan həmin dərsliyin II hissəsini F. Köçərli mühüm pedaqoji hadisə kimi qiymətləşdirilmişdir.

1863-cü ildə Şuşada anadan olan Firudun bəy mədrəsə məktəbində təhsil aldıqdan sonra Şuşadakı rus məktəbinə daxıl olur. 1879-85-ci illərdə Zaqafqazıya müəllimlər seminariyasında təhsilini davam etdirir. 1895-1918-ci ilə qədər Qoridə pedaqoji fəaliyyətini davam etdirir. 1910-cu ildə 1916–1917-ci illərdə seminariyanın Azərbaycana köçürülməsi üçün təşəbbüs göstərmişdir.

Qori müəllimlər seminariyasının məzunu F.Köçərli 1885-ci ilin iyun ayında Azərbaycanın təhsil tarixində əhəmiyyətli rol oynamış təhsil müəssisələrindən biri olan İrəvan gimnaziyasına Azərbaycan dili və şəriyət müəllimi təyin edilmişdir.

Azərbaycan mətbuat tarixinin formalaşmasında mühüm rol oynayan Fərhad Ağazadə 1895-ci ildə Şuşa şəhərində anadan olub. Qori Müəllimlər Seminariyasında təhsil aldığı illərdə O tərbiyəsinə görə seçilib və şəxsi işinə tikilmiş anketində ünvanına bu sözlər yazılıb: "ciddi, səyli, bacarıqlı, nəzakətli". Pedaqoq, dilçi, jurnalist, yazıçı-publisist,ictimai xadim, Azərbaycanın azadlığı uğrunda ömrünün sonuna kimi mübarizə aparmışdır.

Üzeyir Hacıbəyov ilk təhsilini Şuşada, H.Vəzirovun müdir olduğu ikiillik rus-tatar məktəbində almışdır. Sonra o, Şuşadakı

mədrəsədə ərəb-fars dillərini öyrənmişdir. 1899-cu ildə isə o, rus-tatar məktəbini əla qiymətlərlə bitirmiş və elə həmin ildə də təhsilini davam etdirmək üçün Qori Müəllimlər Seminariyasının aşağı hazırlıq sinfinə daxil olmuşdur. Bu sinfi müvəffəqiyyətlə bitirmiş Ü.Hacıbəyov 1900-cu ilin sentyabrından yuxarı hazırlıq sinfində oxumağa başlamışlar. Musiqi mədəniyyətinin inkişafında yeni mərhələ açmış Üzeyir Hacıbəyov Azərbaycan milli operasının banisidir. Azərbaycanda maarrif və mədəniyyət çırağı yandıran Üzeyir bəyin milli kadrların yetişməsində, musiqi incəsənətimizin dünya səviyyəsinə çıxmasında böyük xidmətləri var. Bir çox ilklərə imza atmış Şuşa mühitinin qabaqcıl, demokratik fikirli, ziyalı insanlar yetişdirməsi təsadüfü deyildi. Tanınmış mütəfəkkirlərin ideyalarını mənimsəyən, müsiqi ilə yoğrulan, əsrarəngiz təbiətin gözəlliyi ilə ruhlanan şuşalılar xalqın mədəni tərəqqisinə kömək edən dəyərli əsərlər yaratmış, verdiyi töhfələrlə mədəniyyətimizin inkişaf və formalaşmasına xidmət etmişlər.

## ПРЕПОДАВАТЕЛЬСКАЯ И НАУЧНАЯ ДЕЯТЕЛЬНОСТЬ ВЫПУСКНИКОВ ЗАКАВКАЗСКОЙ УЧИТЕЛЬСКОЙ СЕМИНАРИИ

***Рена Мухтар кызы Ибрагимова***
***Доцент кафедры Археологии и этнографии***
***Бакинского Государственного Университета***
***rena.ibrahimova.historian@gmail.com***

В 1881 году на Южном Кавказе была образована Эриванская педагогическая семинария, просуществовавшая 37 лет и сыгравшая знаменательную роль в истории развития образования в Азербайджане. Среди дисциплин, преподаваемых в семинарии, значились азербайджанский язык и шариат. Начиная с 1883 года, в течение многих лет ахунд М.Газизаде преподавал в семинарии азербайджанский язык. В создании начальных сельских школ в Азербайджане наряду с выпуск-

никами учительской семинарии в Гори и выпускники Эриванской учительской семинарии сыграли важную роль. В 1879 году по инициативе Мирза Фатали Ахундова было открыто азербайджанское отделение Закавказской учительской семинарии. В семинарии изучали европейские языки, географию, арифметику, особое внимание уделялось изучению русского языка и литературы.

Учащийся Эриванской семинарии Мир Гашим Везиров посвятил свою статью исследованию состояния обучения в татарских (азербайджанских) школах. Изначально школы создавали при мечетях и преподаванием занимались муллы. Но, впоследствии, после сдачи экзаменов на звание учителя, права преподавания получали и светские лица, а школы могли функционировать и за пределами мечети. Автор отмечает антисанитарные условия в школах. Независимо от числа учеников, занятия проводились в одном помещении, так как занимался с ними один преподаватель. Ученики обычно сидели на паласах, принесенных с собой, иногда их заставляли сидеть на коленях. Скученность обучающихся (минимум 60 человек) в непроветриваемых тесных комнатах, ежедневная продолжительность занятий по 10-12 часов, отопление при помощи мангалов с тлеющим углем отрицательно влияли на здоровье учеников. Учителей в школах и обществе называли мулла, ахунд, мирза. Эти лица пользуются уважением среди населения и участвуют в разрешении возникавших конфликтов. Учителя считались духовными отцами своих воспитанников, подвергали их физическому наказанию при надобности. Для этого в школах существовала фаллага – специальное приспособление. Родители считали такой метод обучения вполне допустимым и рациональным и даже выражали свое одобрение мулле, одарив его головкой сахара или табаком. Определенной платы за обучение не было. Когда заканчивалось чтение Корана, и в день Новруз байрама от каждого ученика мулла получал денежное вознаграждение. В день

Курбан байрама каждый ученик был обязан принести в дом муллы ¼ часть жертвенного барана. Автор уделил внимание расписанию и программе обучения в татарских школах. Так, с утра до полудня мулла с каждым учеником в отдельности занимается чтением; в полдень учеников отпускают на час домой; после этого около двух часов упражняются в чистописании под наблюдением старших учеников, а при допущении ошибок детей наказывают. После усвоения азбуки три-четыре года ученики читают Коран на арабском языке, затем изучают наставления, передаваемые от отца к сыну, далее их знакомят с поэмой «Лейли и Меджнун». Мир Гашим Везиров с сожалением отмечает, что ни в одной из школ азербайджанскому языку не учат. После завершения обучения сына грамоте отец, обыкновенно, берет его к себе помощником в лавку или отдает в приказчики другому, так как цель обучения считается достигнутой. Умение чтения Корана обязывало каждого учащегося по четвергам на кладбище читать для умерших родственников одну или две главы из Корана. В заключение Везиров приходит к выводу, что такое ограниченное обучение, низкий уровень преподавания, отсутствие соответствующих условий в школах не может дать хороших результатов в образовании. Мир Гашим Везиров занимался исследованием архаичных верований азербайджанцев. На основе примеров из фольклора он дает обширную информацию о духовной культуре народа. Главное существо, как он отмечает в мифологии – это джины, которые могут вредить человеку в умственном и физическом отношении. Джины делятся на правоверных и неверных, могут принимать различные образы людей и животных. Неверные джины под различными предлогами сбивают человека с пути, становясь невидимыми, нападают на домашних животных. Единственный способ избавиться от этой опасности – воткнуть булавку или иголку в джина, что делает его совершенно беспомощным перед человеком. По поверьям джины обитают в местах

уединенных: в развалинах, в лесу, под большими деревьями, на берегах рек, озер. Злые джинны обитают в больших пещерах, оврагах, на кладбищах. Их присутствие можно обнаружить везде, за исключением только мечетей и домов, где читают Коран. Далее Везиров описывает «дивов», отличительная черта которых гигантский рост и необычное телосложение: у некоторых диво бывает несколько голов или ветвистые рога, хвосты и т.п. Согласно народным поверьям дивы в прошлом держали людей в повиновении, обращались с ними как с домашними животными. В отместку за это людям при помощи магии и талисманов удалось дивов заключить в пещеры и заковать в цепи. Везиров, ссылаясь на сведения жителя города Шуши, пишет, что недалеко от города в пещере «Мелик-Шахназар-Кяхаси», где будто бы живет большое семейство. Проходящему мимо прохожему слышны звук цепей дивов. Самое главное место среди злых духов занимает «шайтан». Он был ангелом, но так как не захотел признать Адама, за что был изгнан с неба. С тех пор шайтан всеми силами и путями старается извести человека. Вследствие этого возникло верование, что все неблаговидные поступки, грехи человек совершает под влиянием шайтана. Только мертвых шайтан оставляет в покое. Различные поверья сформировались в связи с явлениями природы. Например, сильный ветер считался признаком совершенного преступления, несправедливости и т.п. Появление кометы на небе предвещало эпидемию, дороговизну или продолжительную кровопролитную войну. Землетрясение, которое происходит от движения золотого быка, на спине которого держится земля, означало приближение эпидемии. Затмение небесных светил вызвало появление поверий, которые идентичны для всех регионов Азербайджана. Затмение луны и солнца происходит от того, что нечистые духи заслоняют их свет. Падающие звезды это стрелы ангелов, которыми он поражают нечистых духов и освобождают луну и солнце. Беспрестанные дожди, снег,

град и другие осадки считаются последствиями Божьего гнева. Интересные поверья были связаны с семейным бытом. Внезапное потухание свечи, лампы означало несчастье для семейства в скором будущем, например: умрет старший член семейства. На свадебном торжестве такое происшествие означало неудачный брак.

Такие силы природы, как огонь и вода играют в жизни людей важную роль. Бранить огонь или без надобности клясться огнем – большой грех; нельзя тушить огонь, а в особенности – заливать его водою. Считалось, что весь огонь, существующий на земле, произошел от одной искры, вылетевшей из ада. Воду также нельзя бранить и без надобности клясться ею. Якобы вода осталась на Земле со времени всемирного потопа. Источники воды надо было сохранять в чистоте, использовать в меру. Человеку, отправляющемуся в дальний путь, выливали вслед воду, чтобы он благополучно вернулся домой. Верили, что утопленников вода поглотила за неуважительное отношение (осквернение, оскорбление) к ней. А безгрешных людей духи воды и огня спасали, не позволяя им утонуть или сгореть. Существовало поверье, что собака, лошадь могут предупредить человека лаем, ржаньем о предстоящем бедствии или болезни и, таким образом, иногда помогают ему спастись. В фольклоре есть много примеров, как человек превращается в животное и обратный процесс. М. Везиров сообщает о вере мусульман в то, что мельник в прошлом был медведем, но за истребление посевов пшеницы был обращен в животное. Мусульмане кошек считают «həmzad», т.е. они могут превращаться в джинов. Поэтому прогнав кошку с порога дома, можно принести в дом беду. Исследователь собрал сведения о поверьях азербайджанцев, связанных с птицами. Прилет совы, филина и других ночных птиц, их крики предвещали смерть одного из членов семьи. Чтобы предотвратить это в птиц бросали тлеющую головню. Каркающая ворона также была предвестни-

цей несчастья. Часто бросали ей мясо, чтобы она не каркала. Азербайджанцы верили, что сорока приносит вести из далеких стран, а петух, запевший не во-время, может принести несчастье хозяину дома. Такую птицу обязательно резали, а мясо отдавали мулле или бедняку. Также поступали с курицей и цыплятами, издающими звуки, похожие на крик петуха. Ласточка считалась священной птицей и была вестником весны. Дом, в котором она свивала гнездо и растила птенцов, считался счастливым. Убивать голубей также было запрещено.

Смерть роженицы от родовой горячки или по другой причине связывали с влиянием злого духа «Hal anası», который представляли в образе гигантской женщины с распущенными волосами и огромными сосцами. Этот дух был опасным и для новорожденного младенца. Если роженица теряла сознание, то считали, что Hal anası похитила ее печень, чтобы скормить своим детям. В таких случаях начинали стрелять из ружей, чтобы напугать этого духа. Домовые тоже присутствуют при родах с целью подменить новорожденного здорового ребенка каким-нибудь своим слабым младенцем или задушить и ребенка, и роженицу. Повитуха, чтобы избежать несчастья, на голову роженицы надевали папаху, желая таким образом обмануть домовых, что будто бы в постели лежит больным мужчина, а не женщина. Защитную функцию выполнял металл, а именно, меч или кинжал, который обнажали над головой роженицы. С этой же целью вместо настоящего имени роженицу называли «Мариям», по имени Девы Марии: домовые будто бы не смеют приблизиться к женщине из-за этого имени. До 12 лет дети считались безгрешными, поэтому злые духи их не касались. Иногда духи, чтобы наказать родителей, пытались вредить их детям, увлекая их в колодец или на дно реки. Ребенок-плакса в семье мог послужить причиной несчастья целому семейству и рано лишится родителей. Домовыми родители пугали своих детей,

чтобы уберечь их от шалостей. Если ребенок бредил во время болезни, полагали, что он беседует с ангелами. Нередки были случаи, когда в детей, женского пола, влюблялись злые духи, а также некоторые опасные животные (змея и др.).

Вера в счастливые дни и часы до сих пор существует в обществе. Как обручение, так и бракосочетание совершали в «счастливый час». Магические обряды должны были обеспечить молодым счастливую семейную жизнь. Так, невесту опоясывали платком, на котором было сделано девять узлов, в знак того, что она должна родить семерых сыновей и двух дочерей; при этом на колени невесты сажают мальчика с той же целью. Под ноги невесте при входе в дом жениха бросали брусок железа, чтобы она была привязана к этому очагу. Жених снимал башмаки с ноги невесты и ставил их перед нею, носками к ней, в знак того, чтобы невеста не вздумала уйти из его дома. Перед заключением брака жених старался помириться со всеми своими врагами, ибо последние могли заколдовать его и лишить мужской силы. Перед невестой клали деньги и сладости: жених брал деньги и опускал их в свой кисет для достатка, а сладости ел, чтобы быть довольным своей будущей женой. Согласно анимистическим представлениям, связанным с погребением, азербайджанцы верили, что мертвый чувствует процесс омовения и слышит все, что происходит вокруг него, пока уши ему не заткнут ватой. Покойники, которые в жизни своей много грешили, превращаются в собак и блуждают около кладбища. Часто правоверные будто бы видели пламя, выходящее из могилы грешника. 103-112 .

Рашид бек Эфендиев изучал методы народной медицины в селении Куткашен Нухинского уезда Елизаветпольской губернии. Исследователь не обошел вниманием анимистические представления местного населения. Он отмечает, что на каждом сельском кладбище есть могила святого, превратившаяся в пир – объект поклонения. Например, пир Занки, пир

Салар, шейх-Ибрагим, шейх-Таджи, Шихидлар, шейх-Амир. По сведениям Эфендиева бытовые условия населения не соответствуют каким-либо гигиеническим условиям и требованиям, что способствует распространению эпидемий. Обычно в одной, в редких случаях 2-х комнатах с низким потолком, обогреваемых камином, проживает большое семейство. Пищу готовили на «ер мангалы» - неглубокой яме в земляном полу, куда закладывали раскаленные угли, вследствие этого воздух в комнате постоянно был удушливым. Стены и земляной пол в жилище один раз в год обмазываются раствором глины - «шира». Часто в жилищах содержат и домашний скот. Сохранять чистоту в доме жителям мешает и суеверие. Например, оспу, корь, тиф, холеру, чахотку (туберкулез), паршу, чуму и другие болезни, по мнению населения, должны перенести все члены семьи, и только так можно избавиться от болезни. Знахари и старожилы считаются в народе опытными лекарями и лечат больных разными примитивными средствами. С этой целью прибегают к молитвам, которую на белой бумаге или белой шелковой ткани пишет мулла. Этот талисман прикалывают к одежде больного или вешают ему на шею. За свой труд мулла получает вознаграждение, в противном случае талисман теряет свою целительную силу. Иногда этот талисман опускают в чашу с водой, которую больной выпивает. При лечении часто прибегали к гаданию. Люди верили, что причиной возникновения лихорадки, является дух умершего родственника, вселившегося в тело больного. Искусство изгонять «дух» передавалось у знахарей от поколения к поколению. Знахарь отгадывает имя покойника, виновного в болезни, и для успокоения его души, готовят поминки с пловом или халвой, который раздают бедным. После этого больному назначается ванна с добавлением двух горстей земли, взятой с могилы предполагаемого виновника болезни. Эфендиев отмечает, что посещение святых мест, где растет вековое дерево или большой камень, тоже

способствует излечению болезни. Больной, обойдя три раза означенный пир, должен выпить воду с раствором земли, взятой из-под камня или дерева и затем привязать к пиру тряпочку, оторванную от одежды, в котором застигла его болезнь, так как считают, что с этой тряпочкой болезнь оставляется на этом месте. В народной медицине против продолжительной лихорадки больному давали арбузный сок, а тело обтирали виноградным уксусом. Иногда с арбузным соком смешивался мед и оставлялся в продолжение ночи на открытом воздухе, а затем натощак эта смесь дается больному для возбуждения в нем рвоты, чтобы прекратить разлитие желчи. Необычным способом пытались лечить желтуху (гепатит). Больному наносили внезапный удар, чтобы отпугнуть болезнь. При продолжительной желтухе больному давали 20 дней подряд сок из барбарисовых ягод и надевали на руку хлопчатобумажную нить с семью узлами и с одной желтой стеклянной бусинкой.

Гасан бек Багиров исследовал антропологию, характер, семейно-брачные отношения, материальную и духовную культуру жителей селения Геран-Бой-Ахмедлы, большая часть которых являются мусульманами-суннитами, шиитов же несколько семей. Мужчины в брак вступают в 18, а девушки в 14 лет. Жена и дети в семье находятся в полном подчинении от главы семьи и беспрекословно выполняют его приказания и распоряжения. Мужчина занят полевыми работами, скотоводством, остальные работы по хозяйству выполняют женщины. Продуктивному развитию скотоводства способствовало наличие обширных и богатых пастбищ. Зимой скот держат на ятагах. Землю пахали сохой. Вспаханную землю засевали вручную. Выращивали ячмень, ячмень и просо, собирали урожай серпом, на эту работу приглашали хамшари - работников из Ирана. Урожай молотили на гумне, используя для этого молотилки, быков и лошадей. Оставшийся после молотьбы саманом кормили домашний скот.

Существовало половое разделение труда между членами семьи. Девочки с 5-6 лет помогали матери по дому, выполняя мелкие работы. Мальчики с 5-6 летнего возраста принимали участие в работе взрослых мужчин, ухаживали за домашним скотом, рубили дрова. Население занималось ткачеством, изготовляя невысокого качества ковры, паласы, мафраши, чуваши переметные сумки. Одежда мужчин состояла из папахи, рубахи из бязи, длинного архалука и чухи, шаровар, бурки. Обувью служили обычно чарыки из сыромятной кожи. Женская одежда состоит из платка, чалмы, келагаи, короткого кафтана, обшитого по подолу серебряными монетами, костюм дополняют серебряные пояса украшенные монетами. Питаются сельчане пшеничным хлебом, рисом, бараниной, пресным и кислым молоком, сыром и маслом. Самое любимое блюдо населения «бозартма», которое готовят из свежей и нежной баранины. Отмечаются праздники Рамазан, Новруз, священным днем считается пятница-джума. Хотя гостеприимством жители села не отличаются, но, приглашенных людей принимают с радушием. Багиров с сожалением пишет, что образование в селе находится на низком уровне, что в большей степени связано с религиозным фанатизмом жителей, поэтому родители в русскую школу детей отправляют неохотно. В семье воспитанию детей не уделяется должного внимания, элементарных навыков грамоты они не получают.

Видный просветитель, знаток фольклора, публицист, этнограф, неутомимый пропагандист национальной культуры, выпускник Закавказской учительской семинарии Теймур бек Байрамалибеков основную цель своей деятельности видел в создании в Ленкорани школы для девочек, чтобы подготовить преподавательские кадры. Свою идею он воплоти в жизнь в 1917 году, а его дочь стала педагогом и директором этой школы. Байрамалибекова очень серьезно занимал вопрос бесправного положения женщин в семье и обществе и

видел причину этого в изоляции женщин от науки и просвещения. Наряду с преподавательской деятельностью Байрамалибеков много сил отдал исследовательской работе, подготовив сборник «Фольклор Азербайджана и прилегающих стран» на основе собранных им в селах Ленкорани легенд, сказок, сказаний. Он стал первым этнографом региона, часть собранных материалов была им опубликована в СМОМПК-е. Одну из статей он посвятил космогоническим представлениям талышей, которые затмения солнца и луны связывали с похищением светил дьяволом. Чтобы отпугнуть дьявола, стреляли из ружей, били по медной посуде, создавая страшный шум. А представители мусульманского духовенства считали затмение карой Аллаха за прегрешения людей, поэтому молились и раздавали милостыни. В прошлом талыши верили, что солнце и луна являются живыми существами, созданными Аллахом в образе жены и мужа. Ссора межу ними разлучила их, вследствие чего они никогда не встречаются на небосклоне. Падающую звезду считали «иблисом» - дьяволом, изгнанным из рая за неповиновение Аллаху. Байрамалибеков основательно изучал историю и географию, сельское хозяйство, медицину и другие науки, взялся за организацию в Ленкоранском училище опытного хозяйства по разведению шелковичных червей. Изучением фольклора занимался и М.Эфендиев, написавший статью о поверьях азербайджанцев Шемахинского уезда. Они представляли небо из семи слоев, расположенных друг над другом и состоящих из какого-нибудь драгоценного камня или металла: серебра золота, яхонта, алмаза и пр. Считалось, что перед дождем или перед снегом врата неба раскрывают ангелы – привратники, а после прекращения осадков ворота закрывают. Грома гремит, когда ангел Гавриил скачет на небе на своем коне, а молния появляется от удара его кнута. Талыши верили, что смерть каждого человека связана с падением листа с дерева, растущего в раю. Так как Млечный путь тянется с севера на

юг, то его называют путем в Мекку, потому что богомольцы едут в Мекку по направлению с севера на юг. Дождевая вода при первой грозе считается целебной, а каждая ее капля, падающая на землю, превращается в жемчужину. Появление радуги считается хорошим предзнаменованием и сулит хороший урожай. Духи, управляющие водными стихиями, также как и люди имеют семью. Опасным считалось купание человека по субботам и средам, поздно ночью, так как в это время водяные могут испугать. Запрещалось поздно вечером выливать во двор горячую воду, так как нечаянно можно облить детей домовых, которые за это будут мстить.

Целая плеяда выпускников семинарии в Гори, ставших преподавателями в сельских школах, занимались сбором легенд, сказок, преданий от местного населения, которые были напечатаны СМОМПК-е. Среди них Исмаил Эфендиев, Муса Кулиев, Султан Эфендиев, Рустам Мелик-Асланов, Гаджи Саниев и другие, что помогло сохранить и донести до последующих поколений элементы богатейшей духовной культуры азербайджанского народа. Выпускники Эриванской, Закавказской семинарий своим трудом на преподавательском и научном поприще внесли неоценимый, достойный вклад в развитие мировоззрения, образования, науки, общественного сознания не только в Азербайджане, но на всем Кавказе.

## Литература

1.Везиров Мир-Гашим бек. О татарских школах. СМОМПК. вып.9. Тифлис. 1890. с.1-6

2.Байрамалибеков Т. Космогонические представления талышинцев Ленкоранского уезда. СМОМПК. вып.17. Тифлис. 1893. с.202-204

3.Везиров Мир-Гашим бек. Несколько сведений о татарских поверьях. СМОМПК. вып.9 Тифлис.1890. с.103-112

4.Эфендиев М. Из поверий татар Шемахинского уезда.

СМОМПК. вып.17. Тифлис. 1893. с.205-218
5.Эфендиев Рашид бек. Несколько сведений о селении Куткашен Нухинского уезда. СМОМПК. вып.9. Тифлис.1890. с.139-148
6.Багиров Гасан-бек. Некоторые характерные черты жителей с. Герай-Бой-Ахмедлы Елиаветпольской губернии. СМОМПК. вып.6.Тифлис. 1888. с.177-225
7.Kərimov V.V. XX əsrin əvvəllərində Lənkaranda nüsəlman qız məktəbinin təşkili tarixindən. BDU-nun xəbərləri. Humanitar elmlər seriyası. 2011. №3.s.103-108

## ZAQAFQAZİYA MÜƏLLİMLƏR SEMİNARİYALARININ İNKİŞAF TARİXİ: QORI, İRƏVAN VƏ QAZAX MÜƏLLİM SEMİNARİYASININ İŞIĞI GÜNÜMÜZDƏ

***Nəzakət İbrahim qızı Zamanova***
***Azərbaycan Dövlət Pedaqoji Universitetinin müəllimi***
***Xəzər Universiteti (doktorant)***
***zamanovanazakat13@gmail.com***

Çar Rusiyası 1876-cı ildə Qafqaz xalqlarının-gürcülərin, ermənlərin, dağıstanlıların və tatarların (o vaxt azərbaycanlılar belə adlanırdı) ibtidai məktəblərdə dərs deməsi üçün müəllim kadrları hazırlamaq məqsədilə Qoridə Müəllimlər Seminariyası açmışdı. 1875-ci il aprelin 8-də Zaqafqaziya Müəllimlər Seminariyasının "Əsasnamə"sindəki bir qeyddə deyilirdi ki, müsəlmanlar xüsusi müsəlman müəllim məktəbi açılana kimi bu seminariyaya və onun nəzdindəki məktəbə daxil ola bilərlər. 1877-ci ildə Mirzə Fətəli Axundov, Mirzə Hüseyn Qayıbzadə, Mirzə Cəfər Topçubaşov, Həsən bəy Zərdabi kimi fədailərin böyük təkidi, səyi nəticəsində "Ölkənin azərbaycanlı əhalisi üçün Zaqafqaziya Müəllimlər Seminariyası yanında təcrübə məqsədilə 3 il müddətinə müstəqil Azərbaycan şöbəsinin açılmasına nail olurlar. Bu işdə onlara xüsusi köməyi olan,Peterburq Universitetinin fəxri doktoru, eyni zamanda tək Rusiya Elmlər Akademiyasının müxbir üzvü deyil,

həm də Londonda Böyük Britaniya və İrlandiya Kral Cəmiyyətinin, Kopenhagendə Şimali Antikvarilər Kral Cəmiyyətinin üzvü olan Mirzə Kazım bəyin dəstəyi olmuşdur. Təcrübə yaxşı nəticə verəcəyi təqdirdə, 3 ildən sonra həmin şöbəni azərbaycanlılar üçün müstəqil seminariyaya çevirib Qoridən Azərbaycanın uyğun olan ərazisinə köçürməsi məsələsi də qoyulurdu. Onların məqsədi xalqin bütün təbəqələrinin təhsil almasını sağlamaq olmuşdur. Bu təhsil ocağının yetirmələrinin məqsədi Azərbaycan xalqının qaranlıq yollarını işıqlandırmaq olmuşdur. Bu təhsil ocağında Azərbaycan şöbəsinin açılması çətinliklə də olsa, təsdiqlənəndən sonra Azərbaycanda böyüyən və bu xalqı sevən A.O.Cernyayaevski şöbənin inspektoru təyin olunur. Şöbənin açılmasına baxmayaraq ərizə verən çox az olur, belə olan halda, şöbənin fəaliyyət göstərməsi sual altında qala bilcəyini nəzərə alan A. O. Cernyayevski, İrəvanda, Naxçıvanda, Gəncədə, Şuşada, Şamaxıda, Qubada, Dərbənddə  olur, qapı-qapı gəzib qəza mərkəzlərində seminariyaya uşaq toplayırdı. Valideynlərə təhsilin, maarifin nə demək olduğunu izah edib deyirdi ki, məqsədimiz Azərbaycan xalqının qaranlıq yollarını işıqlandırmaqdır, balalarınızı bu işığı yandırmaqdan məhrum etməyin. Yüz kilometrlərlə yolu faytonla, araba ilə, qatarla, bəzən də payi-piyada getməli olurdu. Çox keçmədən Şuşadan Firudin bəy Köçərli, Səfərəli bəy Vəlibəyov, Baba bəy Səfərəlibəyov, Lənkərandan Teymur bəy Məmmədbəyov, Qazaxdan İsmayıl ağa Vəkilov, Məmmədağa Şıxlınski, Şəkidən Rəşid Əfəndiyev özlərindən sonra gələnlərin yolunu işıqlandırmaq üçün çətin bir yola çıxırlar. Azərbaycanlı tələbələr bilikləri qavramaqları, gözəl əxlaqları və yüksək mədəniyyətləri ilə seminariyanın xristian tələbə və müəllimlərini heyrətə salmışdılar. Firidun bəy Köçərli tələbə ikən yunan filosofu Sokratın həyatı və əxlaqi görüşlərinə həsr olunmuş "Təlimati-Sokrat" əsərini tərcümə etmişdi.

Şəmistan Nəzərlinin “Qoridən gələn qatar” əsərində yazır: 1879-cu il sentyabrın 1-də seminariyanın nəzdində Azərbaycan dilində və sünni təriqəti üzrə şəriət müəllimi vəzifəsinə Hüseyn Əfəndi Qayıbzadə, şiə təriqəti üzrə şəriət müəllimi vəzifəsinə isə

molla Əbdülsalam Axundzadə təyin olunur.

Bu yolun işığına düşüb Qori Seminariyasına təhsil, maarif, mədəniyyət dalınca gedən azərbaycanlıların sayı ildən-ilə artırdı. Firidun bəy Köçərli, Səfərəli bəy Vəlibəyov, Soltan Məcid Qənizadə, Üzeyir bəy Hacıbəyli, Cəlil Məmmədquluzadə, Rəşid bəy Əfəndiyev, Müslüm Maqomayev, Şıxlinskilər, Süleyman Sani Axundov, Hacıbaba Süleymanov, Nəriman Nərimanov, Osman Əfəndiyev, İsfəndiyar Vəkilov, Fərhad Ağazadə və başqaları Qori Seminariyasını bitirdikdən sonra Azərbaycanın azadlığı uğrunda başlanan istiqlal savaşında mücadilə edənlərin sırasına qoşuldular və həyatlarının sonunadək bu mübarizədən çəkinmədilər. Soltan Məcid Qənizadə 3 il – 1905-ci ilin avqustundan 1908-ci ilin avqustunadək seminariyanın Azərbaycan şöbəsinin inspektoru olmuşdur. Digər məzunlar da qəzalara, ucqar kəndlərə gedib dərs deyir, millətimizi maarifsizliyin, cəhalətin, geriliyin əlindən qurtarmaq üçün çalışırdılar. Çünki bu məmləkətin azadlığı və hürriyyəti üçün hər şeydən öncə maarifə, mədəniyyətə, tərəqqiyə ehtiyacı olduğunu bilrək bu müqəddəs işi ilk icra edənlər oldular.

"Azərbaycan" qəzetinin yazarlarından olan, dövrünün görkəmli ziyalı qadını Şəfiqə Əfəndizadənin jurnalistlik fəaliyyəti ilə tanışlıq zamanı məlum olur ki, o, "Azərbaycan"ın hər nömrəsində dərc edilən yazılarında qadınları, anaları elmə, təhsilə, maarifə, mədəniyyətə səsləmişdir. Şəfiqə Əfəndizadə qəzetin 25 iyun 1919-cu il 211-ci nömrəsində "Vətən bizim anamızdır" adlı məqaləsində yazırdı: "Xanımlar! Həmşərilər! Bu gün Vətən bizim qeyrətimizə, millətin səadəti bizim xariqüladə səylərimizə mərbuddur. Qəlbində həmiyyəti bulunan, nanu-neyməti ilə pərvərdə olduğu Vətəninə qəlbində məhəbbət hiss edən hər bir insan, xüsusən hər bir qadın gücü yetdiyi mərtəbədə vəzifəsini ifadəyə çalışmalıdır". "Azərbaycan" qəzetinin 1918–1919-cu illərdə əməkdaşı olmuş, Qori Seminariyasının məzunu Fərhad Ağazadə də hər məqaləsində xalqının, millətinin nicatını elmdə, təhsildə gördüyünü yazır, yetişən gəncləri təhsil almağa dəvət edirdi. Valideynlərə uşaqlarını məktəbə göndərməyi tövsiyə edirdi.

Qeyd etmək lazımdır ki, ermənilər fədailərimizin maarifpərvər işində onlara mane olur, müxtəlif bəhanələrlə tələbələrdən xaric edilməsinə səbəb olmuşlar. Görkəmli ziyalılarımıza dəfələrlə sui-qəsdlər etmişlər. Bütün çətinliklərə baxmayaraq onları bu yoldan heç bir təhdid döndərə bilməmişdir.

Qarşıya qoyulan birinci məsələ Qori Seminariyasının Azərbaycan şöbəsinin Qazağa köçürülməsinə manelər çox idi. Ziyalı şəxs Firudin bəy Köşərli bu işin reallaşması üçün mübarizəyə başlamışdı. Seminariyanın Azərbaycana köçürülməsini Firidun bəy çoxdan planlaşdırırdı. Azərbaycan maarifçiləri bu mühüm işə 1884-cü ildən təşəbbüs göstərirdilər. Fikirlərini belə əsaslandırırdılar ki, məsafənin uzaqlığı, Qoridə azərbaycanlıların yaşamaması, şagird azlığı müəllim kadrların arzuedilən səviyyədə hazırlanmasına mane olur. Dəfələrlə Səfərəli bəy Vəlibəyov şuranın iclasında bu təkliflə çıxış edib və sərt etirazla cavablanıb. 1906-cı ildə N.Nərimanov "Həyat” qəzetində yazırdı ki, Qori Seminariyasına 60 şagirddən artıq qəbul olunmur. Darülmüəllim Bakıda, Gəncədə və ya qeyri-müsəlman şəhərində olsa, padşahlıq xərcinə oxuyan 60 nəfərdən savayı 60 nəfər müsəlman uşağı da daha ziyadə öz evlərində olarkən seminariyada elm-təhsil etməyə mümkünləri olacaqdır. Həmin il Firidun bəy Bakıda “Nəçri-Marif” cəmiyyətinin toplantısında çıxış edərək seminariyanın Azərbaycan şöbəsində vəziyyətin ağır olduğunu söyləyir və məktəbin Azərbaycanın şəhərlərinin birinə köçürülməsi məsələsini qaldırır. Lakin nə rus çarlığı, nə də gürcü knyazlığı buna icazə vermir. Başqa çarə də yox idi. Odur ki, yay məzuniyyətində məktəbin bağlı olmasından, rus çarının yıxılmasından və gürcü knyazlarının başlarının hökumət qurmağa qarışdığından fürsət tapan Firidun bəy bir dəqiqəni belə fövtə vermir. Seminariyanın Azərbaycan şöbəsinə məxsus bütün dəftərxana ləvazimatını, müxtəlif avadanlıqları vaqona dolduraraq öz xərci ilə seminariyanın Qazağa köçürülməsinə nail olur. Qazaxda Məşədi İbrahim adlı işıqlı, xalqının balalarını maarifləndirmək arzusu ilə yaşayan ziyalı insan 17 otaqlı mülkünü seminariyanın direktoru Firidun bəy Köçərliyə bağışlayır. Özü isə doğma kəndi Kosalara köçüb ömrünü oradakı evində başa vurur.

Qazax Seminariyasının fəaliyyəti Azərbaycanda təhsilin, maarifin inkişafına böyük təkan verdi. Görülən təcili tədbirlər nəticəsində artıq 1919-cu ilin əvvəlində Bakıda, Gəncədə, Şəkidə, Salyanda, Şuşa və Qazaxda 23 dövlət orta təhsil müəssisəsi, o cümlədən 6 kişi, 4 qadın gimnaziyası, 5 realni məktəb, 3 müəllim seminariyası, 3 qadın təhsil müəssisəsi, 1 politexnik və 1 ticarət məktəbi fəaliyyət göstərirdi. Qori Müəllimlər Seminariyasının bəhrəsi artıq Azərbaycanda duyulurdu. Qısa vaxtda Azərbaycanda pedaqoji kursların açılmasına başlanıldı. Gəncədə, Qazaxda, Şuşada, Nuxada kişi, Bakı, Nuxa və Gəncədə ikiillik qadın kursları açıldı. Maarifi və milli mədəniyyəti təbliğ edən cəmiyyətlər, xeyriyyəçi kurslar təşkil edildi. Xalqın milli ənənələr, vətənpərvərlik ruhunda tərbiyə olunmasında mühüm rol oynayan amillərdən biri də Qori Müəllimlər Seminariyasını bitirən mütəxəssislər idi.

İrəvan Müəllimlər Seminariyasının təntənəli açılışı 1881-ci il noyabrın 8 -də olub. Seminariyada digər elmi fənlərlə yanaşı Azərbaycan dili fənninin və şəriət dərslərinin tədris edilməsi üçün müvafiq ştat vahidi nəzərdə tutulmuşdu. Axund Məhəmmədbağır Qazizadə 1883-cü ildən başlayaraq uzun illər ərzində İrəvan müəllimlər seminariyasında Azərbaycan dili fənnini və şəriət dərslərini tədris etmişdir. İrəvan müəllimlər seminariyasında Azərbaycan dili və şəriət dərslərinin tədris edilməsi təsadüfi deyildi. Çünki bu seminariya xalqımızın tarixən qədim torpaqlarından sayılan İravan quberniyasında yaradılmışdı. Həmin mahalda yaşayan əhalinin əksəriyyətini Azərbaycan türkləri, müsəlmanlar təşkil edirdi. Seminariyada Azərbaycan dilinin və şəriətin tədris edilməsi dövrün tələbi idi. Təhsil almaq üçün seminariyaya gəlmiş azərbaycanlı gənclər ilk pedaqoji təhsillərini aldıqdan sonra həyat fəaliyyətlərini azərbaycanlıların yaşadığı kəndlərdə ibtidai məktəblərin yaradılması işinə və yaxud mövcud ibtidai kənd məktəblərində müəllimlik peşəsinə həsr edərək xalq kütlələri arasında elm və maarifin yayılması və savadsızlığın aradan qaldırılması işində yaxından iştirak edirdilər. Bu təhsil ocağı mövcud olduğu 37 il ərzində öz fəaliyyəti ilə Cənuvi Qafqazda, o cümlədən Azərbaycan-

da xalq məktəbi və təhsilin, mədəni-maarif işinin inkişafında əhəmiyyətli rol oynamışdır. 1885-ci ilin iyununda rəvan seminariyasına Azərbaycan dili və şəriət müəllimi təyin edilmişdir. F.Köçərli bu tədris ocağında 10 il pedaqoji fəaliyyətini davam etdirmişdir. Cəlil Məmmədquluzadə 1887-ci ildə Qori seminariyasını bitirdikdən sonra İrəvan və Yelizavetpol xalq məktəbləri direktorluğunda yerləşən Uluxanlı məktəbinə müəllim təyin edilib. Azərbaycanda ibtidai kənd məktəblərinin yaradılması işində Qori müəllimlər seminariyasının məzunları ilə yanaşı İrəvan müəllimlər seminariyasını bitirmiş məzunlar da yaxından iştirak ediblər. İlk pedaqoji təhsilini həmin seminariyada almış bir sıra azərbaycanlı gənclər sonralar təhsillərini Rusiya və Avropanın müxtəlif ali təhsil ocaqlarında davam etdirərək Azərbaycana qayıtmış və ölkəmizdə elm, mədəni-maarif işlərinin, habelə iqtisadiyyatın müxtəlif sahələrinin inkişaf etdirilməsində yaxından iştirak etmişlər. Xalqımızın bir sıra tanınmış nümayəndələri, maarif fədailəri-Həmid bəy Şaxtaxtinski, Haşım bəy Nərimanbəyov, Haşım bəy Vəzirov, Tağı bəy Şəfiyev, Vahid Musabəyov, Fərrux bəy Ağakişivəyov, İbadulla bəy Muğanlinski, Şamil bəy Mahmudbəyov, Cabbar Məmmədov və başqaları vaxtilə ilk pedaqoji təhsillərini İrəvan müəllimlər seminariyasında alıblar. 37 ilə qədər fəaliyyət göstərən bu təhsil ocağı 1918-ci ilin 6 avqustunda İrəvan gimnaziyası və Uluxanlı məktəbi ilə eyni vaxtda bağlanmışdır.

XIX əsrin sonu — XX əsrin əvvəllərində ibtidai məktəblər üçün azərbaycanlı müəllimlər, əsasən, Qori və İrəvan seminariyalarında hazırlanırdı. Lakin bu təhsil ocaqları Azərbaycan dili müəllimi hazırlamırdı. Həmin dövrdə Azərbaycan dili müəllimlərinin hazırlanmasında sistemsizlik hökm sürürdü. 1905–1907-ci illərdə Azərbaycan dili müəllimlərinin hazırlanması o dövrdə fəaliyyət göstərən mədəni-maarif cəmiyyətlərinin açdıqları kurslarda — Bakı quberniyası və Dağıstan vilayətinin xalq məktəbləri müdiriyyətinin kurslarında, Yelizavetpol (Gəncə) mədrəsəsində, habelə Tağıyevin qız məktəbində, həmçinin 1915-ci ildə açılmış qadın pedaqoji kurslarında həyata keçirilirdi. Bununla yanaşı, Azər-

baycanda xalq maarifi, məktəb, ədəbiyyat, mədəniyyət və incəsənətin bir çox nümayəndələri ilk pedaqoji təhsillərini məhz Qori və İrəvan müəllimlər seminariyasında almışlar. Azərbaycanda pedaqogika elminin yayılması və inkişafı, xalq maarifinin bütöv bir dövrü məhz Qori və İrəvan müəllimlər seminariyası məzunlarının fəaliyyəti ilə bağlıdır. Həmin təhsil ocaqlarının milli təhsil tariximizdəki yeri və rolu bu gün də öyrənilir, tədqiq edilir, gənc nəslin, tələbələrin elmi-pedaqoji biliyinin artırılmasında istifadə edilir. Onların kecdiyi çox məşəqqətli yolu bizim aydınlığımıza, istinad edib bizə buraxdıqları mirasa, pedaqoji fikir tarixində dayaq nöqtəmizə, bir sözlə bizi müstəqilliyimizə götürən fədailərimizlə fəxr edir,onların ruhu qarşısında baş əyirik.

### Ədəbiyyat


1. Ziyəddin Məhərrəmov. "İrəvanda məktəbdarlıq və maarifçilik" (1800–1920-ci illərdə ədəbi-mədəni mühit). Bakı: Nurlan, 2010
2. Hüseyn Əhmədov. Azərbaycan məktəb və pedaqoji fikir tarixi. Bakı: Elm və təhsil, 2014. səh. 349.
3. Misir Mərdanov. Azərbaycanın təhsil tarixi. "Təhsil" nəşriyyatı, 2011-ci il. Bakı, I cild, 295 s.


## AZƏRBAYCANLI MÜƏLLİM KADRLARI HAZIRLIĞINDA İRƏVAN MÜƏLLİMLƏR SEMİNARİYASININ ROLU


***Kəmalə Rafiq qızı Quliyeva***
***Azərbaycan Dövlət Pedaqoji Universiteti, p.ü.f.d, b/m***
***kamala.328@inbox.ru***


Hər bir millət gələcəyə öz tarixinin çiynində gedir. Keçmişi bilməmək yalnız indi baş verənlərin dərkinə deyil, həm də gələcəyə nüfuz etmək təşəbbüslərinə mane olur. Keçmiş bu günlə bağlı olduğu kimi, həm də gələcəklə sıx bağlıdır. Təkcə bu günü deyil, sabahı, gələcəyi dərindən dərk etmək, qiymətləndirmək baxımın-

dan da keçmişi yaxşı öyrənməli və sələflərimizin yaratdıqları mənəvi dəyərlərə sahib çıxmalıyıq. Bu baxımdan Azərbaycan torpağı olan İrəvan şəhərində fəaliyyətə başlamış Müəllimlər Seminariyasının - təhsil tariximizin şərəfli səhifələrindən birini təşkil edən bu maarif ocağının - tarixinin öyrənilməsi, bununla əlaqədar konfransların, dəyirmi masaların, bir sıra tədbirlərin keçirilməsi təhsil tariximizə faydalı olardı. Milli maarifimizin inkişafında böyük xidmətləri olan, təhsil tariximizə parlaq səhifələr yazmış bu qocaman maarif ocağının ziyası hələ neçə yüz illər bundan sonra da parlayacaqdır. Məlumdur ki, Azərbaycanda olduğu kimi, İrəvanda da dünyəvi məktəblər açılana qədər təlim müəssisəsi kimi yalnız məscidlərin nəzdində mollaxanalar və mədrəsələr fəaliyyət göstərmişdir. Əsrlər boyu fəaliyyət göstərən mollaxana və mədrəsələr xalqımızın mədəni yüksəlişini təmin edə bilməmiş, onun inkişaf prosesini ləngitmişdir. XIX əsrin əvvəllərində Cənubi Qafqazda baş verən siyasi proseslər müxtəlif sahələrdə olduğu kimi, təhsil və məktəb sahəsində də yeni meyillərin yaranmasına səbəb oldu. Artıq təlim müəssisəsi kimi fəaliyyət göstərən mollaxana və mədrəsələr getdikcə tənəzüllə uğrayır, öz yerini dünyəvi məktəblərə verməyə məcbur olurdu.

İrəvanda yeni məktəb sisteminin yaradılması XIX əsrin 30-cu illərinə təsadüf edir. Yerli xalqları itaətdə saxlamaq, ruslaşdırma və xristianlaşdırma siyasətini həyata keçirmək, çarizmin hökmranlığını möhkəmləndirmək məqsədilə milli ucqarlarda qəza məktəblərinin açılmasını nəzərdə tutan Zaqafqaziya məktəblərinin ilk nizamnaməsi (1829) qəbul olundu. Bu nizamnaməyə görə, Cənubi Qafqazda 20 qəza məktəbinin açılması nəzərdə tutulurdu. 1832-ci ildə İrəvan şəhərində ilk dünyəvi məktəb – ikisinifli qəza məktəbi yaradıldı. Qəza məktəbi 1839-cu ildə üçsinifli qəza məktəbinə, 1869-cu ildə dördsinifli progimnaziyaya, 1881-ci ildə gimnaziyaya çevrildi. 8 noyabr 1881-ci ildə İrəvanda daha bir təhsil müəssisəsi - İrəvan Müəllimlər Seminariyası fəaliyyətə başladı. Burada müxtəlif millətlərin nümayəndələri ilə yanaşı, azərbaycanlılar da təhsil alırdı. Yeri gəlmişkən onu da qeyd edək ki,

İrəvan Müəllimlər Seminariyasının və gimnaziyasının təşkil edilməsi Cənubi Qafqazda maarifçiliyin daha geniş vüsət almasına ciddi təsir göstərdi. Seminariyada tatar dilini (Azərbaycan) Axund Məmməd Bağır Qazızadə tədris edirdi. O, 1853-cü ildə İrəvanda anadan olmuş, İrəvan progimnaziyasını bitirmişdir. Yüksək biliyə malik olan Axund Məmməd Bağır Qazızadə həm də seminariyada Azərbaycan bölməsinə rəhbərlik edirdi. O, 1911-ci ildə İrəvan müəllimlər seminariyasının bir qrup əməkdaşları ilə Tiflisdə Azərbaycan dilində nəşr olunmuş "Ana dili" dərsliyinin həmmüəlliflərindən biri idi. Aparılan araşdırmalardan məlum olur ki, seminariyanın Azərbaycan bölməsinin rəhbəri Axund Məmməd Bağır Qazızadə burada şəriət dərslərinin yüksək səviyyədə keçirilməsi, tədris şəraitinin yaxşılaşdırılması, gənc soydaşlarımızın seminariyaya daha çox cəlb edilməsi istiqamətində böyük rol oynamışdır.

Digər seminariyalarda olduğu kimi, İrəvan Müəllimlər Seminariyasında da təhsil pullu idi. Şagirdlərin müəyyən hissəsi dövlət vəsaiti hesabına oxuyurdu. Qəbul olunanlar birinci dərs ilində 210 manat, sonrakı illərdə isə 180 manat təhsil haqqı ödəyirdilər. 1907-ci ilin məlumatına əsasən, burada təhsil alan 70 şagirddən yalnız 20 nəfəri öz hesabına oxuyurdu. “Qafqaz kalendarı”nın 1913-cü il sayında verilən məlumata görə, seminariyada təhsil alan 128 tələbədən 46-sı rus, 30-u azərbaycanlı, 6-sı gürcü, 9-u digər millətin nümayəndələri olublar. İrəvan Müəllimlər Seminariyasının ilk buraxılışı 1884-cü ildə olub. Həmin il məktəbi 5 azərbaycanlı bitirmişdi. Seminariyanın 10-cu buraxılışı 1893-cü ildə, 20-ci buraxılışı 1903-cü ildə, otuzuncu buraxılışı isə 1913-cü ildə olub. XIX əsrin sonlarında Cənubi Qafqazda işləyən kənd məktəbləri müəllimləri və müdirlərinin xeyli hissəsi müxtəlif illərdə həmin seminariyada ekstern yolu ilə imtahan verərək müəllimlik hüququ qazanmışdılar. Seminariyanın pedaqoji şurasının qərarına əsasən, 1895-ci ildə Cəlil Mirzəyev, Tağı bəy Səfiyev, Məmməd bəy Qazıyev, 1902-ci ildə isə İbadulla bəy Muğanlinski, Cabbar Məmmədov, Şamdan Mahmudbəyov və başqalarına

kənd müəllimi adı verilib. Bu nəcib işin də təşəbbüsçüsü və təşkilatçısı qocaman maarif xadimi Axund Məmmədbağır Qazızadə olub. Məzunların təyinat üzrə kənd məktəblərində işləməsi məcburi idi. Seminariyanın 1910-cu il məzunu Mehdi Kazımova verilən sənəddən aydın olur ki, o, təyinat üzrə 6 il işləməyə borcludur, əks halda xəzinəyə 520 rubl ödəməlidir.Yeri gəlmişkən onu da qeyd edək ki, İrəvan Müəllimlər Seminariyasının və gimnaziyasının təşkil edilməsi Cənubi Qafqazda maarifçiliyin daha geniş vüsət almasına ciddi təsir göstərdi. Yüksək biliyə malik olan Axund Məmməd Bağır Qazızadə həm də seminariyada Azərbaycan bölməsinə rəhbərlik edirdi. O, 1911-ci ildə İrəvan müəllimlər seminariyasının bir qrup əməkdaşları ilə Tiflisdə Azərbaycan dilində nəşr olunmuş "Ana dili" dərsliyinin həmmüəlliflərindən biri idi. Aparılan araşdırmalardan məlum olur ki, seminariyanın Azərbaycan bölməsinin rəhbəri Axund Məmməd Bağır Qazızadə burada şəriət dərslərinin yüksək səviyyədə keçirilməsi, tədris şəraitinin yaxşılaşdırılması, gənc soydaşlarımızın seminariyaya daha çox cəlb edilməsi istiqamətində böyük rol oynamışdır.

Tədqiqatlardan aydın olur ki, 1906-cı ilin iyun ayında Cəlil Məmmədquluzadə İrəvanda olmuş, seminariyada qabaqcıl azərbaycanlı ziyalılarla, müəllim və tələbələrlə görüş keçirmiş, "Molla Nəsrəddin" jurnalı barədə geniş fikir mübadiləsi aparmışdır. "Molla Nəsrəddin" jurnalının İrəvanda özünə möhkəm yer tutmasında İrəvan Müəllimlər Seminariyasının Azərbyacan bölməsinin müəllimlərinin və tələbələrinin də böyük rolu olmuşdur. "Tuti", "Zənbur", "İqdam", "İrşad", "Babayi-Əmir", "Məzəli", "Kaspi", "Şəlalə", "Sovqat", "Kəşkül", "Tərcuman" və s. bu kimi mətbuat orqanlarının da İrəvanda yayılmasında azərbaycanlı ziyalıların və tələbələrin böyük rolu olmuşdur.

Onu da qeyd edək ki, İrəvan Müəllimlər Seminariyasında 1904-cü ildə Rəşid bəy Şaxtaxtinski, 1907-ci ildə isə Həmid bəy Şahtaxtinski Azərbaycan (tatar) dili fənnini tədris etmişlər. Həmid bəy 5 iyun 1899-cu il tarixdə İrəvan Müəllimlər Seminariyasını bitirdikdən sonra Qafqaz Təhsil Dairəsinin əmri ilə 1 sent-

yabr 1899-cu il tarixdən İrəvan rus-tatar məktəbinə Azərbaycan dili müəllimi təyin edilir. 27 oktyabr 1901-ci il tarixdə isə Qafqaz Təhsil Dairəsi rəhbərinin 14622 №-li əmri ilə İrəvan Müəllimlər Seminariyasına tatar (Azərbaycan) dili müəllimi təyin edilir. Həmid bəy 23 oktyabr 1907-ci il tarixdə Qafqaz Təhsil Dairəsinin 19273 №-li əmri ilə İrəvan Müəllimlər Seminariyasının tatar dili müəllimi vəzifəsindən azad edilir.

1907-ci ildə Həmid bəy İrəvan Müəllimlər Seminariyasından azad edildikdən sonra onun yerinə Mirzə Cabbar Məmmədzadə tatar (Azərbaycan) dili müəllimi təyin edilir. Mirzə Cabbar Məmmədzadə 19 yanvar 1913-cü il tarixə qədər İrəvan Müəllimlər Seminariyasında tatar (Azərbaycan) dili müəllimi işləmişdir.

Seminariyada Bakıdan, Naxçıvandan, Dağıstandan və başqa şəhərlərdən də tələbələr təhsil alırdı. Seminariyanı bitirən məzunlara kənd ibtidai məktəb müəllimi vəsiqəsi verilirdi.

Əhməd bəy Qaziyev, Əli Əşrəf Qaziyev, Həsən bəy Axund Molla Xəlil bəy oğlu Qaziyev, Fərəməz Mahmudbəyov, Yusif bəy Qaziyev (Qazızadə), Məmməd bəy Əli bəy oğlu Mahmudbəyov, Xəlil Məmmədəliyev, Həsən Nəsirbəyov, ictimai xadim Saleh Məşədi Teymur oğlu Güllücinski, Ağa bəy Rəhim bəy oğlu Firudinbəyov, Abbas Allahverdi oğlu Qədimov, Mir Haşım bəy Vəzirov, Əli Sultanov, Fərrux Ağakişibəyov, Əli Cəlilzadə, Mirzə Bağır Əliyev, Şıxəli bəy Firudinbəyov, Cəfərbəy Cəfərbəyov, İbrahim Şahtaxtlı və başqaları İrəvan Müəllimlər Seminariyasının məzunları olmuşlar. 1910-cu ilə qədər müəllimlər seminariyasını 30 nəfər azərbaycanlı bitirmişdir. 1915-ci ildə seminariyada təhsil alan azərbaycanlıların sayı 22 nəfər olmuşdur.

Seminariyada rus dili, Azərbaycan dili, riyaziyyat, coğrafiya, idman və s. fənlərlə yanaşı, musiqi fənni də tədris edilirdi. 1885-ci ildə seminariyada musiqi fənnini tədris edən N.Kasradzenin rəhbərliyi altında 69 nəfər musiqi təhsili almışdır ki, onların arasında azərbaycanlılar da var idi. Seminariyaya ayrı-ayrı vaxtlarda Yakob Stepanoviç Suşevski, İvan Andreyeviç Pasyuteviç, Mixail Alekseyeviç Miropiyev, Valentin Vasilyeviç Dubromin rəhbərlik

ediblər.

İrəvan Müəllimlər Seminariyası şəhərdə yalnız təhsil ocağı deyil, elm və mədəniyyət mərkəzinə çevrilmişdi.

İrəvan Müəllimlər Seminariyasının məzunları Cənubi Qafqazda milli maarifçiliyin inkişaf etdirilməsi istiqamətində çox böyük rol oynamışlar. Onlar azərbaycanlılar yaşayan bölgələrdə yeni məktəblərin açılmasında, azərbaycanlı balalarının təhsilə cəlb edilməsində fəal iştirak etmişlər. Bu maarif fədailəri daha çox İrəvanda, Naxçıvanda, Azərbaycanın müxtəlif bölgələrində milli intibah istiqamətində böyük fədakarlıq göstərirdilər. Məmməd Axundov, İbadullah bəy Muğanlinski, Məmməd Vəli Qəmərlinski, Cəfər Kərimov və başqaları İrəvanda xalqımızın mədəni yüksəlişi yolunda təkcə səy və bacarıqlarını deyil, həyatlarını və maddi imkanlarını da bu ülvi məqsədə sərf etmişlər. Cəfərbəy Cəfərbəyov İrəvanda həm də III dərəcəli xüsusi məktəb açmağa nail olmuş və eyni zamanda açdığı pansionata rəhbərlik etmişdir. Cəfərbəy 1897-ci ildə İrəvan Gimnaziyasının hazırlıq sinfini, 1901-ci ildə isə İrəvan Müəllimlər Seminariyasını bitirmişdir. 1911-ci ildə İrəvan Müəllimlər Seminariyasını bitirən Əsgər Axundov burada III dərəcəli 1 sinifli, pansionlu məktəb açmağa nail olmuşdur. Seminariyanın məzunu olmuş, əslən Vedili Şəmdin bəy Mahmudbəyov 1903-cü ildən 1917-ci ilə kimi Uluxanlı kənd məktəbinin, Şıxəli bəy Firudinbəyov Qəmərli kənd məktəbinin, Yusif Babayev Dvin-Aysor kənd məktəbinin, Mirzə Cabbar Məmmədov Göyməsçid kənd məktəbinin, İbadullah bəy Muğanlinski Dərəçiçək kənd məktəbinin müdirləri olmuşlar. İlya bəy Mahmudbəyov, Əhməd Haşimov Çobankərə kəndində, Şıxəli bəy Firudinbəyov, Cəlil Məmməd oğlu Mirzəyev, Mirzə Məhəmməd Axundov Qəmərlidə, Həsənbəy Axund Molla Xəlil bəy oğlu Qaziyev, Axund Məmməd Bağır Qazızadə İrəvanda, Məmməd bəy Lütvəli bəy oğlu Qaziyev Uluxanlıda, Fərəməz bəy Mahmudbəyov Böyük Vedidə, Cəfər Kərimov Şərurda müəllim işləmişlər. İrəvanda və bölgələrdə fəaliyyət göstərən bu müəllimlər milli tərəqqi üçün çox böyük işlər görmüşlər. 1895-ci ildə İrəvan Müəl-

limlər Seminariyasını bitirmiş Tağı bəy Səfiyev də uzun müddət Naxçıvanın Nehrəm kəndində müəllim işləmişdir. Həmin dövrdə onun "Nehrəm kəndi" adlı kitabçası da işıq üzü görmüşdür. İrəvan Müəllimlər Seminariyasının məzunlarından biri də Həsən Səfərli olmuşdur. Rus dilinin və riyaziyyatın gözəl bilicisi olan Həsən Səfərli 1917-ci ildən 1919-cu ilin ortalarına qədər Naxçıvanda fəaliyyət göstərən "Rüşdiyyə" məktəbində də dərs demişdir. H.Səfərli 1919-cu ildə Naxçıvanda kimsəsiz uşaqlar evinin müdiri işləmişdir. 1965-ci ildə isə Əməkdar müəllim adına layiq görülmüşdür.

Seminariyanın məzunlarından olan Hüseynəlibəy Rüstəmbəyov Azərbaycanın İsmayıllı rayonunun Lahıc, Cəlil Babayev isə Basqal kənd məktəbində böyük maarifçilik işləri aparmışdır. Yeri gəlmişkən onu da qeyd edək ki, İrəvanda 1890-cı il aprel ayının 4-də tamaşaya qoyulan "Könülsüz nikah" adlı 1 pərdəli pyesin müəllifi İrəvan Seminariyasının tələbəsi Abbas Rizayev olmuşdur. Araşdırmalar nəticəsində məlum olur ki, 1881-ci ildən 1914-cü ilədək İrəvan Müəllimlər Seminariyasını 63 nəfər, 1915-ci ildə isə 22 nəfər azərbaycanlı bitirmişdir.

İrəvan Müəllimlər Seminariyasının görkəmli məzunlarından biri də Həsən bəy Qaziyev olmuşdur. O, 1879-cu ildə İrəvan şəhərində anadan olmuşdur. 1896-cı ildə İrəvan Müəllimlər Seminariyasını bitirdikdən sonra Uluxanlı məktəbində rus dili müəllimi, sonra isə 1918-ci ilə qədər İrəvanın müxtəlif milli məktəblərində rus dili müəllimi işləmişdir. Həsən bəy həm də İrəvan quberniyası müsəlmanlarının dini icmasının üzvü idi. O, 1918-ci ildə erməni daşnaklarının törətdikləri qətliamlar zamanı Naxçıvana köçmüş və müxtəlif məktəblərdə rus dilini tədris etmişdir. Əməkdar müəllim Həsən bəy Qaziyev ömrünün böyük bir hissəni milli maarifçiliyimizin inkişafına həsr etmişdir. O, 1950-ci ildə Naxçıvanda vəfat etmişdir.

İrəvan Müəllimlər Seminariyasının məzunları sırasında Əli Əzim oğlu İbrahimov da vardır. O, 1894-cü ildə Ağdamda anadan olmuş, uzun müddət xalq maarifi sahəsində fəaliyyət göstər-

mişdir. Ə.İbrahimov 1914-cü ildə seminariyanı bitirdikdən sonra inqilabi hərəkata qoşulmuş və bu hərəkatın fəallarından biri olmuşdur. O, 1914-cü ildən 1916-cı ilə qədər Böyük Vedi kəndində müəllim işləmişdir. 1916-cı ilin əvvəllərində Ağdam rayonuna köçmüş və burada rus dilini tədris etmişdir.

Türkiyənin görkəmli rəssamlarından olan İbrahim Səfi də İrəvan Müəllimlər Seminariyasını bitirmişdir. O, II Dünya müharibəsindən sonra Türkiyəyə köçərək ömrünün sonuna qədər orada yaşamışdır.

Ümumiyyətlə, Qərbi Azərbaycanda xalqın maariflənməsində, Abbasqulu bəy Şadlinskinin yaratdığı "Qırmızı tabor"un tərkibində erməni şovinistlərinə qarşı mübarizədə İrəvan Müəllimlər Seminariyasının və Gimnaziyasının Azərbaycan şöbəsini bitirənlərin böyük xidmətləri olmuşdur. Araşdırmalardan o da məlum olur ki, 1937-ci ildə repressiyaya daha çox məruz qalanların əksəriyyəti də məhz elə İrəvan Müəllimlər Seminariyasının və İrəvan Gimnaziyasının, o cümlədən, buradakı dünyəvi məktəblərin məzunları olmuşdur.

Yuxarıda adlarını qeyd etdiyimiz milli intibaha yol açan maarif-mədəniyyət ocaqları 1918-ci ildə ermənilərin azərbaycanlılara qarşı törətdikləri total qırğınlar zamanı öz fəaliyyətini dayandırmışdır. Bu maarif və mədəniyyət ocaqlarında çalışan azərbaycanlı ziyalıların, müəllimlərin, təhsil alan tələbələrin bir qismi həmin hadisələr zamanı qəddarcasına qətlə yetirildi, bir qismi isə amansızcasına qətlə yetirilməkdən xilas olmaq üçün öz tarixi və doğma yurdlarını tərk etməyə məcbur oldular. Çar Rusiyasının bilavasitə dəstəyi ilə qədim Azərbaycan torpağında yaradılan İrəvan quberniyasının əsasında Rusiya Sovet Federativ Sosialist Respublikasının köməyi ilə ilk erməni dövləti (Ararat) yaradıldı. Bu torpağın qədim sakinləri - azərbaycanlılar isə öz vətənlərində azsaylı xalqlardan birinə çevrildilər. Ermənistan K(b)P MK-nın nəzdində fəaliyyət göstərən Azsaylı xalqlar şöbəsinin müdiri Bala Əfəndiyevin, Xalq Maarif Komissarlığının “Azlıqda qalan millətlər" bürosunun rəhbəri Mehdi Kazımovun, "Zəngi" qəzetinin məsul redak-

toru Mustafa Hüseynovun və digər ziyalıların milli iradəsi və təkidli tələbləri sayəsində 1924-cü ilin oktyabrın 15-də İrəvan Müəllimlər Seminariyasının xələfi olan İrəvan Türk Pedaqoji Texnikumu açıldı. Bir il sonra İrəvan Türk Pedaqoji Texnikumuna dövlət xadimi Nəriman Nərimanov adı verildi. Məqsəd azərbaycanlıların təhsil aldığı məktəbləri ibtidai sinif müəllimi ilə təmin etmək idi. Lakin İrəvan Müəllimlər Seminariyasının ənənələrini yaşatmaqla bölgədə əbədi-mədəni və təhsil mühitinin formalaşmasında və inkişafında mühüm rol oynayan Türk Pedaqoji Texnikumu ilk vaxtlardan böyük çətinliklərlə üz-üzə qaldı. 1949-cu ildə isə azərbaycanlıların indiki Ermənistan ərazisindən kütləvi deportasiyası ilə əlaqədar olaraq Xanlar rayonuna köçürüldü... Beləliklə də, azərbaycanlıların indiki Ermənistan ərazisindən – Qərbi Azərbaycandan kütləvi deportasiyasına zəmin hazırlandı və 1988-ci ilin qarlı-şaxtalı noyabr-dekabr aylarında həyata keçirildi.

Millət yaratdığı şərəfli tarixi ilə özünü ifadə edir. İndi yadlara, yağılara qalan qədim İrəvan şəhərində 140 il bundan əvvəl fəaliyyətə başlayan Müəllimlər Seminariyası təhsil və pedaqoji fikir tariximizin, maarifçilik tariximizin, milli mədəniyyət tariximizin və kimliyimizin parlaq səhifələrindən birini təşkil edir.

İrəvan Müəllimlər Seminariyasının 140 illiyinin keçirilməsi ilə bağlı Sərəncam təhsil tarixinin şərəfli bir səhifəsinin daha ətraflı öyrənilməsinə, tədqiq və təbliğ olunmasına təkan verəcəkdir. Bununla bağlı olaraq F. A. Rüstəmov yazır:” ..İrəvan Müəllimlər Seminariyasının 140 illiyinin qeyd edilməsi ilə bağlı Sərəncam mühüm elmi-pedaqoji, siyasi-ideoloji, mədəni-mənəvi əhəmiyyət kəsb edir. Bu Sərəncam İrəvan mahalında azərbaycanlıların min illər boyu yaratdığı tarixi irsə sahib çıxmaqla yaddaşımızı bərpa etməyə və strateji hədəflərə nail olmağa yönəlib.”

## Ədəbiyyat


1. Adıgözəlov Ə. Qarbi Azarbaycandakı milli məktəblərimizin tarixiпdən. Bakı: Təhsil, 2003. 92 s.

2. İrəvan Müəllimlər Seminariyası-140 https: //azertag. az/ xeber/I revan_ Muellimler_ Seminariyasi__ 140-1974206
4. Rüstəmov F. Azərbaycanlı müəllim kadrları hazırlığında İrəvan Müəllimlər Seminariyasını rolu.//Azərbaycan məktəbi, 2022, №1, s.105-122
5. Hüseynzadə R. İrəvan maarifçiliyi. //Azərbaycan məktəbi, 2018, №1, s. 6-10

## İRƏVAN MAARİFÇİLİK MÜHİTİNİN GÖRKƏMLİ PEDAQOJİ KADRLARINA BIR NƏZƏR

***Əkrəm Rüfət oğlu Hüseynzadə***
***NDU, Filologya üzrə fəlsəfə doktoru, dosent***

XIX əsrin 1880-ci illərinin əvvəllərində İrəvanda kadr hazırlayan üç böyük tədris müəssisəsi yaranıb fəaliyyət göstərmişdir ki, onlar vətənə, xalqa bilikli, mükəmməl ixtisaslı pedaqoji kadrlar hazırlamış, laqiyqli mütəxəssilər yetişdirmişdir. Belə kadrlıarın yetişdirlməsində İrəvan Kişi Gimnaziyasının, İrəvan Müəllimlər Seminariyasının (1881), (1881), İrəvan qız progimnzaiyasının böyük rolu və xidmətləri olmuşdur.

Bu gün İrəvan maarifçilik mühiti, orada yaradılmış tədris müəssisələri ilə tanış tanış olanlar, xüsusilə gənclərimiz bizim qədim, ulu torpaqalrımızın Qərbi Azərbaycan dediyimiz məkanda, əzəli Azərbaycan torpaqlarında xalqımızın necə zəngin maarif və mədəniyyətə sahib olduğunun, necə dəyərli məktəblər, texnikumlar, ali məktəblər yaratdıqlarının, bu təhsil ocaqlarında necə fədakar, səriştəli, peşəkar pedaqoji kadrların, elm xadimlərinin yetişməsini öyrəndikcə milli iftixar hissi keçirir və qürur duyurlar.

Möhtərəm Prezidentimiz çıxışlarında, nitqlərində bu məsələyə xüsusi diqqətlə yanaşaraq demişidir: ***“Biz tarixi torpaqlarımızı da unutmamalıyıq və unutmuruq. Bu, gələcək fəaliyyətimiz üçün istiqamət olmalıdır, necə ki, biz bu gün də bu istiqamətdə iş görürük. Bizim tarixi torpaqlarımız İrəvan xanlığıdır, Zəngəzur, Göyçə mahallarıdır. Bunu gənc nəsil də, dünya da bilməli-***

***dir. Mən şadam ki, bu məsələ ilə bağlı – bizim əzəli torpaqlarımızın tarixi ilə bağlı indi sanballı elmi əsərlər yaradılır, filmlər çəkilir, sərgilər təşkil olunur. Biz növbəti illərdə bu istiqamətdə daha fəal olmalıyıq və dünyanın müxtəlif yerlərində sərgilər, təqdimatlar keçirilməlidir. Çünki İrəvan bizim tarixi torpağımızdır və biz azərbaycanlılar bu tarixi torpaqlara qayıtmalıyıq. Bu, bizim siyasi və strateji hədəfimizdir və biz tədricən bu hədəfə yaxınlaşmalıyıq".***

Azərbaycanlıların tarixi torpaqları olan, əhalisinin mütləq əksəriyyəti azərbaycanlılardan ibarət qədim İrəvan şəhərində 1881 – ci ildə fəaliyyətə başlamış İrəvan Kişi Gimnaziyası vətən üçün xeyli dəyərli kadrlar hazırlamış və onun ilk direktoru Vladimir İosifoviç Brajnikov olmuşdur. 1881-ci ildə burada 216 tələbə təhsil almşıdır.

Gimnaziyada təhsil müddəti 4 il olmuşdur. 1883-cü ildə gimnaziyada 37 azərbaycanlı tələbə oxuyurmuş. Gimnaziyanın ilk buraxılışı 1885-ci ildə olmuşdur. 1881-1915-ci illər ərzində Gimnaziyada 582 azərbaycanlı təhsil almışdır. Bu gimnaziyanın pansionu var idi ki, görkəmli ədəbiyyatşünas alim, Əməkdar Elm Xadimi Əziz Şərif də burada hazırlıq mərhələsi keçmiş, sonra da İrəvan Kişi Gimnaziyasında təhsilini davam etdirmişdir.Əziz Şərif xatirələrində yazır: "İrəvanda pansionda yaşayan zaman atam mənə fars dili müəllimi tapmışdı. Bəxtimdən mənim İrəvandakı müəllimim olduqca bilikli və təcrübəli imiş". Cabbar bəy Məmmədovun atası Molla Abbas fars dilinin mütəxəssisi olduğu üçün "Fars Abbas" adı ilə şöhrət tapmışdı.

Gimnaziyanın çox görkəmli tanınmış müəllimləri olmuşdur.

**Firudin bəy Köçərli** 1892-ci ildən İrəvan Kişi Gimnaziyasında Azərbaycan bölməsinin müdiri, eyni zamanda Azərbaycan dili müəllimi işləmişdir. Bu böyük maarif xadimi gimnaziyada müsəlman şöbəsinin müdiri və gimnaziyanın tərkibində olan pansionun müdiri vəzifələrində də çalışmışdır. İrəvan gimnaziyasında çalışdığı illərdə F.Köçərli maarif məsələlərinə dair dəyərli metodik məqalələr yazmış, Zöhrabzadə ilə birlikdə"Təlimi-lisani-türki"

adlı dərslik tərtib etmiş, “Təlimati-Sokrat” (1891) adlı fəlsəfi əsərini nəşr etdirmiş, rus klassikllərindən bədii tərcümələr etmişdir. Daha sonralar onun yazdığı “Balalara hədiyyə” kitabı uşaq ədəbiyyatı üçün ən dəyərli əsərlərdən sayılmaqdadır

İrəvan Kişi Gimnaziyasının tanınmış məzunlarından biri **Eynəli bəy Sultanov** olmuşdur. O, Naxçıvan qəza məktəbində ibtidai təhsilini 1879-cu ildə başa vurmuş, bir il sonra, yəni 1880-cı ildə İrəvan Kişi Gimnaziyasına daxil olmuş, 1886-cı ildə oradan məzun olmuşdur. Eynəli bəy Sultanova 1886-cı il, 5 iyun gimnaziyanın pedaqoji şurasını qərarı ilə 538 saylı müəllimlik hüququ verən Şəhadətnamə təqdim edilmişdir. Gimnaziyanı bitirdikdən sonra Eynəli bəy 1886-1891-ci illərdə fasilələrlə Naxçıvanda yaşamış, Qarsda “Mühüm işlər üzrə məmur” vəzifəsində çalışmışdır. Eynəli bəy Sultanov Gimnaziyada oxuduğu müddətdə mükəmməl təhsil almış, xüsusən Avropa dövlətlərini və Qərb maarifçiliyini dərindən öyrənə bilmişdir. O, xarici dillərdən rus, latın, yunan və fransız dillərini, habelə riyaziyyat, fizika, tarix, coğrafiya, ilahiyyat, ədəbiyyat kimi fənnləri də mükəmməl öyrənmişdir.

Eynəli bəy Sultanov geniş ədəbi, pedaqoji, publisistik fəaliyyəti ilə yanaşı, həm də folklorumuzun mahir bilicilərindən olmuş, Naxçıvan folklorunun toplanmasında, yayılmasında böyük əmək sərf etmişdir. Görkəmli ədib folklor toplayıcısı kimi 1886-1890-cı illərdə - 4 il müddətində İrəvan quberniyasını və Naxçıvan diyarını dolaşaraq 3 mindən çox atalar sözü və zərbül -məsəllər, əfsanə və rəvayətlər, Şəbeh xalq tamaşaları, aşıq yaradıcılığı nümunələri toplamışdır. Topladığı folklor materiallarının bir çoxunu 20 məktub vasitəsilə Firudin bəy Köçərliyə göndərmişdir.

E.Sultanov 1882-ci ildə öz evində “Ziyalılar cəmiyyəti”, 1883-cü ildə “Müsəlman incəsənəti və dram cəmiyyəti” yaratmış və öz evində ilk teatr tamaşaları təşkil etmiş və özünün yazdığı “Tatarka” (“Azərbaycan qadını”. Əsər bəzi mənbələrdə “Sənəm” adı ilə də işlədilmişdir) adlı tamaşa ilə ev şəraitində ilk tamaşa göstərmiş, əsərin baş qəhrəmanı Sənəm obrazını da gənc müəllifin özü oynamışdır. Bu tamaşa qadının ictimai mövqeyi, hüquqları, ailə -

məişət həyatı məsələlərinə həsr olunmuşdu ki, o dövr üçün bu çox mühüm və mütərəqqi hadisə idi. C.Məmmədquluzadə "Xatirələr"ində yazırdı ki, ilk dəfə qadın hüquqlarını müdafiə edən Eynəli yoldaşımız olmuşdur. O, ziyalı dostları Cəlil Məmmədquluzadə, Paşa ağa Sultanov, Mirzə Ələkbər Süleymanov, Mirzə Cəlil Mirzəyev(Şürbi), Əsəd ağa Kəngərli, Qurbanəli Şərifzadə və başqaları ilə birlikdə "Naxçıvanda "Üsuli-cədid" məktəbi və kitabxana açdırmağa nail olmuşdur. 1892-ci ildə Naxçıvanda yaxın dostu Əsəd ağa Kəngərli ilə birlikdə gizli mətbəə təşkil edərək burada müxtəlif məzmunlu bəyannamələr də çap etdirmişidr.

XIX əsrin səksəninci illərindən başlayaraq dövrünün mətbuat orqanları ilə əməkdaşlığa başlayan E.Sultanov bir çox qəzet, jurnal və məcmuələrdə müxtəlif mövzulu yazılarla çıxış edir və ictimaiyyət arasında qələmli publisist kimi tanınırdı. Məhz qələminin kəsərli olmasının nəticəsi idi ki, 1905-1908-ci illərdə "Kaspi" qəzetinin İrəvan və Naxçıvandakı xüsusi müxbiri vəzifəsi ona həvalə edilmişdi. İrəvanda olarkən 10 il müddətinə hüquq sistemində müxtəlif vəzifələr daşıması artıq E.Sultanovu bir hüquqşünas kimi də yetişməsinə səbəb olmuşdur. Buna görə də 1906-cı ildən etibarən İrəvan Dairə məhkəməsi prokurorunun Naxçıvan mahalı üzrə köməkçi vəzifəsini də daşımışdır. Hətta 1907-ci ildə Dövlət Dumasına deputat seçilmişdir.

O, Tiflisdə yaşayarkən pedaqoji fəaliyyətlə də məşğul olmuş, belə ki, 1912-ci ildən 1916-cı ilə qədər Tiflis Birinci Qadın Gimnaziyasında rus dili müəllimi, 1917-ci ildən isə ana dili müəllimi və sinif nəzarətçisi vəzifəsində çalışmışdır. O latın əlifbasına keçmək uğrunda ardıcıl səy göstərmiş, Yeni Əlifba Tiflis şöbəsinin katibi vəzifəsini daşımışdır.

Ömrünü xalqının maariflənməsinə, tərəqqisinə həsr edən, humanizm ideyaları təbliğ edən, qadın azadlığı, dini fanatizmin aradan qaldırılması və yeni əlifba uğrunda mübarizə aparan Eynəli bəy Sultanovun bütünlüklə həyatı, fəaliyyəti, yaradıcılıq irsi vətənə, xalqına, millətinə həsr edilmişdir.

Beləliklə deyə bilərik ki, Naxçıvan pedaqoji mühitinin inkişa-

fında, Naxçıvanda müəllim kadrlarının təminatında və təkmilləşməsində İrəvan maarifçilik mühiti, o cümlədən İrəvan Kişi Gimnaziyasının böyük rolu olmuşdur.

## İRƏVAN MÜƏLLİMLƏR SEMİNARİYASINDA TƏLİMİN TƏŞKİLİNİN YENİ İDEYA VƏ İSTİQAMƏTLƏRİ

*Firudin Məmmədov*
*Azərbaycan Dövlət Pedaqoji Universiteti, p.ü.f.d*

1870-ci illərə qədər Qafqazda dünyəvi kursları tədris edən məktəb yox idi, bu fənləri tədris edəcək pedaqoji mütəxəssislər hazırlayan təhsil müəssisəsi də yox idi. Azərbaycanda olduğu kimi, İrəvanda da dünyəvi məktəblər yaranana qədər məscidləri əhatə edən təhsil obyekti kimi yalnız mollaxana və mədrəsələr fəaliyyət göstərirdi. Əsrlər boyu fəaliyyət göstərən mollaxana və mədrəsələr xalqımızın mədəni tərəqqisini təmin edə bilmədi, onun inkişaf prosesinə mane oldu. XIX əsrin əvvəllərində Cənubi Qafqazda baş verən siyasi hadisələr digər sahələrdə olduğu kimi təhsildə və məktəbdə də yeni meyillərin formalaşması ilə nəticələndi. Onsuz da mövcud olan təhsil ocaqları, mollaxana və mədrəsələr getdikcə pisləşirdi və dünyəvi məktəblərə yer açmağa məcbur oldular.[7, səh 59]

Zaqafqaziya Müəllimlər Seminariyasının Azərbaycan bölməsi ilk nəşrini 1882- ci ildə nəşr etdi. Birincisi, kafedranın kursunu bitirmiş on müsəlman azərbaycanlı gənc Azərbaycan məktəbi tarixində pedaqoji təhsil almış ilk azərbaycanlı təlimatçılar kimi işə başladılar. 1882-ci ildə şöbənin kurslarını bitirənlər arasında Haşım bəy Nərimanbəyov, Rəşid bəy Əfəndiyev, Məmməd bəy Əfəndiyev və b. Bu şöbənin məzunlarının sayının az olmasına baxmayaraq, onlar Zaqafqaziyanın azərbaycanlı icmalarında dünyəvi məktəblərin yaradılmasında və fəaliyyətində mühüm rol oynamışlar. O, iddia edir ki, Zaqafqaziya Müəllimlər Seminariyasının Azərbaycan bölməsinin yaradılması ana dilində ilk dərsliyin

hazırlanması üçün şərait yaratdı. 1882-ci ildə ilk dəfə nəşr edilən A.O.Çernyayevskinin "Vətən dili" (I hissə) və S.Vəlibəyovla birlikdə hazırlanaraq 1888-ci ildə dərc olunan həmin dərsliyin II hissəsinin işıq üzü görməsi feodalizm dövründən qalmış doqmatik və sxolastika ilə bağlı olan və uzun müddət davam edən höccələmə (əbcəd-çərəkə) üsuluna ilk və böyük zərbə idi: "Həmin Seminariyanın məzunu sonralar ədəbiyyatşünas alim, pedaqoq və maarifçi F.Köçərlinin sözləri ilə desək, bütöv islam aləmində, türk-tatardilli xalqlar içərisində sövti üsullu dərs demək və dərslik tərtib etmək təşəbbüsü ilk dəfə Azərbaycanda ortaya çıxmış və Azərbaycan məktəblərində tətbiq olunub. Bu, Azərbaycan təhsili tarixində əlamətdar pedaqoji hadisə idi [4]. Sonrakı illərdə bir neçə dəfə təkrar nəşr edilən "Vətən dili" uzun müddət Azərbaycan məktəblərində ana dili dərsliyi kimi istifadə edilmiş və inqilabdan əvvəlki Azərbaycan ziyalılarının bütöv bir nəslinə kömək etmişdir [6,səh 172]. Ən əsası isə bu dərslik Azərbaycan dilinin davamlı inkişafı və yerli dildə əlavə dərsliklərin yaradılması üçün böyük stimul oldu. R.Əfəndiyevin "Uşaq bağçası" və "Bəsirət-ül-ətfal", N.Nərimanovun "Türk Azərbaycan dilinin müxtəsər sərf-nəhvi", Ü.Hacıbəyovun "Hesab məsələləri" və "Lüğət"i, M.Mahmudbəyovun "Türk əlifbası və ilk qiraət"i, başqa müəllimlərlə birlikdə "İkinci il", "Üçüncü il", "İmlamız"dan başlamış, Ə.Y.Seyidovla H.K.Sanılının "Əlifba"sı da daxil olmaqla, ana dilində yazılan dərslik və dərs vəsaitləri "Vətən dili"nin layiqli davamçıları olmuşlar".

İrəvan Müəllimlər Seminariyası Rusiya İmperiyası Dövlət Şurasının 1880-ci il 20 oktyabr tarixli "Kutaisi və İrəvan quberniyalarında müəllimlər seminariyalarının yaradılması haqqında" qərarına əsasən yaradılmışdır. Üç maddə və qərardan ibarət həmin qərarda deyilirdi: "1) İmperiyada Müəllimlər Seminariyası və Zaqafqaziya Müəllimlər Seminariyası haqqında əsasnamə əsasında Kutaisi və İrəvan quberniyalarının hər birində bir Müəllimlər Seminariyası yaradılsın... 3) Kutaisi Seminariyasına dövlət layihələri üzrə seminariyaların saxlanması üçün 27.800 rubl, İrəvan Se-

minariyasına 28.350 rubl köçürülsün və nəhayət, Zaqafqaziyanın yerli büdcəsinə əlli altı min yüz əlli rubl köçürülsün..."[10].

1881-ci il noyabrın 8-də İrəvan Müəllimlər Seminariyasının rəsmi açılışı oldu. İrəvan Müəllimlər Seminariyasında digər elmi kurslarla yanaşı, Azərbaycan dili və şəriət mövzularının tədrisi üçün seminariyanın ştat cədvəlində müvafiq ştat vahidi yaradılmışdır. İrəvan Müəllimlər Seminariyasının nəzdində Azərbaycan bölməsinin yaradılması tarixi sənədlərdə qeyd olunmamışdır. Tarixi məlumatlara görə, seminariyanın ştat cədvəlində müsəlman inancı və Azərbaycan dili mövzusunda şəriət dərslərinin tədrisi üçün müqayisəli ştat vahidi ayrılmışdır. İnqilabdan əvvəlki Qafqazın ən mühüm sorğu nəşrlərindən biri olan və Tiflisdə nəşr olunan “Qafqaz təqvimin”də dərc olunan məlumatlara görə, 1883-cü ildən Axund Məmməd Bağır Qazizadə uzun müddət İrəvan

Müəllimlər Seminariyasında Azərbaycan dili və şəriət dərsləri verib. İrəvan Müəllimlər Seminariyasının Azərbaycan dili və şəriət fənninin tədrisi digər Qafqaz regionlarında, məsələn Kuban və Kutaisi qubernatorluğunda yaradılmış seminariyalardan fərqli olaraq təsadüfi deyildi, çünki xalqımızın tarixən qədim torpaqlarından biri olan İrəvan ərazisi bu seminariyanın əsasının qoyulduğu yerdir. Ərazidə yaşayanların böyük əksəriyyətini Azərbaycan türkləri və müsəlmanlar təşkil edirdi. Seminariyada həm şəriət, həm də Azərbaycan dilini öyrətmək lazım idi. Seminariyada ilk pedaqoji təhsil alan azərbaycanlı müsəlman gənclər ömürlərini azərbaycanlıların yaşadıqları kəndlərdə ibtidai məktəblərin yaradılmasına və ya artıq mövcud olan ibtidai kənd məktəblərində müəllimlik peşəsinə həsr etmiş, elmin və təhsilin yayılmasında, geniş ictimaiyyət arasında bilik və savadsızlığın aradan qaldırılması fəal iştirak etmişlər.

1881-ci ildə İrəvan ərazisində seminariyanın yaradılması ilə yanaşı, daha iki əlamətdar hadisə baş verdi. Qori Müəllimlər Seminariyasının məzunu olan F.Köçərli 1885-ci ilin iyununda İrəvan gimnaziyasında Azərbaycan dili və şəriət fənlərini tədris etməyə başlamış və daha on il orada qalmışdır. O qeyd edir ki, Qori

Müəllimlər Seminariyasının digər məzunu Cəlil Məmmədquluzadə 1887-ci ildə Qori Seminariyasını bitirdikdən sonra İrəvan və Yelizavetpol xalq məktəblərinin müdiriyyətinin tabeliyində olan Uluxanlı məktəbinə müəllim kimi işə götürülüb [4]. İlkin təhsilini həmin seminariyada almış azərbaycanlı gənclərin çoxu sonralar Rusiya və Avropanın müxtəlif ocaqlarında ali təhsil almışlar. Onlar təhsillərini başa vurduqdan sonra vətənləri Azərbaycana qayıdıb, xalqımızın elmi, mədəniyyət və təhsilinin, eləcə də bir çox iqtisadi sahələrin tərəqqisinə töhfələr veriblər. İrəvan Müəllimlər Seminariyası xalqımızın bir çox tanınmış simalarının, o cümlədən Həmid bəy Şahtaxtinskinin, Haşım bəy Nərimanbəyovun, Haşım bəy Vəzirovun, Tağı bəy Səfiyevin, Vahid Musabəyovun, Fərrux Ağakisibəyovun, İbadullanın ilk pedaqoji təhsil aldıqları yer olub. Muğanlinskiy, Ş. Mahmudbəyov və digələrinin rolu danılmazdı [3, səh 337].

Milli təhsil tariximizdə Qori və İrəvan müəllimlər seminariyalarının olduqca əhəmiyyətli rolu danılmazdır. 1898-ci ildən 1902-ci ilədək İrəvan Müəllimlər Seminariyasının direktoru vəzifəsini tutmuş Mixail Alekseyeviç Miropiyev 1903-cü ildə Zaqafqaziya Müəllimlər Seminariyasının yeni direktoru təyin edilərkən dekabr ayında Qori şəhərinə gələrək seminariyanın şəxsi heyəti və yetirmələri qarşısında çıxış edib. M.A.Miropiyev öz çıxışında Zaqafqaziya

Müəllimlər Seminariyasının fəaliyyətinə yüksək qiymət verib. O, seminariyanın 1900-cü ildə Parisdə keçirilən müəllimlər seminariyalarının ümumdünya sərgisində layiqincə iştirak etdiyini, seminariyaların Qafqaz yubiley sərgisində isə yüksək mükafata layiq görüldüyünü bildirərək seminariyaya onun kiçik bacısı - İrəvan Müəllimlər Seminariyasından təbriklər gətirdiyini qeyd edib. M.A.Miropiyev İrəvan Müəllimlər Seminariyasını Qori Müəllimlər Seminariyasının kiçik bacısı adlandırmışdı. Qeyd edək ki, XIX əsrin sonu - XX əsrin əvvəllərində ibtidai məktəblər üçün azərbaycanlı müəllimlər əsasən Qori və İrəvan seminariyalarında hazırlanırdı. Lakin bu təhsil ocaqları Azərbaycan dili müəllimi hazırlamırdı. Həmin dövrdə Azərbaycan dili müəllimlərinin hazırlanmasında sistemsizlik hökm sürürdü. 1905-1907-ci illərdə

Azərbaycan dili müəllimlərinin hazırlanması o dövrdə fəaliyyət göstərən mədəni-maarif cəmiyyətlərinin açdıqları kurslarda; Bakı quberniyası və Dağıstan vilayətinin xalq məktəbləri müdiriyyətinin kurslarında; Yelizavetpol Mədrəsəsində, habelə Tağıyevin qız məktəbində, həmçinin 1915-ci ildə açılmış qadın pedaqoji kurslarında həyata keçirilirdi. Azərbaycanda xalq maarifi, məktəb, ədəbiyyat, mədəniyyət və incəsənətin bir çox nümayəndələri ilk pedaqoji təhsilini Qori və İrəvan müəllimlər seminariyalarında almışlar.

Seminariyada rus dili, Azərbaycan dili, riyaziyyat, coğrafiya, idman və s. fənlərlə yanaşı, musiqi fənni də tədris edilirdi. 1885-ci ildə seminariyada musiqi fənnini tədris edən N.Kasradzenin rəhbərliyi altında 69 nəfər musiqi təhsili almışdır ki, onların arasında azərbaycanlılar da var idi [2].

İrəvan Müəllimlər Seminariyasının məzunları Cənubi Qafqaz milli təhsilinin yüksəlişinə mühüm töhfələr vermişlər. Onlar azərbaycanlıların məskunlaşdığı ərazilərdə yeni məktəblərin tikintisinə, azərbaycanlı gənclərin təhsil sisteminə cəlb olunmasına fəal töhfə veriblər. Bu maarif pərəstişkarları milli dirçəliş yolunda, məhz İrəvanda, Naxçıvanda və Azərbaycanın çoxsaylı quberniyalarında mühüm fədakarlıqlar göstərdilər. İrəvanda Məmməd Axundov, İbadullah bəy Muğanlinski, Məmməd Vəli Qəmərlinski, Cəfər Kərimov və başqaları bu nəcib işə nəinki vaxtlarını, istedadlarını, enerjilərini, həm də ömürlərini, xeyli maddi imkanlarını sərf etmişlər. Cəfərbəy Cəfərbəyov İrəvanda özəl III dərəcəli məktəb açarkən yaratdığı pansiona da rəhbərlik etməyə müvəffəq olub.

Nəticədə Azərbaycan məktəblərinin yenidən təşkili istiqamətində ilkin addımlar kimi birillik, ikiillik və xüsusi məktəblər ləğv edildi. Yeni tipli məktəblər yaradılaraq istifadəyə verilmişdir. İrəvanda və azərbaycanlıların məskunlaşdığı bütün ərazilərdə öz dilimizdə tədris ocaqları şəbəkəsi yeni tipli məktəblərin tətbiqi ilə genişləndi ki, bu da orada təhsil alan tələbələrin sayını sürətlə artırdı. Azərbaycanlı tələbələrin sayının kəskin artmasının əsas səbəblərindən biri də 1918-ci ildə erməni daşnaklarının zülmü nəti-

cəsində ən qəddar edam üsullarından yayınmaq üçün öz doğma yurdunu tərk etmiş bəzi soydaşlarımızın 1920-ci il Sovet İttifaqının Ermənistan üzərində nəzarəti ələ keçirməsindən sonra geri qayıtdı [ 5, səh 54].

Milli dilimizdə təhsil ocaqları şəbəkəsinin genişlənməsi və idarə edilməsi, orada təhsil alan şagirdlərin sayının sürətlə artması müəllim kadrlarına olan tələbatı daha da artırırdı.

Azərbaycanlı ziyalılar tərəfindən milli məktəblərimiz üçün pedaqoji kadrlar hazırlayan tədris müəssisəsinin yaradılması ideyası 30 yanvar 1922-ci ildə EK(b) P-nin birinci qurultayında qaldırılsa da, onların tələblərinə məhəl qoyulmamışdı.

Buna baxmayaraq, Azərbaycan məktəblərində müəllim çatışmazlığının həlli mövzusu müzakirə mövzusu olmaqda davam edirdi. Ermənistan Kommunist

Partiyasının 1923-cü il martın 29-da keçirilmiş ikinci qurultayında bu məsələ yenidən gündəmə gətirilsə də, Azərbaycan məktəbləri üçün pedaqoji kadrların yetişdirilməsi problemi hələ də həllini tapmamış qalır. Qurultayda xalq maarif komissarı A.Mravyan və şovinist erməni dairələri Azərbaycan məktəblərinə müəllim tədarük etmək üçün Azərbaycandan müəllimlərin dəvət edilməsini daha məqsədəuyğun hesab edirdilər. Azərbaycan məktəbləri üçün yerli işçilərin yetişdirilməsi mövzusuna Ermənistanın şovinist qrupları müxtəlif strategiyalardan istifadə edərək əngəl törədirdilər [7, səh 59].

Burada özlərini bolşevik kimi təqdim edən erməni daşnaklarının ən dəhşətli məqsədləri azərbaycanlıların təhsil almasına, mədəni yüksəlişinə və gələcək imkanlarına mane olmaq üçün bütün vasitələrdən istifadə etmək idi. Azərbaycan məktəblərini pedaqoji kadrlarla təmin etmək üçün 1923-cü ilin ortalarında maarifçilik fəaliyyəti ilə məşğul olmaq üçün İrəvana və azərbaycanlıların yaşadıqları rayonlara Azərbaycandan pedaqoji kadrlar dəvət edilərək göndərildi. Azərbaycan məktəblərində çalışan müəllimlər Ermənistanı tərk etmək məcburiyyətində qaldılar, çünki oradakı şərait əsl erməni xisləti ucbatından dözülməz idi, onlar da onları mənəvi və

maddi sıxıntılara məruz qoydular. Azərbaycan məktəblərində pedaqoji kadrlara ehtiyacı xeyli azaltmaq üçün 1922- ci ildə Maarif və Mədəniyyət Nazirliyinin nəzdində yaradılmış Azsaylı Xalqlar İdarəsinin rəisi Mehdi Kazımov noyabr ayında İrəvanda 2 aylıq yay hazırlığı kursu təşkil etdi. Bu hazırlıq sessiyasında 60-dan çox təlimatçı Azərbaycan siniflərində istifadə üçün təlim keçmişdir. Bundan əlavə, Uluxanlı, Vedi, Basarkeçər, Zəngəzur, Ağbaba və azərbaycanlıların yaşadığı digər ərazilərdə də hazırlıq dərsləri keçirilirdi. Bu kurslarda oxumaq bir çox pedaqoqlara karyeralarını yüksəltməyə kömək etdi. Bu hazırlıq sinifləri 1923-cü ilin sonunda yaradıldı və 1926-cı ilə qədər 6-sı qadın olmaqla 143 təlimatçı yetişdirildi. Bu siniflərə Bala Əfəndiyev, Mehdi Kazımov, Mustafa Hüseynov və İrəvanın Azərbaycan ədəbi, incəsənət və ictimai mühitinin digər görkəmli xadimləri böyük təsir göstərmişlər.

Müəllim çatışmazlığı problemini, qismən də olsa, aradan qaldırmaq üçün

Azərbaycan Xalq Maarif Komissarlığının razılığı əsasında İrəvandan Bakıya 1923-cü ildə 16, 1925-ci ildə isə 38 nəfər pedaqoji təhsil almaq üçün müxtəlif ali təhsil müəssisələrinə göndərilmişdi. Zəhra Abbasova, Tacirə Bağırova kimi gənclər Azərbaycan Ali Pedaqoji İnstitutunu bitirdikdən sonra İrəvana qayıdaraq maarifin inkişafına öz töhfələrini verirdilər [5, səh 54].

Bütün bunlara baxmayaraq, görülən bu tədbirlər müəllim kadrlara olan tələbatı ödəyə bilmirdi. Ermənistanın şovinist dairələri Azərbaycan məktəbləri üçün müəllimlər hazırlayan müstəqil tədris müəssisəsinin açılmasını istəmir, Erməni Pedaqoji Texnikumunun nəzdində Azərbaycan şöbəsinin açılmasını istəmirdilər. Məmmədvəli Qəmərli erməni daşnakları 1916-cı ildə vəhşiliklər, qırğınlar törədəndə böyük çətinliklər bahasına ailəsi ilə Gəncə şəhərinə köçmüş, burada məktəb direktoru işləmişdir. Direktoru olduğu məktəbdə Qərbi Azərbaycandan (Ermənistandan) məcburi köçürülən qadınları və uşaqları erməni daşnaklarından gizlədən Mirzə Məmmədvəli ermənilər tərəfindən elə məktəbdəcə vəhşicəsinə qətlə yetirilmişdir [9].

Müəllim çatışmazlığı probleminin aradan qaldırılması işini qaydaya salmaq üçün yerli kadrlar hazırlayan təhsil müəssisənin yaradılmasının təxirəsalınmaz tələbat olduğunu aydın dərk edən EK(b)PMK-nin nəzdində fəaliyyət göstərən Azsaylı xalqlar şöbəsinin müdiri Bala Əfəndiyevin, EXMK-nın "Azlıqda qalan millətlər" bürosunun rəhbəri Mehdi Kazımovun, "Zəngi" qəzetinin məsul redaktoru Mustafa Hüseynovun və başqa qeyrətli azərbaycanlı ziyalıların erməni şovinist dairələri qarşısında təkidli tələbi, ciddi səyi, siyasi və milli iradəsi sayəsində 1924-cü ilin oktyabr ayının 15-də İrəvan Müəllimlər Seminariyasının xələfi olan İrəvan Türk Pedaqoji Texnikumu açıldı [1, səh 12].

Nəticədə, İrəvan Türk Pedaqoji Texnikumunun yaradılması Azərbaycan məktəblərində pedaqoji kadrlara olan ehtiyacın qismən aradan qaldırılması istiqamətində səylərin rəsmiləşdirilməsi prosesinin başlanğıcı oldu.

Texnikumun ilk illərində Mehdi Kazımov direktor və rus dili müəllimi, Bala Əfəndiyev icma müəllimi, Əsgər Əsgərzadə ana dili müəllimi, Cəmil Əliyev təbiət müəllimi, Kərim Məhərrəmov texniki işlər üzrə assistent vəzifələrində çalışıb [8, səh 124]. Bu texnikum 1925-ci ildə yaradılıb və Nəriman

Nərimanovun şərəfinə İrəvan Türk Pedaqoji Texnikumu adı verilib. Texnikumun yüksək ixtisaslı pedaqoqları cəlb etməsi tədrisin keyfiyyətini daha da yaxşılaşdırdı.

İrəvan Pedaqoji Məktəbi oraya toplaşan müəllimlərin pedaqoji ustalığına, ensiklopedik biliklərinə, hazırlanan kadrların savadını pedaqoji məktəb səviyyəsindən ali məktəb tələbələri səviyyəsinə yüksəltməsinə görə layiqli şərəfdir, - deyə İrəvan Pedaqoji Məktəbinin məzunu akademik Budaq Budaqov yazır. texnikum, milli pedaqoji kadrların hazırlanmasına böyük töhfə vermiş bu təhsil ocağı haqqında. Ən seçmə universitetə qəbul İrəvan Pedaqoji Məktəbinə daxil olmaqdan daha çətin idi. Məktəbin daxili nizamı, sıx bağlı icması, yüksək təhsil standartı təqdim etmə tarixi və layiqli şagirdlərə layiq olduqları hörməti bəxş etmək reputasiyası bizi heyran etdi [1, səh 12].

Tərcüməçi-publisist Zahid Əhmədov pedaqoji texnikum haqqında bunları yazır: "O vaxt bu təhsil ocağına abituriyentlərin sayı açılandan çox idi. Deməli, burada yalnız yaxşıların ən yaxşısı oxuya bilərdi. Məktəb rayonun təhsil müəssisələri arasında adət-ənənələri, pedaqoji kollektivi və hazırlığı ilə seçilirdi”.

1935-ci ildə İrəvana səfəri zamanı Məmməd Səid Ordubadi, Mikayıl Müşfiq, Mehdi Hüseyn və başqalarının daxil olduğu qrup Pedaqoji Texnikumun müəllimləri və tələbələri ilə görüşdü. Texnikumun müəllim və tələbə kollektivi qarşısında çıxış edən M.S. Ordubadi bu təhsil ocağının təşəbbüslərini yüksək qiymətləndirdi və dedi: "Biz Türk Pedaqoji Texnikumunun sayəsində əlamətdar bir dirçəliş gördük. Türk mədəniyyətinin nəhəng yüksəlişini gördük" [1, səh 12].

Azərbaycanda bir sıra böyük mütəfəkkirlər, o cümlədən Cəlil Məmmədquluzadə, Əli Nazim, Mir Cəlal, Yusif Vəzir Çəmənzəminli, Sabit Rəhman, Səməd Vurğun, Əbülhəsən, Nigar Rəfibəyli, Mikayıl Rəfili, Vəli Xuluflu, Süleyman Rüstəm və başqaları bu təhsil ocağında ziyarətdə olmuşdular.

İrəvan Azərbaycan Pedaqoji Məktəbinin açıldığı gündən 1947-ci ilin ortalarına qədər 1370 nəfər orta təhsilini başa vuraraq onları müəllimliyə hazırlayıb.

Pedaqoji məktəbin fəaliyyətini ardıcıl izlədikdə aydın olur ki, müxtəlif vaxtlarda bu təhsil ocağına rəhbərlik etmiş Mehdi Kazımovun, Bəhlul Yusifovun, Həbib Məhəmmədzadənin, Əsgər Cəfərovun və məktəbin müəllimlərindən Məmməd Həsənovun, Əyyub Babayevin, Rəziyyə İsmayılovanın, Sadiq Heydərzadənin, Zərri Qurbanovanın, Təvəkkül Kərimovun, Həbib Əkbərovun, Hüseyn Əliyevin, Cəfər Ələkbərovun, Şura Fərhadovanın, Surə Babayevanın, Raziyə Abdullayevanın və başqalarının fədakar əməyi sayəsində tələbələrin yüksək təhsil səviyyəsi təmin edilirdi.

1949-cu ilə qədər fəaliyyət göstərən İrəvan Türk Pedaqoji Məktəbi Qərbi Azərbaycanın ədəbiyyatına, mədəniyyətinə, incəsənətinə, o mədəniyyətin yüksəlişinə, qurulmasına və qorunub saxlanmasına mühüm təsir göstərmişdir. Uzun və şərəfli tarixi yol

keçmiş, təhsil tariximizin ən şanlı səhifələrindən birini təşkil edən bu təhsil ocağının kollektivi bolşevik cildinə bürünmüş erməni daşnaklarının mənfur siyasəti nəticəsində deportasiyaya məruz qalaraq 1949-cu ildə Azərbaycanın Xanlar rayonuna köçürülmüş, 1972-ci ilə qədər burada fəaliyyət göstərmişdir. bağlı idi.

Qori və İrəvan müəllimlər seminariyalarının məzunlarının fəaliyyəti Azərbaycan xalq maarifinin bütün tarixi ərzində pedaqoji elmin yüksəlişi və inkişafı ilə bağlı idi.

Görkəmli coğrafiyaçı akademik Budaq Budaqov, AMEA-nın müxbir üzvü, filologiya elmləri doktoru, professor, azərbaycanlı qadınlar arasında ilk dəfə filologiya elmləri namizədi və filologiya elmləri doktoru elmi dərəcəsi almış alim və Dilçilik İnstitutunun ilk qadın direktoru professor Zərifə Budaqova, görkəmli tarixçilərdən professor Yusif Yusifov, professor Süleyman

Məmmədov, professor Nəzər Paşayev, metodistlərdən professor Əli Fərəcov, pedaqoqlardan professor Abbas İsmayılov, filoloqlardan professor Fərhad

Fərhadov, professor Cəfər Cəfərov, Azərbaycan SSR Maarif Nazirliyində Baş Məktəblər idarəsinin rəisi, “Azərbaycan məktəbi” jurnalının baş redaktoru işləmiş filologiya elmləri namizədi Zəhra Əliyeva, filologiya elmləri namizədi, dosent Kövsər Tarverdiyeva, filologiya elmləri namizədi, dosent NəcəfNəcəfov, tibb üzrə görkəmli alim, əməkdar elm xadimi, professor Nəriman Əliyev, funksional analiz üzrə tanınmış riyaziyyatçı, dosent Qasım Mustafayev, hüquqşünas, hüquq elmləri namizədi Nəriman Yusifov, fəlsəfə elmləri namizədi, dosent Sabir Səfərov, partiya və dövlət xadimləri Həbib Həsənov, Cümayıl Mərdanov, Tapdıq Əmiraslanov, Abbas Mustafayev, Cəlil Quliyev, ədəbiyyat və mədəniyyət xadimləri Abbas Tahir, əməkdar rəssam Cabbar Quliyev və başqalarıİrəvan Pedaqoji Məktəbində təhsil almışlar [1, səh 12]. Bu mütəfəkkirlər Azərbaycan elminin, təhsilinin, ictimai-siyasi və mədəni həyatının tərəqqisinə mühüm töhfələr vermişlər. İrəvan Pedaqoji Məktəbinin məzunlarının əksəriyyəti Azərbaycan elminin tərəqqisində fərqlənmişlər. Ümumilikdə, İrəvan Pedaqoji Məktəbini 25 illik fəaliyyəti ərzində, qismən məlumatlara görə,

214 şagird bitirib. Azərbaycanın təhsil tarixində tarixən İrəvanda yerləşən orta pedaqoji təhsil müəssisələrinin özünəməxsus əhəmiyyəti vardır. Azərbaycan məktəblərinin tarixi və pedaqoji prinsiplər çərçivəsində İrəvan orta təhsil müəssisələri ilə bağlı araşdırmalar aparıb Azərbaycan təhsil ictimaiyyətinə çatdırmaq pedaqogika mütəxəssislərinin əsas vəzifəsidir.

R.Səfərovun sözlərinə görə, ölkəmiz Qori və İrəvandakı seminariyaların məzunlarının tarixi töhfələrini unutmayıb. Onun sözlərinə görə, bu təhsil ocaqlarının tarixi əhəmiyyətinin öyrənilməsi hələ də davam etdirilir və ondan tələbələrin və gənc nəslin elm və təhsil haqqında təsəvvürlərinin təkmilləşdirilməsində istifadə olunur [10].

Azərbaycanın təhsil tarixində mühüm yer tutan seminariyalarda böyük nəsil yetişdi. Ölkəmizin tarixinə və həyatına həmin nəsil əhəmiyyətli dərəcədə təsir göstərmişdir. Onlar əbədi qalacaq bir məktəb tikdilər. Çünki onun mayasında millilik, vətənpərvərlik, azərbaycançılıq anlayışı dayanır.

140 il bundan əvvəl qədim Azərbaycan torpağı olan İrəvan şəhərində fəaliyyətə Təhsil tariximizin şanlı səhifələrindən biri olan Müəllimlər Seminariyasının tarixinə nəzər salmaq, bununla bağlı konfranslar, dəyirmi masalar, müxtəlif tədbirlər təşkil etmək təhsil tarixi haqqında anlayışımız üçün faydalı olardı. Ölkəmizin təhsil sisteminin yüksəlişinə mühüm təsir göstərmiş və təhsil tariximizdə parlaq səhifələr qoyan bu görkəmli informasiya ehtiyatının irsi yüz illər boyu da yaşayacaqdır.

Millət özünün şanlı keçmişinin köməyi ilə özünü ifadə edir. Təhsil tariximizin və pedaqoji konsepsiyaların, maarifçilik tariximizin, milli mədəniyyət və kimlik tariximizin parlaq fəsillərindən biri də indi unudulmuş tarixi İrəvan şəhərində 140 il əvvəl fəaliyyətə başlamış müəllimlər seminariyasıdır.

Məlum olduğu kimi, Prezident İlham Əliyev İrəvan Müəllimlər Seminariyasının 140 illiyinin qeyd edilməsi haqqında Sərəncam verib. Sərəncamda qeyd edilir ki, İrəvan şəhəri tarixən azərbaycanlıların köklü yaşadığı böyük elm, maarif və mədəniyyət mərkəzlərindən biri kimi şöhrət tapıb. “Şəhərdə Azərbaycan xalqına məxsus son dərəcə zəngin ədəbi-mədəni mühit formalaşmış-

dır. İrəvan xanlığı çar Rusiyasının tərkibinə qatıldıqdan sonra burada dünyəvi təhsilə xüsusi diqqət yetirilməsində həmin mühitin özü əhəmiyyətli rol oynamışdır. XIX əsrin ikinci yarısından etibarən Cənubi Qafqazda maarifçilik hərəkatı geniş vüsət aldı. Regionda dünyəvi təhsil verən yeni tipli məktəbin – İrəvan Müəllimlər Seminariyasının açılması da məhz bu vaxtlara təsadüf edir. 1881-ci ilin noyabr ayında fəaliyyətə başlayan İrəvan Müəllimlər Seminariyası çar hakimiyyətinin bölgədəki maraqları naminə yaradılmasına baxmayaraq, 40 ilə yaxın müddətdə hazırladığı müasir dünyagörüşünə və düşüncə tərzinə malik yüksəkixtisaslı milli müəllim kadrları ilə azərbaycanlıların üstünlük təşkil etdiyi İrəvan mahalında ədəbi-ictimai, elmi-mədəni həyatın ənənəvi dolğunluğunun və canlılığının qorunub saxlanılmasında təqdirəlayiq xidmətlər göstərmiş, pedaqoji fikir salnaməmizə yaddaqalan səhifələr yazmışdır. Görkəmli maarifpərvər Firidun bəy Köçərli seminariyanın ilk müəllimlərindən olmuş, geniş mədəni-maarif işləri aparmışdır. Seminariyanın məzunları sırasında xalqımızın bir çox tanınmış şəxsiyyətləri və dövrünün görkəmli ziyalıları vardır”-deyə Prezident İlham Əliyev öz sitatında bildirmişdir.

## Ədəbiyyat


1.Allahverdiyev, C., Cəfərov, C. (2017). İrəvan Pedaqoji Texnikumu. Bakı, ADPU-nun nəşri.
2.Çingizoğlu, Ə. (2011). İrəvan Quberniya Ruhani Məclisi və məşhur din xadimləri, “Soy” elmikütləvi dərgi, №3.
3.Əhmədov, H. (2014). Azərbaycan məktəb və pedaqoji fikir tarixi. Bakı: Elm və təhsil. 377 səh.
4.Köçərli, F. (1981). Azərbaycan ədəbiyyatı. II c. Bakı: Elm. 460 səh.
5.Məhərrəmov, Z. (2010). İrəvanda məktəbdarlıq və maarifçilik (1800-1920-ci illərdə ədəbimədəni mühit). Bakı: Nurlan. 320 səh.
6.Məmmədov, İ. (2002). Tariximiz. Torpağımız. Taleyimiz, Bakı: Adiloğlu. 700 səh.

# ZAQAFQAZİYADA MÜƏLLİMLƏR SEMİNARİYALARININ İNKİŞAF TARİXİ

*Firudin Məmmədov*
*Azərbaycan Dövlət Pedaqoji Universiteti, p.ü.f.d*

Azərbaycanda elmin, təhsilin, mədəniyyətin, ictimai-pedaqoji fikrin inkişafında müstəsna rolu olan tədris müəssisələrindən biri Gürcüstanın əyalət şəhərlərindən olan Qoridə açılmış Zaqafqaziya Müəllimlər Seminariyası idi. 130 il bundan əvvəl həmin seminariyada Azərbaycan şöbəsi fəaliyyətə başlamışdı. Şöbə mövcud olduğu 40 il ərzində Azərbaycana 250-dən çox elm, mədəniyyət xadimləri, əsl xalq müəllimləri bəxş etmişdi.



Müəllim kadrlarının hazırlığı ilə məşğul olan bu tədris ocağı 1866-cı ildə açılmışdı. Bu, Qafqazda xristianlığı bərpa edən cəmiyyət tərəfindən əsası Tiflis şəhərində qoyulan Aleksandrovski Müəllimlər məktəbi idi. Məktəb 1873-cü ildə Aleksandrovski Müəllimlər İnstitutuna çevrilmişdi. Əslində, bura ali təhsilli pedaqoji kadrlar hazırlayan müəssisə deyildi. Dərəcə etibarilə orta təhsil müəssisəsi səviyyəsində idi.

Ümumiyyətlə XX əsrin 70ci illərindən başlayaraq Rusiyada olduğu kimi, Cənubi Qafqazda da kənd məktəbləri üçün müəllim kadrları hazırlayan xüsusi təhsil ocaqları - müəllim seminariyaları yaradılmışdı. İlk müəllimlər seminariyası 1871-ci ildə Kubanda, 1876-cı ildə isə Qori şəhərində açılmış və həmin təhsil ocağı Zaqafqaziya Müəllimlər Seminariyası adlandırılmışdı.

Seminariyalar bu dövrdə ibtidai məktəblər üçün müəllim hazırlayan ən tipik pedaqoji tədris müəssisələri idi. Onlar 1870-ci ildə təsdiq olunmuş "Müəllimlər seminariyası haqqında əsasnamə"yə uyğunlaşdırılmışdı. [7 səh 8]

Hökumət belə məktəblərə siyasi əhəmiyyət verirdi. Bu mək-

təblərdə yalnız pravoslav dininə mənsub olanlar oxuya bilərdilər. Lakin 70-ci illərdən başlayaraq, yerli əhalinin rus dilinə ehtiyacının artması hökuməti belə təhsil ocaqları üçün müəllim hazırlamaq məsələsi ilə daha ciddi məşğul olmağa məcbur etmişdi. Kənd ümumtəhsil məktəbləri həmin məsələyə böyük təkan vermişdi. Qafqaz Tədris Dairəsinin qəyyumu Y.M.Neverov 1875-ci ilə aid hesabatında yazmışdı ki, son vaxtlar Cənubi Qafqaz müsəlmanlarının düzgün təşkil edilmiş ümumtəhsil məktəblərinə cəhd göstərməsi təbii olaraq müəllim hazırlığı barədə onları ciddi düşünməyə vadar etmişdi. Əgər gələcək müsəlman məktəblərindən ötrü müəllim hazırlamaq üçün xüsusi pedaqoji müəssisə açmaq hələ tezdirsə, Kazan Hərbi Gimnaziyasında təhsil alan müsəlmanların Salahlıda (Qazax rayonu) təşkil etdiyi məktəbə əhalinin rəğbətini hiss etməmək olmaz. Bütün bunlar göstərir ki, müsəlmanlardan müəllim hazırlığı gələcəkdə yerli əhaliyə böyük təsir edər və onları özlərində düzgün təşkil edilmiş məktəb açmağa həvəsləndirər.

Y.M.Neverov yerli əhalidən müəllim kadrları hazırlamaq fikrini irəli sürməklə, şübhəsiz ki, xalq maarifinin yayılmasını deyil, özünün qeyd etdiyi kimi, "Məktəb vasitəsilə ölkədəki müxtəlif xalqları birləşdirmək" məqsədini güdürdü. Lakin onun məqsədindən asılı olmayaraq, xalq məktəbləri üçün azərbaycanlılardan müəllim kadrları hazırlamağın zəruriliyini Qafqaz sərdarının nəzərinə çatdırması gələcəkdə Zaqafqaziya Müəllimlər Semiariyası nəzdində açılacaq Azərbaycan şöbəsi üçün müəyyən əsas olmuşdu. [4 səh 6]

1876-cı il sentyabrın 12-də əsası qoyulan Zaqafqaziya Müəllimlər Seminariyası əvvəlcə üç - rus, gürcü və erməni şöbələrindən ibarət idi. Seminariyaya qəbul olunan ilk 50 tələbənin heç biri azərbaycanlı deyildi. Halbuki kəndlərdə təşkil edilən və açılması nəzərdə tutulan məktəblərin müəllim kadrlarına, xüsusilə də yerli müəllimlərə olan ehtiyacı azərbaycanlılar üçün ayrıca seminariya və ya şöbənin təşkilini həyati zərurət kimi qarşıya qoymuşdu. Bu zərurət hökuməti müəllimlər seminariyaları haqqında olan

ümumi qanundan kənara çıxmağa, onların bəzisində nəinki təkcə "pravoslavların", həm də xristian olmayan digər millətlərin nümayəndələrinin də oxumasına icazə verməyə məcbur etmişdi.

Seminariyada sinifdənxaric tədbirlər içərisində estetik tərbiyə mühüm yer tuturdu. Bu məqsədlə tələbələr müxtəlif tamaşalar hazırlayır, deklamasiyalar söyləyir, mahnı oxu yur, xor və s. təşkil edirdilər. Tələbələrin musiqini öyrənmələrinə böyük fikir verilirdi Musiqi təhsili məcburi sayılmırdı, çünki musiqi tədrisi rəsmi dövlət planında nəzərdə tutulmurdu.

Seminariya direktorunun hesabatındakı "Qeyri-məcburi fənlərdən məşğələlər" bölməsində deyilir. Qeyri-məcburi fənlər sırasına skripka və nəfəsli musiqi alətlərində çalmağı da aid etmək lazımdır. Lakin Zaqafqaziya Müəllimlər Seminariyasında skripka çalmaq üzrə məşğələlər rəsmiləşdirilmişdir.

Tələbələr ən azı notları düzgün oxumalı və başa düşməli idilər".[6 səh 12]

Qori Seminariyasında aparılan sinifdənkənar tədbirlərdə tələbələrin əmək tərbiyəsinə xüsusi əhəmiyyət verilirdi. Seminariyanın nəzdində Azərbaycan şöbəsinin təşkil olunduğu ilk illərdən şöbənin inspektoru A.O.Çernyayevski bütün səyini, fiziki əməyi gələcək xalq müəllimlərinin ümumi hazırlığının tərkib hissəsinə yönəltmişdi. Geniş əmək tərbiyəsinin olmamasını o, dözülməz, məqsədsiz pedaqoji və əməli cəhət dən haqq qazandırıla bilməyən hal sayırdı.

Seminariyanın tələbələri cildləmə işi ilə də məşğul olurdular.

Tələbələrlə ipəkçiliyə dair məşğələlər mart ayından başlanırdı. İşin ilk günlərindən ipəkçilik kursu nəzəri surətdə şərh olunurdu, tələbələr mikroskop və qurd toxumalarının tədqiq edilməsi qaydaları ilə əməli surətdə tanış edilirdilər. Beləliklə, aydın olur ki, Qori Seminariyasında sinifdənxaric tədbirlərə böyük əhəmiyyət verilirdi.Bu tədbirlər sistemi rəsmi dövlət sənədlərilə məhdudlaşdırılsa da, bu iş təlim-tərbiyə prosesini genişləndirmək üçün ən əsas amillərdən olmuşdur. Seminariyada aparılan sinifdənkənar tədbirlər sistemi təlim-tərbiyə prosesinin yaxşılaşdırılmasına

müsbət təsir göstərməklə yanaşı, daha çox əməli bacarığa, təşəbbüskarlığa, müstəqilliyə malik adamların yetişməsinə kömək edirdi.

Qori Seminariyasını qurtaranların dediyinə görə, ora öz gözəl ənənələrinə görə " səhrada çəmənlik idi". Orada inqilabdan və hətta sağlam fikrin iradəsinə uyğun cüzi mütərəqqi hərəkatdan oddan qorxan kimi "xırda cəsədlər", tamahkar məsləkpərəstlər, aşkar monarxistlər də var idi. Lakin onlar seminariyada kök salmış müsbət ənənəni dəyişdirə bilmədilər.



1877-ci il idi. 60 yaşlı Mirzə Fətəli Axundov və 47 yaşlı Tiflis müsəlman məktəbinin şəriət müəllimi Mirzə Hüseyn Qayıbzadə xalqın maariflənməsi uğrunda çalışır, seminariyanın nəzdində Azərbaycan şöbəsinin açılmasından ötrü get-gəldən yorulmur, hər cəfaya qatlaşırdılar. Qafqaz canişini, böyük knyaz Mixail Nikolayeviç Romanovu yola gətirmək üçün yalvar-yaxar edirdilər: "Cənab canişin, biz rusların, xristianların vəzifədə olmalarından narahat deyilik. Mən demirəm ki, savadsız müsəlmana vəzifə verilsin. Ancaq heç olmasa, beş idarədən birində bir vəzifəli şəxs, ya da kargüzar işçi bizim xalqın nümayəndəsi olsa, pis olmaz. Kənddən gələn rəiyyət qalır gözünü döyə-döyə, dediyini başa düşmürlər".

Mirzə Fətəli Axundov daha sonra canişinə Peterburq Universitetinin professoru Mirzə Cəfər Topçubaşov, maarif xadimi Həsən Bəy Zərdabi və Peterburq Universitetinin fəxri doktoru Mirzə Kazım bəy haqqında xüsusi məlumat verərək bildirir ki, bu böyük

zat təkcə Rusiya Elmlər Akademiyasının müxbir üzvü deyil, həm də Londonda Böyük Britaniya və İrlandiya Kral Cəmiyyətinin, Kopenhagendə Şimali Antikvarilər Kral Cəmiyyətinin üzvü seçilmişdir.

Azərbaycanlı oğullar Fransada, Almaniyada, Vyanada, Rusiyada ali təhsil alırlar. Ancaq hamı bunu edə bilmir. Müsəlmanları

geridə qalmış xalq kimi dəyərləndirən Qafqaz canişini qarşısında dayanan Mirzə Fətəli Axundzadəni və Mirzə Hüseyn Qayıbzadəni xeyli süzüb layihələrini alır və bir xeyli fikrə gedir. "Siz ayrıca seminariya istəyirsiniz. Layihədə də göstərirsiniz ki, məktəb ya Tiflisdə, ya da azərbaycanlıların yaşadığı bir xristian şəhərində açılsın. Burası bir az çətinlik törədir. Bunun üçün yaşayış yeri, təhsil üçün bina, müxtəlif ləvazimatlar lazımdır. Bilirsiniz ki, indi ölkə müharibə içindədir, xərc məsələsi də bir yandan. Zənnimcə, məktəbin gürcü və ermənilər kimi hələlik Qori şəhərində açılmasına etiraz etməzsiniz". Bununla da məsələ həll olunur. Canişin vərəqi əlinə götürüb yazdığını bərkdən oxumağa başlayır: "Ölkənin azərbaycanlı əhalisi üçün Zaqafqaziya Müəllimlər Seminariyası yanında təcrübə məqsədilə 3 il müddətinə müstəqil Azərbaycan şöbəsi açılsın. Təcrübə yaxşı nəticə verərsə, 3 ildən sonra həmin şöbəni azərbaycanlılar üçün müstəqil seminariyaya çevirib Qoridən Azərbaycanın mərkəzinə köçürməli".

Bütün bunlar onunla nəticələnmişdi ki, 1879-cu il sentyabrın 23-də Qori şəhərindəki ZMS nəzdində ayrıca bir şöbə - Azərbaycan şöbəsi açılmışdı. Azərbaycanlılardan müəllim kadrları hazırlamaq kimi tarixi missiya həmin şöbənin öhdəsinə düşmüşdü. Seminariyanın tədris planına aşağıdakı fənlər daxil idi: ilahiyyat, pedaqogikanın başlıca məsələləri, rus dili, hesab, həndəsə, ümumi və Rusiya tarixi, coğrafiya, təbiətşünaslıq, hüsnxətt və rəsm, gimnastika, nəğmə, pedaqoji təcrübə. Burada pedaqoji şuranın qərarı ilə peşə də öyrədilə bilərdi.

Azərbaycan şöbəsinin ilk inspektoru vəzifəsinə A.O.Çernyayevski təyin edilmişdi. Azərbaycan dili və sünni təriqəti üzrə şəriət müəllimi molla Hüseynbəy Qayıbov, şiə təriqəti üzrə şəriət müəllimi molla Əbdülsalam Axundzadə, hazırlıq sinfinin müəllimi K.O.Urusov idi. Şöbənin nəzdində təşkil edilən ibtidai məktəbdə Azərbaycan dili müəllimi vəzifəsini sonralar həmin şöbənin ilk məzunlarından olan S.Vəlibəyov icra edirdi.

Azərbaycan şöbəsinin 1880-ci il mayın 13-də təsdiq olunmuş əsasnaməsinə görə, bundan məqsəd Cənubi Qafqaz ölkəsinin

Azərbaycan kəndlərindəki ibtidai məktəblər üçün bilikli və təcrübəli müəllimlər hazırlamaq idi. Şöbəyə ilk dəfə 40, ibtidai məktəbə isə 20 nəfərin qəbulu müəyyən edilmişdi. Bunların hamısı dövlət hesabına saxlanılmalı və Azərbaycan dilini bilən ayrıca tərbiyəçi-inspektorun himayəsi altında ümumi yataqxanada yaşamalı idi. Qəbul imtahanlarında müvəffəq qiymət almayanlar üçün hazırlıq sinfi nəzdində aşağı şöbə təşkil edilmişdi. İlk dəfə seminariyaya 32 nəfər qəbul olunmuşdu. Onlardan 24-nü A.O.Çernyayevski yerlərdə seçmiş, qalanları özləri könüllü gəlmişdi. İlk qəbul olunanlar içərisində gələcəyin məşhur pedaqoqlarından S.Vəlibəyov, F.Köçərli, R.Əfəndiyev və başqaları var idi.

Azərbaycan şöbəsinin tələbələri qəbul imtahanlarında elə birinci ildən fərqlənmişdilər. Rəsmi sənədlərdə oxuyuruq: "Çernyayevskinin tələbə toplamaq təqsədilə rəsmən ezam edilərək yerlərdə tələbə seçməsi və qismən imtahan etməsi nəticəsində azərbaycanlıların seminariyaya daxil olmaq üçün hazırlaşan xristianlardan ümumiyyətlə, yaxşı imtahan verməleri aşkar olundu". Sonralar qəbul olunanların sayı get-gedə artmışdır. Şöbənin birinci qəbuluna əsasən şəhər və qəza məktəblərini bitirənlərdən 60-a yaxın gənc azərbaycanlı gəlmişdi. Onlar rus dilinə o qədər bələd idilər ki, bir neçəsi, hətta seminariyanın ikinci sinfinə daxil olmuşdu.

Şöbənin məzunları Azərbaycanın xalq maarifinin, dünyəvi təhsilin ilk carçıları olmuşdular. Məktəb, ədəbiyyat, mədəniyyət və incəsənətin bir çox görkəmli nümayəndələri, o cümlədən F.Köçərli, R.Əfəndiyev, S.Vəlibəyov, C.Məmmədquluzadə, N.Nərimanov, M.Mahmudbəyov, F.Ağazadə, Ü.Hacıbəyov, M.Maqomayev, S.S. Axundov, P.Qasımov, T.Bayraməlibəyov N.Terequlov, M. Mustafayev, Ə.Hüseynov, B.Bədəlbəyov, A.Əliyev, Ə.Mustafayev, M.İlyasov, Y.Qasımov, Ə.Seyidov və başqaları məhz həmin seminariyada təhsil almışlar. [1 səh 8].

1882-ci ildə şöbənin ilk buraxılışı olmuşdu. Azərbaycan məktəbi tarixində pedaqoji təhsil almış azərbaycanlı müəllimlərin ilk dəstəsi bu sahədə fəaliyyət göstərməyə başlamışdı. Məzunların sayca az olmasına baxmayaraq, onlar Zaqafqaziyanın bir çox

Azərbaycan kəndlərində dünyəvi məktəblər açılmasında mühüm rol oynamışlar.

Bir faktı demək kifayətdir ki, XIX əsrin son 20 ili ərzində Azərbaycanın yalnız Bakı və Gəncə quberniyalarında 172 ibtidai məktəb fəaliyyət göstərmişdi ki, burada da 11.400 şagird (o cümlədən 2.473 qız) təhsil almışdı. Həmin məktəblərin böyük əksəriyyəti kənd yerlərində idi.

XIX əsrin 80-ci illərindən başlayaraq qabaqcıl ziyalıların dili məktəbi yaratmaq cəhdləri get-gedə artırdı. Bakı, Şuşa, Naxçıvan, Nuxa, Şamaxı və s. şəhərlərdə ayrıayrı şəxslərin mütərəqqi maarifçilər ibtidai təhsil verən ana dili məktəblər açmaqda davam edirdilər.

Belə məktəblərdən biri 1883-cü ildə Şuşada S.Vəlibəyov tərəfindən açıldı. Yay tətili zamanı Şuşada istirahət edən ZMS-in azərbaycanlı şöbəsinin ibtidai məktəb müəllimi S.Vəlibəyov müvəqqəti olsa da, bir məktəb açaraq, uşaqlara savad öyrədirdi.Onun məktəbində müxtəlif təbəqələrdən olan 25 şagird oxuyurdu. Tədris səs üsulu ilə apanlırdı. S.Vəlibəyov sagindlərə yalnız savad öyrətməklə kifayətlənmirdi. O, eyni zamanda yerli məktəbdarlara səs üsulunun üstünlüyünü izah edir, bu üsul ilə dərs deməyin əhəmiyyətini əyani olaraq göstərirdi.

Azərbaycanda başlanan yeni məktəb hərəkatı Zaqafqaziyanın digər şəhərlərinə də təsir edirdi. Bu təsir Tiflis va İrəvan kimi iri şəhərlərdə özünü daha çox göstərir, burada da yeni üsullu məktəblər meydana gəlirdi.

Belə məktəblərdən biri 1880-ci ildə Tiflis şəhərində hər iki cinsdən olan uşaqlar üçün müsəlman cəmiyyəti təfindən açılmışdır. Az sonra 1883-cü ildo "Köşkül" qəzetinin redaktoru Cəlal Ünsüzada QTD-ya müraciət edərək Tiflis şəhərinin Meydan sahəsində azərbaycanlı uşaqlar üçün III dərəcəli xüsusi məktəb açmağa rasmi icazə istəmişdir. XIX əsrin II yansında Azərbaycanda və bütün Zaqafqaziyada meydana gələn yeni məktəb hərəkatı tezliklə Cənubi Azərbaycana da nüfuz etdi.

Yeri gəlmişkən qeyd edək ki, Zaqafqaziyada başlanan yeni

məktəb hərəkatının İran, o cümlədən Azərbaycan maarifinin inkişafına təsiri bəzən xarici mətbuatda kölgədə buraxılır və ya inkar edilir. Lakin o dövrün mətbuatından və son zamanlar apanlan tədqiqatlardan aşkar olunur ki, Zaqafqaziyada başlanan yeni məktəb hərəkatı İran və Cənubi Azərbaycan xalq maarifinin tərəqqisinə əsaslı təsir göstərmişdir. [3 səh 201]

Zaqafqaziya Müəllimlər Seminariyasının Azərbaycan şöbəsi məzunları məktəblərdə elm öyrətməklə kifayətlənməmiş, şagirdləri həyata hazırlamağa, onlara kənd təsərrüfatına aid bilik və bacarıq verməyə də səy göstərmişlər. Bu cəhətdən kənd məktəblərinin bəzilərində bağçılıq, ipəkçilik, arıçılıq və sənətkarlıq şöbələrinin təşkili diqqəti xüsusilə cəlb etmişdi. Məsələn, Kürdəmir və Göyçay məktəblərində təşkil edilən ipəkçilik şöbələri yerli əhalinin rəğbətini qazanmışdı. Kənd təsərrüfatına aid biliklərin verilməsində Daşkəsəmən və Şıxlı məktəbləri fərqlənmişlər. İpəkçilik və bostançılıq sahəsində Qəbələ məktəbi müvəffəqiyyət qazanmışdı. Bu işdə məktəbin müəllimi R.Əfəndiyevin xüsusi əməyi olmuşdur. 1893-cü ilin məlumatına görə, Bakı quberniya ibtidai məktəblərində cildçilik, ipəkçilik, bağçılıq, bostançılıq, arıçılıq, Gəncə quberniya ibtidai məktəblərindən 27-də nəğmə, 28-də gimnastika, 23-də ipəkçilik, 3-də dülgərlik, 1-də xarratlıq, 3-də bağçılıq, 5-də bostançılıq və arıçılıq öyrədilmişdi. Kənd məktəblərinin bəzisi bir sıra sərgilərdə iştirak etmişdi.

Kənd məktəbləri mədəni maarif işi ilə bərabər, səhiyyənin inkişafına da müsbət təsir göstərmişdi. Onların bəzilərində qabaqcıl müəllimlər hətta həkimlik vəzifəsini də öhdələrinə götürmüş, təhsil ocaqlarında "aptek" açmışdılar. Belə apteklərdən biri 1892ci ildə Ağcabədi kənd məktəbinin nəzdində təşkil edilmişdi. Ətraf kəndlərdən gələn şagirdlərin gecələməsi üçün bəzi məktəblərin nəzdində sığınacaq evi də var idi. Məsələn, Cəbrayıl məktəbinin sığınacaq evində 1894-cü ildə 35 nəfər şagird yaşamışdı.

ZMS Azərbaycan şöbəsinin təşkili ana dilində sövti üsullu ilk dərsliyin meydana gəlməsinə əlverişli zəmin yaratdı. 1882-ci ildə birinci dəfə nəşr edilən A.O.Çernyayevskinin "Vətən dili" (I his-

sə), S.Vəlibəyovla birlikdə hazırlanan və 1888-ci ildə dərc edilən həmin dərsliyin II hissəsi feodalizm dövründən qalmış höccələmə (əbcəd-çərəkə) üsuluna böyük zərbə idi. Seminariyanın məzunu, sonralar məşhur ədəbiyyatşünas-alim, pedaqoq və maarifçi kimi tanınmış F.Köçərlinin sözlərilə desək, bütöv islam aləmində, türk-tatar dilli xalqlar içərisində sövti üsullu dərs demək və dərslik tərtib etmək təşəbbüsü birinci dəfə Azərbaycanda ortaya çıxmış, bizim məktəblərimizdə tətbiq olunmuşdur. [5]

"Vətən dili" özünün quruluşu, tərtib prinsipləri, dilinin sadəliyi, şagirdlərin yaş və bilik səviyyəsinə uyğunluğu etibarı ilə orijinal idi.

Sonralar dəfələrlə çap edilən "Vətən dili" uzun müddət Azərbaycan məktəblərində ana dili dərsliyi kimi istifadə olunmuş, məhz həmin dərsliyin meydana gəlməsi ilə ana dilinin tədrisi müəyyən mənada düzgün metodiki istiqamət almış və inqilabdan əvvəl Azərbaycan ziyalılarının bütöv bir nəsli həmin kitabdan faydalanmışdır.

Yeri gəlmişkən, bu təcrübə İran Azərbaycanında da tezliklə mənimsənilmişdi. Görkəmli maarifçi Mirzə Həsən Rüşdiyyə 1894-cü ildə Təbrizdə eyni adda dərslik nəşr etdirmişdi.

Ən başlıcası isə budur ki, həmin dərslik Azərbaycan dilinin inkişafına, ana dilində yeni-yeni dərsliklər tərtib edilməsinə təkan vermişdir. R.Əfəndiyevin "Uşaq bağçası" və "Bəsirət-ül-Əftal", N.Nərimanovun "Türk-Azərbaycan dilinin müxtəsər sərf-nəhvi", Ü.Hacıbəyovun "Hesab məsələləri" və "Lüğət"i, M.Mahmudbəyovun "Türk əlifbası və ilk qiraət"i, başqa müəllimlərlə birlikdə "İkinci il", "Üçüncü il", "İmlamız"dan başlamış Ə.Y.Seyidovla H.K.Sanılının "Əlifba"sı da daxil olmaqla ana dilində yazılan dərslik və dərs vəsaitləri bir növ "Vətən dili" nin davamı idi.

Keçən əsrin axırlarından başlayaraq, əlifba, imla, dərslik, dilin xüsusiyyətləri, orfoqrafiya və s. kimi mühüm məsələlər mətbuat səhifələrində geniş müzakirələrə səbəb olmuşdu. İctimai şüur, dövrün tələbi məktəbin qarşısında yeni vəzifələr qoymuşdu. Dünya mədəniyyəti ilə yaxından tanış olan qabaqcıl ziyalılar yaxşı

dərk edirdilər ki, beş-on ziyalı ilə iş görmək olmaz. Böyük ictimai-siyasi vəzifələrin öhdəsindən gəlmək üçün xalq kütləsini savadlandırmaq lazımdır. Onlar müəllimlik etməklə bərabər, xalqın mənəvi tərəqqisinə çalışmış, mətbuat səhifələrində xalq maarifinin, məktəb təhsilinin bu və ya digər sahələrinə aid faydalı fikirlər söyləmiş, nadanlığa, cəhalətə, zülm və əsarət dünyasına qarşı ciddi və kəskin mübarizə aparmışdılar.

N.Nərimanovun "Nadir şah"ından, "Cümə söhbəti" və "Həftə fəryadı"ndan tutmuş "Hümmət"dəki mübariz ruhlu məqalələri, Ü.Hacıbəyovun "Koroğlu"su və digər opera əsərləri, "Filankəs" təxəllüslü "Ordan-burdan" başlıqlı silsilə məqalələri, F.Köçərlinin ikicildlik "Azərbaycan ədəbiyyatı tarixi materialları", R.Əfəndiyevin "Qan ocağı", S.S.Axundovun "Qorxulu nağıllar"ı, C.Məmmədquluzadənin "Ölülər"i, köhnə dünyanı lərzəyə gətirən "Molla Nəsrəddin"i Azərbaycan xalqının həyatında inqilab yaratmışdı.

Yuxarıda qeyd etdiyimiz kimi, ZMS Azərbaycan şöbəsini bitirənlərin bir çoxu öz fəaliyyətini sırf pedaqoji işlə məhdudlaşdırmamış, Azərbaycanda elm və təhsil, maarif və mədəniyyət, ədəbiyyat və incəsənətin bir çox sahələrini inkişaf etdirmişdir. Onların çoxu şəxsiyyət kimi yetişmiş və xalqının zülm və istibdaddan xilas olması uğrunda misilsiz xidmətlər göstərmişdir. Ana dilində qəzet və jurnal nəşr etmək, xalq üçün kitabxana-qiraətxana açmaq, xeyriyyə cəmiyyəti təşkil etmək, ana dilində yeni proqram, dərslik və tədris vəsaiti hazırlamaq, milli opera sənətinin əsasını qoymaq, qadın azadlığı və təhsili uğrunda çalışmaq, teatr tamaşaları hazırlamaq, ədəbi-bədii əsərlər yazmaq və nəhayət, geniş kütlənin gözünü açmaq - bütün bu problemlərin hər birinin həllində ZMS Azərbaycan şöbəsi məzunlarının böyük xidməti olmuşdur. [2 səh 5]

# İRƏVAN MÜƏLLİMLƏR SEMİNARİYASININ PEDAQOGİKA TARİXİNDƏ YERİ

***Firudin Məmmədov***
***Azərbaycan Dövlət Pedaqoji Universiteti, p.ü.f.d***

Tarixdən məlumdur ki, keçmiş çar Rusiyasında müsəlmanlara ilk vaxtlarda müəllim seminariyalarında təhsil almaq hüququ verilmirdi. Bu hüququn əldə edilməsi heç də asanlıqla başa gəlməmişdir. Xalqımızın mütərəqqi ziyalılarımilli ayrıseçkiliyə qarşı və müsəlmanlara seminariyalarda təhsil almaq hüququnun verilməsi uğrunda çalışmışdılar. Qeyd edirik ki, çar hökuməti özünün xüsusi siyasi niyyətlərini əldə rəhbər tutaraq "özgə" xalqların təhsil və maarif işlərinə demək olar ki, qayğı göstərmirdi. Çar hakimiyyəti xalqların savadlandırılmasını onların milli oyanışında, özünü dərk və azadlıq yolunda əsas şərtlərdən biri hesab etdiyinə görə məzlum xalqların, o cümlədən müsəlman xalqlarıın dünyəvi təhsil almasına imkan yaratmaq istəmirdi. Çar hakimiyyətinin ucqarlardakı, o cümlədən Azərbaycandakı təhsil sistemi çarizmin imperiya ərazisində yürütdüyü müstəmləkəçilik və hakim millətçilik siyasətinin bariz təzahürü idi. Lakin bütün bunlara bax- mayaraq, Azərbaycanın tərəqqipərvər ziyalıları mövcud vəziyyətlə barışmır, millətin gələcək taleyini düşünür, vətən övladlarının dünyəvi məktəblərdə təhsil almaq hüququ uğründa mübarızəyə başlayaraq "biz öz dilimizdə oxuyub dilimizi, milliyyətimizi bilmək istəyrik" deyə təhsil sistemində müsəlmanlara qarşı həyata keçirilən milli ayrıseçkilik siyasətinə qarşı etiraz səslərini ucaldırdılar[9,səh 339-340].

XIX əsrin II yarısında Azərbaycanda milli şüurun oyanması və for- malaşmasında, maarifçilik hərəkatının yaranmasında H.Zərdabi və onun "Əkinçi" qəzetinin böyük xidmətləri olmuşdur. Köhnə həyat tərzinin dəyişdirilməsi yolunda xalqın maariflənməsinin xüsusi əhəmiyyət kəsb etdiyini yaxşı dərk etmiş H.Zərdabi və digər mütərəqqi maarifpərvər ziyalılarımız bu yolda daim yorulmadan çalışmışdılar.

XIX əsrin sonlarında Azərbaycanda kapitalist münasibətləri surətlə inkişaf etməyə başlamışdı. Kapitalizm münasibətlərinin inkişafı cəmiyyətin sosial strukturunda müəyyən dəyişikliklərə gətirib çıxartmış və yeni sinif olan çoxmillətli burjuaziya və proletariat formalaşırdı. Həmin dövrdə Azərbaycanda müsəlman müəllim kadrlarına böyük ehtiyac duyulurdu. Lakin müəllim kadrlarına olan tələbatların ödənilməsi üçün təkcə Azərbaycanda deyil, ümumiyyətlə bütün Cənubi Qafqaz bölgəsində pedaqoji kadrlar hazırlayacaq xüsusi bir tədris müəssisəsi yox idi. Qafqaz bölgəsində dövlət məktəbləri üçün müəllim kadrlarını hazırlayan ilk təhsil ocağı Qafqazda xristianlığı bərpa edən cəmiyyət tərəfindən 1866-cı ildə Tiflis şəhərində yaradıldı. Tiflis şəhərində əsası qoyulan Aleksandrovski müəllimlər məktəbində şəhər məktəbləri üçün müəllim kadrlar hazırlanırdı. 1872-cü ildə həmin məktəb Aleksandrovski Müəllimlər İnstitutuna çevrildi. Lakin müsəlmanlar bu instituta qəbul edilmirdi. Aleksandrovski Müəllimlər institutu- na müsəlman olmayan digər millətlərin nü¬mayəndələrinin qəbul olunmağa hüquqları vardır. Qeyd edirik ki, 1872-ci ilin əsasnaməsinə əsasən müsəlmanlara ali-ibtidai və şəhər məktəblərində ştatlı müəllim vəzifəsini tutmaq hüququ da verilmirdi. Çar hakimiyyətinin yürütdüyü hakim millətçilik və milli ayrıseçkilik siyasətinin nəticəsi idi ki, təhsildən uzaqlaşdırılan azərbaycanlıların nəinki müəllimlər institutunu bitirmiş, hətta adi ibtidai məktəblərdə dərsi keçmək üçün müəllim kadrları yox idi. 1875-ci ildə təsdiq edilmiş və 1917-ci ilə qədər qüvvədə olmuş "Xalq maarif nazirliyinin müəllim seminariyaları üçün təlimat"ına əsasən müəllimlər seminariyasına pravoslav dininə məxsus bütün təbəqələrdən olan, tərbiyəli davranışı barədə rəy təqdim etmiş, 5-6 il ibtidai məktəbdə oxumuş və iki sinifli ali- ibtidai məktəbin proqramı üzrə qəbul imtahanlarını müvəffəqiyyətlə başa vuraraq 16 yaşa çatmış şəxslər qəbul edilirdi[1,səh 1-2].

Yalnız zamanın tələbi ilə ali-ibtidai məktəblərdə dərs deyə biləcək müsəlman müəllimlərin sayını artırmaqdan ötrü Qafqaz tədris idarəsinin rəhbərliyi tərəfindən müəllim seminariyalarını bitir-

miş müsəlmanlar üçün qısamüddətli kurslar açıldı. Müsəlmanlara da ali-ibtidai məktəblərdə ştatlı müəllim yerlərinin verilməsinə başlandı. Müsəlmanlara Aleksandrovski müəllimlər institutuna daxil olmaq hüququ verildi.

XIX əsrin 70-ci illərindən başlayaraq Rusiya İmperiyasının bir sıra bölgələrində, o cümlədən Cənubi Qaqazda kənd məktəbləri üçün müəllim kadr- ları hazırlayan müəllim seminariyaları meydana gəldi. Əsasən zemstvalar tərəfindən yaradılan müəllimlər seminariyaları öz işlərini dahi rus pedaqoqu Konstantin Dmitrieviç Uşinski tərəfindən işlənib hazırlanmış "Müəllimlər seminariyasının layihəsi" əsasında qururdular. Çar hakimiyyəti seminariya- ların zemstvalar tərəfindən açılmasını müxtəlif yollarla dayandırmağa çalışsa da, buna nail ola bilmədi. Mütləqiyyət seminariyaların yaradılması prosesini öz nəzarəti altına almaqdan ötrü 1870-ci ildə "Müəllimlər seminariyası haqqında Əsasnamə"ni təsdiq etdi. Həmin əsasnaməyə görə müəllim seminariyaları zemstvalar tərəfindən deyil, hökumət tərəfindən yaradılmalı idi. Zaqafqaziya Müəllimlər Seminariyası Rusiya İmperatoru II Aleksandrın 08 aprel 1875-ci il tarixli fərmanı ilə təsis edildi. Qori şəhərində bütün Cənubi Qafqaz üzrə təşkiledilmiş Zaqafqaziya Müəllimlər Seminariyası dövrün qabaqcılSeminariyalarından biri sayılırdı. Həmin Seminar- iya haqqında əsasnamənin 1-ci bəndində göstərilirdi ki, "Zaqafqaziya Müəllimlər Seminariyasının məqsədi-özünü ibtidai məktəblərdə müəllimlik fəaliyyətinə həsr etmək istəyən gənclərə pedaqoji təhsil verməkdir." Əsas- namənin 1-ci bəndinin qeyd hissəsində yazılmışdı ki, " Müsəlmanlar üçün xüsusi məktəb açılanadək, müsəlmanlara Zaqafqaziya Müəllimlər Seminari- yasına və onun nəzdindəki ibtidai məktəblərə daxil olmağa icazə verilir." Lakin Zaqafqaziya Müəllimlər Seminariyasında və onun nəzdində yaradılmış üç ibtidai – rus,gürcü,erməni məktəblərində təhsilin rus dilində aparılması və həmin məktəblərdə Azərbaycan dilini bilən müəllimlərin demək olar ki, olmaması azərbaycanlı gənclərin bu məktəblərə cəlb olun- ması işini ləngidirdi[2, ARDƏİA, f.527.siy.1.iş.170].

XIX əsrin sonu XX əsrin əvvəllərində Azərbaycan kəndlərindəki mövcud olan və açılması nəzərdə tutulan məktəblərin müsəlman azərbaycanlımüəllim kadrlarla təmin edilməsinə böyük tələbat var idi. Zamanın tələbi, həmçinin müsəlmanlara qarşı edilən milli ayrıseçkiliyə qarşı mütərəqqi ziyalılarımızın yüksələn etiraz səsləri çar hökumətini “Müəllimlər seminariyaları haqqında təlimat”ın tələblərindən kənara çıxmağa məcbur etdi. Beləliklə, Seminariya- larda təkcə “pravoslavların” deyil, müsəlmanların da təhsil almasına icazə verildi.

Azərbaycanın sosial-iqtisadi həyatında baş verən dəyişikliklər və xalqımızın mütərəqqi ziyalılarının maarif- təhsil işi uğrunda mübarizəsinin nəticəsi olar- aq Zaqafqaziyanın müsəlman əhalisi üçün Zaqafqaziya Müəllimlər Semi- nariyası nəzdində tatar bölməsinin yaradılmasına Qafqaz canişini tərəfindən razılıq verildi. Qori müəllimlər seminariyasının məzunu olmuş, sonralar isə məşhur pedaqoq, dövrünün görkəmli dövlət xadimi kimi yetişmiş xalqımızın böyük oğlu N.Nərimanov 1906-cı ildə yazdığı məqaləsində qeyd edirdi: ” Rusiya baş qaldırıb yüz illərlə ixtiyarını itirmiş, indi zor ilə hərəkət edən millətlərə yavaş-yavaş ixtiyar verir. Hər millətin öz ana dili uşaqları üçün vacib olub məktəblərdə oxunur. Bizim camaat bunları görüb yenə də lal və kar qalmış, axırda dövlət özü qafqazlılar üçün ümumi qanun düzəldib dedi: qeyri millətlərə verilən ixtiyar siz müsəlmanlara da verilir. Bacarırsınız isə siz də öz başınıza çarə qılınız. Bu fikirlə türk dilini müsəlman müəllimlərinə vacib bildi, qəza şəriyəti də bunu vacib bildi...Lakin kəndi xahişiləmi? Xeyr, zəmanə tələb etdi. Ana dilini bu vaxtadək lazım bilməyib onun yox olmasına çalışan dövləti bir qanlı hürriyyət indi vadar edir ki, ana dilini qeyri dillər kimi uşaqlara vacib bilsin...”[10,

Zəmanənin tələbi ilə Zaqafqaziya Müəllimlər Seminariyasının nəzdində yaradılmlş ayrıca tatar şöbəsi 1879-cu il sentyabrın 23-də Qori şəhərində fəaliyyətə başladı. Zaqafqaziya Müəllimlər Seminariyası nəzdində tatar şöbəsinin fəaliyyəti Dövlət Şürasının 13 may 1880-cı il tarixli qərarı ilə rəsmiləşdirildi. Azərbaycanlı mü-

səlman müəllim kadrların hazırlanması kimi tarixi missiya bu şöbənin üzərinə düşdü.

Azərbaycan şöbəsinin 1880-cı il mayın 13-də təsdiq edilmiş əsasnaməsinə görə bu şöbənin məqsədi Cənubi Qafqazın Azərbaycan kəndlərindəki ibtidai məktəblər üçün bilikli və bacarıqlı müəllimlər hazırlamaqdan ibarət idi. Seminariyanı 1881-ci ildə bitirmiş məzunlardan yalniz üç nəfəri-Teymur bəy Bayraməlibəyov (Lənkəran), Səfərəli bəy Vəlibəyov (Şuşa) və Mirzə Əliməmməd Xəlilov (Naxçıvan) şəhadətnamə alıb xalq müəllimi adına layiq görüldülər. Azərbaycan şöbəsinin inspektoru A. Çernyayevski Səfərəli bəy Vəlibəyovu dərs deməк üçün seminariyada saxladı. T.Bayraməlibəyov Qori Seminariyasını bitirdikdən sonra Lənkəranda rus məktəbində dərs deməyə başladı.O, həmçinin XIX əsrin 80-ci illərinin sonlarından başlayaraq 1916-cı ilədək müntəzəm olaraq o zaman Bakıda rus dilində çıxan və mütərəqqi ziyalılarımızın tribunasına çevrilmiş "Kaspi" qəzetində Lənkəran bölgə müxbiri kimi fəaliyyət göstərmişdi. Əhməd bəy Ağayev, Əli bəy Hüseynzadə, H.Zərdabi və digərləri ilə yanaşı o da tez-tez müxtəlif məsələlərlə bağlı bu qəzetdə çıxış etmişdi.

İrəvan Seminariyasının çar hökuməti tərəfindən mürtəce məqsədlərlə açıl- masına baxmayaraq, bu təhsil ocağı mövcud olduğu 37 il ərzində öz fəaliyyəti ilə Cənubi Qafqazda, o cümlədən Azərbaycanda xalq məktəbi və təhsilin, mədəni- maarif işinin inkişaf etdirilməsində əhəmiyyətli rol oynamışdır.

1881-ci ildə İrəvan mahalında seminariyanın açılmasından savayı daha iki mühüm hadisə baş vermiş, İrəvan mahalında İrəvan gimnaziyası və yeni tipli Uluxanlı məktəbi də yaradılmışdır. Qori müəllimlər seminariyasının məzunu F.Köçərli 1885-ci ilin iyun ayında İrəvan gimnaziyasına Azərbaycan dili və şəriyət müəllimi təyin edilmişdir.O, bu tədris ocağında 10 il müddətində pedaqoji fəaliyyətini davam etdirmişdir. Qori müəllimlər seminariyasının digər məzunu Cəlil Məmmədquluzadə 1887-ci ildə Qori seminariyasını bitirdikdən sonra İrəvan və Yelizavetpol xalq məktəbləri direktorluğunda yerləşən Uluxanlı məktəbinə müəllim təyin edi-

lib və ilk dərsini həmin məktəbdə demişdir [5, Köçərli, F. (1981). Azərbaycan ədəbiyyatı. II c. Bakı: Elm].

Azərbaycanda ibtidai kənd məktəblərinin yaradılması işində Qori müəllimlər seminariyasının məzunları ilə yanaşı İrəvan müəllimlər seminariyasını bitirmiş məzunlar da yaxından iştirak etmişdilər. İlk pedaqoji təhsilini həmin seminariyada almış bir sıra azərbaycanlı gənclər sonralar təhsillərini Rusiya və Avropanın müxtəlif ali təhsil ocaqlarında davam etdirərək təh- sillərini başa vurduqdan sonra vətəninə - Azərbaycana qayıtmış və ölk- əmizdə elm, mədəni - maarif işlərinin, habelə iqtisadiyyatın müxtəlif sahələrinin inkişaf etdirilməsində yaxından iştirak etmişdilər. Xalqımızın bir sıra tanınmış nümayəndələri, maarif fədailəri - Həmid bəy Şahtaxtinski, Haşım bəy Nərimanbəyov, Haşım bəy Vəzirov, Tağı bəy Səfiyev, Vahid Musabəyov, Fərrux Ağakişibəyov, İbadulla Muğanlinski, Ş.Mahmudbəyov, C.Məmmədov və başqaları vaxtilə ilk pedaqoji təhsillərini İrəvan müəllim- lər seminariyasında almışdılar[8, “Кавказский Календарь”-за 1882-1896г].

Milli təhsil tariximizdə Qori və İrəvan müəllimlər seminariyasının olduqca əhəmiyyətli rolu danınmazdır. 1898-ci ildən 1902-ci ilədək İrəvan müəllimlər seminariyasının direktoru vəzifəsini tutmuş Mixail Alekseyeviç Miropiyev 1903-cü ildə Zaqafqaziya Müəllimlər Seminariyasına yeni direktoru təyin edilərkən dekabr ayında Qori şəhərinə gələrək seminari- yanın şəxsi heyəti və yetirmələri qarşısında çıxış etmişdir. M.A.Miropiyev öz çıxışında Zaqafqaziya Müəllimlər Seminariyasının fəaliyyəinə yüksək qiymət vermişdir. O, Seminariyanın 1900-cu ildə Parisdə keçirilən müəllimlər seminariyasının ümumdünya sərgisində layiqincə iştirak etdiyini,seminariyaların Qafqaz yubiley sərgisində isə yüksək mükafata layiq görüldüyünü bildirərək seminariyaya onun kiçik baçısı - İrəvan Müəllimlər Seminariyasından təbriklər gətirdiyini qeyd etmişdir. M.A.Miropiyev İrəvan Müəllimlər Seminariyasını Qori Müəllimlər Seminariyasının kiçik bacısı adlandırmışdı [10,səh 234]. Qeyd edirik ki, XIX əsrin sonu XX əsrin əvvəllərində ibtidai məktəblər üçün azərbaycanlı müəllimlər əsasən Qori və

İrəvan seminariyalarında hazırlanırdı.

Lakin bu təhsil ocaqları Azərbaycan dili müəllimi hazırlamırdılar.Həmin dö- vrdə Azərbaycan dili müəllimlərinin hazırlanmasında sistemsizlik hökm sürürdü.1905-1907 ci illərdə Azərbaycan dili müəllimlərinin hazırlanması o dövrdə fəaliyyət göstərən mədəni-maarif cəmiyyətlərinin açdıqları kurslarda; Bakı quberniyası və Dağıstan vilayətinin xalq məktəbləri müdriyyətinin kurs- larında; Yelizavetpol mədrəsəsində, habelə Tağıyevin qız məktəbində, həmçinin 1915-ci ildə açılmış qadın pedaqoji kurslarında həyata keçirilirdi. Azərbaycanda xalq maarifi, məktəb, ədəbiyyat, mədəniyyət və incəsənətin bir çox nümayəndələri ilk pedaqoji təhsillərini Qori və İrəvan müəllimlər semi- nariyasında almışdılar. Azərbaycanda pedaqogika elminin yayılması və inkişaf etdirilməsi, xalq maarifinin bütöv bir dövrü məhz Qori və İrəvan müəllimlər seminariyasının məzunlarının fəaliyyəti ilə bağlı olmuşdur.

Azərbaycanda xalq maarifi və məktəbinin, pedaqoji fikir tarixinin tanınmış tədqiqatçısı akademik H.Əhmədov qeyd edir ki: ”M.V.Lomonosov adına Mos- kva Dövlət Univesitetinin məzunları Rusiyada elm, mədəniyyət və incəsənətin inkişafında hansı xidmətləri göstərmişdilərsə,Qori Müəllimlər Seminariyasının məzunları da Azərbaycan üçün həmin xidmətləri göstərmişlər”[4,səh 12-21]. Xalqımız Qori və İrəvan seminariyasının məzunlarının xalqımız qarşısındakı tarixi xidmətlərini unutmamışdır. Həmin təhsil ocaqlarının milli təhsil tar- iximizdəki yeri və rolu bu gün də öyrənilir, tədqiq edilir, gənc nəslin, tələbələrin elmi-pedaqoji biliyinin artırılmasında istifadə edilir.

İrəvan Müəllimlər Seminariyasının məzunları Cənubi Qafqazda milli maarifçili- yin inkişaf etdirilməsi istiqamətində çox böyük rol oynamışlar. Onlar azərbaycanlılar yaşayan bölgələrdə yeni məktəblərin açılmasında, azərbaycanlı balalarının təhsilə cəlb edilməsində fəal iştirak etmişlər. Bu maarif fədailəri daha çox İrəvanda, Naxçıvanda, Azərbaycanın müxtəlif bölgələrində milli intibah istiqamətində böyük fədakarlıq göstərirdilər. Məmməd Axundov, İbadullah bəy Muğanlinski, Məmməd Vəli Qəmərlins-

ki, Cəfər Kərimov və başqaları İrəvanda xalqımızın mədəni yüksəlişi yolunda təkcə səy və bacarıqlarını deyil, həyatlarını və maddi imkanlarını da bu ülvi məqsədə sərf etmişlər. Cəfərbəy Cəfərbəyov İrəvanda həm də III dərəcəli xüsusi məktəb açmağa nail olmuş və eyni zamanda açdığı pansionata rəhbərlik etmişdir. Cəfərbəy 1897-ci ildə İrəvan Gimnaziyasının hazırlıq sinfini, 1901-ci ildə isə İrəvan Müəllimlər Seminariyasını bitirmişdir. 1911-ci ildə İrəvan Müəllimlər Seminariyasını bitirən Əsgər Axundov burada III dərəcəli 1 sinifli, pansionlu məktəb açmağa nail olmuşdur. Seminariyanın məzunu olmuş, əslən Vedili Şəmdin bəy Mahmud- bəyov 1903-cü ildən 1917-ci ilə kimi Uluxanlı kənd məktəbinin, Şıxəli bəy Fir- udinbəyov Qəmərli kənd məktəbinin, Yusif Babayev Dvin-Aysor kənd məktəbinin, Mirzə Cabbar Məmmədov Göyməsçid kənd məktəbinin, İbadullah bəy Muğanlinski Dərəçiçək kənd məktəbinin müdirləri olmuşlar. İlya bəy Mahmudbəyov, Əhməd Haşimov Çobankərə kəndində, Şıxəli bəy Firudinbəyov, Cəlil Məmməd oğlu Mirzəyev, Mirzə Məhəmməd Axundov Qəmərlidə, Həsənbəy Axund Molla Xəlil bəy oğlu Qaziyev, Axund Məmməd Bağır Qazızadə İrəvanda, Məmməd bəy Lütvəli bəy oğlu Qaziyev Uluxanlıda, Fərəməz bəy Mahmudbəyov Böyük Vedidə, Cəfər Kərimov Şərurda müəllim işləmişlər. İrəvanda və bölgələrdə fəaliyyət göstərən bu müəllimlər milli tərəqqi üçün çox böyük işlər görmüşlər. 1895-ci ildə İrəvan Müəllimlər Seminariyasını bitirmiş Tağı bəy Səfiyev də uzun müddət Naxçıvanın Nehrəm kəndində müəllim işləmişdir. Həmin dövrdə onun "Nehrəm kəndi" adlı kitabçası da işıq üzü görmüşdür. İrəvan Müəllimlər Seminariyasının məzunlarından biri də Həsən Səfərli olmuşdur. Rus dilinin və riyaziyyatın gözəl bilicisi olan Həsən Səfərli 1917-ci ildən 1919-cu ilin ortalarına qədər Naxçıvanda fəaliyyət göstərən "Rüşdiyyə" məktəbində də dərs demişdir. H.Səfərli 1919-cu ildə Naxçıvanda kimsəsiz uşaqlar evinin müdiri işləmişdir. 1965-ci ildə isə Əməkdar müəllim adına layiq görülmüşdür[6,səh 8-9;14;15].

Azərbaycan təhsilinin tarixi tədqiq olunmağa ehtiyacı olan bir

sahədir. Bu sahənin hərtərəfli araşdırılması təhsilimizin keçdiyi yolu üzə çıxarmaqla yanaşı, həm də təhsilimizin dünəni ilə bu günü arasında körpü yaratmaqda mühüm rol oynayır. Azərbaycan təhsilinin tarixində Qori Müəllimlər Seminariyası mühüm rol oynadığı kimi, İrəvan Pedaqoji Məktəbi də əvəzsiz işlər görmüşdür. Qori Müəllimlər Seminariyasının fəaliyyəti barədə indiyə qədər araşdırmalar aparılmış və bu qeyri-adi təhsil ocağının gördüyü işlər nəinki təkcə təhsil ictimaiyyətinə, həm də geniş oxucu kütləsinə çatdırılmışdır. Ancaq İrəvan Pedaqoji Məktəbinin tarixi, fəaliyyəti, Azərbaycan təhsilinin inkişafında oynadığı rol araşdırılmamış və tədqiq olunmamışdır. Yeri gəlmişkən onu da qeyd edək ki, həm Qori Müəllimlər Seminariyası, həm də İrəvan Pedaqoji Məktəbi öz dövrünün təhsil sahəsində flaqmanı olmuşdur. Onların hər ikisi elə bir dövrdə fəaliyyət göstərmişdir ki, həmin dövrdə pedaqoji kadrların hazırlanmasına böyük ehtiyac vardı. Bu ehtiyacı ödəmək üçün Qori Müəllimlər Seminariyası və İrəvan Pedaqoji Məktəbi öz çiyinləri üzərinə məsuliyyətli, həm də gərəkli olan bir işi götürmüşdür. Hər iki təhsil ocağının yetirmələri Azərbaycan təhsilinin inkişafında əllərindən gələni əsirgəməmişlər. Hər iki təhsil ocağının qeyri-adi faəliyyəti Azərbaycan təhsilinin tarixinə qızıl hərflərlə yazılmalıdır.

Tarixi Azərbaycan torpaqlarında qurulan Ermənistan Respublikasında 1918-ci ildə azərbaycanlılara qarşı bəslənən kin-küdurətlə, Qərbi Azərbaycanda, o cümlədən İrəvanda azərbaycanlılara qarşı erməni silahlı birləşmələrinin törətdikləri soyqırımla yanaşı, İrəvan Müəllimlər Seminariyası da təcavüzə məruz qalmış, daşnaklar hakimiyyətə gəldikdən iki ay sonra – 1918-ci il avqustun 6-da seminariyanın fəaliyyəti dayandırılmışdır. 37 illik fəaliyyəti dövründə İrəvan Müəllimlər Seminariyası öz üzərinə düşən vəzifəni şərəflə yerinə yetirmiş, Azərbaycan məktəb və pedaqoji fikir tarixində xüsusi tarixi xidməti olmuşdur[7, Mustafa, N. (2015). İrevan şehri. Ankara: Berikan Yayın evi].

Bu gün dünya günü-gündən inkişaf edir, dəyişir. Elmi-texniki tərəqqinin nailiyyətləri məişətimizə gəlir. Elm, texnika elə sürətlə

inkişaf edir ki, onun gətirdiyi yeniliklərlə ayaqlaşmaq olmur. Nəzərə alsaq ki, elm də, texnika da insana xidmət etməlidir, onda insan amilinin bütün zamanlarda oynadığı rolu diqqət mərkəzində saxlamalıyıq. Bu mənada hələ Qori Müəllimlər Seminariyasının və İrəvan Pedaqoji Məktəbinin fəaliyyət göstərdiyi dövrdə elmin, texnikanın inkişaf səviyyəsinin hal-hazırkı dövrlə müqayisədə çox geridə qalmasına baxmayaraq, insan amili, ona qayğı, diqqət fövqalədə bir münasibətlə öz əksini tapmışdır. Belə ki, hər iki təhsil müəssisəsində hazırlanan pedaqoji kadrlar öz bilik, bacarıq və dünyagörüşləri ilə insanın nəyə qadir olduğunu nümunəvi şəkildə təqdim edə bilmişlər. Bu təhsil müəssisəsinin pedaqoji kadrları və onların hazırladıqları kadrlar təpədən dırnağa qədər təhsilə, elmə bağlı adamlar olmuşdur. Onların hər birinin həyatı, fəaliyyəti gələcək nəsillər üçün həmişə örnək olacaqdır. Elm, texnika nə qədər inkişaf etsə də, elmi-texniki tərəqqinin nailiyyətləri dünyada nə qədər möcüzə yaratsa da, bu təhsil ocaqlarının öz dövrləri ilə müqayisədə heç bir analogiyası yoxdur. Daha doğrusu, onlarla analoji müqayisəyə cəlb oluna biləcək təhsil müəssisələri tapmaq o qədər də asan deyildir. Bunun əsas səbəblərindən biri, məhz bu təhsil müəssisələrində çalışan pedaqoqların elmə, təhsilə vurğunluğu, bağlılığı olmuşdur. Ona görə də hər iki təhsil müəssisəsi barədə çox yazılmalıdır. Hər iki təhsil müəssisəsinin təcrübəsi geniş və əhatəli şəkildə tədqiq edilməlidir. Hər iki təhsil müəssisəsinin yaratdığı ənənələrdən hər zaman geniş şəkildə istifadə olunmalıdır.

Bu mənada filologiya üzrə fəlsəfə doktoru, dosent Cəlal Allahverdiyevin və filologiya üzrə elmlər doktoru, professor Cəfər Cəfərovun "Təhsil tariximizdən: İrəvan Pedaqoji Məktəbi" adlı kitabı təhsilimizin tarixini öyrənmək baxımından böyük əhəmiyyət kəsb edir. 1924-1949-cu illərdə Ermənistanda fəaliyyət göstərmiş İrəvan Pedaqoji Məktəbi pedaqoji kadrların hazırlanması işində əvəzsiz xidmətlər göstərmişdir. İrəvan Pedaqoji Məktəbinin fəaliyyət göstərdiyi dövrdə pedaqoji kadrlara olan ehtiyacı heç nə ilə müqayisə etmək olmazdı. O dövrdə Ermənistanda olan Azərbaycan məktəblərinin müəllim kadrları ilə təmin edilməsinə erməni

sovinistləri hər cür yolla maneçilik göstərirdilər. Ona görə də erməni şovinistlərinin iyrənc məqsədlərinin qarşısını almaq üçün pedaqoji kadrların hazırlanmasına olan ehtiyacı hiss etməmək mümkün deyildir[3, səh 3- 5].

## Ədəbiyyat


1. ARDTA, f.398.siy.1.iş.136.v.1-2 (arxa üzü)
2. ARDƏİA, f.527.siy.1.iş.170.
3. Cəfərov C., Allahverdiyev C., Təhsil tariximizdən: İrəvan pedaqoji məktəbi «orxan npm baki-2017, 464 səh.
4. Əhmədov H.M. "Şərəfli yol". Xəbərlər (Pedaqoji və psixoloji elmlər seriyası).2009-cu il.№2.
5. Köçərli, F. (1981). Azərbaycan ədəbiyyatı. II c. Bakı: Elm. 460 səh.


# İRƏVAN MÜƏLLİMLƏR SEMİNARİYASININ PEDAQOGİKA TARİXİNDƏ YERİ


***Şəhla Vaqif qızı Hüseynova***
***Pedaqogika kafedrasının müəllimi***


Zaqafqaziyada xalq maarifinin təşəkkülü və inkişafı tarixində İrəvan müəllimlər seminariyasının özünəməxsus yeri vardır. O, Ermənistanda müəllim kadrları hazırlayan ilk maarif ocağı olmuşdur. Lakin seminariyanın fəaliyyəti təkcə Ermənistan məktəbləri üçün milli kadrlar hazırlamaqla məhdudlaşmamışdır, eyni zamanda, Gürcüstan, Azərbaycan və Şimali Qafqaz məktəbləri üçün də müəllimlər hazırlanmasında böyük xidmətlər göstərmişdir. Rusiyada 1859-cu ildə təşkil edilmiş və ilk müəllimlər seminariyası olan Peterburq müəllimlər seminariyasından 22 il sonra fəaliyyətə başlayan bu tədris ocağı dövrünün qabaqcıl pedaqoji fikrinin əsas mərkəzlərindən biri kimi tanınmışdır.

Araşdırmalar göstərir ki, İrəvan müəllimlər seminariyasının

fəaliyyətə başladığı 8 noyabr 1881-ci ilə qədər Rusiyada artıq onlarca seminariya var idi. Yeni tədris ocağı özünə qədərki seminariyaların mütərəqqi ənənələrindən bəhrələnməyə çalışaraq dövrünün qabaqcıl maarif müəssisəsi kimi şöhrətlənmişdir.

Ölkə Prezidenti cənab İlham Əliyev YAP-ın VI qurultayındakı nitqində demişdir: "Onu da qeyd etməliyəm ki, biz tarixi torpaqlarımızı da unutmamalıyıq və unutmuruq. Bu da gələcək fəaliyyətimiz üçün istiqamət olmalıdır, necə ki, biz bu gün də bu istiqamətdə iş görürük. Bizim tarixi torpaqlarımız İrəvan xanlığıdır, Zəngəzur, Göyçə mahallarıdır. Bunu gənc nəsil də, dünya da bilməlidir. Mən şadam ki, bu məsələ ilə bağlı - bizim əzəli torpaqlarımızın tarixi ilə bağlı indi sanballı elmi əsərlər yaradılır,filmlər çəkilir, sərgilər təşkil olunur. Biz növbəti illərdə bu istiqamətdə daha fəal olmalıyıq və dünyanın müxtəlif yerlərində sərgilər, təqdimatlar keçirilməlidir. Çünki İrəvan bizim tarixi torpağımızdır və biz azərbaycanlılar bu tarixi torpaqlara qayıtmalıyıq. Bu, bizim siyasi və strateji hədəfimizdir və biz tədricən bu hədəfə yaxınlaşmalıyıq".

Mənbələrdən məlumdur ki, İrəvanda dünyəvi məktəblər açılana qədər hələ XIII, XIV əsrlərdə Novruzəli bəy məscidi, Abbas Mirzə məscidi, Şah Abbas məscidi və digər adlarla məscidlər inşa edilmişdir ki, bu məscidlərin nəzdində mollaxana və mədrəsələr fəaliyyət göstərmişdir. XVIII əsrdə İrəvan xanı Hüseyn Əli xanın əmri ilə 1766-cı ildə möhtəşəm Göy Məscid inşa edilmişdir ki, bu İrəvan şəhərində o dövrdə inşa edilən məscidlərin ən böyüyü hesab edilmiş və onun nəzdinə məktəb və mədrəsələr fəaliyyət göstərmişdir.

Xanlıqlar Rusiya tərəfindən işğal olunduqdan sonra İrəvanda Qəza məktəbləri, progimnaziyalar, gimnaziyalar, realni məktəblər və s. məktəblər yaranmışdır. Bu məktəblərdə dərs demək üçün XIX əsrin sonlarında müəllim kadrlarının hazırlanmasında Qori Müəllimlər Seminariyasının və İrəvan Müəllimlər Seminariyasının azərbaycanlı məzunlarının böyük rolu olmuşdur. 1879-cu ildə Qori Müəllimlər Seminariyasının Azərbaycan şöbəsi yaradıldı ki, burada 40 il müddətində 300-ə qədər azərbaycanlı məzun təhsil

almışdır. Onların arasında Nəriman Nərimanov, Firudin Bəy Köçərli, Rəşid Bəy Əfəndiyev, Cəlil Məmmədquluzadə, Üzeyir Hacıbəyli, Süleyman Sani Axundov, Səfərəli bəy Vəlibəyov, Mirzə Əliməmməd Xəliov, Məmmədəli Sidqi Səfərov, Əlirza Rasizadə, Əli Səbri Qasımov, Fərhad Ağazadə və başqaları olmuşdur.

1880-ci illərin əvvəllərində əhalinin təhsilə həvəs və marağı nəzərə alınaraq İrəvanda üç böyük təhsil müəssisəsi yaradıldı - 1881-ci ildə İrəvan Kişi Gimnaziyası, 1884-cü ildə isə İrəvan qız progimnaziyaları fəaliyyətə başlamışdı. 1881-ci ildə İrəvan Müəllimlər Seminariyasının əsası qoyuldu. Bu seminariyanın yaradılması həmin dövrdə fəaliyyət göstərən təhsil müəssisələrini müəllim kadrları ilə təmin etmək məqsədi güdürdü. İrəvan Müəllimlər Seminariyası 1881-ci ilin 8 noyabrında fəaliyyətə başlayan və 37 il fəaliyyət göstərən bu təhsil ocağı 1918-ci il avqustun 6-da İrəvan gimnaziyası və Uluxanlı məktəbi ilə eyni vaxtda bağlanmışdır. Qori Müəllimlər Seminariyasını bitirən məzunların bir çoxu İrəvan Müəlimlər Seminariyasında da dərs demişdilər. Onlardan Firudin Bəy Köçərlini, Cəlil Məmmədquluzadəni, İsmayıl bəy Şəfibəyovu və başqalarını göstərə bilərik. Ümumiyyətlə İrəvan Müəllimlər Seminariyasının müəllimlərindən aşağıdakıların adlarını çəkə bilərik: Axund Məmmədbağır Qazızadə 1883-cü ildən Seminariyada Azərbaycan dili və şəriət dərslərini tədris etmişdir. Mirzə Məmmədvəli Qəmərli, Rəhim Xəlilov, Məmməd Axundov, K.Şulgin, Mixail Klopov, Mirzə Abbas Məhəmmədzadə, İsmayıl bəy Şəfibəyov, Cabbar Məmmədzadə və başqaları da İrəvan Müəllimlər Seminariyasının inkişafında mühüm rol oynamışlar.

F.Köçərli dərs deyərkən İrəvan mədəni mühitinin köhnə ənənələrdən uzaqlaşması, yeni müasir elmi dünyagörüşünün formalaşması uğrunda mübarizə aparırdı. Yeni dünyagörüşünün yayılması qarşısında xüsusilə cəhalətpərəst din xadimləri dururdular. İrəvana gəldikdə mühitlə yaxından tanış olan F.Köçərli öz təəssüratlarını belə bölüşürdü: "İrəvan üləmaları çox geridə qalmış, onlar o dərəcədə cəhalətə qapılıblar ki, hətta "Tərcüman" qəzetini oxumağı,mühəriri sünni olduğu üçün qadağan edirlər. Bunlar ba-

şa düşmürlər ki, inkişaf üçün nəinki Şərqdən, hətta xristian Qərbindən də kitab, qəzet gətirmək vacibdir". İrəvan Müəllimlər Seminariyası məzunları ilə həmişə fəxr etmişdir. Onlardan Həbib bəy Səlimov, Nəcəf bəy Vəzirov, Haşım bəy Vəzirov, Mirzə Abbas Məhəmmədzadə, Cabbar Məhəmmədzadə, İbadulla bəy Muğanlinski, Vahid Musabəyov, Həmid bəy Şahtaxtinski, Hüseynəli bəy Rüstəmbəyov, İbadulla bəy Muğanlinski, Tağı bəy Səfiyev, Mirzə Cəlil Şürbi, Eynəli bəy Sultanov, Sadıq Xəlilov, Vahid Musabəyov, Fərrux Ağakişibəyov və başqalarının adlarını çəkə bilərik. İrəvan Kişi Gimnaziyasının məzunları sırasında isə Mustafa bəy Topçubaşov, Abbasqulu bəy Şadlinski, Yusif Məmmədəliyev, Hüseyn Şahtaxtinski, Miryusif Mirbabayev, Əsədulla bəy Kəngərlinski, Teymur Makinski, Hüseynağa Şahtaxtinski, Məmməd bəy Qazıyev, F.Ordubadski və başqaları olmuş, Əziz Əliyev isə 1917-ci ildə İrəvan Kişi Gimnaziyasını qızıl medalla bitirərək Sankt Peterburq Hərbi Tibb Akademiyasına qəbul olunmuşdur.

XIX əsrin əvvəllərindən başlayaraq 1920-ci ilə qədər İrəvan sürətlə inkişaf etmiş və bu bölgə böyük mədəniyyət mərkəzlərindən birinə çevrilmiş, Bakı, Təbriz, Naxçıvan, Xoy və başqa şəhərlər kimi Azərbaycanın aparıcı elm və mədəniyyət mərkəzi olmuşdur. Buna görə də Şərq elm tarixində xeyli "Irəvani" təxəllüslü məşhur şəxslərə rast gəlmək olur. Məsələn, Mirzə Qədim İrəvani (1825-1875) məşhur rəssam və nəqqaş olmuşdur. Hacı Süleyman ibn Salman Qacar Irəvani – XVIII əsrdə yaşamış görkəmli Azərbaycan həkimi və alimi olmuş, 600-dən çox dərman bitkisi haqqında məlumat vermişdir. İrəvanın ruhani ziyalıları içərisində dövrün məşhur ülamələrindən olmuş, eyni zamanda incə ruhlu şeirlərin müəllifi kimi tanınmış Fazil Irəvaninin xüsusi yeri olmuşdur.

İrəvan elmi, mədəni və pedaqoji mühitinin formalaşmasında,inkişafında Azərbaycanın görkəmli şəxsiyyətlərinin, o cümlədən M.S.Ordubadinin, M.Müşfiqin,Mehdi Hüseynin, Cəlil Məmmədquluzadənin, Mir Cəlal Paşayevin, Əziz Əliyevin,Yusif Vəzir Çəmənzəminlinin, Əziz Şərifin,Hacı Kərim Sanılının, Mirzə Ələkbər Elxanovun və başqalarının böyük xidmətləri olmuşdur.

## Ədəbiyyat

1. İlham Əliyev. YAP-ın VI qurultayında nitq. 08 fevral, www. yap.org .az/az/ view/news/25136/
2. Zeynalov Ə. İrəvan ziyalıları. Bakı: Oğuz eli, 1999.
3. Zeynalov Ə. İrəvan məktəbləri. Bakı: Mütərcim, 2011.
4.Əhmədov H. XIX əsr Azərbaycan məktəbi. Bakı Təhsil NPM, 2006-cı il 580 s.

## ИСТОРИЯ СОЗДАНИЕ ИРЕВАНСКОЙ СЕМИНАРИИ

***Şəhla Vaqif qızı Hüseynova***
***Pedaqogika kafedrasının müəllimi***

Создание новой системы образования в Иреване относится к 30-м годам XIX века. Именно тогда был принят первый устав закавказских школ (1829 г.), предусматривавший открытие уездных школ в глубинке, что было призвано подчинить народ царизму и осуществить на местах политику христианизации местного населения. Согласно уставу, на Южном Кавказе предполагалось открыть 20 уездных школ. В 1832 году в Иреване была создана первая светская школа – двухклассная казенная школа. В 1839 году она была преобразована в трехклассную казенную школу, в 1869 году - в четырехклассную прогимназию, а в 1881 году - в гимназию. Около 600 азербайджанцев стали выпускниками этой гимназии. С ней неразрывно связана важная часть педагогической деятельности выдающегося азербайджанского просветителя Фирудин бека Кочарли. К этому же периоду относится появление в Иреване школ нового образца, преподавание в которых велось на родном языке. В 1882 году Мешади Молла Исмаил Гаджи Кязымов и Мирза Кязым Аскерзаде, а в 1883 году - Мирза Хасан Рушдия, прибыв из Тебриза в Иреван, открыли там новые учебные заведения. Открытие в Иреван-

ской губернии уездных школ и начальных сельских школ вызвало острую потребность в педагогах. В то время преподавателей начальных школ готовили в семинариях и педагогических институтах. Согласно первому уставу учительской семинарии, в учебное заведение могли быть приняты православные христиане старше 16 лет. Принятая в 1875 году “Инструкция об учительских семинариях” разрешала обучать в семинариях как православных, так и мусульман. Государственный Совет России 20 октября 1880 года принял постановление "Об организации учительских семинарий в Кутаисской и Ireванской губерниях”. Ireванской семинарии предусматривалось выделить из государственной казны 28 350 рублей. 8 ноября 1881 года Ireванская учительская семинария с 9 учителями и 42 учащимися начала свою деятельность в нынешнем здании Ireванского института народного хозяйства. Первым директором семинарии был выдающийся просветитель Якоб Степанович Сушевский. Обучение длилось три года. При семинарии действовали подготовительный класс и начальная школа. Здесь же студенты проходили преподавательскую практику. При семинарии действовал пансион (общежитие). Наряду с азербайджанцами, здесь учились армяне, грузины, русские и представители других народов. Устав этого учреждения был идентичен уставу Горийской учительской семинарии. Семинария начала свою деятельность всего с 2 групп (старшая подготовительная группа и первый класс). В следующем учебном году был укомплектован второй класс, а в 1883 году - третий. Как и другие семинарии, Ireванская учительская семинария состояла из 4 классов. Каждый год объявлялся набор учащихся в подготовительную группу и первый класс. Непосредственный прием учащихся во II и III классы не допускался. Те, кто был зачислен в первый класс, должны были сдать экзамены по теологии, русскому языку, счету, геометрии, географии, истории и биологии. В 1883/1884 учебном

году количество еженедельных учебных часов в подготовительной группе составляло 36 часов, в I классе - 38 часов, во II - 39 часов, в IV - 40 часов. В последующие годы число учеников и преподавателей увеличилось. По состоянию на декабрь 1882 года здесь обучалось 54 ученика.

В начальной школе при семинарии в 1882/1883 учебном году обучался 61 ученик, 13 из которых были азербайджанцами. В 1889-1900 годах число учеников достигло 82 человек. Начальную школу в различные периоды возглавляли В.А.Мухин, А.Суворов, а первым азербайджанским учителем был Мешади Багир Гасымзаде. В младшем подготовительном классе дети из азербайджанских семей 5 часов в неделю изучали русский язык, 5 часов математику, 4 часа теологию, 2 часа историю, 2 часа географию, 2 часа физику, 2 часа естествознание, 2 часа пение, 2 часа пропись, 2 часа рисование, 2 часа черчение (в целом, 30 часов в неделю). В младший подготовительный класс принимались дети, не знавшие русского языка. Поступление учеников из азербайджанских семей в младшие подготовительные классы и 5 лет обучения в семинарии не считались обязательными. При комплектовании классов учитывался уровень подготовки учащихся. Учащиеся, владеющие русским языком, имеющие определенный уровень подготовки, принимались в старшие подготовительные классы или в первый класс.

Первым азербайджанским педагогом, преподававшим в Иреванской учительской семинарии, был выдающийся ученый, педагог-просветитель ахунд Мамедбагир Газизаде. Со дня открытия семинарии до 1897 года он преподавал здесь теологию и азербайджанский язык, а с 1897 по 1917 год - только теологию. Начиная с 1892 года, азербайджанский язык в семинарии преподавал Мирза Рагим Халилов, некогда и сам окончивший это учебное заведение и принятый на работу преподавателем по ходатайству своего наставника ахунда Мамедбагира Газизаде. В разное время ахунд Ма-

медбагир Кязымзаде, Мирза Мамедвали Гамерли, Рашид бек Шахтахтинский, Мамедбагир Газизаде, Гамид бек Шахтахтинский, Джафар бек Джафарбеков, Мамед Ахундов, ахунд Мамедбагир Тагизаде, Мирза Джаббар Мухаммедзаде преподавали в семинарии шариат или азербайджанский язык. Как и в других семинариях, обучение в Иреванской учительской семинарии было платным. Определенная часть учеников обучалась за государственный счет. В первый учебный год поступающие платили 210 манатов, а в последующие годы - 180 манатов. По данным 1907 года, лишь 20 из 70 студентов семинарии обучались за свой счет. Согласно данным «Кавказского календаря» за 1913 год, из 128 семинаристов 46 были русскими, 37 - армянами, 30 - азербайджанцами, 6 - грузинами, 9 - представителями других национальностей.

Первый выпуск Иреванской учительской семинарии состоялся в 1884 году. В том же году школу окончили 5 азербайджанцев. 10-й выпуск семинарии состоялся в 1893 году, 20-й - в 1903 году, тридцатый - в 1913 году. Решением педагогического совета семинарии, в 1895 году Джалил Мирзоев, Таги бек Сафиев, Мамед бек Газиев, а в 1902 году Ибадулла бек Муганлинский, Джаббар Мамедов, Шамдан Махмудбеков и другие стали сельскими учителями. Инициатором и организатором этой благородной миссии был видный просветитель Мамедбагир Газизаде. Выпускники обязались работать в сельских школах по распределению. Из документа, выданного выпускнику семинарии 1910 года Мехти Казимову, следует, что он обязан отработать по распределению 6 лет или уплатить неустойку в размере 520 рублей.

Выпускниками семинарии в различные годы были Ахмед бек Газиев, Али Ашраф Газиев, Гасан бек ахунд Молла Халил бек оглу Газиев, Фарамаз Махмудбеков, Юсиф бек Газиев (Газизаде), Мамед бек Али бек оглу Махмудбеков, Халил Мамедалиев, Гасан Насирбеков, Салех Мешади Теймур оглу Гюллюджинский, Ага бек Рагим бек оглу Фирудинбеков,

Аббас Гадимов, Аббас Аллахверди оглу Гадимов, Мир Гашим бек Везиров, Али Султанов, Фаррух Агакишибеков, Али Джалилзаде, Мирза Багир Алиев, Шихали бек Фирудинбеков, Джафарбек Джафарбеков, Ибрагим Шахтахтлы, Вахид Мусабеков, Рашид бек Исмаилов, Габиб бек Салимов, Исмаил бек Шафибеков, Наджаф бек Везиров, Гашим бек Везиров, Мирза Аббас Мамедзаде, Джаббар Мухаммедзаде, Ибадулла бек Муганлинский, Вахид Мусабеков, Гусейнали бек Рустамбеков, Таги бек Сафиев, Гашим бек Нариманбеков, Шамиль Махмудбеков, Гамид бек Шахтахтинский, Ибадулла бек Муганлинский и другие. Выпускником семинарии был и один из выдающихся художников Турции Ибрагим Сафи.

В различные годы семинарию возглавляли Якоб Степанович Сушевский, Иван Андреевич Пасютевич, Михаил Алексеевич Миропиев и Валентин Васильевич Дубровин.

Ореванская учительская семинария была не просто учебным заведением, но и центром науки и культуры. С 1881 по 1914 год Иреванскую учительскую семинарию окончили 63 азербайджанца. В 1915 году Иреванская учительская семинария перебралась в Сардарабад (нынешний Армавир), где функционировала до 1918 года. В 1918 году из-за этнических чисток, совершенных армянами против азербайджанцев, семинария прекратила свою деятельность, часть преподавателей и студентов была жестоко убита, а оставшиеся в живых покинули родные места и нашли убежище в Турции и Азербайджане. При поддержке России на территории Иреванской губернии - на исторических азербайджанских землях было искусственно создано первое армянское государство (Арарат). Исконные жители этих мест - азербайджанцы стали одним из малочисленных народов на своей Родине. Благодаря несокрушимой воле и настойчивым требованиям заведующего отделом малочисленных народов при ЦК КП(б) Армении Бала Эфендиева, руководителя бюро национальных меньшинств Народного Комиссариата просвещения Мехти Кязи-

мова, ответственного редактора газеты "Зянги" Мустафы Гусейнова и других представителей интеллигенции 15 октября 1924 года был открыт Иреванский тюркский педагогический техникум - преемник Иреванской учительской семинарии. Сыграв важную роль в формировании и развитии культурно-образовательной среды в регионе, техникум с самого своего основания столкнулся с большими трудностями. А в 1949 году в связи с массовой депортацией азербайджанцев с территории нынешней Армении был перенесен в Ханларский район... Зимой 1988 года была осуществлена массовая депортация азербайджанцев с территории нынешней Армении, созданной на исторических землях Западного Азербайджана.

Нация славится своей историей. Учительская семинария, начавшая свою деятельность 140 лет назад в древнем азербайджанском городе Иреван, составляет одну из ярких страниц истории системы образования, педагогической мысли, просвещения и национальной культуры нашего народа.

Распоряжение о праздновании 140-летия Иреванской учительской семинарии даст толчок к более детальному изучению, исследованию и популяризации славной страницы истории просвещения Азербайджана.

## ИСТОРИЯ РАЗВИТИЯ УЧИТЕЛЬСКИХ СЕМИНАРИЙ В ЗАКАВКАЗЬЕ

***Илаха Вагиф кызы Шихалиева***
***БГУ, Кафедра Педагогики, д.ф.п.н.***

Семинарии, давщие толчок развитию просвещения в Российской Империи, начали создаваться со второй половины XIX века; первая семинария, поставившая своей целью подготовку педагогических кадров начала функционировать в Москве в 1863 году. Вслед за этим 5 аналогичных школ, базирующихся на трехмесячных курсах, были даны в исполь-

зование в Москве, Казани, Петербурге, Харькове и Одессе. В 80-90-е годы XIX века на территории империи было более 60 семинарий, в 1917 году их количество достигло 74 (45 для мужчин и 29 для женщин).

Горийская Семинария Учителей, основанная в 1876 году, была одной из передовых семинарий, начавшее свое существование в этот период.

В 1876 году газета «Пахарь» писала: «... В городе Гори открыли училище, выпускники которого становятся учителями. Двадцать человек будут получать образование в этом училище за казенный счет. Сейчас газета «Кавказ» пишет, что отдельное училище будет на самом деле открыто для того, чтобы давать образование для учителей мусульманских школ, но на данный момент, если кто-то из мусульман захочет, то их дети тоже смогут получить образование в Горийской семинарии с условием покрытия всех расходов за свой счет. Получение предыдущего образования в уездной школе и возрастной промежуток шестнадцать-девятнадцать лет являются необходимыми критериями для поступления. Образование там будет длиться три года».

Еще в 1875 году в «Положениях» Закавказской Семинарии Учителей отмечалось, что до открытия специальной мусульманской школы учителей мусульмане могут поступать в эту семинарию, а также в школу, открывшуюся при ней.

Не смотря на то, что основной целью этой школы была подготовка кадров для начальных классов, Азербайджанские кадры, получившие там образование во времена царской власти, были сливками кадров, получивших образование в России в период всей Российской Империи. Эти мысли были позднее высказаны профессором Азизом Шарифом. Выпускники Горийской Семинарии сыграли исключительную роль в развитии Азербайджанской музыки, культуры, просвещения, образования и прогресса, шли в передовых рядах борьбы нашего народа за свободу и независимость. Следует отме-

тить, что, несмотря на то, что образование в Горийской Семинарии велось на русском языке, представители других национальностей проходили родной язык и шариат, а также все основные предметы.

В 1877 году шестидесятилетний Мирза Фатали Ахундов и сорокасемилетний преподаватель шариата в мусульманской школе Мирза Гусейн Гайыбзаде, приложившие неимоверные усилия для просвещения своего народа, начали работу по открытию Азербайджанского отделения семинарии. В своем обращении к Кавказскому наместнику, великому князю Михаилу Николаевичу Романову с целью претворения в жизнь этой идеи, они писали: «Господин Наместник, нас не беспокоит факт нахождения у власти русских и христиан. Мы не требуем власти для неграмотного мусульманина. Но было бы неплохо, если бы хотя бы в одном учреждении из пяти власть или хотя бы делопроизводство были бы в руках у представителя нашего народа. Подданных из села при обращении в учреждения никто не понимает»

После этого Мирза Фатали Ахундов рассказал наместнику о профессоре Петербургского Университета Мирзе Джафаре Топчубашове, известном деятеле просвещения Гасан беке Зардаби и почетном докторе Петербургского Университета Мирзе Казем беке, проинформировав его о том, что последний является не только членом-корреспондентом Российской Академии Наук, но и избран членом Королевского Общества Великобритании и Ирландии в Лондоне, а также Королевского Общества северных антиквариев в Копенгагене.

Особо отмечалось, что азербайджанцы получали высшее образование во Франции, Германии, Вене, России. Но не все могли себе это позволить. На протяжении долгого времени мерящий взглядом стоявших перед ним Мирзу Фатали Ахундова и Мирзу Гусейна Гайыбзаде Кафказский наместник, считающий мусульман отсталым народом, после долгих раздумий сказал: «Вы хотите отдельную семинарию. В своем

проекте вы требуете, чтобы школу открыли или в Тифлисе, или в другом христианском городе с азербайджанским населением. Это создает некоторые проблемы. Для этого понадобятся места проживания, здание для школы, различная инвентарь. Поэтому, предполагаю, как грузины и армяне, вы тоже на данный момент согласитесь открытию школы в городе Гори». Этим дело и решилось. Наместник взял в руки бумагу и зачитал то, что написал: «Данным распоряжением приказываю открытие независимого Азербайджанского отделения при Закавказской Семинарии Учителей для азербайджанского населения государства на испытательный период трех лет. Если за этот период будут достигнуты хорошие результаты, по истечении трехлетнего периода переформировать отделение в независимую семинарию для азербайджанцев и перенести из Гори в центр Азербайджана».

Таким образом, делопроизводный документ, изданный в 1879 году под номером 8762 Кавказским Округом Образования претворил в жизнь мечты великого просветителя и других представителей азербайджанской интеллигенции, приложивших немало сил в этом направлении. В документе, посланном на имя директора Горийской Семинарии Учителей, отмечалось: «Для размещения и обеспечения необходимым инвентарем Азербайджанского отделения семинарии, создающегося согласно указу заместителя наместника, Тифлисской Государственной Палате было предложено предоставление 4-х тысяч рублей, собранных с Земства в распоряжение вашего превосходительства. Государственная Палата, поддерживающая идею просвещения азербайджанской молодежи, поддержала эту идею. Государственная Палата считает делом чести сообщить вашему превосходительству, что деньги были выделены с налогов Земства для размещения и обеспечения необходимым инвентарем специального татарского отделения семинарии, созданного согласно распоряжению основного правления наместника указом от 1 сентября

1879 года с целью подготовки сельских учителей из татар (азербайджанских турков)». После этого Гусейн Эфенди Гайыбзаде был назначен преподавателем азербайджанского языка и суннитского направления шариата, а молла Абдулсалам Ахундзаде был назначен преподавателем шиитского направления шариата.

После того, как открытие Азербайджанского отделения семинарии было реализовано, хотя и с большими трудностями, Алексей Осипович Черняевский был назначен инспектором отделения. Директор семинарии Дмитрий Дмитриевич Семенов, вызвав его к себе, с безнадежностью отмечал, что число подающих заявки недостаточно и таким ходом существование отделения может оказаться под вопросом. Алексей Осипович же не терял надежду и вышел в поиски детей для того, чтобы открыть отделение. Прибыв в Иревань, Нахичевань, Гянджу, Шушу, Шемаху, Кубу и Дербенд он ходил по домам и набирал детей. Объясняя родителям значимость образования и просвещения, он говорил, что они стремились пролить свет на судьбу Азербайджанского народа и, что они не должны лишать своих детей возможности зажечь этот свет. Ему приходилось проходить сотни километров дорог на фаэтоне, телеге, поезде и иногда даже пешком. Он был уверен, что найдет свет в Азербайджане.

Алексей Черняевский, родившийся и выросший в бедной русской семье в Шемахе с ног до головы был привязан к Азербайджану. Он посвятил всю свою жизнь просвещению и образованию азербайджанских детей. Великий просветитель нашего народа Фирудун бек Кочарли позднее писал: «Все то хорошее и примечательное, что было в Азербайджанском отделении Горийской семинарии, связано с именем Черняевского. «Язык Родины» Черняевского заложил основы совершенно новой эпохи в наших школах».

Его поиски не остались безрезультатными. Скоро Фирудун бек Кочарли, Сафарали бек Велибеков и Баба бек Сафа-

ралибеков из Шуши, Теймур бек Мамедбеков из Ленкорани, Исмаил ага Векилов и Мамедага Шыхлинский из Казаха, Рашид бек Эфендиев из Шеки оправдали надежды Черняевского. Эти молодые люди вышли на трудную тропу для открытия пути молодым, которые последовали за ними. Азербайджанские студенты привели в восторг христианских студентов и преподавателей семинарии своими способностями усваивать знания, прилежным поведением и высоким уровнем культуры.

Будучи еще студентом, Фирудун бек Кочарли перевел «Учение Сократа», посвященное жизни и ценностным воззрениям Сократа. Позднее, вместе с Салех беком Зохраббековым они составили учебник «Талимати-лисани-турки». Сафарали бек Велибеков же, в совершенстве владеющий русским, персидским и арабским языками составил энциклопедический труд «Хазинейи-ахбар». За отличие в учебе по окончании гимназии выпускник первого выпуска Сафарали бек Велибеков по решению Совета был назначен в 1881 году преподавателем родного языка. Фирудин бек был отправлен учителем в Иреваньскую гимназию, Теймур бек в Ленкорань, Мирза Али Мухаммеди же в Нахичеваньскую начальную русско-татарскую школу. Рашид бек Эфендиев был отправлен директором школы в деревню Курткашен в Шекинском уезде.

Заслуги Алексея Осиповича Черняевского в истории преподавания азербайджанского языка следует особо отметить. В учебнике «Язык Родины», составленном для азербайджанских студентов, он, как педагог, выбрал самые полезные материалы, пословицы, загадки, поговорки и представил набранный материал на доступном детском языке. Преподавание по этому учебнику велось не только в семинарии, но и во всех русско-азербайджанских школах, во всех уездах страны. Книгу он опубликовал с помощью своего студента Рашид бека Эфендиева на каменном печатном станке. В

учебнике «Язык Родины» он дает отрывки из азербайджанских пословиц, загадок, поговорок, стихов. «Родной язык» Черняевского для азербайджанцев имел то же значение, что и «Родное слово» Константина Ушинского для русских школ. Ввиду того, что до «Языка Родины» для азербайджанского отделения не было отдельного учебника, Черняевский составил с помощью своих студентов учебную программу по неделям. Он подготовил материал для чтения, чтобы вести занятия звуковым методом. Позднее в отчете Кавказского Округа Образования отмечалось, что мастерски составленный Черняевским учебный материал послужил замечательной базой для педагогической подготовки азербайджанских выпускников. Позднее, Алексей Осипович решил открыть газету на азербайджанском и в своем обращении по этому поводу отмечал, что его основная цель пробудить сознание народа и по мере возможности просвятить его, но все его попытки оказались безуспешными. Ссылаясь то на отсутствие достаточного количества подписчиков, то на отсутствие журналистов и другие причины, выпуск газеты предотвратили. Именно это послужило причиной смерти великого просветителя, желающего совершенно беспристрастно служить нашему народу. Алексей Осипович Черняевский умер в декабре 1894 года от разрыва сердца. Количество же азербайджанцев, следующих по пути этого света за образованием, просвещением, культурой росло с каждым годом.

## Литература


1. Ученые записки (отдельное издание). Баку. Издательство АГУ,1961, 10 стр.
2. Г.М.Ахмедов. Азербайджанская школа. Баку. Издательство «Маариф», 2006, 366 стр.
3. Р.Й.Гасанов. Из истории литературных связей. Баку. Издательство БГУ,1991, 74 стр.

4. Н.Худиев, Т. Гаджиев. История Азербайджанского литературного языка. Баку. Издательство «Маариф», 1995, 496 стр.
5. Карадаги (Хан Карадагский), Гасаналиага. И таким временам суждено было сбыться. Баку. Азербайджанская Национальная Академия Наук РИО, 2003. 280 стр.
6. Карадаги, Гасанали Хан. Произведения. Баку. Издательство «Шуша», 2004. 168 стр.

## ПЕДАГОГИЧЕСКАЯ ДЕЯТЕЛЬНОСТЬ ВЫПУСКНИКОВ ГОРЕЙСКОЙ СЕМИНАРИИ

***Илаха Вагиф кызыШихалиева***
***БГУ, Кафедра Педагогики, д.ф.п.н.***
***İlashka.sh@gmail.com***

Одним из первых Закавказских Семинарии открывшихся в 1876 г. в городе Гории – был Горийский Семинар Учителей. Это училище знаменито своими выпускниками, каждый из которых внес незаменимый вклад в педагогическую деятельность Азербайджанской Республики.

Фирудун бек Кочарли, Сафарали бек Велибеков, Солтан Меджид Ганизаде, Узеир бек Гаджибейли, Джалил Мамедкулизаде, Рашид бек Эфендиев, Муслим Магомаев, Шыхлинские, Сулейман Сани Ахундов, Гаджибаба Сулейманов, Нариман Нариманов, Осман Эфендиев, Исфандияр Векилов, Ферхад Агазаде и другие после окончания Горийской Семинарии подключились в ряды борющихся за независимость Азербайджана и неотступно до конца своей жизни продолжали эту борьбу.

Солтан Меджид Ганизаде на протяжении трех лет с августа 1905 года по август 1908 был инспектором Азербайджанского отделения семинарии.

Другие выпускники тоже отправлялись в уезды, отдаленные села и, непокладая рук, трудились для спасения нашей

нации от непросвещенности, невежества и отсталости. Поскольку просвещение, культура и прогресс были основным залогом свободы и независимости нашей нации.

Таким образом, основным приоритетом на повестке дня стало перенесение Азербайджанского отделения Горийской Семинарии в Казах.

Великий просветитель нашего народа Фирудин бек Кочарли начал неустанную борьбу за реализацию этой идеи. На каждом шагу он сталкивался с трудностями, бюрократией, препятствими. Отступать же от начатого тоже было невозможно. Перенесение семинарии в Азербайджан было в давних планах Фирудин бека.

Азербайджанские просветители заложили основы этой инициативы еще в 1884 году. Они обосновывали это тем, что отдаленность семинарии, отсутствие азербайджанцев в Гори, недостаточное количество студентов препятствовало желаемой поготовке педагогических кадров.

Неоднократно Сафарали бек Велибеков выступал с этим предложением на собраниях совета и каждый раз сталкивался с резкими протестами. В 1906 году Н.Нариманов в газете «Хаят» писал, что в Горийскую семинарию не принимают больше шестидесяти учащихся. Он считал, что, если бы это учреждение было бы в Баку, Гяндже или в другом немусульманском городе, наряду с 60 студентами, учившимися за счет государства, 60 мусульманских детей, будучи у себа на родине, могли бы получать образование в семинарии. В том же году Фирудин бек, выступая на заседании общества «Нашри-маариф» в Баку, отмечал тяжелое положение, сложившееся в Азербайджанском отделении семинарии и поднял вопрос перенесения школы в один из азербайджанских городов. Но центр не давал на это разрешения. Другого выхода тоже не было. Поэтому Фирудин бек, не теряя даром ни минуты, воспользовался закрытием семинарии на летние каникулы. Тайком забрав весь инвентарь и канцелярию Азербайджанского отделения семинарии, он за свой счет переправляет все это

поездом в Агдам. Исследователи в своих трудах отмечают, что за те десять минут пока не тронулся поезд, Фирудин бек постарел на 10 лет. Этот человек нес свет просвещения своему народу, проходя при этом через тысячи трудов и мук.

Таким образом, в 1918 году благодаря усилиям Фирудин бека Кочарли Азербайджанское отделение Горийской Семинарии было перенесено в Казах и продолжило там свое функционирование до установления советской власти. Возлагающий большие надежды на просвещение своего народа представитель интеллигенции Машади Ибрагим подарил директору семинарии Фирудин беку Кочарли свой дом в 17 комнат. Сам же он переехал в родное село Косалар и прожил там до конца своих дней. Следует отметить, что еще в 1914 году Фирудин бек забрал Мусеиба, сына Машади Ибрагима учиться в Горийской Семинарии. Следует отметить, что великое поколение таких просветителей как Самед Вургун, Мехдихан Векилов, Осман Сарывелли, Мехди Гусейн являлись выпускниками Казахской семинарии.

Деятельность Казахской семинарии дала огромный толчок развитию образования и просвещения в Азербайджане. В начале 1919 года в результате ускоренных мер, предпринятых в данном направлении, в Баку, Гяндже, Нухе, Сальяне, Шуше и Казахе было открыто 23 среднобразовательных государственных учреждения, 6 мужских и 4 женских гимназий, включая 5 реальных школ,

3 учительские семинарии, 3 образовательных учреждения для женщин, 1 политехническая и 1 коммерческая школа. В этот период в Азербайджане уже чувствовалось воздействие Горийской Семинарии. В скором времени в Азербайджане началось открытие педагогических курсов. Двухлетние курсы для мужчин были открыты в Гяндже, Казахе, Шуше и Нухе, а для женщин в Баку, Нухе и Гяндже. В этот же период стали открываться общества, пропагандирующие просвещение и национальную культуру, а также ряд благотворительных курсов. Следует отметить, что одним из основных фак-

торов, сыгравших ключевую роль в воспитании народа в духе национальных традиций и патриотизма, были специалисты – выпускники Горийской Учительской Семинарии.

Одним из выдающихся выпускников Горийкой семинарии был Джалил Мамедкулизаде. Джалил Мамедкулизаде окончил Закавказскую учительскую семинарию в 1887 году и в течение последующих десяти лет преподавал в школах Баш-Норашена, Улуханлы, Неграма и других населённых пунктов Эриванской губернии. Он был сторонником унификации литературного азербайджанского языка. Мамедкулизаде подвергал критике своих современников, засоривших, на его взгляд, азербайджанский язык ненужными заимствованиями из русского, персидского и турецкого языков, вводивших в заблуждение простого читателя («Книга моей матери», 1920). Впоследствии он стал одним из активистов процесса латинизации азербайджанского алфавита.

В 1898 году Джалил Мамедкулизаде переехал в Эривань, был знаком с армянским языком, в 1903 — в Тифлис, где стал работать в редакции местной азербайджаноязычной газеты «Шарги-Рус». В 1906 году Мамедкулизаде основал сатирический журнал «Молла Насреддин», редактором которого являлся на протяжении 25 лет (с перерывами).

Из-за голода в 1918 году в Шуше стало жить труднее. Джалил Мамедкулизаде вместе с женой Гамиде Ханум помогали беднякам. Жена также пекла хлеб для армян и раздавала в церквях. В 1918—1920 годах жизнь Мамедкулизаде проходила в двух местах: в Тифлисе и в селе Кехризли (Гёранбойский район).

Мамедкулизаде писал во множестве жанров, включая драмы, очерки, рассказы и фельетоны. Его первым наиболее известным произведением стал рассказ «Пропажа осла» (первый из серии рассказов «События в селении Данабаш»), написанный в 1894 и изданный в 1934 году. В нём писатель касается темы социального неравенства. В последующих произведениях («Почтовый ящик», «Конституция в Иране»,

«Курбан-Али-бек», «Барашек»), включая известные комедии «Мертвецы» и «Сборище сумасшедших», критикуются невежество, гордыня, религиозный фанатизм.

В Закавказье популярность набирала не только Горийскя, но и Иреванская семинария. Ибадулла бек Муганлинский, выпускник Иреванской учительской семинарии 1902 года, также открыл пансион в Иреване. Выдающийся литературовед Азиз Шариф в 1906-1908 гг. получил образование в пансионе И. Муганлинского в Иреване и подготовительном классе Иреванской гимназии. В своих воспоминаниях он писал, что помимо пансиона, в котором он учился, в Иреване функционировал еще и пансион Джафар бека Джафарова. В пансионе И. Муганлинского, находящемся на улице Дашлы в Иреване, азербайджанский язык преподавал Джаббар Мамедов. Пансион состоял из двух этажей. Первый этаж занимали классные комнаты, а на втором располагались спальные комнаты. А. Шариф пишет о том, что в пансионе, в котором он учился, царила строгая дисциплина.

Джафар бек Джафарбеков в 1897 году окончил подготовительную школу при Иреванской мужской семинарии. По окончании в 1901 году Иреванской учительской семинарии он был назначен воспитателем в школу Мухамедгулу бек Кенгярлинского. Впоследствии он работал учителем в Йенгиче и Александрополе. В письме Кавказского попечителя от 20 ноября 1907 года директору народных школ Иреванской губернии отмечается, что Джафар беку Джафарбекову дается разрешение на открытие 3-х степенного специального образовательного учреждения (при условии преподавания всех предметов на русском языке).

Во всех частных школах и медресе Иревана наряду с уроками шариата преподавался и персидский язык, учебным пособием для которого стало произведение Саади Ширази «Гюлистан». К отцу Джаббара Мамедова, Мирзе Аббасу Мухаммедзаде, прекрасно знавшему персидский язык и его грамматику, с различных мест губернии стекались люди для

изучения языка. Азиз Шариф также обучался у Мирзы Аббаса, изучая персидский язык посредством дословного перевода книги «Гюлистан». Мирза Аббас также в совершенстве выучил русский язык.

### Литература


1. Ученые записки (отдельное издание). Баку. Издательство АГУ,1961, 10 стр.
2. Г. М. Ахмедов. Азербайджанская школа. Баку. Издательство «Маариф»,2006, 366 стр.
3. Р. Й. Гасанов. Из истории литературных связей. Баку. Издательство БГУ,1991, 74 стр.
4. Н.Худиев, Т. Гаджиев. История Азербайджанского литературного языка. Баку. Издательство «Маариф», 1995, 496 стр.
5. Карадаги (Хан Карадагский), Гасаналиага. И таким временам суждено было сбыться. Баку. Азербайджанская Национальная Академия Наук РИО, 2003. 280 стр.
6. Карадаги, Гасанали Хан. Произведения. Баку. Издательство «Шуша», 2004. 168 стр.


## ВЫПУСКНИКИ ИРЕВАНСКОЙ СЕМИНАРИИ


***Илаха Вагиф кызы Шихалиева***
***БГУ, Кафедра Педагогики, д.ф.п.н.***
*İlashka.sh@gmail.com*


Сотни деятелей науки, культуры, искусства, религии, имена которых запечатлены в истории Азербайджана, родились и выросли в одном из древних культурных центров Азербайджана, в городе Иреван. Путешественники, летописцы, исследователи в разные времена, посетившие Иреван, описывали этот город как один из развитых центров науки и культуры Востока. Произведения иреванской интеллигенции, ученых в области науки, культуры и религии, в настоящее



время хранятся в различных библиотеках, архивах и музеях всего мира.

После установления в средние века системы беглярбекского и ханского управления в Иреване были созданы благоприятные условия для развития науки и культуры. В результате миграционных процессов, вызванных разрушительными войнами и стихийными бедствиями, к сожалению, лишь малая часть произведений того периода дошла до наших дней. После завоевания Иреванского ханства русскими войсками в начале XIX века, большая часть состоятельной и образованной элиты покинула город. Имеются сведения о десятках деятелей науки и культуры, которые, будучи родом из Иревана, творили и создавали под фамилиями и псевдонимами «Иревани». Выдающийся азербайджанский литературовед и деятель просвещения Фирудин Кочарли, в конце XIX века некоторое время работавший в Иреване, по праву, назвал город Иреван «меркези-улама, фузала и шуара» – т.е. центром ученых, добродетельных людей и поэтов.



оизведение Гаджи Сулеймана Ирев
«Польза мудрости»

Из произведений отдельных авторов, статистических данных того времени и архивных документов можно получить довольно много сведений о положении науки и образования в городе Иреван. И в период ханств, и в период российского завоевания ханы, беки, вельможи, религиозные деятели уделяли особое внимание тому, чтобы их дети получили превосходное образование. Многие состоятельные семьи посылали своих детей на учебу в зарубежные светские или высшие религиозные учебные заведения. Так

как в Иреване исповедовали шиитский толк ислама, дети из состоятельных семей, в основном, получали высшее религиозное образование в Багдаде, Наджафе, Кербеле, Мешхеде, Хорасане, Тебризе и Каире. В этих городах выросли десятки аятолл, муджтахидов (высшее духовное лицо у мусульман), религиозных деятелей, носящих титул ходжат уль-ислам (один из высших шиитских религиозных титулов, наряду с аятоллой и великим аятоллой, рангом ниже аятоллы, примерно соответствует епископу в христианстве), которые, будучи родом из Иревана, носили фамилии «Иревани». Имена аятоллы Моллы Мухаммеда бин Мухаммед Багир Иревани-Наджафи, аятоллы Сеида Абдульмаджида Иревани, аятоллы Сеида Али Иревани, аятоллы Мирзы Абдульгусейна Иревани, Гаджи Мирзы Иревани, Мирзы Фазлали ага, которые оставили после себя богатое наследие, упоминаются среди знаменитых исламских ученых. Аятоллахуль-узма Молла Мухаммед ибн Мухаммед Багир, прославившийся под псевдонимом «Фазил Иревани», родился в городе Иреван в 1817 году. После того, как Мухаммед получил начальное религиозное образование в Иреване, он отправился в Ирак, дабы усовершенствовать свои знания. В городе Кербела он завершил первый этап своего образования.

Затем Фазил переселяется в город Наджафи-Ашраф, который в свое время считался научной столицей джафаритского мазхаба (Мазхаб — школа шариатского права в исламе) и посещает уроки великих муджтахидов (Муджтахид – мусульманский богослов, который имеет право выносить самостоятельные суждения и обязан опираться исключительно на коранические аяты и достоверные хадисы пророка Мухаммада, а не на суждения других богословов). После длительного образования и исследований, Фазил Иревани, проявив себя в качестве разностороннего муджтахида, приступил к преподаванию в научном центре города Наджаф. Многие студенты из Северного и Южного Азербайджана, прибывшие в Наджаф с целью религиозного образования, посещали

именно уроки Фазила Иревани. Фазил Иревани руководил пятничным намазом в мечети Шейха Туси в городе Наджаф.



Группа преподавателей и учеников Иреванской гимназии

Этот великий человек обладал глубокими религиозными знаниями. Фазил Иревани в течение всей жизни усердно трудился на пути распространения исламского просвещения и написал ценные книги. В источниках упоминается примерно 15 книг, принадлежащих его перу. Особенно известны следующие книги Фазила Иревани: «Комментарии к толкованию Бейзави», «Иджтихад и таклид», «Усулуль-фикх», «Истисхаб», и т.д.

Сыновья Фазила Иревани – Шейх Джавад, Шейх Махмуд и Шейх Муртаза получили блестящее религиозное образование. Брат ученого, Шейх Али Аскер Иревани, также получил образование у выдающихся ученых в Наджафе и Кербале. Сын Шейха Али Аскера Хаджатуль-Ислам Гаджи, Шейх Муса Наджафи Иревани, занимал особое положение среди исламских ученых своего времени.

Посвятивший всю свою жизнь процветанию и проповедованию исламского просвещения, Аятоллахуль-узма Фазил Иревани скончался в ноябре 1888 года в городе Наджаф и был похоронен там же.

Уроженец города Иреван, выдающийся азербайджанский врач и ученый Гаджи Сулейман Каджар Иревани (XVIII век) написал на персидском языке произведение под названием «Фаваид ал-хикмат» (Польза мудрости), которое завоевало большую славу не только в Азербайджане, но также в Средней Азии и Иране. Эта книга – средневековая фармацевтическая энциклопедия и повествует о тысячах лекарственных растений, лечебных качествах животных и минералов. Ред-

кие экземпляры рукописей произведения «Фаваид ал-хикмат» хранятся не только в Институте рукописей им. Мухаммеда Физули Национальной академии наук Азербайджана, но и в Иране и Египте. Книга состоит из двух частей. В первой части приводится алфавитный перечень лекарственных средств. Вторая часть представляет собой толковый словарь средневековых фармацевтических терминов. Здесь названия растений, животных и минералов даны на азербайджанском, турецком, арабском, персидском, греческом, китайском, индийском и других языках.

В 1782 году иреванский хан Гусейнали пригласил из Тебриза каллиграфа, чтобы тот привел в порядок официальную документацию ханства и его личную переписку. Оригиналы этих рукописей, которые являются ценными источниками по Иреванскому ханству и истории города Иреван, были собраны и оформлены в виде книги под названием «Диван Гусейнали хана». Единственный экземпляр рукописи «Диван Гусейнали хана», в настоящее время, хранится в Государственном музее Армении. (Рукопись № 5039/1121).

В научном архиве Института истории Национальной академии наук Азербайджана хранится рукопись произведения «Письма Гусейнали хана Иреванлы». (Дело 7415). Произведение было собрано в период правления Гусейнали хана писарем ханской диванханы (диванхана – совет и канцелярия при правителе), а затем визирем Мухаммедом Муслумом Гудси. В «Письмах» были собраны записи, посланные иреванскими правителями в 1789-1791 гг. Османскому султану, Картли-Кахетинскому царю Ираклию II, Хойскому хану Ахмед хану, Гарабахскому правителю Ибрагимхалил хану. В письмах даются обширные сведения о политических, экономических, торговых связях, управленческой системе, формах собственности и налогах в Иреванском ханстве.

Армянский историк Тадевос Акопян пишет, что в 1923 году из всех мечетей и церквей Иревана были собраны рукописи и переданы в фонд рукописей Эчмиадзинской церкви. Ру-

кописи, хранившиеся в мечетях, были в основном на арабском и персидском языках. Большую их часть составляли Коран и другие религиозные книги об исламе. Среди этих рукописей также были стихи светского содержания и образцы художественного творчества на арабском и персидском языках. В рукописях, хранившихся в домах, содержались ценные сведения относительно истории. Полная информация о системе образования в городе Иреван была дана в труде русского историка и статистика Ивана Шопена «Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи», изданном в Санкт-Петербурге в 1852 году. Автор провел камеральную перепись на этой территории после завоевания Иреванского ханства Россией в 1829-1831 годах. Из этих сведений становится ясно, что система образования на территории Иреванского ханства, по сущности, ничем не отличается от системы образования других ханств Азербайджана.

По И. Шопену, образованием на территории Иреванского ханства занято в основном духовенство, имеющее определенное образование. При каждой мечети состоит более или менее значительное медресе. В младших классах учителя называются мударисами, а в старших классах вайзамами (профессоры). В медресе наряду с просторными классами располагались небольшие комнаты – кельи, в которых проживали ученики. Порой в некоторых мечетях преподавали именитые муджтахиды (муджтахид – высшее духовное лицо у мусульман), к которым со всех уголков страны стекались ученики. В преддверии падения Иреванского ханства только лишь в восьми мечетях Иревана обучались 200 учеников.

По сведениям И. Шопена, мусульманские ученые все науки делят на три главные отрасли (области): Аль-арабиат, Аль-шариа и Аль-хакимиа. В первую область в основном входили: правила арабского языка, история и чтение Корана; во вторую – толкование Корана, изучение хадисов, основы исламского правоведения, схоластическое богословие; в тре-

тью – логика, математика, география и астрономия, изучение медицины и теоретической философии. И в школах, и в медресе особое внимание уделялось чистописанию.

На территории Иреванского ханства, кроме школ и медресе, существовал и индивидуальный вид обучения. Образованием детей хана или сардара, знати и купцов в домашних условиях занимались отдельные учителя.

По сведениям И. Шопена, в доме каждого мусульманина можно найти по несколько экземпляров руководства по разным предметам преподавания, в особенности Коран и книги по шариату. Автор отмечает, что каллиграфически переписанные образцовые стихотворения очень дорого стоят. Исторические же книги продаются по баснословным ценам. Он также отмечает, что армяне бедны книгами и только в домах у более зажиточных армян иногда можно было увидеть «Библию» или Псалтырь. **[135]**Все это еще раз доказывает, что Иреван в период ханств, и в самом деле, являлся одним из развитых центров науки и культуры Азербайджана, где особое внимание уделялось образованию.

Учитель подготовительного класса Иреванской прогимназии Степан Зелинский (армянин по национальности) в своей статье «Город Иреван», напечатанной в «Сборнике материалов для описания местностей и племен Кавказа», отмечал, что в 1880 году при мечетях города Иреван получали образование 153 ученика, а их обучением занимались 8 учителей. С. Зелинский пишет, что



кроме этих школ в Иреване существовали еще и высшая мусульманская школа, в которой не взымали оплату с учеников за образование, а, наоборот, в зависимости от успехов ученика в учебе, мечеть им выплачивала в виде награды от 3 до 10 рублей в год. Автор также пишет о том, что большую часть учеников высшей мусуль-

манской школы составляли сельские жители и, что численность их ежегодно доходит до 60. По окончании полного курса ученик принимает сан ахунда и имеет право носить чалму. Можно предположить, что эта школа функционировала при главной городской мечети Джума или мечети Гусейнали хана.

14 января 1832 года, в период российского завоевания, в городе Иреван открылась первая государственная двухклассная уездная гимназия. Организатором и инспектором этой школы, расположенной в Иреванской крепости, был студент Московского университета А. Зубоев. В труде «Обозрение российских владений за Кавказом», изданном в 1836 году в Санкт-Петербурге, говорится, что в городе Иреван находится одно народное училище, в котором обучалось до 60 мальчиков, одно армянское, переведенное из Эчмиадзина в 1827 году, и 8 татарских (азербайджанских). Во всех этих 9 заведениях учатся до 120 человек, платящих учителям, по состоянию, от 20 копеек до 1 рубля серебром в месяц.

15 марта 1868 года Иреванское уездное училище было преобразовано в четырехклассную прогимназию. В этой школе, где получали образование и азербайджанские дети, преподавали предметы: уроки по религии, русский, татарский (азербайджанский), армянский, латинский, французский языки, а также историю, географию, математику и естествознание. Степан Зелинский в своей вышеупомянутой статье «Город Иреван» указывает, что на протяжении 30 лет, с 1850 года по 1880 год, Иреванское уездное училище и прогимназию закончили, в целом, 558 татар (азербайджанцев).

31 марта 1881 года прогимназия была преобразована в гимназию, а впоследствии стала называться Иреванская мужская гимназия. По сведениям на 1 января 1883 года из 237 учащихся в Иреванской гимназии 37 были азербайджанцами. По имеющимся сведениям, в Иреванской мужской гимназии, со времени, когда она начала действовать как Иреванское уездное училище, и до ее закрытия 6 августа 1918

года, уроки шариата и предмет азербайджанский язык преподавали: в 1836-1856 гг. Молла Таги Махмуд оглу, в 1856-1885 гг. Мирза Алекпер Эльханов, в 1885-1895 гг. Фирудин бек Кочарли, в 1895-1905 гг. Исмаил бек Сефибеков, в 1905-1906 годах Мирза Мухаммед Шейхзаде, в 1907-1918 гг. шейх Абусаттар Казымов.

Ереванская мужская гимназия взрастила целую плеяду выдающихся общественных и государственных деятелей, а также деятелей науки, культуры и искусства Азербайджана. Выпускниками Иреванской гимназии были такие известные государственные деятели Мамед бек Газиев, Теймур бек Макинский, Акпер ага Шейхульисламов, Нариман бек Нариманбеков, Мухаммед Магеррамов, Азиз Алиев, также деятели науки и просвещения Мир Юсиф Мирбабаев, Мустафа бек Топчубашев, Ахмед Раджабли, Магсуд Мамедов, и генералы Габиб бек Салимов, Гамбай Везиров. Несмотря на то, что некоторые азербайджанские выпускники Иреванской гимназии были изгнаны из Иревана в результате геноцида 1918-1920 годов, оставшиеся здесь в годы советской власти, проделали важную работу в области народного просвещения и ликвидации безграмотности в Иреване. Некоторые выпускники Иреванской мужской гимназии стали учителями в уездных школах, а другая часть продолжила свое образование в различных высших заведениях России.

Одним из учебных заведений, функционирующих в Иреване, было женское учебное заведение Святой Рипсиме. По инициативе Елизаветы Воронцовой, жены наместника Кавказа Михаила Воронцова, и решению правления благотворительного общества Святой Нины, функционирующей в Иреване, было учреждено женское учебное заведение Святой Рипсиме. 9 июля 1884 года это учебное заведение было преобразовано в трехклассную прогимназию. 30 мая 1898 года прогимназия была преобразована в восьмиклассную гимназию с подготовительным классом. Дочери состоятельных азербайджанцев также получали образование в этом платном

учебном заведении. Только за 1916-1918 гг. гимназию Святой Рипсиме окончили 35 азербайджанок. **[140]** В «Памятной книжке» Иреванской губернии за 1914 год отмечалось, что в этой гимназии уроки шариата и азербайджанский язык преподавал Гашим бек Нариманбеков.

Первым инициатором написания учебника по преподаванию родного языка азербайджанским детям был, учитель азербайджанского языка Иреванской мужской гимназии, Мирза Алекпер Эльханов. М. А. Эльханов, переняв педагогические идеи видного русского педагога К. Ушинского, написал учебник по родному языку «Алфавит татарского (азербайджанского) языка». 25 июня 1882 года рукописи учебника, составленного М. А. Эльхановым, были отправлены Управлением Кавказского учебного округа в Министерство народного просвещения России. 2 мая 1883 года Научный комитет министерства провел обсуждение, на котором было принято решение рекомендовать использование учебника Эльханова в качестве начальной хрестоматии по преподаванию азербайджанского языка. К сожалению, подготовленный к печати учебник, не вышел в свет при жизни М. А. Эльханова.

## İRƏVAN TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ TƏLİM – TƏRBİYƏ MƏSƏLƏLƏRİNİN METODOLOJİ ƏSASLARI

***Arzu Fikrət qızı Məmmədova***
***BSU-nun ibtidai təhsil kafedrasının baş müəllimi***

İrəvan maarifçilik mühiti milli təhsilimizin, maarif və mədəniyyətimizin inkişafında xüsusi yeri və əhəmiyyəti vardır. İrəvan maarifçilik mühitinin öyrənilməsi pedaqoji fikir tariximizi, təhsil tariximizi yeni bilik və məlumatlarla xeyli zənginləşdirir və dəyərli ensiklopedik mənbəyə çevrilir.

Bu gün İrəvan maarifçilik mühiti ilə tanış olan müasir oxucu, xüsusilə gənclərimiz bizim qədim, ulu torpaqalrımızın Qərbi

Azərbaycan dediyimiz məkanda, əzəli Azərbaycan torpaqlarında xalqımızın necə zəngin maarif və mədəniyyətə sahib olduğunun, necə dəyərli məktəblər, texnikumlar, ali məktəblər yaratdıqlarının, bu təhsil ocaqlarında necə fədakar, səriştəli, peşəkar pedaqoji kadrların, elm xadimlərinin yetişməsini öyrəndikcə milli iftixar hissi keçirir və qürur duyurlar.

Mənbələrdən məlum olur ki, İrəvanda dünyəvi məktəblər açılana qədər hələ XIII, XIV əsrlərdə Novruzəli bəy məscidi, Abbas Mirzə məscidi, Şah Abbas məscidi və digər adlarla məscidlər inşa edilmişdir ki, bu məscidlərin nəzdində mollaxana və mədrəsələr fəaliyyət göstərmişdir. XVIII əsrdə İrəvan xanı Hüseyn Əli xanın əmriylə 1766 -cı ildə burada möhtəşəm Göy Məscid inşa edilmişdir ki, bu İrəvan şəhərində o dövrdə inşa edilən məscidlərin ən böyüyü hesab edilmiş və onun nəzdinə məktəb və mədrəsələr fəaliyyət göstərmişdir.

İrəvan quberniyasında məskunlaşan soydaşlarımız Bakı və Gəncə quberniyalarından sonra sayca üçüncü yeri tuturdu. Burada ənənəvi məktəb və mədrəsələrin geniş şəbəkəsi mövcud idi. Təpəbaşı, Zal xan, Sərtib xan, Hacı Novruzəli bəy, Qala, Dəmirbulaq, Hacı Cəfər bəy, Rəcəb paşa, Məhəmməd Sərtib, Hacı İmam və Göy məscidin (yaxud Hüseynqulu xan) məscidlərinin nəzdində yüksək tipli mədrəsələr fəaliyyət göstərirdi. Yalnız Hüseynqulu xan məscidində 200 şagirdin oxuması yerli əhalinin təhsilə böyük diqqət göstərməsinin bariz ifadəsidir. 1830-cu ildə Cənubi Qafqazda 1134 məscid mövcud idi ki, onların da əksəriyyətinin nəzdində ya mollaxana, ya da mədrəsə fəaliyyət göstərirdi.

Məscidlər islamın hələ ilk dövrlərində ortaya çıxan təlim-tərbiyə mərkəzləri idilər. Məscid və camelərdə təlim bir qədər təkmil formada aparılırdı. ("cami" "cəm" olunan yer deməkdir.Orta əsrlərdə İrəvanda məscidlər və orada təşkil edilən məktəblərə, mollaxana deyilirdi. Bu dövrdə bilikli, savadlı insanlara, müəllimlik edənlərə ya molla, ya da mirzə deyilirdi. Məsələn Molla Pınah Vaqif, yaxud Mirzə Ələkbər Sabir.

Məscid və camelərdə tədris üsulu texnologiyalarında baxdıqda

görürük ki, tələbələrin öyrənmələri üçün müəllimin ətrafına toplaşan yerə "Həlqə" deyilirmiş Tədris üsuluna da "Həlqeyi-tədris" deyilirdi. Həlqələr çox zaman müəllimin adı ilə adlanırdı. Artıq camelərdə təlim prosesi həlqələr şəklində həyata keçirilirdi. Bir müəllim məsciddə bir guşəyə çəkilir və ya bir sütunun dibində dərisini yerə sərər, bu yer də elə o müəllimin adı ilə bilinərdi.

Məscid və ya cameyə girildiyində rəngarəng bir həyat görünürdü. Eyni məkanda namaz qılanlar, istirahət edənlər, söhbət edənlərlə bərabər dərs alanlar da var idi. Belə bir hal İrəvan məscid və camilərində də mövcud olmuşdur.

Həlqədə 20 nəfərə qədər adam olurdu. Həlqədən çıxan hər bir müdavim Quranı əzbər öyrənə bilirdi. İrəvan Cami və məscidlərdə Quran, Hədis, Fiqh kimi dini elmlər öyrədilməklə bərabər sosial həyatla bağlı elmlər də öyrədilirdi.

İrəvan mahalında məktəblərin proqramları müxtəlif idi. Amma ümumiləşmiş şəkildə proqramlar təxminən belə idi:

Qurandan müəyyən hissənin oxunub, əzbərlədilməsi ("Çərəkə");

Ərəb əlifbasının şifahi yolla öyrədilməsi (hərflərin adları, hərəkə işarələri, hərəkəli və hecalı əlifba);

Əbcəd (ərəb hərflərinin rəqəmlərlə ifadə olunması) öyrədilməsi və ərəbcə sözlərdən ibarət ilk qiraət;

Mətbu, ya da əl yazısı ilə yazılmış mənzum və mənsur kitabların, şerlərin ahənglə oxunuşu;

Nəsihətamiz kitabların oxunması, hədislərin öyrənilməsi, dini hekayələrin, rəvayətlərin, zərbli məsəllər, əxlaqi söhbətlərin öyrənilməsi;

Fars dili və ədəbiyyatının öyrədilməsi;

Ərəb dili qrammatikasının öyrədilməsi.

Uşaqlar az-çox ərəbcə kəlmələri yazmağa başladıqdan sonra, onlara ərəb üsulu ilə gözəl xətlə yazmaq öyrədilirdi. Daha sonra İrəvan məktəblərində şagirdlərə məktub yazmağı, kəbin kəsməyi, müxtəlif məzmunlu dualar yazmağı da öyrədirdilər. Uşaqlar qamışdan hazırlanmış iti ucluqlu qələm ilə, gözəl xətlə yazılar. Belə yazı nazik və zərif görünürdü.

Daha sonralar xanlıqlar Rusiya tərəfindən işğal olunduqdan sonra İrəvanda Qəza məktəbləri, progimnaziyalar, gimnaziyalar, realni məktəblər və s. məktəblər yaranmışdır.

Əsası 1747-ci ildə Mir Mehdi xan tərəfindən qoyulan İrəvan xanlığı Ağrıdağ ovasını, Göyçə gölünün sahillərini, Araz çayını əhatə edirdi. Xanlıq Naxçıvan və Maku xanlıqları ilə, Osmanlı İmperiyası, Kartli-Kaxetiya çarlığı, Borçalı, Qazax sultanlıqları və Qarabağ xanlığı ilə həmsərhəd olmuşdur. Xanlığın mərkəzi İrəvan şəhəri olmuşdur.

Şəhər ruslar tərəfindən alınandan sonra əhalinin bir qisminin İrana köçməsinə baxmayaraq, yenə də azərbaycanlılar şəhər əhalisinin böyük əksəriyyətini təşkil etmişdir. 1829-cu ilin məlumatına görə, təkcə İrəvan şəhərində əhalinin beşdə dördünü və ya 80 faizini azərbaycanlılar təşkil edirdi.

XIX əsrin əvvəllərindən başlayaraq 1920-ci ilə qədər İrəvan sürətlə inkişaf etmiş və bu bölgə böyük mədəniyyət mərkəzlərindən biri olmuşdur. İrəvan şəhəri Bakı, Təbriz, Naxçıvan, Xoy və başqa şəhərlər kimi Azərbaycanın aparıcı elm və mədəniyyət mərkəzi olmuşdur. Buna görə də Şərq elmi tarixində xeyli "İrəvani" təxəllüslü məşhur şəxslərə rast gəlmək olur.

Məsələn, Mirzə Qədim İrəvani (1825-1875) məşhur rəssam və nəqqaş olmuş, bir çox əsərləri Sankt-Peteburqda-Ermitajda saxlanılır.

Hacı Süleyman ibn Salman Qacar İrəvani - XVIII əsrdə yaşamış görkəmli Azərbaycan həkimi və alimi olmuşdur.

Şeyxülislam Fazil İrəvani - XIX əsrdə Qafqazın Şeyxülislamı olmuşdur.

Elə böyük alimlər də olmuşdur ki, onlar İrəvani nisbəsi ilə deyil, öz dövrü üçün mühüm olan başqa bir şəhərin (və ya əyalətin) adını özünə nisbə götürmüşdür. Bu adamlar da öz vətənlərinin əzəli Azərbaycan torpaqları olmasını sübut edən bir fakt kimi özlərinə nisbə, "təxəllüs" seçmişlər. Belə şəxslərdən biri qədim zamanlarda yaşamış Əbül-Fədl İsmayıl ibn Əli ibn İbrahim əl-Gəncəvi kimi böyük alim fiqh və hədis elmlərini Əli əl Masisi kimi

mötəbər alimdən dərs almışdır. Əli əl-Masisi on birinci yüzillikdə yaşamış böyük alim olmuşdur.

XIX əsrin 1880-ci illərin əvvəllərində İrəvanda kadr hazırlayan üç böyük tədris müəssisəsi yaranıb fəaliyyət göstərmişdir.

Onlardan biri 1881-ci ildə açılmış İrəvan Kişi Gimnaziyası, ikincisi yenə həmin il - 1881-ci ildə yaranmış İrəvan Müəllimlər Seminariyası və üçüncüsü 1884-cü ildə yaranmış İrəvan qız progimnaziyasıdır.

1881-ci ildə açılmış İrəvan Kişi Gimnaziyasının direktoru Vladimir İosifoviç Brajnikov olmuşdur. 1881-ci ildə burada 216 tələbə təhsil almşıdır.

Gimnaziyada təhsil müddəti 4 il olmuşdur. 1883-cü ildə gimnaziyada 37 azərbaycanlı tələbə oxuyurmuş. Gimnaziyanın ilk buraxılışı 1885-ci ildə olmuşdur. 1881-1915-ci illər ərzində Gimnaziyada 582 azərbaycanlı təhsil almışdır. Bu gimnaziyanın pansionu var idi ki, görkəmli ədəbiyyatşünas alim, Əməkdar Elm Xadimi Əziz Şərif də burada hazırlıq mərhələsi keçmiş, sonra da İrəvan Kişi Gimnaziyasında təhsilini davam etdirmişdir.Əziz Şərif xatirələrində yazır: "İrəvanda pansionda yaşayan zaman atam mənə fars dili müəllimi tapmışdı. Bəxtimdən mənim İrəvandakı müəllimim olduqca bilikli və təcrübəli imiş". Cabbar bəy Məmmədovun atası Molla Abbas fars dilinin mütəxəssisi olduğu üçün "Fars Abbas" adı ilə şöhrət tapmışdı.

Gimnaziyanın çox görkəmli tanınmış müəllimləri olmuşdur.

Firudin bəy Köçərli 1892-ci ildən İrəvan Kişi Gimnaziyasında Azərbaycan bölməsinin müdiri, eyni zamanda Azərbaycan dili müəllimi işləmişdir. Bu böyük maarif xadimi gimnaziyada müsəlman şöbəsinin müdiri və gimnaziyanın tərkibində olan pansionun müdiri vəzifələrində də çalışmışdır. İrəvan gimnaziyasında çalışdığı illərdə F.Köçərli maarif məsələlərinə dair dəyərli metodik məqalələr yazmış, Zöhrabzadə ilə birlikdə"Təlimi-lisani-türki" adlı dərslik tərtib etmiş, "Təlimati-Sokrat" (1891) adlı fəlsəfi əsərini nəşr etdirmiş, rus klassikllərindən bədii tərcümələr etmişdir. Daha sonralar onun yazdığı "Balalara hədiyyə" kitabı uşaq ədə-

biyyatı üçün ən dəyərli əsərlərdən sayılmaqdadır

F.Köçərli İrəvan gimnaziyasında 10 illik fəaliyyətindən sonra 1895-ci ilin oktyabr ayından yenidən Qori Müəllimlər Seminariyasında pedaqoji fəaliyyətini davam etdirmişdir.

İsmayıl bəy Şəfibəyov F.Köçərlidən sonra 1895-ci ildən İrəvan Kişi Gimnaziyasının həm müsəlman şöbəsinin müdiri, həm Azərbaycan dili müəllimi, həm də gimnaziyanın nəzdində pansionun müdir müavini kimi fəaliyyət göstərmişdir.

Mirzə Abbas Məhəmmədzadə XIX əsrin sonları və XX əsrin əvvəllərində Qərbi Azərbaycanda, xüsusən də İrəvanda ictimai-siyasi, mədəni və ədəbi mühitdə barmaqla göstərilən məşhur ziyalılardan biri kimi tanınırdı. Başqa ziyalılardan onu fərqləndirən ən üstün cəhəti zamanının ensiklopedik biliyə malik fars dili mütəxəssisi olması idi. O həm pansionda, həm də İrəvan Kişi Gimnaziyasında fars dilindən dərs deməsi, tələbkar bir müəllim tək şagirdlərinin rəğbətini qazanması, "Razi" təxəllüsü ilə ədəbi-bədii cəhətdən dolğun məzmunlu şerlər yazması onu daha məşhur etmişdir.

Molla Tağı Mahmud oğlu İrəvan Kişi Gimnaziyasında 1836-1856 -cı ilədək, Mirzə Ələkbər Elixanov isə 1856-1885-ci ilədək burada dərs demişdir.

Mirzə Ələkbər Elxanov əslən Uluxanlıdandır. Şəhərdəki Şah Abbas məscidi nəzdindəki mədrəsədə mükəmməl təhsil almışdır. Onun səs üsulu texnologiyası ilə həm pansionda, həm də gimnaziyada fars dilindən dərs deməsi, tələbkar bir müəllim tək şagirdlərinin rəğbətini qazanması, "Razi" təxəllüsü ilə ədəbi-bədii cəhətdən dolğun məzmunlu şerlər yazması onu daha məşhur etmişdir.

Onun tərtib etdiyi "Vətən dili" dərsliyi XIX yüzilliyin 80-ci illərində Rusiya Xalq Maarif Nazirliyində müzakirə edilərək çapa tövsiyə edilmişdir. Sözü gedən əsrin sonlarına doğru İrəvanda yeni məktəblər açılır, şəhərin teatr həvəskarları tez-tez tamaşalar göstərirdilər. "Rus-Azərbaycan" qız məktəbləri əhalinin rəğbətini qazanmışdı.

İrəvanda Azərbaycan dilində metodik kitablar da nəşr edilmişdir. İrəvanda kitab çapına XIX əsrin 80-ci illərindən başlanmışdır. Metodik kitab, dərslik, dərs vəsaiti nəşri sahəsində ilk təşəbbüsü

Molla Hüseyn İrəvani göstərmiş, onun 121 səhifəlik şəkilli 1888-ci ildə Təbrizdə daş basması ilə “Müseyibnamə” kitabı, bir il sonra Mirzə Ağa Əli Həkimi İrəvaninin azərbaycan dilində, həm də fars dilində metodik kitabları da çap olunmuşdur. İrəvan məktəb müəllimlərindən Mirzə Qəmərlniski, Haşım bəy Nərimanbəyov, Şahtaxtınski, Rəcəbov, Qazıyev, Məhəmmədov, Şəfibəyov, Sultanov və Mirzə Ələkbər Mirzazadənin yazdıqları I, II, III “Ana dili” dərslikləri 1907-1908-ci illərdə Tiflisdə “Qeyrət” mətbəəsində, Abbas Məmmədzadənin “Bədərəqətül-ətfal” kitabı 1911-ci ildə Bakıda Orucov qardaşlarının elektrik mətbəəsində, Həsənzadə Mirzə Hüseyn İrəvaninin “Tamam əlifba” kitabı Tiflisin “Kultura” mətbəəsində (1913) çap olunmuşdur..

1881-ci il, 8 noyabrda İrəvan şəhərində İrəvan Müəllimlər Seminariyası açılmışdır.

37 il fəaliyyət göstərən bu təhsil ocağı 1918-ci ilin 6 avqustunda Uluxanlı məktəbi ilə eyni vaxtda bağlanmışdır. Seminariyanın direktoru, görkəmli maarifçi Yakop Stepanoviç Şuşevski əsas diqqəti tədris ocağını müəllim kadrları və şagird kontingenti ilə təmin etməyə yönəltmişdi. Onun səyi nəticəsində birinci il seminariyaya 9 müəllim və 42 şagird cəlb edilmişdi. Seminariyanın Azərbaycan bölümünün rəhbəri səriştəli, peşəkar müəllim Axund Məmmədbağır Qazızadə olmuşdur. Seminariyaya Azərbaycanın müxtəlif bölgələrindən bura təhsil almağa gəlmişlər. İrəvan Müəllimlər Seminariyası xalqın maariflənməsində, intellektual potensialının yüksəlməsində mühüm rol oynamışdır.

Seminariyanın fəaliyyətində Qori Müəllimlər Seminariyasının azərbaycanlı məzunlarının böyük rolu olmuşdur. Görkəmli maarifçi-demokratlar Firudin bəy Köçərli, İsmayıl bəy Şəfibəyov, C.Ələkbərbəyov, Cəlil Məmmədquluzadə, M.Terequlov və başqalarının ilk pedaqoji fəaliyyəti İrəvan Kişi Gimnaziyası, Uluxanlı kənd məktəbi və İrəvan Müəllimlər Seminariyası ilə sıx bağlı olmuşdur.

İrəvan Müəllimlər Seminariyasının nəzdində ibtidai məktəb fəaliyyət göstərirdi. Seminaristlər pedaqoji təcrübələrini həmin

məktəbdə keçirdilər. Tədris prosesində tələbələrə pedaqoji fəaliyyətin metodik xüsusiyyətləri, texnologiyaları öyrədilirdi. Tələbələrin pedaqoji təcrübəsi Ordubad şəhər məktəbində təşkil edilirdi. Burada müxtəlif fənlər tədris edilməklə yanaşı, həm də bir sıra peşələr öyrədilirdi. Bu cəhətdən İrəvan Müəllimlər Seminariyasında xarratlıq, cildçilik, tərəvəzçilik və ipəkçilik fənləri də tədris olunurdu.

Seminariyanın 1885-ci ildə ilk buraxılışı olmuşdur. Məzunlar içərisində 25 nəfər azərbaycanlı olmuşdur.

İrəvan Müəllimlər Seminariaysının müsəlman şöbəsinin müxtəlif vaxtlarda direktorları Məmmədbağır Qazızadə, Rəşid Bəy Şahtaxtinski, Həmid Bəy Şahtaxtinski, Cəfər Bəy Cəfərbəyov olmuşdur.

### Ədəbiyyat


1. Cəfərov C., Allahverdiyev C. İrəvanda milli maarifçilik mühiti. Bakı: Şərq-Qərb, 2017, 440 s.
2. Cəfərov C., Allahverdiyev C. Təhsil tariximizdən: İrəvan pedaqoji məktəbi. Bakı: Orxan NPM, 2017, 240 s.


## İRƏVAN MÜƏLLİMLƏR SEMİNARİYASININ MƏZUNLARININ FƏALİYYƏT İSTİQAMƏTLƏRİ


***Püstəxanım Balayeva***
***Azərbaycan Dövlət Pedaqoji Universiteti, b/m***
***balayeva52@mail.ru***


XX əsrin 70-ci illərinə kimi bütün Qafqaz ərazisində dünyəvi fənlər tədris edən məktəb yox idi. Məlum məsələdir ki, Azərbaycanda olduğu kimi, İrəvan ərazisində də dünyəvi məktəblər meydana gələnə kimi təlim müəssisəsi olaraq məscidlərin nəzdində mollaxanalar və bir də məscidlər fəaliyyət göstərmişdir.

Cənubi Qafqaz, o cümlədən, Azərbaycan xanlıqları Rusiya tə-

rəfindən işğal edildikdən sonra həyatın bütün sahələri Rusiya tərəfindən idarə edilməyə başladı.1829-cu il avqustun 2 də Rusiya Maarif Nazirliyi " Zaqafqaziya məktəblərinin vəziyyəti haqqında" qəbul etmişdi. Burada əlbəttə ki, qəza məktəblərinin yaranması və ümumi təhsil sistemi və idarə edilməsi öz əksini tapmışdı. Artıq 14 yanvar 1832-ci ildə İrəvanda açılan ilk qəza məktəbinə müxtəlif millətlərin uşaqları ilə yanaşı, azərbaycanlı uşaqlar da təhsil almağa başladılar. 1832-ci ildə açılan İrəvan qəza məktəbi 1869-cu ildə progimnaziyaya, 31 mart 1881-ci ildən isə 5 sinifli gimnaziyaya çevrildi. Tezliklə, yəni 8 noyabr 1881-ci ildə digər bir təhsil müəssisəsi –İrəvan Müəllimlər Seminariyası fəaliyyətə başladı. Burada millətlərin nümayəndələri ilə yanaşı, azərbaycanlılar da təhsil alırdı. Yeri gəlmişkən onu da qeyd edək ki, İrəvan Müəllimlər Seminariyasının və gimnaziyanın təşkil olunması Cənubi Qafqazda maarifçiliyin daha geniş vüsət almasına ciddi təsir göstərdi. Seminariyada Axund Məmməd Bağır Qazızadə tədris edirdi. O. 1853-cü ildə İrəvanda anadan olmuş, İrəvan progimnaziyasını bitirmişdir. O, seminariyanın Azərbaycan bölməsinə rəhbərlik edirdi. "Ana dili" dərsliyinin həmmüəlliflərindən biri idi. Aparılan araşdırmalardan aydın olur ki, 1906-cı ilin iyul ayında Cəlil Məmmədquluzadə İrəvanda olmuş, seminariyada qabaqcıl ziyalılarla, müəllim və tələbələrlə görüş keçirmişdir. "Molla Nəsrəddin" jurnalının İrəvanda özünə möhkəm yer tutmasında İrəvan Müəllimlər Seminariyasının Azərbyacan bölməsinin müəllimlərinin və tələbələrinin böyük rolu olmuşdur. "Tuti", "Zənbur", "İqdam", "İrşad", "Babayi-Əmir", "Məzəli", "Kaspi", "Şəlalə", "Sovqat", "Kəşkül", "Tərcuman" və s. bu kimi mətbuat orqanlarının da İrəvanda yayılmasında xüsusilə azərbaycanlı tələbələrin böyük rolu olmuşdur.

Onu da qeyd etməliyəm ki, İrəvan Müəllimlər Seminariyasında 1904-cü ildə Rəşid Bəy Şaxtaxtinski, 1907-ci ildə isə Həmid bəy Şahtaxtinski Azərbaycan ( tatar) dili fənnini tədris etmişlər. 5 iyun 1899-cu ildə Həmid bəy İrəvan Müəllimlər Seminariyasını bitirdikdən sonra Qafqaz Təhsil Dairəsinin əmri ilə 1 sentyabr

1899-cu il tarixdən İrəvan rus-tatar məktəbinə Azərbaycan dili müəllimi təyin edilir. 1901-ci il 27 oktyabrda Qafqaz Təhsil Dairəsi rəhbərinin 14622 №-li əmri ilə İrəvan Müəllimlər Seminariyasına tatar (Azərbaycan) dili müəllimi təyin edilir. Həmid bəy 23 oktyabr 1907-ci il tarixdə Qafqaz Təhsil Dairəsinin 19273 №-li əmri ilə İrəvan Müəllimlər Seminariyasının tatar dili müəllimi vəzifəsindən azad edilir. 1907-ci ildə Həmid bəy İrəvan Müəllimlər Seminariyasından azad edildikdən sonra onun yerinə Mirzə Cabbar Məmmədzadə tatar (Azərbaycan) dili müəllimi təyin edilir. 19 yanvar 1913-cü il tarixə qədər Mirzə Cabbar Məmmədzadə İrəvan Müəllimlər Seminariyasında tatar (Azərbaycan) dili müəllimi işləmişdir.

Seminariyada Bakıdan, Naxçıvandan, Dağıstandan və başqa şəhərlərdən də tələbələr təhsil alırdı. Buranı bitirən məzunlara kənd ibtidai məktəb müəllimi vəsiqəsi verilirdi.

Əhməd bəy Qaziyev, Əli Əşrəf Qaziyev, Həsən bəy Axund Molla Xəlil bəy oğlu Qaziyev, Fərəməz Mahmudbəyov, Yusif bəy Qaziyev, Məmməd bəy Əli bəy oğlu Mahmudbəyov, Xəlil Məmmədəliyev, Həsən Nəsirbəyov, ictimai xadim Saleh Məşədi Teymur oğlu Güllünski, Ağa bəy Rəhim bəy oğlu Firudinbəyov, Abbas Allahverdi oğlu Qədimov, Mir Haşım bəy Vəzirov, Əli Sultanov, Fərrux Ağakişibəyov, Əli Cəlilzadə, Mirzə Bağır Əliyev, Şıxəli bəy Firudinbəyov, Cəfərbəy Cəfərbəyov, İbrahim Şahtaxtlı və başqaları İrəvan Müəllimlər Seminariyasının məzunları olmuşlar. 1910-cu ilə qədər buranı 30 nəfər azərbaycanlı bitirmişdir. 1915-ci ildə isə seminariyada təhsil alan azərbaycanlıların sayı 22 nəfər olmuşdur.

Seminariyada rus dili, Azərbaycan dili, riyaziyyat, coğrafiya, idman və s. fənlərlə yanaşı, musiqi fənni də tədris edilirdi. N.Kasradzenin rəhbərliyi altında 69 nəfər musiqi təhsili almışdır ki, onların arasında azərbaycanlılar da var idi.

İrəvan Müəllimlər Seminariyasının məzunları Cənubi Qafqazda milli maarifçiliyin inkişaf etdirilməsi istiqamətində çox böyük rol oynamışlar. Onlar azərbaycanlılar yaşayan bölgələrdə yeni

məktəblərin açılmasında, azərbaycanlı balalarının təhsilə cəlb edilməsində fəal şəkildə iştirak etmişlər. Bu fədailər daha çox İrəvanda, Naxçıvanda, Azərbaycanın müxtəlif bölgələrində milli intibah istiqamətində böyük fədakarlıq göstərirdilər. Məmməd Axundov, İbadullah bəy Muğanlinski, Məmməd Vəli Qəmərlinski, Cəfər Kərimov və başqaları İrəvanda xalqımızın mədəni yüksəlişi yolunda həyatlarını və maddi imkanlarını da bu ülvi məqsədə sərf etmişlər. Cəfərbəy Cəfərbəyov İrəvanda həm də III dərəcəli xüsusi məktəb açmağa nail olmuş və eyni zamanda açdığı pansionata rəhbərlik etmişdir. Cəfərbəy 1897-ci ildə İrəvan Gimnaziyasının hazırlıq sinfini, 1901-ci ildə isə İrəvan Müəllimlər Seminariyasını bitirmişdir. 1911-ci ildə İrəvan Müəllimlər Seminariyasını bitirən Əsgər Axundov burada III dərəcəli 1 sinifli, pansionlu məktəb açmağa nail olmuşdur. Seminariyanın məzunu olmuş, əslən Vedili Şəmdin bəy Mahmudbəyov 1903-cü ildən 1917-ci ilə kimi Uluxanlı kənd məktəbinin, Şıxəli bəy Firudinbəyov Qəmərli kənd məktəbinin, Yusif Babayev Dvin-Aysor kənd məktəbinin, Mirzə Cabbar Məmmədov Göyməsçid kənd məktəbinin, İbadullah bəy Muğanlinski Dərəçiçək kənd məktəbinin müdirləri olmuşlar. İlya bəy Mahmudbəyov, Əhməd Haşimov Çobankərə kəndində, Şıxəli bəy Firudinbəyov, Cəlil Məmməd oğlu Mirzəyev, Mirzə Məhəmməd Axundov Qəmərlidə, Həsənbəy Axund Molla Xəlil bəy oğlu Qaziyev, Axund Məmməd Bağır Qazızadə İrəvanda, Məmməd bəy Lütvəli bəy oğlu Qaziyev Uluxanlıda, Fərəməz bəy Mahmudbəyov Böyük Vedidə, Cəfər Kərimov Şərurda müəllim işləmişlər. İrəvanda və bölgələrdə fəaliyyət göstərən bu müəllimlər milli tərəqqi üçün çox böyük işlər görmüşlər. İrəvan Müəllimlər Seminariyasını bitirmiş Tağı bəy Səfiyev də uzun müddət Naxçıvanın Nehrəm kəndində müəllim işləmişdir. Həmin dövrdə onun "Nehrəm kəndi" adlı kitabçası da işıq üzü görmüşdür. İrəvan Müəllimlər Seminariyasının məzunlarından biri də Həsən Səfərli olmuşdur. Rus dilinin və riyaziyyatın gözəl bilicisi olan Həsən Səfərli 1917-ci ildən 1919-cu ilin ortalarına qədər Naxçıvanda fəaliyyət göstərən "Rüşdiyyə" məktəbində

də dərs demişdir. H.Səfərli 1919-cu ildə Naxçıvanda kimsəsiz uşaqlar evinin müdiri işləmişdir. 1965-ci ildə isə Əməkdar müəllim adına layiq görülmüşdür.

Hüseynəlibəy Rüstəmbəyov seminariyanın məzunu olaraq Azərbaycanın İsmayıllı rayonunun Lahıc, Cəlil Babayev isə Basqal kənd məktəbində böyük maarifçilik işləri aparmışdır. İrəvanda 1890-cı il aprel ayının 4-də tamaşaya qoyulan "Könülsüz nikah" adlı 1 pərdəli pyesin müəllifi İrəvan Seminariyasının tələbəsi Abbas Rizayev olmuşdur.

Seminariyanın görkəmli məzunlarından biri də Həsən bəy Qaziyev olmuşdur. O, 1879-cu ildə İrəvan şəhərində anadan olmuşdur. İrəvan Müəllimlər Seminariyasını bitirdikdən sonra Uluxanlı məktəbində rus dili müəllimi, sonra isə 1918-ci ilə qədər İrəvanın müxtəlif milli məktəblərində rus dili müəllimi işləmişdir. Həsən bəy həm də İrəvan quberniyası müsəlmanlarının dini icmasının üzvü idi. O, 1918-ci ildə erməni daşnaklarının törətdikləri qətliamlar zamanı Naxçıvana köçmüş və müxtəlif məktəblərdə rus dilini tədris etmişdir. Əməkdar müəllim Həsən bəy Qaziyev ömrünün böyük bir hissəni milli maarifçiliyimizin inkişafına həsr etmişdir. İrəvan Müəllimlər Seminariyasının məzunları sırasında Əli Əzim oğlu İbrahimov da vardır. O, 1894-cü ildə Ağdamda anadan olmuş, uzun müddət xalq maarifi sahəsində fəaliyyət göstərmişdir. Ə.İbrahimov 1914-cü ildə seminariyanı bitirdikdən sonra inqilabi hərəkata qoşulmuş və bu hərəkatın fəallarından biri olmuşdur. O, 1914-cü ildən 1916-cı ilə qədər Böyük Vedi kəndində müəllim işləmişdir. 1916-cı ilin əvvəllərində Ağdam rayonuna köçmüş və burada rus dilini tədris etmişdir.

Türkiyənin görkəmli rəssamlarından olan İbrahim Səfi də İrəvan Müəllimlər Seminariyasını bitirmişdir. O, II Dünya müharibəsindən sonra Türkiyəyə köçmüş və burada ömrünün axırına kimi yaşamışdır.

Ümumiyyətlə, Qərbi Azərbaycanda xalqın maariflənməsində, Abbasqulu bəy Şadlinskinin yaratdığı "Qırmızı tabor"un tərkibində erməni şovinistlərinə qarşı mübarizədə İrəvan Müəllimlər Se-

minariyasının və Gimnaziyasının Azərbaycan şöbəsini bitirənlərin böyük xidmətləri olmuşdur. Araşdırmalardan o da məlum olur ki, 1937-ci ildə repressiyaya daha çox məruz qalanların əksəriyyəti də məhz elə İrəvan Müəllimlər Seminariyasının və İrəvan Gimnaziyasının, o cümlədən, buradakı dünyəvi məktəblərin məzunları olmuşdur.

Adlarını qeyd etdiyimiz milli intibaha yol açan maarif-mədəniyyət ocaqları 1918-ci ildə ermənilərin azərbaycanlılara qarşı törətdikləri total qırğınlar zamanı öz fəaliyyətini dayandırmışdır. Bu maarif və mədəniyyət ocaqlarında çalışan azərbaycanlı ziyalıların, müəllimlərin, təhsil alan tələbələrin bir qismi həmin hadisələr zamanı qəddarcasına qətlə yetirildi, bir qismi isə amansızcasına qətlə yetirilməkdən xilas olmaq üçün öz tarixi və doğma yurdlarını tərk etməyə məcbur oldular.1920-ci il noyabrın 29-da Ermənistanda Sovet hakimiyyəti qurulduqdan sonra başqa respublikalarda olduğu kimi, burada da məktəb və maarif probleminə münasibət dəyişdi. Ermənistan İnqilab Komitəsi 6 dekabr 1920-ci ildə bütün məktəblərin dövlət ixtiyarına keçməsi, təhsilin ana dilində aparılması haqqında dekret imzaladı. 1921-ci il dekabr ayının 17-də Ermənistan Xalq Maarif Komissarlığının (EXMK) verdiyi əmrə əsasən, köhnə tipli məktəblər ləğv olunaraq, məzmunca yeni tipli Sovet məktəblərinin təşkilinə başlanıldı. Yeni tipli məktəblərin təşkili ilə əlaqədar olaraq 1921-ci il aprel ayının 23-də EXMK-nin verdiyi əmrdə göstərilirdi ki, respublikada yaşayan azərbaycanlılar öz ana dillərində təhsil ala bilərlər.

Beləliklə, Azərbaycan məktəblərinin yeni məzmunda təşkili istiqamətində ilk addımları atılaraq, birillik, ikiillik və xüsusi məktəblər ləğv edildi. Yeni tipli məktəblər təşkil olunaraq fəaliyyətə başladı. Yeni tipli məktəblər təşkil edildikdən sonra İrəvanda və eləcə də azərbaycanlılar yaşayan bütün bölgələrdə doğma dilimizdə təhsil ocaqları şəbəkəsinin genişlənməsi orada təhsil alan şagirdlərin sayının sürətlə artmasına səbəb oldu. Azərbaycanlı şagirdlərin sayının sürətlə artmasının əsas səbəblərindən biri də 1918-1920-ci illərdə erməni daşnaklarının zülmü nəticəsində ən

qəddar üsullarla qətlə yetirilməkdən xilas olmaq üçün doğma yurdlarını tərk etmiş soydaşlarımızın Ermənistanda Sovet hakimiyyəti qurulduqdan sonra bir qisminin yenidən öz vətənlərinə dönməsi ilə bağlı idi.

Milli dilimizdə təhsil ocaqları şəbəkəsinin genişlənməsi və idarə edilməsi, orada təhsil alan şagirdlərin sayının sürətlə artması müəllim kadrlarına olan tələbatı daha da artırırdı. Azərbaycanlı ziyalılar tərəfindən milli məktəblərimiz üçün pedaqoji kadrlar hazırlayan tədris müəssisəsinin yaradılması ideyası 30 yanvar 1922-ci ildə EK(b) P-nin birinci qurultayında qaldırılsa da, onların tələblərinə məhəl qoyulmamışdı.

Amma buna baxmayaraq, Azərbaycan məktəbləri üçün müəllim çatışmazlığı problemini həll etmək məsələsi yenə də gündəlikdə qalırdı. Azərbaycan məktəbləri üçün pedaqoji kadrların hazırlanması məsələsi Ermənistan Kommunist Partiyasının 1923-il martın 29-da keçirilən ikinci qurultayında yenidən qaldırılsa da, yenə də öz həllini tapmadı. Qurultayda Ermənistanın şovinist dairələri və eləcə də Xalq Maarif Komissarı A.Mravyan, Azərbaycan məktəblərini müəllim kadrları ilə təmin etmək üçün Azərbaycandan pedaqoji kadrların dəvət olunmasını daha məqsədəuyğun hesab edirdi. Ermənistanın şovinist dairələri Azərbaycan məktəbləri üçün yerli kadrların hazırlanması məsələsini müxtəlif vasitələrlə əngəlləyirdilər. Burada bolşevik cildinə bürünmüş erməni daşnaklarının ən iyrənc məqsədləri azərbaycanlıların savadlanmasının, mədəni tərəqqisinin və gələcək perspektivlərinin qarşısını hər vasitə ilə almaq idi. Azərbaycan məktəblərini pedaqoji kadrlarla təmin etmək üçün 1923-cü ilin ortalarında Azərbaycandan müxtəlif ixtisaslar üzrə müəllim kadrlar dəvət edilərək İrəvana və azərbaycanlılar yaşayan bölgələrə pedaqoji fəaliyyət göstərməyə göndərilirdilər. Əsl erməni xisləti Azərbaycan məktəblərində dərs deyən həmin müəllimlərə dözülməz şərait yaratdığı üçün onlar maddi və mənəvi sıxıntılara dözə bilməyib Ermənistanı tərk etməyə məcbur olurdular.

Azərbaycan məktəblərində pedaqoji kadrlara olan ehtiyacı,

qismən də olsa, aradan qaldırmaq üçün 1922-ci ildə EXMK-nın nəzdində yaradılmış Azsaylı xalqlar şöbəsinin müdiri Mehdi Kazımovun səyi nəticəsində 1923-cü ilin noyabr ayında İrəvanda 2 aylıq yay hazırlıq kursu təşkil edilmişdi. Bu hazırlıq kursunda Azərbaycan məktəbləri üçün 60-dan artıq müəllim hazırlanmışdı. Bundan başqa, Uluxanlıda, Vedidə, Basarkeçərdə, Zəngəzurda, Ağbabada və azərbaycanlılar yaşayan müxtəlif bölgələrdə də hazırlıq kursları təşkil edilmişdi. Bir çox pedaqoji kadrlar məhz belə kurslarda təhsil almaqla püxtələşmişdi. 1923-cü ilin sonlarında təşkil olunmuş bu hazırlıq kurslarında 1926-cı ilə qədər 143 müəllim hazırlanmışdı ki, bunlardan da 6 nəfəri qadın idi. Bu kursların təşkilində İrəvanda Azərbaycan ədəbi-mədəni, ictimai-siyasi mühitinin aparıcı nümayəndələrindən olan Bala Əfəndiyevin, Mehdi Kazımovun, Mustafa Hüseynovun və başqalarının böyük rolu olmuşdur.

Müəllim çatışmazlığı problemini, qismən də olsa, aradan qaldırmaq üçün Azərbaycan Xalq Maarif Komissarlığının razılığı əsasında İrəvandan Bakıya 1923-cü ildə 16, 1925-ci ildə isə 38 nəfər pedaqoji təhsil almaq üçün müxtəlif ali təhsil müəssisələrinə göndərilmişdi. Zəhra Abbasova, Tacirə Bağırova kimi gənclər Azərbaycan Ali Pedaqoji İnstitutunu bitirdikdən sonra İrəvana qayıdaraq maarifin inkişafına öz töhfələrini verirdilər.

## Ədəbiyyat


1. Adıgözəlov Ə. Qarbi Azarbaycandakı milli məktəblərimizin tarixiпdən. Bakı: Təhsil, 2003. 92 s.
2. Azərbaycan təhsil tarixinin şərəfli səhifəsi-İrəvan Müəllimlər Seminariyası-140https://525.az/news/174797-azerbaycan-tehsil-tarixinin-serefli-sehifesi-irevan-muellimler-seminariyasi-140
3. Hüseynzadə R. İrəvan maarifçiliyi.//Azərbaycan məktəbi, 2018, №1,s.61-66

# İRƏVAN MÜƏLLİMLƏR SEMİNARİYASININ MƏZUNLARININ PEDAQOJİ FƏALİYYƏTLƏRİ VƏ ONLARIN ACI TALELƏRİ

*Tamara Kərəm qızı Məmmədrzayeva*
*ADU-nun Pedaqogika kafedrası, müəllim*
*m_tamara_0712@mail.ru*

Bu gün biz digər ziyalılarımız kimi İrəvan Müəllimlər Seminariyasını bitirərək xalqının, millətinin savadlanmasında xidmətlər göstərdiyi üçün repressiya qurbanına çevrilən ziyalılarımıza dair araşdırmalar aparmışıq. Siyasi hadisə hesab olunan repressiya Stalin və Beriyanın hakimiyyəti dövründə vətənpərvər insanların "əksinqilabçı", "millətçi", "casus", "üsyançı" və s. adlarla cəzalandıraraq, sürgünə göndərilməsi və qətlə yetirilməsi ilə nəticələnmişdir. SSRİ-də həyata keçirdiyi repressiya nəticəsində 1.575.259 adam həbs olunmuşdur. Bunlardan 893.567 nəfəri sürgün olunmuş, 681.692 nəfər isə güllələnmişdir. Bunların sırasında:



**Rəşid bəy Əsəd oğlu İsmayılov** (1877, İrəvan) 1905-ci ildə İrəvan Müəlimlər Seminariyasını bitirir. Təhsil aldığı müddətdə "Şərq Rus" qəzetində fəaliyyətə başlamışdır, qəzet bağlandırdan sonra isə "Novaya obazreniya" qəzetində işləyir, "Müsəlman həyatı" və "Yaxın Şərq" şöbələrinə rəhbərlik edir. Seminariyanı bitirdiksən sonra 1906-cı ildən 1916-cı ilədək Tehranda rus progimnaziyasının direktoru vəzifəsində çalışmışdır. 1918-ci ildə "Hümmət" təşkilatına üzv, müavin və təmsilçi vəzifəsində çalışır. Azərbaycan Xalq Cümhuriyyəti qurulduqdan sonra dövlət quruculuğunda fəal şəkildə iştirak edir və 1919-cu ildə dövründə dəftərxana rəisi vəzifəsində çalışır. Cümhuriyyətin süqutundan sonra Bakıdakı 18 nömərli məktəbdə tarix müəllimi kimi fəaliy-

yət göstərir. Lakin ona qarşı təqiblər başlayır. 1922-ci ildə partiya sıralarından uzaqlaşdırılır. 1928-1930-cu illərdə Tifilisdə Kənd Təsərrüfatı bankının inspektoru işləyir. 1934-cü ildə isə yenə "zərərli şəxs" kimi həbs olunur və 6 aydan sonra azadlığa buraxılır. 1935-1937-ci illərdə Xəzər Dəniz Gəmiçiliyində müxtəlif vəzifələrdə, 1937-1938-ci ildə isə Bakı şəhərində Voroşilov rayonunda 1 saylı məktəbdə rus dili müəllimi işləyir.

1938-ci ildə "əksinqilabçı milliyyətçi təşkilat"da iştirakda təqsirləndirilərək həbs edilir və Moskvanın Butirski həbsxanasında saxlanılır. 15 il azadlıqdan məhrum edilmə cəzası ilə digər müsavatçılarla birgə Arxangelsk vilayətinin Solovetski düşərgəsinə göndərilir. 1942-ci ildə isə naməlum şəraitdə Solovetski islah əmək düşərgəsində vəfat edir. 1962-ci ildə bəraət alır.



**Həmid bəy Şahtaxtinski** (1880, Naxçıvan) 1899-cu ildə İrəvan Müəllimlər Seminariyasının tam kursunu bitirərək rus-tatar məktəbinə müəllim təyin edilmişdir. 1899-cu ildə Qafqaz tədis dairəsi Təhsil idarəsinin təklifi ilə İrəvan Müəllimlər Seminariyasında türk dili dərslərini tədris etmişdir. 1907-ci ildə Odessa Universitetinin hüquq fakültəsinə daxil olur, lakin xəstəliyi ilə əlaqədar universiteti 1912-ci ildə bitirir. 1913-cü ildə Bakı quberniyası Xalq məktəbləri direktorunun icazəsi ilə müəllimlər üçün şəxsi kurslar açır, 1916-cı ildən Alekseyevsk peşə məktəbində müəllim, daha sonra Yelizavetpol Müəllimlər Seminariyasına riyaziyyat müəllimi və Yelizavetpol quberniyasının Qazax və Nuxa qəzaları üzrə Xalq məktəblərinin təlimatçısı vəzifəsində çalışır.

Siyasi fəaliyyətə başlayan H.Şahtaxtinski 1918-ci ildə Xalq Maarifi və Dini Etiqad nazirinin müavini, eləcə də Zaqafqaziya Hökumətinin Xalq Təhsili naziri vəzifələrində çalışmışdır.1919-cu ildə isə İttihad Partiyasının üzvü olmuşdur.

H.Şahtaxtinski ümumtəhsil məktəbləri üçün dərsliklərin müəllifi, Azərbaycan dilində elmi terminologiyanın tərtibi üzrə komis-

siyaların sədri, eləcə də Azərbaycan əlifbasının yaradılmasında iştirak etmişdir.

Repressiyaya məruz qalan Şahtaxtinski 1941-ci ildə həbs olunaraq Arxangelsk vilayətinə sürgün edilmiş, 1944-cü ildə sürgündə həlak olmuşdur.



**Həbib bəy Səlimov** (1881, İrəvan) İrəvan Müəllimlər Seminariyasını bitirdikdən sonra İrəvan Gimnaziyasını da birinciliklə bitirmişdir. 1902-ci ildə isə o Tiflisdə suvari məktəbini bitirmişdir. Hərbiçi kimi müxtəlif vəzifələrdə çalışan Həbib bəy Peterburqda Baş Qərargahın Nikolay Hərbi Akademiyasını da bitirmişdir. Azərbaycanda Xalq Cümhuriyyəti yarandıqdan sonra Həbib bəy vətənə polkovnik-leytenant kimi dönmüşdür.

Daşnak-bolşeviklərə qarşı əməliyyatlarda iştirakına görə polkovnik rütbəsini almışdır. AXC-nin Milli Ordusunun dəftərxana rəisi, Azərbaycan korpusunun Baş Qərargah rəisi, Baş Ərkan-i Hərbin rəhbəri vəzifələrində çalışmışdır. AXC-nin hərbi naziri, Bakının azad edilməsindəki xidmətlərinə görə Səməd bəy Mehmandarov tərəfindən general-mayor rütbəsi ilə təltif edilmişdir.

Naxçıvanın hərbi komissarı olan Həbib bəy Səlimov bolşeviklərlə işləməyi rədd etdiyi üşün 1920-ci ildə həbs edilir və güllələnir.



**Mirzə Cabbar Məhəmmədzadə** (1882, İrəvan) İrəvan Müəllimlər Seminariyasını bitirdikdən sonra Naxçıvanın Nehrəm, Qəmərli, İmansalı kəndlərində müəllim işləmişdir. Eyni zamanda "Samouçitel tyurkskoqo yazıka dlya russkix", "Samouçitel russkoqo yazıka dlya tyurok", "Samouçitel russkoqo yazıka dlya persov" kimi kitabların müəllifidir.

1920-ci ildə Bakıya gələrək Azərbaycan Dövlət Universitetində, Azərbaycan Pedaqoji

İnstitutunda, Kooperativ İnstitutunda pedaqoji fəaliyyət göstərmiş, şerlər yazmış, "Azərbaycan dilinin tədrisi metodikası" və ümumən 20-yə yaxın tək və müştərək dərsliklər yazmışdır. 1937-ci ildə ailəsi ilə birgə həbs olunur, özü güllələnir, həyat yoldaşı ilə qızı isə sürgün olunur. 1957-ci ildə bəraət almışdır.



**Fərəməz Əskərbəy oğlu Mahmudbəyov** (1900, Vedi) 1917-ci ildə İrəvan Müəllimlər Seminariyasını bitirmişdir. 1919-cu il Naxçıvan, Şərur və Ordubadın erməni daşnaklarından qorunmasında iştirak edən Fərəməz bəy, Naxçıvanda Sovet hökuməti qurulduqdan sonra Naxçıvan İnqilab Komitəsinin sədri vəzifəsində çalışmışdır. Lakin M.C.Bağırovun və Əliheydər Qarayevin rəhbərliyi ilə keçirilən xüsusi iclasda Vedibasar qubernatoru F.Mahmudbəyov antisovet təbliğatında təqsirkar bilinərək tutduğu vəzifədən azad edilir və həbs olunaraq Bakıya göndərilir. Tarixçi-alim Əli Əliyevin yazdığına görə, 1937-ci ildə Nargin adasında digər silahdaşları ilə birlikdə güllələnir.



**Saleh Teymur oğlu Güllücinski** İrəvan Müəllimlər Seminariyasını bitirmişdir. İrəvanda yaradılmış ilk partiya təşkilatının üzvü olan Saleh Güllücinski 1921-ci ildə Vedi rayon Hərbi İnqilab Komitəsinin ilk sədri vəzifəsinə təyin olunur. Azərb.K(b)P MK yanında Kənd Təsərrüfatı Məktəbinin rektoru olmuşdur. 1938-ci ildə repressiya qurbanı olmuşdur.

Beləliklə, biz, digər Azərbaycan ziyalılarımız kimi Rəşid bəy İsmayılovun, Həmid bəy Şahtaxtinskinin, Həbib bəy Səlimovun, Mirzə Məhəmmədzadənin, Fərəməz Mahmudbəyovun, Saleh Güllücinskinin pedaqoji və vətənpərvərlik irsini araşdırmaqla pedaqoji təhsil tariximizin zənginliyinin bir daha şahidi oluruq.

## Ədəbiyyat


1. Cəfərov C. Allahverdiyev C. Təhsil tariximizdən: İrəvan pedaqoji məktəbi. - Bakı: "Orxan NPM", - 2017, - səh 464
2. Məhərrəmov Z. İrəvanda məktəbdarlıq və maarifçilik (1800-1920-ci illərdə ədəbi-mədəni mühit), Bakı, "Nurlan", 2010, - 320 səh.
3. Rəhimoğlu M. Fədakar ictimai-siyasi xadim Fərəməz Mahmudbəyov haqqında qeydlər. URL:https://525.az/news/59524-fedakar-ictimai-siyasi-xadim-feremez-mahmudbeyov-haqqinda-qeydler
4. Rüstəmov F. İrəvan Müəllimlər Seminariyası pedaqoji fikir salnaməmizə yaddaqalan səhifələr yazıb. URL: https://muallim.edu.az/news.php?id=19020&lang=
5. Səfərov R. Qori və İrəvan müəllimlər seminariyalarının milli təhsil tariximizdəki yeri və rolu haqqında. URL: http://milliarxiv.gov.az/en/qori-ve-i-revan-muellimler-seminariyalarinin-milli-tehsil-tariximizdeki-yeri-ve-rolu-haqqinda


# İRƏVAN PEDAQOJİ MÜHİTİNDƏ MƏKTƏBLƏR, TƏDRİS MÜƏSSİSƏLƏRİ VƏ MƏZUNLAR


***Gülmira Sahib qızı Hacıyeva***
***Naxçivan Müəllimlər İnstitutunun Pedaqogika və psixologiya kafedrasının baş müəllimi, Pedaqogika üzrə fəlsəfə doktoru***


İrəvan və onun ətraf əraziləri tarixən qədim Azərbaycan yurdu, qədim Azərbyacan torpaqlarıdır. Soydaşlarımız uzun əsrlər, illər boyu bu torpaqlarda yaşamış, işləmiş, yazıb yaratmış, təhsil ocaqları açmış, zəngin mədəni irs yaratmışlar.Məşhur səyyah İ.İ.Şopenin hesablamalarına görə XIX əsrin əvvəllərində təkcə İrəvan şəhərində 2400 azərbaycanlı ailə, 12 min nəfər azərbaycanlı yaşayırdı. Şəhər ruslar tərəfindən alınandan sonra əhalinin bir qisminin İrana köçməsinə baxmayaraq, yenə də azərbaycanlılar şəhər

əhalisinin böyük əksəriyyətini təşkil edirdi. 1829-cu ilin məlumatına görə, təkcə İrəvan şəhərində əhalinin beşdə dördünü və ya 80 faizini azərbaycanlılar təşkil edirdi.

XIX əsrin əvvəllərindən başlayaraq 1920-ci ilə qədər İrəvan sürətlə inkişaf etmiş və bölgədə böyük mədəniyyət mərkəzlərindən biri olmuşdur. İrəvan şəhəri Bakı, Təbriz, Naxçıvan, Xoy və başqa şəhərlər kimi Azərbaycanın aparıcı elm və mədəniyyət mərkəzi olmuşdur. Buna görə də Şərq maarif və mədəniyyət tarixində çox sayda "İrəvani" təxəllüsü ilə məşhur alim və yazıçılara, şairlərə, incəsənət adamlarına rast gəlmək olur. Məsələn, Mirzə Qədim İrəvani – XIX əsrdə yaşamış böyük rəssam olmuşdur. Axund Fazil İrəvani – XIX əsrdə yaşamış məşhur görkəmli alim, filosof, ictimai və siyasi xadim olmuşdur. 1817-ci ildə anadan olmuş və ilk təhsilini İrəvanda, mədrəsədə aldıqdan sonra 20 yaşında ikən ali dini təhsil almaq üçün Misirdə dünyada məşhir olan "Əl-Əzhər" Unversitetində təhsil almışdır. Axund Məhəmmədbağır İrəvani Qazizadə - Azərbaycanda elmin, mədəniyyətin, təhsilin, dövlət quruculuğunun inkişafında böyük xidmətlər göstərmişdir. Axund Molla Məhəmmədbağır 1829-cu ildə İrəvan şəhərində doğulmuş, ilk dini təhsilini atasından almış, sonra İrəvanda mədrəsədə oxumuş, dah sonra ali ruhani təhsili almaq üçün qədim mədəniyyət mərkəzlərindən olan Nəcəf şəhərinə gedərək təhsilini orada davam etdirmişdir.Hacı Süleyman Qacar İrəvani XIX əsr görкəmli Azərbaycan həkimi və alimidir. Onun fars dilində yazdığı "Fəvaidül-hiкmət" ("Hiкmətin faydası") əsəri nəinki Azərbaycanda, eləcə də Orta Asiyada və İranda böyüк şöhrət qazanmışdı. Bu kitab orta əsr əczaçılıq ensiklopediyasıdır və minlərcə dərman bitkisinin, heyvan və mineralın müalicəvi keyfiyyətlərindən bəhs edir.

XIX əsrin birinci yarısında Tiflisdə və Bakıda rus məktəbi açıldı. İrəvanda Azərbaycan türklərinin sayca çox olduğunu nəzərə alaraq, dörd ildən sonra bu məktəbdə - İrəvan qəza məktəbində azərbaycanlı şöbəsi yaradılmışdır. Sonralar Azərbaycanda üsulicədid məktəbləri – dünyəvi məktəblər açıldığı kimi, İrəvanda da

bu tipli məktəblər açıldı. Bu illərdə Tiflisdə Gimnaziya, İrəvanda (14 may, 1832 –ci il), Bakıda, Şuşada, Şamaxıda, Naxçıvanda qəza məktəbləri açıldı. 1882-ci ildə İrəvanda rus-tatar məktəbləri açıldı. Bu illərdən başlayaraq dünyəvi biliklər verən məktəblər genişləndi və həmin məktəblərdə Azərbaycan dili tədris olunmağa başladı. XIX əsrin ortalarından başlayaraq, İrəvanda azərbaycanlılar üçün xüsusi məktəblər açıldı ki, burada Məhəmməd Tağı Mahmud oğlu, Mirzə Ələkbər Elxanov kimi təcrübəli müəllimlər dərs deyiridi.

İrəvanda "Rus-Azərbaycan" qız məktəbləri də açıldı ki, bu məktəblər əhalinin rəğbətini qazanmışdı. Məktəbin müdiri Haşım bəy Nərimanbəyov, İrəvan gimnaziyasının müəllimlərindən İsmayıl bəy Şəfibəyov, İrəvan Müəllimlər Seminariyasının Azərbaycan dili müəllimi Rəhim Xəlilov, Mirzə Məmmədvəli Qəmərlinski, Axund Məmmədbağır Tağızadə və başqaları bu məktəblərdə dərs deyirdilər. İrəvanda yeni üsullu ana dili məktəbinin yaradıcısı isə Məşədi Molla İsmayıl Hacı Kazımov idi. Onun qabaqcıl təcrübəsi hətta Cənubi Azərbaycanda da yayılmışdı. Bu məktəbdə N.Nərimanbəyov, A.Nabatalibəyov, F.Köçərli, C.Məmmədquluzadə, M. Əliyev, T.Sultanova, M.V.Qəmərlinski, M. Qazıyev və başqaları dərs demiş və onlar bu bölgənin ilk müəllimləri olmuşlar.

1881-ci ildə İrəvan şəhərində İrəvan Müəllimlər Seminariyası açılmışdır. 37 il fəaliyyət göstərən bu təhsil ocağı 1918-ci ilin 6 avqustunda Uluxanlı məktəbi ilə eyni vaxtda bağlanmışdır. Bu seminriyanın ilk açılış zamanı 69 şagirdi olmuşdur. İlk direktoru Stepan Suşevskiy olmuşdur. Q.Qənbərov hüquq fənnindən, Mixail Klopov rus dili fənnindən, Məmmədbağır Qazızadə Azərbaycan dili və ədəbiyyat fənnindən dərs demişlər. Seminariyanın 1885-ci ildə ilk buraxılışı olmuşdur. Məzunlar içərisində 25 nəfər azərbaycanlı var idi ki, bu məzunlar İrəvan qəza məktəblərində, Naxçıvanda, Uluxanlıda dərs demişlər. Seminriyanın ikinci buraxılışı beş ildən sonra -1890-cı ildə olmuşdur. Bu buraxılışda isə 69 nəfər yüksək ixtisaslı, hazırlqlı azərbaycanlı pedaqoji kadr olmuşdur. İrəvan Müəllimlər Seminariyasının məzunları içərisində

içərisində Naxçıvandan getmiş xeyli məzun olmuşdur ki, onlardan Həmid bəy Şahtaxtinskinin, İbrahim Şahtaxtlının, Tağı bəy Səfiyevin, İbrahim Səfinin, Mirzə Bağır Əliyevin və başqalarını göstərə bilərik. Onların Naxçıvanda maarif və mədəniyyətini inkişafnıda, təhsilin yüksəlişində böyük xidmətlər göstərmişlər.

**Ədəbiyyat**


1. Cəfərov C., Allahverdiyev C. İrəvanda milli maarifçilik mühiti. Bakı: Şərq-Qərb 2017, 440 s.
2. Cəfərov C., Allahverdiyev C.İrəvanda ictimai-siyasi və mədəni mühit. Bakı: ADPU, 2018, 242 s.
3. Hüseynzadə R.L. Azərbaycan məktəb və pedaqoji fikir tarixi. Bakı: ADPU, 2020,538 s.


## QORİ VƏ İRƏVAN MÜƏLLİMLƏR SEMİNARİYASININ MÜƏLLİMİ FİRUDİN BƏY KÖÇƏRLİNİN QAZAX MÜƏLLİMLƏR SEMİNARİYASININ TƏŞKİLİNDƏ VƏ İNKİŞAFINDA ROLU


***Nuridə Rafiq qızı Quliyeva***
***BDU, Qazax filialı pedaqoji fənlər kafedrasının***
***baş müəllimi, BDU-nun dissertantı***


Qazax Müəllimlər Seminariyasının təşklində və inkişafında və təkimilləşməsində Qori Müəllimlər Seminariyasının məzunlarının bir çoxunun o cümlədən Firudin bəy Köçərlinin böyük əməyi və xidmətləri olmuşdur.

Öncə qeyd edək ki, 1881-ci ildən fəaliyyətə başalayan İrəvan Müəllimlər Seminariyasının elə ilk açılışı vaxtlarından Qori Müəllimlər Seminariyasının məzunlarından orada pedaqoji fəaliyyətə başlamışlar ki, bu da Seminariyanın fəaliyyətini daha da təkmilllləşdirmiş və işinin məzmununu daha da zənginləşdirmişdir. Belə ki, Qori Müəllimlər Seminariyasından məzunu olan Firudin bəy Köçərli İrəvan Müəllimlər Seminariyasının ilk müəllim-

lərindən olaraq təyinatla müəllim olaraq ora göndərilmişdir.

Azərbaycan Respublikaının Prezidenti cənab İlham Əliyevin 29 dekabr 2021–ci il tarixində "İrəvan Müəllimlər Seminariyasının 140 illiyinin qeyd edilməsi haqqında" 3094 nömrəli verdiyi sərəncamda deyilir: "*1881-ci ilin noyabr ayında fəaliyyətə başlayan İrəvan Müəllimlər Seminariyası çar hakimiyyətinin bölgədəki maraqları naminə yaradılmasına baxmayaraq, 40 ilə yaxın müddətdə hazırladığı müasir dünyagörüşünə və düşüncə tərzinə malik yüksəkixtisaslı milli müəllim kadrları ilə azərbaycanlıların üstünlük təşkil etdiyi İrəvan mahalında ədəbi-ictimai, elmi-mədəni həyatın ənənəvi dolğunluğunun və canlılığının qorunub saxlanılmasında təqdirəlayiq xidmətlər göstərmiş, pedaqoji fikir salnaməmizə yaddaqalan səhifələr yazmışdır. Görkəmli maarifpərvər Firidun bəy Köçərli seminariyanın ilk müəllimlərindən olmuş, geniş mədəni-maarif işləri aparmışdır. Seminariyanın məzunları sırasında xalqımızın bir çox tanınmış şəxsiyyətləri və dövrünün görkəmli ziyalıları vardır"(1).*

İrəvan Müəllimlər Seminariyasında Firudin Bəy Köçərli 10 il dərs demiş, mədəni-maarif işləri aparmış və yenidən məzun olduğu Qori Müəllimlər Seminariyasına qayıtmış, orada Azırbaycan şöbəsinin rəhbəri vəzifəsində çalışmışdır.

F.Köçərlini düşündürən mühüm məsələlərdən biri seminariyanın Azərbaycan şöbəsinin Qoridən köçürülməsi olmuşdur. Firudin bəy Bakıda olarkən "Nəşri-maarif" cəmiyyətinin iclasında nitq söyləəyərək ziyalılara müraciətlə seminariyanın Azərbaycan şöbəsində vəziyyətin ağır olduğunu söyləmiş və bölgələrimizdən birinə köçürülməsini təklif etmişdi. Lakin nə rus çarlığı, nə də gürcü knyazlığı buna icazə vermirdi. Onun qərarı isə qəti idi: "Necə olursa-olsun, seminariyanı Azərbaycana gətirməliyik ki, oxuyanların sayı çoxalsın, ailələrin "Qori uzaqdır, mən uşağımı ora göndərmərəm" bəhanəsi də kəsilsin".

Beləliklə, 1918-ci ilin yayında rus çarının yıxılmasından və gürcü knyazlarının başlarının hökumət qurmağa qarışmasından istifadə edən böyük ziyalı F.Köçərli seminariyanı Qazaxa köçürməsi

üçün əlverişli imkana sahib olur.

Azərbaycan Xalq Cümhuriyyəti hökuməti Qori şəhərində seminariyanın Azərbaycan şöbəsinin əmlakını yığıb Azərbaycana gətirmək barədə bu şöbənin sonuncu inspektoru Firidun bəy Köçərliyə göstəriş və səlahiyyət verdi. Firidun bəy Köçərli seminariyanı 1918-ci ilin 1 sentyabrında çox çətinliklərlə, böyük maneələrlə Qazaxa köçürə bildi. Bu Seminariyanın ilk direktoru kimi də özü fəaliyyətə başladı. Məşədi İbrahim ağa Kosalı özünün böyük bir mülkünü təmənnasız olaraq tədris binası kimi seminariyaya hədiyyə etdi. Köçərli Qazax seminariyasında təkcə dərs demək, yaxud bir müdir kimi seminariaynın işini təşkil etməklə fəaliyyətini məhdudlaşdırmadı, yaşının 60 olmasına baxmayaraq, yenə də həvəslə çalışdı, özfəaliyyət dərnəkləri təşkil etdi, yaşlılar üçün savad kursları açdı, kitabxanalar təşkil etdi və Qazaxda ilk uşaq evinin yaradılmasının da təşəbbüskarı oldu.

Qori Müəllimlər Seminariyasının məzunlarından olan Əhməd ağa Mustafayev, Əhməd Seyidov, Haley bəy Şıxlınski, Süleyman Qayıbov, Yusif Əfəndiyev, Əhməd ağa Gülməmmədov, Alyoşa Mustafayev, Osman Şıxlinski, Səlim Əfəndiyev, Yusif Qasımov, Əli Hüseynov, İbrahim Qayıbov və bir çox başqaları Qazax Seminariyasında pedaqoji fəaliyyətə cəlb olunmuşdular. Bunlarla bərabər həmçinin görkəmli pedaqoq müəllimlər, tanınmış ziyalılar, şairlər pedaqoji fəaliyyət göstərmək üçün Qazax Müəllimlər Seminariyasına dəvət olunmuşdular ki, bunlardan Səməd Vurğun, Osman Sarıvəlli, Möhsün Poladov, Hacıbala Hacıyev, Əhməd Əhmədov, Osman Cəfərov, Əhməd Qaravəliyev, Yusif Yusifov, Zülfüqar Qayıbov, Alı Aliyev, Hüseyn Çəndirli, İsmayıl Şıxlı, Əli Zeynalov və başqalarını göstərmək olar ki onlar fədakarlıqla Azərbaycanlı pedaqoji kadrların hazırlanmasında görkəmli xidmətlər göstərmişlər. Qazax Müəllimlər Seminariyasının Səməd Vurğun, Osman Sarıvəlli, İsmayıl Şıxlı, Mehdi Hüseyn, Əli Zeynalov kimi görkəmli məzunları da olmuşdur.

Qazax Müəllimlər Seminariyası 1918-ci il noyabrın 10-da müstəqil seminariya kimi fəaliyyətə başlamışdır.

## Ədəbiyyat

1. Əliyev İ.H. "İrəvan Müəllimlər Seminariyasının 140 illiyinin qeyd edilməsi haqqında" 29 dekabr 2021–ci il tarixli, 3094 nömrəli sərəncam/ Xalq qəzeti, 30 dekabr, 2021 – ci il.
2. Cəfərov C., Allahverdiyev C. İrəvanda milli maarifçilik mühiti. Bakı: Şərq-Qərb, 2017.

# РОЛЬ ИРЕВАНСКОЙ УЧИТЕЛЬСКОЙ СЕМИНАРИИ В ПОДГОТОВКЕ АЗЕРБАЙДЖАНСКИХ УЧИТЕЛЬСКИХ КАДРОВ

***Сабина Рафик кызы Гаджиева***
***АГПУ, старший преподаватель кафедры «Обшей педагогики», доктор философии по педагогике***
***hajievasabina@gmail.com***

История каждого народа опирается на его прошлое. Иреванская учительская семинария, является истинным образцом национального и духовного наследия, созданного азербайджанскими тюрками в историческом Иреванском районе на протяжении тысячелетий, является ценным культурно-просветительским наследием иреванской интеллигенции. В этой связи большое политическое, идеологическое, культурно-духовное, научно-педагогическое значение имеет Распоряжение Президента о праздновании 140 летия этой семинарии.

Семинария располагается на северном и южном торговом узле территории Западного Азербайджана.

Иреванское ханство было одним из ведущих центров науки и образования мусульманского национального просвещения. Здесь в мечетях и медресе обучали учеников шариату, чтению и письму. Надо отметить, что многие представители иреванской интеллектуальной элиты выросли в мед-

ресе, бывших в то время учебными заведениями. Достаточно упомянуть имя выдающегося врача и учёного Гаджи Сулейман ибн Салмана Гаджара Иревани, жившего в XVIII веке.

После оккупации Иреванского ханства Россией в 1828 году на землях древнего Азербайджана была создана «Армянская область», что прослужило причиной последовавших за этим трагических событий нашей истории.

Таким образом, большое значение приобретает организация в Иреване, занимающем важное геополитическое положение в треугольнике Иран, Турция и Россия, образовательных учреждений, служащих интересам России, оно имело особое значение и для формирования азербайджанской интеллигенции в Иреване, не забывающих о своей национальной идентичности.

Создание новой школьной системы в Иреване относится к 30-м годам XIX века. В целях осуществления политики русификации и христианизации местных народов царское правительство в 1829 году приняло первый Устав закавказских школ, который предусматривал открытие уездных школ в национальных окраинах. Согласно этому уставу, на Южном Кавказе планировалось открыть 20 уездных школ. В 1832 году в Иреване была основана первая светская двухклассная казённая школа. В 1839 году она была преобразована в трёхклассную казённую школу, а в 1869 году она была переформирована в четырёхклассную прогимназию. 20 октября 1880 года Государственный Совет России принял постановление «Об организации учительских семинарий в Кутаисской и Иреванской губерниях» и уже **8 ноября 1881 года начала свою работу Иреванская учительская семинария с 9 учителями и 42 учениками.**

По первому положению Учительской семинарии, в учебное заведение такого типа могли приниматься православные юноши старше 16 лет. Принятая «Инструкция об учительских семинариях» в 1875 г. разрешала мусульманам учиться

в семинариях наравне с православными. Обучение длилось три года. При семинарии действовали подготовительный класс и начальная школа. Здесь же студенты проходили преподавательскую практику. При семинарии действовал пансион. Наряду с азербайджанцами, здесь учились дети армянской, грузинской, русской и других национальностей.

Первым педагогом азербайджанцем преподававшим в Иреванской учительской семинарии был выдающийся азербайджанский просветитель и педагог ахунд Мамедбагир Газизаде. Со дня открытия семинарии и до 1897 года, он преподавал здесь теологию и азербайджанский язык. В разное время в семинарии преподавали шариат или азербайджанский язык следующие педагоги: Мирза Мамедвели Гамерли, Рашид бек Шахтахтинский, Гамид бек Шахтахтинский, Джафар бек Джафарбеков, Мамед Ахундов, Мирза Джаббар Мухаммедзаде.

Преподавание азербайджанского языка и шариата в Иреванской учительской семинарии было необходимо, так как большинство проживающего здесь населения составляли тюрки-мусульмане азербайджанские. После окончания семинарии, получившая педагогическое образование азербайджанская молодёжь начинала педагогическую деятельность в начальных школах в азербайджанских сёлах. В семинарии использовалось «Программа азербайджанского языка», написанная известным азербайджанским педагогом Ф.Б.Кечарли, который работал в то время преподавателем в Иреванской гимназии. В первое время в начальной школе при семинарии и в гимназии использовались материалы подготовленные самими учителями, в том числе и рукопись учебника М. Эльханова

«Ветен дили».

В семинарии учеников обучали русскому языку, математике, теологии, истории, географии, физике, естественным наукам, пению, каллиграфии, живописи и черчению. Изучив

русский язык, русские традиции, историю и географию, азербайджанские дети могли продолжить обучение вместе с детьми христиан.

Детей не владеющих русским языком, принимали в младшие подготовительные классы. Поступление учеников из азербайджанских семей в младшие подготовительные классы и 5 лет обучения в семинарии не считались обязательным. При комплектовании классов учитывался уровень подготовки учащихся. Учащиеся, владеющие русским языком, имеющие определенный уровень подготовки, принимались в старшие подготовительные классы или в первый класс.

Иреванская уездная школа, гимназия и наконец учительская семинария, помимо подготовки национальных кадров, занимались также культурно-просветительской деятельностью во всех регионах страны. Выпускники семинарии стали инициаторами создания первых учебников на родном языке, публиковали статьи на русском и азербайджанском языках, занимались литературой деятельностью.

Являясь представителями интеллигенции Западного Азербайджана, выпускники семинарии стали во главе общественно-педагогического движения в Азербайджане. В конце XIX века большинство учителей и директоров сельских школ Южного Кавказа были выпускниками этого образовательного учреждения. Среди них: Джалил Мирзоев, Таги бек Сафиев, Мамед бек Газиев, Ибидулла бек Муганлинский, Джаббар Мамедов, Шамдан Махмудбеков и др.

В различные годы семинарию возглавляли Якоб Сушевский, Иван Пасютевич, Михаил Миропиев и Валентин Дубровин. За время существования семинарии здесь получили образование около 300 азербайджанцев, а в школах нового образуя Иревана – около 500 азербайджанцев. По окончанию семинарии выпускники были обязаны работать в сельских школах по распределению.

Например, после окончания в 1887 году Горийской семи-

нарии Джалил Мамедгулузаде был назначен учителем школы Улуханлы при Иреван – Елизаветпольской дирекции народных училищ. Он встретился здесь с ведущими представителями азербайджанской интеллигенции, преподавателями и студентами Ireванской семинарии с которыми он часто говорил о журнале «Молла Насреддин». В дальнейшем они сыграли важную роль в учреждении журнале «Молла Насреддин» в Иреване.

В 1915 году Иреванская учительская семинария перебралась в Армавир, где функционировала до 1918 года. В 1918 году из-за этнических чисток, совершенных армянами против азербайджанцев, семинария прекратила свою деятельность, часть преподавателей и студентов была жестоко убита, а оставшиеся в живых нашли убежище в Турции и Азербайджане.

После прихода к власти в Армении большевиков в ноябре 1920 г. работа Иреванской учительской семинарии не была возобновлена, а во время репрессий 1937 г. бывшие преподаватели и выпускники семинарии подверглись «красному террору».

Задача и цель нынешних поколений стать хозяевами исторического наследия созданного нашим народом на исконных землях азербайджанских тюрков в Западном Азербайджане. После блистательной 44 – дневной войны Азербайджан создал в регионе новые реалии и наметил новые стратегические цели. В своём выступлении на VI съезде партии «Ени Азербайджан» Президент Ильхам Алиев сказал: «… мы не должны забывать и не забываем наши исторические земли. Это должно стать ориентиром для нашей дальнейшей деятельности, так же, как мы и сегодня работаем в данном направлении. Наши исторические земли – Иреванское ханство, Зангезур, Гейча. Об этом должно знать и молодое поколение, и весь мир.»

## Литература


1. Агаев А.А., Гошимов А.Ш., Антология педагогической мысли Азербайджанской ССР. – Москва: Изд-во «Педагогика», 2009 г. издание 2.
2. Касумова Ф.С. История Азербайджана XIX века; Издательство АТУ, Баку, 1986
3. Некоторые данные об учебных заведениях в Закавказье конец XIX начало XX веков. Вестник общественных наук М., 1998 год.


## MƏHƏMMƏD AĞA ŞAHTAXTLININ ELMİ-PEDAQOJİ FƏALİYYƏTİNDƏ İRƏVAN MÜƏLLİMLƏR SEMİNARIYASININ MÜHÜM ROLU


***Fəridə Tofiq qızı Xudiyeva***
***ADPU, Ümumi pedaqogika kafedrası, p.ü.f.d.***
***nubar2017@list.ru***


Azərbaycanın görkəmli ziyalıları M.Ş.Vazeh, A.Bakıxanov, M.F.Axundov, M.Şahtaxtlı, C.Məmmədquluzadə, F.Ağazadə və başqaları, Azərbaycan dilinin tədrisini yaxşılaşdırmaq üçün əllərindən gələni əsirgəməmişlər. Mövcud boşluğun aradan qaldırılması üçün ciddi fəaliyyətə keçmişlər. Azərbaycanda ilk əlifba dərsliyini 1839-cu ildə M.F. Axundov yazmışdır. Lakin bunları çap eləmək mümkün olmamışdır. Çünki tərtib edilən dərsliklərə Peterburq icazə verməli idi. Artıq mühitdə başlayan yeniləşmə tendensiyası müəyyən işlərin, ciddi islahatların aparılmasını gərəkli hadisə kimi qarşıya qoymuşdu. A.Bakıxanovun "Fars dilinin qrammatikası" (1831), Mirzə Kazımbəyin "Rus-türk-Azərbaycan dillərinin müqayisəli qrammatikası" (1837), M.Ş.Vazehin İ.Qriqoryevlə birgə hazırladığı iki hissəli "Müntəxəbat" dərslik müstəvisində atılan ilk addımlar idi. Zaqafqaziya məktəblərinin ilk nizamnaməsinin təsdiqindən sonra (2 avqust 1829) Avropa tipli məktəblərin yaranması prosesi başladı. Şuşada, Şəkidə, Bakıda,

Gəncədə, Şamaxıda, Naxçıvanda yeni tipli məktəblərin yaranması və bu işlərin çoxalan istiqamətdə getməsi təhsildə yeniləşmələri zərurətə çevirmişdi. "Anadilli məktəblərin yaradılmasında Azərbaycan ziyalıları böyük əziyyətə qatlaşmalı oldular. S.Ə.Şirvaninin Şamaxıda, S.Vəlibəyovun, daha sonra isə Mir Möhsün Nəvvabın Şuşada, M.T.Sidqinin Ordubadda ("Əxtər") və Naxçıvanda ("Məktəbi tərbiyə"), Məşədi Molla İsmayıl Kazımovun İrəvanda açdıqları ana dili məktəbləri pedaqoji həyatdakı gedişatın növbəti və həm də çox əhəmiyyətli nailiyyəti idi.

*"Dünyəvi məktəblərin yaranması ilə orta əsrlərin uzunömürlü tərbiyə və təhsil sisteminin, pedaqoji prosesin kristal ənənəsinin sınması, yeni dövrün diktə etdiyi məktəb və maarif qaydalarının tətbiq edilməsi xalqın həyatında böyük tarixi-mədəni hadisə hesab oluna bilərdi. Yeni quruluşda, yeni tipdə - Avropa tipində məktəblərin açılan qapıları Azərbaycanın öz pedaqoji keçmişi ilə vidalaşmasının start başlanğıcını şərtləndirirdi. Xalqın pedaqoji həyatında baş verən dəyişikliyin ən əhəmiyyətli cəhəti də bunda idi"* [4, s. 18]. Əlbəttə bu təlimin məzmununda, mündəricə və mahiyyətində köklü dəyişiklərin getməsini zəruri edirdi. Ona görə də baş verən proses mahiyyətə yönəlikli olduğu üçün ziyalıların yeni tipli məktəblərin ehtiyacını ödəyəcək dərslik, dərs vəsaiti, təlim üsullarını işləməsinə köklü zərurət yaranırdı. Artıq Azərbaycan məktəbi özlüyündə yeni sferaya daxil olmuşdu. M.Şahtaxtlı və bu sıradan olan ziyalılar təkcə təlimin ümumi mexanizmini işləməklə kifayətlənmir, həm də yeni prinsiplərini müəyynləşdirməli, uşaqlar üçün bədii mətn nümunələrinin yazılması çağırışını etməli idilər. S.M.Qənizadənin, R.Əfəndiyevin, H.Qaradağinin, H.Zərdabinin, Y.Əfəndizadənin, Əlisəttar İbrahimovun, Əlabbas Müznibin, Hacı Mirağa Mirmöhsünzadə Nasehin, Camo bəy Aciz Şirvaninin, Əli Nəzminin, Məhəmmədağa Sidqinin, Rza Sabitin, İsmayıl Həqqinin, Səməd Mənsurun, Abbas ağa Nazir Qayıbzadənin, Abdulla bəy Əfəndizadənin, Əlisgəndər Cəfərzadənin, Məhəmməd Qarayevin, Şəfiqə Əfəndizadənin, Qafur Rəşad Mirzəzadənin və s. ədiblərin gördükləri işlər yaranmış boşluğu doldurma-

ğa hesablanmışdı. H.Zərdabinin "balalarımızın başa düşəcəyi əsərlər yazmaq" çağırışı özlüyündə mədəni hərəkata çevrilmişdi.

Burada islam dininin tərbiyəvi təsirə malik olduğu əz əksini tapmışdır. Belə ki, kitabın sonunda dərs bitdikdən sonra, yeməkdən qabaq və yeməkdən sonra oxunan duaların mətni verilmişdir [6,s. 238]. Bu mətnlərasan və düzgün oxumaq üçün hərəkətlərlə işarələnmişdir. Kitabın müəllifi XIX əsrin 80-ci illərində Qafqaza gəlmiş, mütərəqqi təlim-tərbiyə üsullarını öyrənərək 1883-cü ildə İrəvanda, 1887-ci ildə Təbriz və Tehranda yeni üsullu məktəblər açmışdır. Azərbaycanda yaranan yeni üsullu məktəblərdə də ərəb əlifbası tədris olunmuşdur və bu əlifbanın təlim işini çətinləşdirdiyini müəllimlər görürdülər. Əlifbanın islahı və yeniləşdirilməsinin tarixi M.F. Axundovla bağlıdır. Həyatının çox hissəsini bu problemə həsr eləmiş böyük demokrat və ondan sonra bu işlə məşğul olanların heç biri öz yazdıqları əlifbanı nəşr etdirməyi bacarmadıqlarından xalq arasında yayıla bilməmiş və həyata keçməmişdir. Görkəmli marifçi A.Bakıxanov kitab çatışmazlığı, təlimin davamlılığının olmaması, mədəni səviyyənin aşağılığı, şagirdlərə təhsil verməyin gərəkliyindən danışarkən xüsusi olaraq vurğulayır ki, *"mən nə qədər axtardımsa uşaqların təlimi üçün elə bir kitab tapa bilmədim ki, o asan və anlaşılan bir dil ilə onların əxlaq gözəlliyinə dəlalət etsin. Bəzi işlənməkdə olan kitablar o qədər qarışıq-dolaşıq ibarələrlə yazılmışdır ki, müəllimlərin oxu özləri onları dərk edə bilmirlər. Bəzi kitablar isə o qədər uzun və pərakəndədir ki, onları anlamaq çox ətindir. Bu kitablarda "uşaqlıqda öyrənilən elm daşa qazılmış şəkil kimidir" zərbül-məsəlinin məzmunundan qəflət olunur. Uşaq yaşlarında hər zamandan daha artıq əxlaq gözəlliklərini onlara öyrətmək lazımdır. Pis xasiyyətlər təkrar olunduğu zaman adətə çevrilib uşaq təbiətinə daxil olduqdan sonra, onlara elm və ədəb öyrətmək müşkül olar.*

*Beləliklə, hicrətin 1252-ci il keçən bir zamanda (1836- F.X..) "Nəsayeh" adlı aydın və sadə anlaşılan müxtəsər bir kitab yazdım... ümid edirəm ki, bu əsər uşaqlara faydalı olub, onların tərbiyəsinə daha artıq təsir etsin"*[5,s.68]. Göründüyü kimi, təhsildə

başlayan mədəni hərəkat mövcud sistemin qüsurlarını aradan qaldırmaq və yenini zərurətə çevirmişdi.

M.Şahtaxtlının əlifbanın təkmilləşdirməsi sahəsində atdığı addımlar müsəlman ölkələrində ruhanilər arasında pis qarşılanmamışdır. Özünün yazdığı kimi o, heç vaxt dini əsaslara toxunmamışdır. Qahirə, Konstantinopol, Tehran və başqa şəhərlərdə çıxan müsəlman qəzetləri həmişə öz səhifələrində yazının təkmilləşdirilməsi barədə mübahisələrə yer vermişlər. Bu fikirlərdə ərəb şriftlərini əvəz edən başqa bir yazı növünün icrası arzusu, latın və ya bir başqa əlifbanı tətbiq etmək fikri öz əksini tapmışdır. Ruhani üləmalar özləri mübahisələrdə iştirak edir və göstərirdilər ki, şərtə görə hər bir müsəlmanın nəinki öz dilində yazıb oxumağa haqqı var, həm də Quran və başqa müqəddəs kitabları da istədiyi əlifbada oxuya bilər. İranın məşhur din xadimi Mirzə Şirazi (bu alim Nəsrəddin şahın 1892-ci ildə ingilislərə verdiyi tənbəki ileti yazının ləğv olunmasında mühüm rol oynamışdır) irəvanlı bir mötəbər şəxsin ondan soruşduğu – *“şəriətinə görə Quranı yenidən ixtira edilmiş və yaxud başqa dinə mənsub olan xalqlardan götürülmüş əlifba ilə yazmaq olar?”* – sualına cavab vermişdi ki, əlifbalar insan əlinin məhsuludur. Bütpərəstlər belə şeylərdə bir müqəddəslik görürlər və yaxud onları toxunulmaz hesab edirlər. Əgər bizim indiki əlifbamızı yenidən ixtira edilmiş və yaxud başqa dinə mənsub olanların əlifbası ilə əvəz etməklə Quranın oxunması asanlaşarsa, belə hərəkətə şəriət nəinki izin verər, hətta bunu savab hesab edər.

M.Şahtaxtlının əlifbanın təkmilləşdirməsi sahəsində atdığı addımlar müsəlman ölkələrində ruhanilər arasında pis qarşılanmamışdır. Özünün yazdığı kimi o, heç vaxt dini əsaslara toxunmamışdır. Qahirə, Konstantinopol, Tehran və başqa şəhərlərdə çıxan müsəlman qəzetləri həmişə öz səhifələrində yazının təkmilləşdirilməsi barədə mübahisələrə yer vermişlər. Bu fikirlərdə ərəb şriftlərini əvəz edən başqa bir yazı növünün icrası arzusu, latın və ya bir başqa əlifbanı tətbiq etmək fikri öz əksini tapmışdır. Ruhani üləmalar özləri mübahisələrdə iştirak edir və göstərirdilər ki,

şərtə görə hər bir müsəlmanın nəinki öz dilində yazıb oxumağa haqqı var, həm də Quran və başqa müqəddəs kitabları da istədiyi əlifbada oxuya bilər. İranın məşhur din xadimi Mirzə Şirazi (bu alim Nəsrəddin şahın 1892-ci ildə ingilislərə verdiyi tənbəki ileti yazının ləğv olunmasında mühüm rol oynamışdır) irəvanlı bir mötəbər şəxsin ondan soruşduğu – *"şəriətinə görə Quranı yenidən ixtira edilmiş və yaxud başqa dinə mənsub olan xalqlardan götürülmüş əlifba ilə yazmaq olar?"* – sualına cavab vermişdi ki, əlifbalar insan əlinin məhsuludur. Bütpərəstlər belə şeylərdə bir müqəddəslik görürlər və yaxud onları toxunulmaz hesab edirlər. Əgər bizim indiki əlifbamızı yenidən ixtira edilmiş və yaxud başqa dinə mənsub olanların əlifbası ilə əvəz etməklə Quranın oxunması asanlaşarsa, belə hərəkətə şəriət nəinki izin verər, hətta bunu savab hesab edər.

Heç şübhə yoxdur ki, Avropa dillərini mükəmməl bilən, bu dillərdə elmi əsərlər yazaraq Qərb mətbuatında çap etdirən Məhəmməd ağa Şahtaxtlıhəmin məktəbdə alman və fransız dillərini tədris etmişdir. "Leyli məktəbinin yaranması ilə əlaqədar A.Abdullayev yazır: *"Azərbaycanlı gənclərin yüksək təhsil almaları sahəsində Məhəmməd ağa Şahtaxtlı fəaliyyət göstərmişdir. O, yaxın dostu və qələm yoldaşı Cəlil Məmmədquluzadə ilə birlikdə 1904-cü ildə Tiflisdə ilk dəfə olaraq bir pansiyon (Leyli) məktəbi açır və onu əvvəlinci müsəlman pansiyonu və xüsusi məktəbi" adlandırır"*[1].Qeyd etmək lazımdır ki, pansiyonun 1904-cü ildə açılması qeyri-dəqiqdir. Çünki "Şərqi-Rus" fəaliyyətini 1905-ci ilin yazında dayandırıb və Məhəmməd ağa bundan sonra pedaqoji fəaliyyətə başlamışdır. Bu deyilənlərdən belə nəticə çıxarmaq olar ki, Şahtaxtlı Tiflisi tərk etməmiş, 1907-ci ilə kimi Tiflisdə müəllimlik etmişdir. Məhəmməd ağa Şahtaxtlı 1907-ci ilin fevral ayında İrəvan quberniyasının Naxçıvan şəhərində II Dövlət dumasına üzv seçildiyi üçün "Qızlar İnstitutu"nda dərsləri buraxıb Peterburqa getməli olur və öz yerini Gəncə Ali ruhani məktəbini bitirərək Gəncə,Tiflis və Naxçıvanda müəllimlik etmiş Poladzadəyə (1873-1953) verir. Şahtaxtlının II Dövlət dumasına seçilməsi münasibətilə "Cəlil Məmmədquluzadə "Molla Nəsrəd-

din" məcmuəsində bu hadisəni güclü satira ilə vermişdir. "İrəvan seminariyası və qazinin nitqi" məqaləsində yazmışdır: *"Axırda İrəvan camaatının başçıları Məhəmməd ağa Şahtaxtinskiyə dedilər: Əgər sən Dumada padşah tərəfdarları olsan, biz səni özümüzə vəkil seçərik. Olmasan- bizə lazım deyilsən. Axırda da belə oldu"* [3, s.12].Qeyd etmək lazımdır ki, II dövlət duması 1907-ci il fevralın20-də işə başlamışdır. Dumaya Bakı şəhəri üzrə İ.Tağıyev, Bakı quberniyasından Z.Zeynalov, M.Mahmudov, Gəncə quberniyasından X.Xasməmmədov, F.Xoyski, İrəvan quberniyasından M.Şahtaxtlı seçilmişdi. 1907-ci il iyunun 7-də gecə dövlət çevriliş hazırlamaq kimi yalan ittihamla sosial-demokrat fraksiyası həbs olunmuş və Dövlət Duması buraxılmışdır.

Şahtaxtlının iştirakı ilə nəşr olunmuş dərs kitabları içərisində 3 cildlik "Ana dili" kitabını faydalı dərslik kimi xüsusi olaraq qeyd etmək lazımdır. Bu kitabdan əvvəl, hələ 1881-ci ildə Çernyayevski və Vəlibəyovun "Vətən dili", 1894-cü ildə Həsən ibn Mehdi Təbrizinin "Vətən dili" dərslikləri çap olunmuşdu. Lakin bundan əvvəl, yəni 1879-cu ildə Şahtaxtlının nəşr etdirdiyi "Təkmilləşmiş müsəlman əlifbeyi" nöqsanlı ərəb əlifbasının islah edilməsini bir problem kimi qaldırmışdı. Şərqin və Avropa mühitinin mədəniyyət sistemini bütün tərəfləri ilə mənimsəmiş ziyalının belə bir məsələni davamlı olaraq vurğulaması və həlli yolunda var qüvvəsi ilə çalışması reallığa hesablanmışdı. 1906-1907-ci illərdə Şahtaxtlının rəhbərliyi ilə yazılmış "Ana dili" üç kitabdan ibarət olub mətnlərin sadəliyi, maraqlı olması ilə fərqlənirdi. Burada mətnlər şagirdlərin yaş xüsusiyyətinə görə seçilmişdi. Bu kitablar Şahtaxtlının fəal təşkilatçısı olduğu 1906-1907-ci il I və II müəllimlər qurultaylarına təsadüf edir.

"Ana dili" kitabının birinci cildi 1906-cı ildə Tiflisdə çapdan çıxmış, müəllifləri İrəvan məktəb müəllimləri Mirzə Qəmərlinski, Nərimanbəyov, Şahtaxtinski, Rəcəbov, Tağıyevlər, Məmmədov, Şəfibəyov, Sultanov, Mirzə Ələkbər Mirzəzadə idilər. Lakin "Azərbaycan kitabı" biblioqrfik göstəricisi bu kitabın I cildinin Tiflisdə 1908-ci ildə, II cildinin 1907-ci və III cildinin 1907-ci il-

də nəşr olunduğu barədə məlumat vermişdir. Çox güman ki, "Ana dili" 1908-ci ildə təkrar çap olunmuşdur. Çünki kitabın həcmində də fərq vardır. Belə ki, 1906-cı ildə çap olunmuş şəkilli "Ana dili" 36 səhifədən, 1908-ci ildə çap olunmuş kitab isə 47 səhifədən ibarətdir. Kitabın birinci və ikinci hissələrinin mikrofilimləri M.F.Axundov adına Dövlət kitabxanasında, üçüncü hissəsi isə Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda saxlanır.

Təlim-tədris işlərini yaxşı bilən M.Şahtaxtlı rus və müsəlman məktəblərində yol verilmiş nöqsanları göstərərək yazırdı: *"... bu məktəblərin təsisindən murad o idi ki, müsəlman uşaqları öz dillərini və dinlərinin ehkamını öyrənib və mümkün olan qədər də rus dilinə aşinə olsunlar. Bu məktəblər rus dilini və rus dilində oxunan şeirləri o qədər artırmışlar ki, nə türk (Azərbaycan F.X.) dilini və nə islam dininin əqidələrini, hökmlərini öyrənməyə vaxt qalır. Məktəblər felən sərft-rus məktəbi olmuşlar. O tərəfdən də bu məktəblərdə rus dilini o qədər artıq yükləmişlər ki, şagirdlər yenə mümkün olmur ki, məktəbdən çıxandan sonra rus dilində oxuduğunu anlayıb istədiyini yaya bilsin. Nəticəsi bu olur ki, Bakının rus və müsəlman məktəblərindən çıxanlar müsəlman dilinə və türk dilinə (Azərbaycan –F.X) təmamən biganə olub, rus dilinə də fikirlərini bəyan edə biləcək qədər aşinə deyillər, yəni məktəbdən bisavad çıxırlar"* [1].

Şahtaxtlı məktəblərdə müsəlman uşaqlarının təlim-tərbiyəsinə diqqəti artırmağı tövsiyə edən məqalələr yazaraq bu sahədə olan nümunəvi işlərin səbəbkarları haqqında məlumat verməklə onların pedaqogika tarixində qalmasına səbəb olmuşdur. Belə şəxsiyyətlərdən biri Məhəmmədqulu Kəngərlidir. Kəngərli məşhur vəkil olub, Cəlil Məmmədquluzadənin həyat yoldaşı Zeynəb xanımın qardaşıdır. Kərim Sultanlı silsiləsindən olan Məhəmmədqulu Kəngərli Zaqafqaziyada müsəlmanların mədəniyyətinə xidmət edən şəxs olub, İrəvan quberniyasında müsəlman qızları üçün mükəmməl bir rus və müsəlman məktəbi təsis etmişdir. O, qız məktəbindən əlavə müsəlman uşaqlarını gimnaziyaya hazırlamaq üçün oğlan rus və müsəlman məktəbi açmışdır [2].

"Molla Nəsrədin" məcmuəsi 1907-ci ildə "İrəvan seminariyası və qazinin nitqi" məqaləsində (məqaləni Mirzə Cəlil yazmışdır – F.X.) yazırdı: *"Axırda İrəvan camaatının başçıları Məhəmməd ağa Şahtaxtinskiyə dedilər: əgər sən Dumada padşah tərəfdarı olsan, biz səni özümüzə vəkil seçərik. Olmasan- bizə lazım deyilsən. Axırda da belə oldu". Bu o vaxt idi ki, Məhəmməd ağa İrəvan quberniyasından II Dövlət dumasına deputat seçilmişdi.*

### Ədəbiyyat


1. Şahtaxtlı, M.M. Maarif əhvalımız //"Şərqi-Rus".–1904. № 23
2. Şahtaxtlı M.M. Böyük təəssüf və rizaməndi // "Şərqi-Rus" qəz., –1904. № 20
3. "Molla Nəsrəddin" jur., –1907. № 7


## İRƏVAN MUSİQİ MÜHİTİ


***Bilal Ərdoğan***
***Türkiyə, Batman şəhəri, Bəşiri ilçəsi,***
***İmam Hatib lisəsi musiqi müəllimi,***
***"Naxçıvan" Universitetinin doktorantı***


Məqaləmin hazırlanmasında Türkiyə dövlət arxivlərində saxlanılan osmanlı mənbələrinə də müraciət edilmiş və bu mənbələrdə "Osmanlı dövləti ilə Azərbaycan türk xanları arasında münasibətlərə dair arxiv bilgiləri" adı ilə iki cilddə nəşr edilmiş dəyərli sənədlərə, yazılara rast gəldim Bu arxiv sənədlərinin əhəmiyyəti onda idi ki, bu sənədlərdə İrəvan maarifçilik muhitində musiqi, icəsənət, teatr məsəllərinə də yer verilmiş, İrəvan xanəndələri, musiqişünasları haqıqnda da məlumatlar verilmişdir. Sənədlərdə habelə İrəvan xanlarının Türkiyə Osmanlı sarayı ilə yazışmaları, sultanın fərmanları, Rusiya və İran təcavüzü ilə bağlı Osmanlı paşalarının rəsmi məktubları öz əksini tapmışdı. Osmanlı sənədləri İrəvan tarixi ilə bağlı,oradakı pedaqoji, maariçilik, habelə musiqi mühitini öyrənmək baxımından çox əhəmiyyətlidir.

İncəsənət və musiqinin bir növü olan İrəvan teatrı müxtəlif mənbələrə istinadən 1882-ci ildən müəyyənləşdirilmişdir. İrəvanda çıxan “Psak” ("Çələng") qəzeti 1882-ci il 10 aprel, 7-ci sayında "Fars teatrı" adlı geniş rəy dərc edib. Məqalədə yazılır ki, kasıb tələbələrə xeyriyyə məqsədilə İrəvan türklərindən ibarət teatr həvəskarları Vasaq Mədətov Nəzminin “Tamahkarlıq düşmən qazanır” tamaşasını 1881-ci ilin ikinci yarısında birinci dəfə, 1882-ci il aprelin 2-də ikinci dəfə oynamışlar.

Teatrın ilk illərində (1880-1882) İrəvanda həvəskar aktyorlar tərəfindən tamaşalar təqdim olunurdu. 1886-cı ildə 23 yaşlı gimnaziya müəllimi Firudin bəy Köçərli İrəvanda teatr tamaşası təşkil edir. Həmin tamaşa — M.F.Axundovun “Müsyö Jordan və Dərviş Məstəli Şah” komediyasının tamaşası İrəvan əhalisinin həyatında böyük mədəni hadisəyə çevrilmişdir. F.Köçərli, 1895-ci ildə İrəvanı tərk etdikdən sonra teatra 18 yaşlı Yunis Nuri rəhbərlik etmişdir.

1896-cı ildən etibarən İrəvanda müntəzəm olaraq Azərbaycan dilində tamaşalar nümayiş etdirilmişdir. İnqilabdan əvvəlki illərdə həvəskarlar bölgədə bir çox tanınmış pyesləri səhnələşdirdilər. Erkən səhnələşdirilən pyeslər: “Dursunəli və Ballıbadı” (1893), “Qırt-Qırt” (1893), “Hacı Qara” (1894), “Evli ikən subay” (1899).

Bu pyeslər kiçik məkanlarda səhnələşdirilmiş və mətbuat tərəfindən işıqlandırılmamışdı. 1909-cu ildə böyük sənətkar Hüseyn Ərəblinski “Bəxtsiz cavan” (Ə.Haqverdiyev), “Nadir şah” (N.Nərimanov) tamaşaları ilə İrəvan teatrında çıxış etmişdir. 1912-ci ildə isə Zülfüqar Hacıbəyovun rəhbərliyi ilə İrəvan teatrında “O olmasın, bu olsun”, “Əlli yaşında cavan”, “Kərbəlayi Şükür xalça satan” əsərləri oynanılır. “Arşın mal alan”, “Məşədi İbad” kimi məşhur tamaşalar teatrın daimi repertuarında idi.

1918-ci ildə daşnakların hücumları teatrı yerindən-yurdundan elədi və dağıtdı. Lakin sovet hökuməti qurulduqdan sonra 1922-ci ildə, didərgin düşmüş bütün insanlar kimi, incəsənət insanları da geriyə döndülər. Teatrın yenidən dirçəlməsi, inkişaf etməsi üçün yerli ziyalılardan — Bala Əfəndiyev, Əkbər Rzayev, Rza Şeyxza-

də, Abbasəli Axundov, Əşrəf Yusifzadə, Yusif Ziya, Nəsib Əfəndiyev və s. kimi milli mədəniyyət təəssübkeşləri xeyli iş gördülər. Hətta Bala Əfəndiyev öz arvadı Fatma Əfəndiyevanı teatra gətirərək ilk qadın aktrisa kimi səhnəyə çıxarmışdı. Fatma xanım həmin vaxtlar İrəvan türk qadınlar klubunun ilk müdiri idi. Əkbər Rzayev də öz arvadı Firəngiz xanımı Fatma xanımla birgə səhnəyə çıxardı. Bala Əfəndiyev 1921-28-ci illərdə İrəvanda partiya işçisi kimi məsul vəzifə daşıyırdı.

1928-ci ildə teatr dövlət statusu almışdır. 1935-ci ildə teatra görkəmli dramaturq Cəfər Cabbarlının adı verilir. Dramaturqun "Aydın" pyesi həmin dövrdə teatrın səhnəsində uğurla oynanılırdı.

İrəvanda tarixən məşhur müğənnilər, xanəndələr, musiqişünaslar olmuşdur. Görköəmli musiqiqşünas, bəstəkar Səid Rüstəmov İrəvan müühtinin yetişdirməsidir. Səid Rüstəmov 1907-ci il mayın 12-də indi Ermənistan ərazisi olan tarixi türk yurdunda - İrəvanda doğulmuşdur. Səidin musiqiyə olan marağı İrəvanda ibtidai məktəbdə oxuduğu illərdə də nəzərə çarpıb. 1918-ci ildə İrəvanda baş verən erməni vəhşiliyi zamanı Səidgil qaçqın düşüb Türkiyəyə getmişlər.

Az vaxtdan sonra onlar yenidən İrəvana qayıdıblar. Türkiyədən qayıtdıqdan sonra onlar evlərini dağılmış görüb, 1919-cu ildə Gəncəyə köçmüşlər. Səidin musiqiyə marağı çox olmuşdur. Tezliklə Rüstəmovlar ailəsi Bakıya köçmüş, Səid Müəllimlər Seminariyasına daxil olmuşdur. Həmin məktəbdə musiqi dərsləri keçilirdi. Səidin musiqi istedadı müəllimlərdən birinin diqqətini cəlb edir. O, Səidi Üzeyir Hacıbəylinin yanına aparır. Bu da Səidin taleyini həll edir. S.Rüstəmov 1924-cü ildə musiqi məktəbinin xalq çalğı alətləri şöbəsinə qəbul olunmuş oranı bitirmiş və məşhur bəstəkar olmuşdur. Səid Rüstəmov 1931-ci ildən Azərbaycan radiosunun xalq çalğı alətləri orkestrinin konsertmeysteri, 1935-ci ildən isə direktoru və bədii rəhbəri olmuşdur. O, 1940-1949-cu illərdə Azərbaycan Dövlət Filarmoniyasının bədii rəhbəri və direktoru, 1943-48-ci illərdə Azərbaycan Radio Komitəsinin musiqi verilişləri redaksiyasının rəhbəri olmuşdur. S. Rüstəmov "Azər-

baycan rəqs melodiyaları", "Beş yüz Azərbaycan xalq mahnıları", "Azərbaycan aşıq mahnıları", "Azərbaycan xalq mahnıları", "Azərbaycan xalq rəngləri" kitablarında musiqi işləmələri apararaq onları nəşr etdirmişdir. 1948-1952-ci illərdə Azərbaycan bəstəkarlar ittifaqının sədri olmuş, 1928-ci ildən Bakı musiqi məktəbində, 1958-1983-cü illərdə Azərbaycan dövlət konservatoriyasında tar sinfində dərs demişdir. S. Rüstəmovun əsas əsərləri "Beşmanatlıq gəlin", "Durna" və "Rəisin arvadı" komediyaları, solo, xor və orkestr üçün "Azərbaycan" kantatası, xalq çalğı alətləri üçün "Bayatı kürd" fantaziya – kantatası, tar və orkestr üçün konsert, Azərbaycan mahnı, rəqs və xalq çalğı alətləri orkestri üçün "Günəşli Azərbaycan" musiqili dramatik kompozisiya və başqalarıdır. Dramatik səhnə əsərlərinə musiqilər yazmışdır. S. Rüstəmovun "Alagöz", "Sürəyya", "Gəlmədin", "Həkim qız" mahnıları lirik və qəlb oxşayandır. Səid Əli oğlu Rüstəmov dəfələrlə Azərbaycan Ali Sovetinə deputat seçilmiş, orden və medallarla təltif olunmuşdur. 1983-cü ildə Bakıda vəfat etmişdir.

İrəvan mühitinin yetişdirməsi olan xalq artisti Mübariz Tağıyev bildirir ki, onun atası, bababsı da İrəvanda məşhur musiqişünaslar olmuşlar. Onunla aparılan müsahibədə Mübariz Tağıyev demişdir: Mən ziyalı ailəsində anadan olmuşam. Elə bu sənətə gəlməyimin də səbəbi qandan-gendən irəli gəlir. Babam-Aşıq Muxtar 1900-cu illərdə İrəvanın məşhur aşıqlarından olub. Atam Hüseyn kişini isə Göycə mahalında adla çağırardılar-mahir kamançа ustası idi. Anam uzun illər İrəvanda radioda redaktor vəzifəsində çalışıb. Orada Azərbaycan dilində 1 saatlıq efir vaxtı ayırmışdılar. Sonralar "Sovet Ermənistanı" qəzetində və Ali Sovetdə şöbə müdiri vəzifələrində çalışıb. Valideynlərim mənim muğam sənəti ilə məşğul olmağımı istəyirdilər. Lakin sonradan fikirlərini dəyişdilər-skripka çalmaqdan dərs aldım. Sonradan hiss etdilər ki, məndə vokal sənətinə meyl daha güclüdür. Odur ki, istəyimə qarşı çıxmadılar. Pionerlər evində bədii özfəaliyyət kollektivinin üzvü oldum. Artıq 13-14 yaşımdan musiqi kollektivində çıxış etməyə başladım.

Orta məktəbi bitirdikdən sonra İrəvan Pedaqoji İnstitutuna daxil oldum və institutun bədii özfəaliyyət kollektivinin solisti kimi çıxış etməyə başladım. Estrada ansamblının heyəti qarışıq idi-burada yerlilərlə yanaşı, rus, gürcü millətindən olanlar da var idi. Odur ki, repertuarımız da müxtəlif idi-bütün dillərdə mahnılar oxuyardıq. O illər bir qədər başqa idi-tez-tez keçmiş SSRİ respublikalarının şəhərlərinə qastrol səfərinə gedərdik, eləcə də, digər respublikalardan bizə konsert vermək üçün gələrdilər.

Beləliklə deyə bilərik ki, İrəvan mühitində böyük incəsənət xadimləri musiqişünaslar yetişmişlər.

## XIX ƏSRİN SONUNDA TƏHSİLİMİZİN İNKİŞAFINDA MÜƏLLİMLƏR SEMİNARİYALARININ ROLU

***Səbinə Elçin qızı Cəfərova***
***BDU-nun Pedaqogika kafedrasının dissertantı***
***Sabka567@gmail.com***

XIX əsrin 70-ci illərindən başlayaraq Rusiyada, eləcə də, Cənubi Qafqazda kənd məktəbləri üçün müəllim kadrları hazırlayan xüsusi məktəblər – müəllim seminariyaları meydana gəldi. Cənubi Qafqaz və Qafqazda ilk müəllimlər seminariyası 1871-ci ildə Kubanda, 1876-cı ildə isə Qori şəhərində açıldı. Sonuncu bütün Cənubi Qafqaz üzrə təşkil edildiyindən Zaqafqaziya Müəllimlər Seminariyası adlanırdı.

80-ci illərdə şəhər və kəndlərdə ibtidai xalq məktəbləri açmaq cəhdləri genişləndikcə, xalq müəllimlərinə olan ehtiyac daha da artdı. Bu ehtiyacı qismən aradan qaldırmaq məqsədilə Şamaxı, Naxçıvan, Nuxa və Gəncə şəhər məktəbləri nəzdində qısa müddətli pedaqoji kurslar təşkil edilmişdi.

Azərbaycanda pedaqoji kadrlar hazırlamaq problemi Azərbaycanın qabaqcıl maarifçilərini də düşündürürdü. Bu işdə M.F.Axundov və H.Zərdabi xüsusilə fərqlənirdi.

Azərbaycanın ibtidai məktəbləri, o cümlədən rus-tatar məktəbləri üçün müəllimlər hazırlanmasında Qoridəki Zaqafqaziya Mü-

əllimlər Seminariyası, xüsusən də onun əsasən M.F.Axundov və A.O.Çernyayevskinin səyləri nəticəsində 1879-cu ildə açılmış Azərbaycan şöbəsi böyük rol oynadı.

1899-cu ilədək Qori seminariyası 89 nəfər azərbaycanlı müəllim hazırlamışdı. Peşəkar pedaqoji kadrlar arasında Rəşid bəy Əfəndiyev, Mahmudbəyov, Sultan Məcid Qənizadə, Firudin bəy Köçərli, Mustafa Mahmudov, Mehdi bəy Hacıbababəyov, Səfərəli bəy Vəlibəyov, Əli Cabbar Orucəliyev və başqalarının maarifçilik sahəsindəki xidmətləri əvəzolunmazdır.

Yeni məktəb xadimlərinin ən mühüm vəzifəsi ana dili dərsliyinin yaradılması idi. Rus-tatar məktəblərində A.O.Çernyayevskinin 1882-ci ildə tərtib etdiyi "Vətən dili" dərsliyi böyük müvəffəqiyyətlə tətbiq edilirdi. Kitabın ikinci hissəsinin tərtibində S.F.Vəlibəyov və Q.A.Qaradaği fəal iştirak etmişdilər.

1887-ci ildə Yelizavetpol quberniyasının Qaryagin qəzasındakı Qarğabazar məktəbinin müəllimi A.Tahirov tərəfindən "Tatar dili rəhbərliyi" (dili müstəqil öyrənənlər üçün tədris vəsaiti idi), 1890-cı ildə isə Şükrulla Məhərrəmzadə Qarabaği tərəfindən "Hərflər və xətlər kitabı" tərtib olundu. Bunun ardınca 1890-1894-cü illərdə S.M.Qənizadənin "İslahi-Azərbaycan" ana dili dərsliyi, 1898-ci ildə R.Əfəndiyevin "Uşaq bağçası" müntəxəbatı, 1899-cu ildə N.Nərimanovun "Türk-Azərbaycan dilinin müxtəsər sərfnəhvi" çap olundu.

Bununla yanaşı, xalq maarifinin qabaqcıl nümayəndələri azərbaycanlı şagirdlərin öz dili ilə yanaşı, rus dilini də öyrənməsinə ciddi fikir verirdilər. 90-cı illərdə O.A.Çernyayevski "Rus dili" dərsliyini yazmışdı. 1896-cı ildə S.M.Qənizadə və 1899-cu ildə N.Nərimanov tərəfindən rus dilini müstəqil öyrənmək üçün vəsaitlər nəşr olundu.

Azərbaycanlılardan müəllim kadrlarının hazırlanmasında İrəvan Müəllimlər Seminariyası da mühüm rol oynamışdı. XIX əsrin ikinci yarısında Azərbaycanın kənd məktəblərində çalışan müəllimlərin bir dəstəsi məhz İrəvan Müəllimlər Seminariyasının yetirmələri idi.

**Ədəbiyyat**

1. Azərbaycan tarixi. 7 cilddə. IV cild. Bakı: Elm, 2000, 568 s.
2. Əhmədov H.M. XIX əsr Azərbaycan məktəbi. Bakı: Təhsil, 2006, 510 s.
3. Əhmədov H.M. Azərbaycanda məktəb və pedaqoji fikir tarixi, Bakı: Təhsil. Elm, 2001, 450 s.
4. İsmixanov M. Pedaqogika. B., Bakı Universiteti, 1998, 228 s.

# FİRİDUN BƏY KÖÇƏRLİNİN ƏDƏBİ-PEDOQOJİ FƏALİYYƏTİ

***Aydan Əhədova***
***BDU, I kurs magistrant***
***aydanehedova20@gmail.com***
***Məcid Abdulla oğlu İsmixanov***
***Pedaqogika kafedrasının professoru***

1881-ci ilin noyabr ayında fəaliyyətə başlayan İrəvan Müəllimlər Seminariyası çar hakimiyyətinin bölgədəki maraqları naminə yaradılmasına baxmayaraq, 40 ilə yaxın müddətdə hazırladığı müasir dünyagörüşünə və düşüncə tərzinə malik yüksəkixtisaslı maarifçi ziyalılarımız xalqımızın milli-mədəni inkişafında təqdirəlayiq xidmətlər göstərmiş, pedaqoji fikir salnaməmizə parlaq səhifələr yazmışlar. Tarixi Azərbaycan torpağı olan İrəvan quberniyasında uzun illər ərzində dini təhsil hökm sürmüşdür: məscidlərin nəzdində fəaliyyət göstərən mollaxanalarda uşaqların başa düşmədikləri dini dərslər keçilirdi.XIX əsrin əvvəllərində Azərbaycan torpaqları Rusiya tərəfindən zəbt edildikdən sonra dünyəvi təhsil verən məktəblər – rus-tatar (Azərbaycan) və qəza məktəbləri açılmağa başladı.Belə dərsləri tədris edən müəllimlər yox idi.Bu səbəbdən də yeni tipli məktəblərdədərs deməm üçün yeni müəllimlər hazırlamaq lazım idi.Müəllimlər Seminariyalarının yaranması məhz bu ehtiyacdan irəli gəlirdi .İlk belə Seminariya Gürcüstannın Qori şəhərində 1876-cı ildə Zaqafqaziya Müəl-

limlər Seminariyası yaradılmışdı.[3] Üç ildən sonra 1879 -cu ildə Seminariya nəzdində Azərbaycan şöbəsi açılmışdır.Qori Seminariyasından 5 il sonra İrəvanda da Müəllimlər Seminariyası təsis edilmişdir. Burada da Azərbaycan şöbəsi fəaliyyət göstərmişdir.İlk dövrlərdə şöbənin müdirləri kmi görkəmli ziyalılar – Axund Məmmədbağır Qazızadə,Rəşid bəy Şahtaxtinski, Həmid bəy Şahtaxtinski, Cəfər bəy Cəfərbəyov və b. Fəaliyyət göstərmişlər.Onlar (C.Cəfərbəyov istisna olmaqla) həm də Azərbaycan dili müəllimi kimi çalışmışlar. Azərbaycan şöbəsində müəllim kadrları, əsasən, Qori Müəllimlər Seminariyasının məzunları içərisindən cəlb olunurdu. Qori seminariyasının məzunları -tanınmış maarifçi ziyalılar digər seminariya (o cümlədən İrəvan ) gimnaziya və pedoqoji texnikumlarda çalışmış, onların fəaliyyətinə birbaşa və dolayısı ilə təsir göstərmişlər. Belə maarifçi ziyalılarımızdan biri də Firidun bəy Köçərli olmuşdur.

Firidun bəy Köçərli. Firidun bəy Köçərli 1863-cü il yanvar ayının 26-da Azərbaycanın dilbər guşələrindən olan Şuşa şəhərində savadlı bəy ailəsində doğulmuşdur.O, 1876-cı ildə Şuşadakı rus məktəbinə daxil olur. Həmin məktəbin üçüncü sinfində oxuyarkən Qoridə yerləşən Zaqafqaziya Müəllimlər Seminariyasının müəllimi, tanınmış pedaqoq A.O.Çernyayevski ilə görüşür. A.O. Çernyayevskinin müəllimlik peşəsinin şərəfli olması və Qori Müəllimlər Seminariyası haqqında söhbətləri gənc Firidunda bu seminariyada təhsil alıb müəllim olmaq arzusu oyadır. O, Şuşada rus məktəbini bitirib 1879-cu ildə atasının razılığı ilə Qoriyə gedir və imtahan verərək ZMS-nin Azərbaycan bölməsinin hazırlıq sinfinə qəbul edilir.F.Köçərli Qori seminariyasında altı illik təhsilini başa vurduqdan sonra (1885) Azərbaycan türklərinin qədim yaşayış məskənlərindən və mədəni mərkəzlərindən olan İrəvan şəhərindəki gimnaziyada pedaqoji fəaliyyətə başlayır. O, ana dili, şəriət və hüsnxətdən dərs deyir.1910-cu ilə qədər Qori seminariyasında müəllim işləyən F.Köçərli həmin ilin əvvəllərində çox az müddətdə seminariyanın Azərbaycan şöbəsinin inspektoru vəzifəsinə təyin edilmişdir.[2] XIX əsrin sonları, XX əsrin əvvəllərində yazıb-yaradan ziyalıların əksəriyyəti kimi F.Köçərli də ictimai

fəaliyyət meydanına M.F.Axundzadə və H.Zərdabinin maarifçilik ideyalarının, onların başladığı işin davamçısı kimi çıxmışdı.F.Köçərli müəllimliklə bərabər tərcüməçiliklə və araşdırıcılıqla məşğul olmuşdur. İrəvan gimnaziyasında çalışarkən o, qədim yunan filosofu Sokratın “Təlimati-Sokrat” kitabını, rus şairlərindən A.S.Puşkin, M.Y.Lermontov və M.N.Koltsorun şeirlərini, A.P.Çexovun “At familiyası” hekayəsini Azərbaycan dilinə, M.F.Axundzadənin “Aldanmış kəvakib” povestini rus dilinə çevirib nəşr etdirmişdir.1899 -cu ildə III dərəcəli “Müqəddəs Anna” ordeni ilə təltif olunmuşdur. 1900-cu ildə Müəllimlər Seminariyasının Ümumdünya Paris sərgisində Qori Seminariyasından nümayiş etdirilən eksponatlar sırasına F. Köçərlinin kitabları da daxil edilmişdir. 1902 -ci ildə II dərəcəli “Müqəddəs Stanislav” ordeni ilə təltif edilmişdir. 1904 -cü ildə A.P.Çexovun “At familiyası” hekayəsini tərcümə edib, kiçik bir müqəddimə ilə“Şərqi-Rus” qəzetində dərc etdirmişdir. 1906–cı ildə “Molla Nəsrəddin” jurnalının nəşrə başlamasını təqdir etmiş, jurnalın birinci üç aylıq fəaliyyəti barədə icmal hazırlayıb, “Tiflis-Skiy listok” qəzetində dərc etdirmişdir. Cəlil Məmmədquluzadənin “Usta Zeynal” kitabçası haqqında eyni adlı məqaləsi “Znaniye” qəzeti də çapdan çıxmışdı. F.Köçərli 1907-1909 – cu ildə Qori Seminariyasında ana dili və şəriət müəllimi vəzifəsində pedaqoji fəaliyyətini davam etdirmişdir. 1910 -cu ildə Qori Seminariyasının Azərbaycan şöbəsinin müvəqqəti təlimatçısı təyin olunmuşdur. Qori Seminariyasının Azərbaycan şöbəsinin inspektoru vəzifəsinə təyin olunmuşdur. “Vətən dili” dərsliyi haqqında “Cənab Şirvanskinin rəyi münasibəti ilə” adlı məqaləsində A.O.Çernyayevskinin adı çəkilən dərsliyini müdafiə etmişdir [3]. 1911 -ci ildə M.F.Axundzadənin anadan olmasının 100 İllik yubileyi münasibətilə Tiflisdə keçirilən təntənəli yığıncaqda məruzə ilə çıxış etmişdir. “Mirzə Fətəli Axundov” adlı kitabı çap olunmuşdur. 1912 -ci ildə “Balalara hədiyyə” kitabı Bakıda “Kaspi” mətbəəsində çap olunmuşdur; M.Ə.Sabirin xəstəliyi, ona maddi kömək göstərilməsi barədə “Bəradərim Cəlildən çap olunmasını iltimas edirəm” adlı məqaləsini “Molla Nəsrəddin” jurnalında, “Vəfatı-şair” məqaləsini “Mə-

lumat" qəzetində dərc etdirmişdir. F.Köçərli 1918-ci ildə Qori Müəllimlər Seminariyasının Azərbaycan şöbəsini tədris ləvazimatı və avadanlığı ilə birlikdə öz xərcinə Qazax şəhərinə köçürmüş, bunun əsasında Azərbaycan Müəllimlər Seminariyası yaradılmışdır.Firidun bəy Köçərli Seminariyanın direktoru təyin olunmuşdur. Qazax Müəllimlər Seminariyasından ilk dərslər başlamışdır.Qazaxda ilk dəfə olaraq uşaq evi açmışdır; Mayın 28-də Azərbaycan Milli Şuranın üzvü seçilmiş, "İstiqlal bəyannaməsi" ni imzalamışdır. 1918-1920 -ci illərdə Qazax Müəllimlər Seminariyasının müdiri işləmişdir.[4] 1920-ci ilin mayında F. Köçərli reaksiyaya məruz qalır .Gəncə üsyanı yatırıldıqdan sonra erməni daşnaklarının təşəbbüsü ilə XI Ordunun xüsusi şöbəsi tərəfindən ədib bolşeviklərə qarşı etirazların iştirakçısı kimi həbs olunması haqqında qərar çıxarılmışdır.Müəmmalı şəraitdə o erməni terrorçusunun gülləsi ilə qətlə yetirilmişdir.

Firidun bəy Köçərlinin xalqın maariflənməsinə, bu sahədə müəllimin roluna yüksək qiymət verirdi.Onun bu haqda müdrik deyimləri vardır.O deyirdiki:

"Müəllim ağlı, biliyi,zəhmətsevərliyi, yüksək məharəti, mədəni davranışı, işdə dəqiqliyi, səadəti və s. Keyfiyyətləri ilə yanaşı, həm də uşaqlara məhəbbət və qayğı ilə döyünən ürəyə malik olmalıdır".

Ana dilinin millətin həyatında rolu ilə bağlı göstərirdi ki,"Bir millətin malını,dövlətini və hətta vətənini əlindən alsan ölüb itməz,amma dilini alsan fot olar,ondan bir nişan qalmaz".[1]

Azərbaycan ədəbiyyatşünaslığı, maarif və mədəniyyətin tarixində F.Köçərli çox mühüm yer tutur.O. Azərbaycan ədəbiyyat tarixçiliyi elminin banisi sayılır. Akademik Həmid Araslının təbirincə ömrünü xalqımızın maarifinə,ədəbi irsinin öyrənilməsinə sərf edən fədakar ictimai xadim kimi nüfuz qazanmışdır.Ötən əsrin əvvəllərində realist bədii nəsrdə, dramaturgiyada,satirik publistika da Cəlil Məmmədquluzadə, yeni şeir aləmində Mirzə Ələkbər Sabir, milli musiqinin inkişafında Üzeyir Hacıbəyli hansı zirvədə dayanırsa, gördüyü işlər sahəsində ədəbiyyatşünaslıq elmində də Firidun bəy Köçərli həmin ucalıqda qərar tutub, O ədə-

biyyat tarixçisi, nəzəriyyəçisi, pedaqoq, maarifçi ən başlıcası da böyük vətəndaş və milli duyğulara malik bir fədai kimi adını tarixə pozulmaz hərflərlə ədəbi həkk etdirib. [1]

**Ədəbiyyat**


1. Day.az/kulture/38749.htmi
2. Hüseynzadə L.R İrəvan pedaqoji mühiti.Elmin inkişafıa dəstək ictimai birliyi 13 yanvar,2016.
3. İbrahimov F., Hüseynzadə L, Pedoqogika II c, Mütərcim, 2013.
4. İrəvan Müəllimlər Seminariyasının Azərbaycan pedoqogika tarixində rolu,Oxu .az, 6 fevral 2022
5. Nazim Mustafa .Tanınmış İrəvan ziyalıları.İrəvan.info/htmi


## İRƏVAN SEMİNARİYASININ İLK AZƏRBAYCANLI MÜƏLLİMİ AXUND MƏMMƏDBAĞIR QAZIZADƏ


***Mərziyə Namiq qızı Mirzəbəyova***
***BDU- nun magistrantı***
***merziye2001@gmail.com***
***Nəzakət Bəylər qızı İmamverdiyeva***
***Pedaqogika kafedrasının dosenti***
***naza-45@mail.ru***


140 il bundan qabaq tarixi Azərbaycan torpağı olan İrəvan quberniyasında İrəvan Müəllimlər Seminaryası təsis edilmişdir. 9 müəllim və 42 şagirdlə fəaliyyətə başlamış Müəllimlər seminariyasının ilk əsasnaməsinə görə, bu tip təhsil müəssisəsinə 16 yaşdan yuxarı pravoslav oğlan uşaqları qəbul oluna bilərdi. 1875-ci ildə qəbul edilən “Müəllimlər seminariyaları haqqında təlimat”da seminariyalarda pravoslavlarla yanaşı, müsəlmanların da təhsil almasına icazə verilirdi. Seminariyada təhsil müddəti 3 il idi, nəzdində hazırlıq sinfi, nümunəvi ibtidai məktəb fəaliyyət göstərirdi. Tələbələr pedaqoji təcrübəni həmin məktəbdə keçirdilər. Seminariya-

nın nəzdində pansionat (yataqxana) da fəaliyyət göstərirdi. Burada azərbaycanlılarla bərabər, erməni, gürcü, rus və digər xalqların nümayəndələri da təhsil alırdı. Burada təhsil alanlara rus dili, riyaziyyat, ilahiyyat, tarix, coğrafiya, fizika, təbiətşünaslıq, nəğmə, hüsnxət, rəsm və rəsmxət dərsləri tədris olunurdu. Azərbaycanlı uşaqlar rus dilini, rus adət-ənənəsini, tarixini və coğrafiyasını öyrəndikdən sonra xristian uşaqları ilə birlikdə oxuya bilərdilər. Aşağı hazırlıq sinfinə rus dilini bilməyən uşaqlar qəbul olunurdu. Azərbaycanlı şagirdlərin aşağı hazırlıq siniflərinə daxil olması və seminariyada 5 il oxuması məcburi deyildi. Siniflər komplektləşdirilərkən şagirdlərin hazırlıq səviyyələri nəzərə alınırdı. Rus dilində danışmağı bacaran, müəyyən hazırlıq səviyyəsi olan şagirdlər yuxarı hazırlıq siniflərinə, yaxud birinci sinfə qəbul edilirdi.[3]

İrəvan Müəllimlər Seminariyasında dərs deyən ilk azərbaycanlı müəllim dövrünün görkəmli alimi, maarifçi-pedaqoq Axund Məmmədbağır Qazızadə olub. O, seminariya açılan gündən 1897-ci ilə qədər burada ilahiyyat və Azərbaycan dilindən dərs keçib. Ayrı-ayrı vaxtlarda Mirzə Məmmədvəli Qəmərli, Rəşid bəy Şahtaxtinski, Həmid bəy Şahtaxtinski, Cəfər bəy Cəfərbəyov, Məmməd Axundov, Mirzə Cabbar Məhəmmədzadə seminariyada şəriət və ya Azərbaycan dili fənnini tədris edirdi. İrəvan iMüəllimlər seminariyasının Azərbaycan şöbəsinin müdürü Axund Məmmədbağır Qazizadə təyin edilir. O 1829 cu ildə İrəvan şəhərində anadan olub. İlk dini savadını atasından alıb, daha sonra isə İrəvanda mədrəsədə oxuyub. Mədrəsə təhsilini başa vurduqdan sonra İrəvan qəza məktəbinə daxil olub, dünyəvi təhsil alır. Daha sonra Məmmədbağır Qazizadə müqəddəs Nəcəf şəhərinə yollanmış, dini hövzədə ali təhsilə yiyələnmişdi. O zaman Nəcəf şəhəri regionda elm və bilik mərkəzi hesab edilirdi. On il bu yüksək elmi-dini mərkəzdə öz biliklərini təkmilləşdirərək, müxtəlif İslam elmlərini əxz etmişdi. Axund Məhəmmədbağır Qazızadə ərəb dilinin qrammatikasına çox dərindən yiyələnmiş, qədim və müasir riyaziyyat sahəsində müvəffəqiyyətlər qazanmışdı. O, Zaqafqaziya ruhani idarəsində imtahan verərək axund adı almış və uzun müddət İrəvan quberniya ruhani məclisinin üzvü olmuşdu. Məmmədbağır

Qazızadə çalışdığı İrəvan Müəllimlər Seminariyasının Azərbaycan şöbəsinin müdiri və müəllimi kimi də öz vəzifəsinin öhdəsindən layiqincə gəlmişdir. Fədakar maarif xadimi kimi o, nəinki çalışdığı seminaryada və yaşadığı İrəvanda, habelə bütün Şərqdə böyük nüfuza malik idi, böyük marifçilik fəaliyyəti göstərirdi. O, 1898 ci ildə İrəvanda rus- tatar məktəbinin açılmasında xüsusi təşəbbüskarlıq göstərmişdi. Onun pedoqoji fəaliiyənin əsas orjinal xususiyyətlərindən biri də azərbaycanlı qızlar üçün təhsil imkanlarının yaradılmasına,onların məktəbə cəlb edilməsinə ciddi səy göstərməsi idi. O, İrəvanda ilk qızlar məktəbinin açılmasının təçəbbüskarı və təşkilatçısı olmuşdur. 1902 ci ildə o, İrəvanda öz evində rus-tatar ( azərbaycanlı ) qızlar məktəbi açmışdı.[6]. Bu Cənubi Qafqazda sayca açılan üçüncü müsəlman qız məktəbi idi. Məktəbdə şəriət fənnini də Məmmədbağır Qazizadənin özü tədris etmişdi. O, istər seminariyada, istərsə də məktəbdə təhsil alan və maddi imkanları hədsiz dərəcədə ağır olan azərbaycanlı şagirdlərin bir çoxuna öz vəsaiti hesabına köməklik göstərir, onları paltar və dərs ləvazimatları ilə təmin edirdi.

Məmmədbağır Qazızadə səmərəli pedoqoji və ictimai fəaliyyətinə görə 1882-ci ildə gümüş medalla, 1898-ci ildə isə 3- cü dərəcəli müqəddəs Anna ordeni ilə təltif edilmişdir. O, 1911-ci ildə bir neçə irəvanlı müəllimin Tiflisdə Azərbaycan dilində nəşr etdirdiyi "Ana dili" dərsliyinin həmmüəlliflərindən biri olmuşdur. Axund Molla Məmmədbağır Qazızadə ömrününü sonuna kimi İrəvan Quberniyası Ruhani Məclisinin sədri və İrəvan Müəllimlər Seminaryasının Azərbaycan şöbəsinin Azərbaycan dili və ilahiyyat müəllimi kimi çalışmışdır. Xalqımızın tarixində və taleyində böyük rol oynamış, Həmid bəy Şahtaxtinski, Həmid bəy Səlimov, Mirzə Cabbar Məmmədzadə,İbadulla bəy Muğanlinski, Həşim bəy Vəzirov, Rəşid bəy İsmayılov, Məmməd Nəsirbəyov və bu kimi onlarla maarifçi-ziyalı tarixi şəxsiyyətlər, alimlər, ictimai-siyasi xadimlər onun tələbələri olmuşdur.[4]

İrəvan Müəllimlər Seminaryasın fəaliyyətə başladığı ilk ildə tələbələrin pedoqoji təcrübə keçməsi üçün ibtidai məktəb hələ təşkil edilməmişdir. Çünki seminaryanın nəznində fəaliiyət göstərən ikisi-

nifli ibtidai məktəbə uşaqların cəlb edilməsi bir qədər çətinlik yaradırdı. Məmmədbağır Qazızadə seminaryada ciddi çətinliklərə baxmayaraq hər il burada azərbaycanlı tələbərin sayını artırmağa çalışırdı. Onun təkidli səyi nəticəsində 1883-cü ildə seminaryanın nəznində təşkil edilmiş ibtidai məktəbə 13 nəfər azərbaycanlı uşaq cəlb olunmuşdu ki, həmin uşaqlar da dövlət hesabına pansionda yaşayırdılar. İbtidai məktəbin fəaliyyətə başladığı ilk ilində təhsil alan uşaqların sayı artaraq 61 nəfər olmuşdur. Seminaryada olduğu kimi ibtidai məktəbdə də təhsil alanların sayında ilbəil artımlar müşahidə olunurdu. Məsələn, 1900-cü il də ibtidai məktəbdə təhsil alan tələbələrin sayı artaraq 82 nəfərə çatmışdı ki onların 18 i azəbaycanlı idi. İbtidai məktəbdə də ana dili və şəriət dərslərini Axund Məmmədbağır Qazızadə özü tədris edirdi.[2]

Həyatının 45 ilindən artıq bir hissəsini müəllimliyə, İrəvanda Azərbaycan maarif və mədəniyyətin inkişafına həsr etmiş Axund Məmmədbağır Qazızadə ictimai- pedoqoji fikir tariximizdə şərəfli yer tutur.

## İRƏVAN MÜƏLLİMLƏR SEMİNARİYASININ AZƏRBAYCAN TƏHSİL TARİXİNDƏ ROLU

***Ayşən Namiq qızı Orucova***
***BDU, Pedaqogika kafedrasının magistrantı***
***Aysenoruc01@gmail.com***
***P.ü.f.d. Vəfa Məsim qızı Çıraqova***
***Pedaqogika kafedrasının p.ü.f.d., müəllim***

Hər bir xalqın öz tarixi var. Azərbaycan türklərinin tarixi İrəvan mahalında minilliklər boyu yaratdıqları milli-mənəvi irsin nümunəsi olan İrəvan Müəllimləri seminariyası İrəvan ziyalılarının dəyərli mədəni-maarif irsidir.

Qərbi Azərbaycan torpaqlarının şimal-cənub ticarət qovşağında yerləşən İrəvan xanlığı müsəlman milli maarifçiliyinin aparıcı elm və təhsil mərkəzlərindən biri idi. Buradakı məscidlərdə, mollaxanalarda, mədrəsələrdə şəriət qaydaları oxumaq və yazmaq öy-

rədilirdi. O dövrün təhsil məktəbi olan mədrəsələrdə İrəvan ziyalı elitasının çoxlu nümayəndələri yetişib.

Əsrlər boyu fəaliyyət göstərən mollaxana və mədrəsələr xalqımızın mədəni yüksəlişini təmin edə bilməmiş, onun inkişaf prosesini ləngitmişdir. XIX əsrin əvvəllərində Cənubi Qafqazda baş verən siyasi proseslər müxtəlif sahələrdə olduğu kimi, təhsil və məktəb sahəsində də yeni meyillərin yaranmasına səbəb oldu. Artıq təlim müəssisəsi kimi fəaliyyət göstərən mollaxana və mədrəsələr getdikcə tənəzüllə uğrayır, öz yerini dünyəvi məktəblərə verməyə məcbur olurdu.

İrəvan şəhəri bütün dövrlərdə Qərbi Azərbaycanda azərbaycanlıların mədəni mərkəzi olmuşdur. Firidun bəy Köçərli bu barədə yazırdı: "Şəhri-İrəvan keçmişdə mərkəzi-üləma, füzəla və şüəra olub" [2. Köçərli, 1981].

Bu şəhər görkəmli elm və mədəniyyət xadimlərinin beşiyi kimi tanınmış, Azərbaycan ədəbiyyatının inkişafında xidmətləri olmuş ədiblər bəxş etmişdir."İrəvanda dünyanın hər yerindən sorağı gələn ziyalı nəsillər yetişmişdir. Onlardan XIX əsrin ikinci yarısında tanınan Mirbabayevlər, Bağırbəyovlar, Topçubaşovlar, Muğanlınskilər, Fərəcovlar və başqa nəsillərin nümayəndələri İrəvan quberniyasında nüfuz və mövqe sahibləri olmuşdur. İrəvan Qafqazda elmin, maarifin, mədəniyyətin ən çox inkişaf etdiyi mərkəzlərdən biri kimitanınmışdır. Burada 1881-ci ildə müəllimlər seminariyası, 3 gimnaziya, bir qadın gimnaziyası, 2 pansionat fəaliyyət göstərmiş, teatr tamaşaları verilmişdir" [3. Məhərrəmov, 2010].

XIX əsrin 80-ci illərində İrəvan şəhərinin ictimai həyatında çox mühüm hadisələr baş vermişdir. 1881-ci ildə İrəvan Kişi Gimnaziyası, İrəvan Müəllimlər Seminariyası, 1884-cü ildə İrəvan Qız Gimnaziyası fəaliyyətə başlamışdır [3. Məhərrəmov, 2010].

İrəvanda yeni məktəb sisteminin yaradılması 1930-cu illərə təsadüf edir. Yerli xalqların ruslaşdırılması və xristianlaşdırılması siyasətini həyata keçirmək üçün çar hökuməti 1829-cu ildə Zaqafqaziya məktəblərinin birinci nizamnaməsini qəbul etdi və bu nizamnamədə milli ucqar ərazilərdə qəzalı məktəblərin açılması

nəzərdə tutulurdu. Bu nizamnaməyə əsasən Cənubi Qafqazda 20 qəzalı məktəbin açılması nəzərdə tutulurdu. 1832-ci ildə İrəvanda ilk dünyəvi məktəb - ikisinifli quberniya məktəbi yaradıldı. Məktəb 1839-cu ildə üçsinifli əyalət məktəbinə, 1869-cu ildə isə dördsinifli progimnaziyaya çevrildi. 1880-ci il oktyabrın 20-də Rusiya Dövlət Şurası “Kutaisi və İrəvan quberniyalarında müəllimlər seminariyalarının təşkili haqqında” qərar qəbul etdi. 1881-ci il noyabrın 8-də İrəvan Müəllimlər Seminariyası 9 müəllim və 42 tələbə ilə fəaliyyətə başladı.

İrəvan Müəllimlər Seminariyasında müxtəlif millətlərin nümayəndələri ilə yanaşı, azərbaycanlılar da təhsil alırdı. Yeri gəlmişkən onu da qeyd edək ki, İrəvan Müəllimlər Seminariyasının və gimnaziyasının təşkil edilməsi Cənubi Qafqazda maarifçiliyin daha geniş vüsət almasına ciddi təsir göstərdi. Seminariyada tatar dilini (Azərbaycan) Axund Məmməd Bağır Qazızadə tədris edirdi. O, 1911-ci ildə İrəvan müəllimlər seminariyasının bir qrup əməkdaşları ilə Tiflisdə Azərbaycan dilində nəşr olunmuş "Ana dili" dərsliyinin müəlliflərindən biri idi.

1906-cı ilin iyun ayında Cəlil Məmmədquluzadə İrəvanda olmuş, seminariyada qabaqcıl azərbaycanlı ziyalılarla, müəllim və tələbələrlə görüş keçirmiş, "Molla Nəsrəddin" jurnalı barədə geniş fikir mübadiləsi aparmışdır. "Molla Nəsrəddin" jurnalının İrəvanda özünə möhkəm yer tutmasında İrəvan Müəllimlər Seminariyasının Azərbyacan bölməsinin müəllimlərinin və tələbələrinin də böyük rolu olmuşdur. "Tuti", "Zənbur", "İqdam", "İrşad", "Babayi-Əmir", "Məzəli", "Kaspi", "Şəlalə", "Sovqat", "Kəşkül", "Tərcuman" və s. bu kimi mətbuat orqanlarının da İrəvanda yayılmasında azərbaycanlı ziyalıların və tələbələrin böyük rolu olmuşdur.

Seminariyada Bakıdan, Naxçıvandan, Dağıstandan və başqa şəhərlərdən də tələbələr təhsil alırdı. Seminariyanı bitirən məzunlara kənd ibtidai məktəb müəllimi vəsiqəsi verilirdi.

İrəvan Müəllimlər Seminariyasını Əkbər Mehdi oğlu Əkbərov 1907-ci ildə, Əhməd bəy Qazıyev 1891-ci ildə, Cəfərbəy Cəfərbəyov 1901-ci ildə, Əli Əşrəf Qazıyev 1886-cı ildə, Həsənbəy

Axund Molla Xəlilbəy oğlu Qazıyev 1900-cü ildə, Cabbar Məmmədov 1902-ci ildə, Fərəməz Mahmudbəyov Əskərbəy Bəxşəlibəyov oğlu 1917-ci ildə, Məmməd bəy Əlibəy oğlu Mahmudbəyov 1914-cü ildə, Həsən Nəzirbəyov 1887-ci ildə, Saleh Məşəditeymur oğlu Güllücinski 1916-cı ildə, Ağabəy Rəhimbəy oğlu Firidunbəyov 1905-ci ildə bitiriblər [4. Məmmədov, 2002].

Seminariyada rus dili, Azərbaycan dili, riyaziyyat, coğrafiya, idman və s. fənlərlə yanaşı, musiqi fənni də tədris edilirdi. 1885-ci ildə seminariyada musiqi fənnini tədris edən N.Kasradzenin rəhbərliyi altında 69 nəfər musiqi təhsili almışdır ki, onların arasında azərbaycanlılar da var idi.

İrəvan Müəllimlər Seminariyasında dərs deyən azərbaycanlı ziyalılar Azərbaycan təhsil tarixində dərin izlər buraxmışdır.

Firidun bəy Köçərli 1885-ci ildə Zaqafqaziya (Qori) Müəllimlər Seminariyasını bitirdikdən sonra İrəvan gimnaziyasına təyinat almış və orada pedaqoji fəaliyyətlə məşğul olmuşdur. O, İrəvanda fəaliyyət göstərdiyi dövrdə (1885-1890) seminariyada ana dili, hüsnxət fənlərini tədris etmiş, pansion mürəbbisinin köməkçisi vəzifəsində çalışmışdır. Pedaqoji sahədə müvəffəqiyyətlərinə görə dəfələrlə mükafatlandırılmışdır. Ona "Kollecski sekretar","Titulyar sovetnik" və "Statski sovetnik" rütbələri verilmişdir. F.Köçərli 1893-1894-cü illərdə yenidən İrəvan gimnaziyasında fəaliyyət göstərmişdir. 1895-ci ildən Qori Müəllimlər Seminariyasının tatar şöbəsinə Azərbaycan dili və şəriət müəllimi təyin edilmiş, 1910-cu ildən həmin Seminariyanın Azərbaycan şöbəsinin müvəqqəti təlimatçısı, sonradan isə bu şöbənin inspektoru vəzifəsinə təyin olunmuşdur. Seminariyanın Azərbaycanın Qazax şəhərinə köçürülməsinə nail olmuşdur.

Mirzə Məmmədvəli Qəmərli 1871-ci ildə İrəvan şəhərində çar ordusunun generalı Əli Qəmərlinskinin ailəsində anadan olmuşdur. O əvvəlcə mollaxanada dini dərs almış, sonra gimnaziyaya daxil olmuş, təhsilini tamamlayaraq ayrı-ayrı yerlərdə açılan bir və ikisinifli məktəblərdə ana dilindən dərs demişdir. O, 1898-ci ildə İrəvanda rus-tatar məktəbini bitirmiş, 1900-cü il martın 13-də İrəvan

Quberniya məclisində imtahan verərək müəllim adı almışdır. 1901-1911-ci illərdə İrəvan rus tatar gimnaziyasında işləmişdir.

Mirzə Məmmədvəli Qəmərli İrəvan ədəbimədəni mühitinin tanınmış nümayəndəsi kimi ömrü boyu müəllim işləmişdir. Lakin o, müəllimlik fəaliyyəti ilə yanaşı, bir sıra dəyərli kitabların, o cümlədən "Atalar sözü", "Vətən dili", "İrəvan Quberniyası haqqında xatirələr", eləcə də birinci, ikinci və üçüncü siniflər üçün "Ana dili" dərsliklərinin müəllifi olmuşdur. O, bir neçə vətənpərvər ziyalı ilə birlikdə 1902-ci ildə İrəvanda ilk qızlar məktəbi açmışdır.

İrəvan Müəllimlər Seminariyasının müəllimləri tərəfindən 1906-cı ildə nəşr olunmuş "Ana dili" kitabı(Müəlliflər: Mirzə Qəmərlinski, Nərimanbəyov, Şahtaxtinski, Rəcəbov, Qazıyev, Cəfərbəyov, Mirzə Ələkbər Mirzə Abdulla oğlu. Üzünü köçürən: Mirzə Şəfi Rəfizadə Təbrizski) dərs vəsaiti kimi istifadə olunurdu.

Eyni zamanda, Seminariyanın şəriət müəllimi Qazızadə Axund Əbdülhəsənin 1911-ci ildə çap olunmuş "Dürusi şəriə" kitabı (4 hissədən ibarətdir) seminariyada ilahiyyət dərsində istifadə edilirdi [4. Məmmədov, 2002].

1899-cu ildə İrəvan Müəllimlər Seminariyasını bitirmiş Həmid ağa Xəlil ağa oğlu Şahtaxtinski Azərbaycan Xalq Cümhuriyyətinin dövlət xadimlərindən biri, parlamentin üzvü, görkəmli maarifçi idi. Pedaqoji fəaliyyətə İrəvan Müəllimlər Seminariyasında başlamış, seminariyada Azərbaycan və rus dillərini tədris etmiş, eyni zamanda İrəvan Müsəlman Xeyriyyə Cəmiyyətinin üzvü olmuşdur [1. Əhmədov, 2014].

Haşım bəy Vəzirov İrəvan Müəllimlər Seminariyasını bitirdikdən sonra Qərbi Azərbaycanın Böyük Vedi kəndində müəllimliyə başlamışdır. Daha sonra İrəvan şəhərində, Şuşada, Cavanşir qəzasının Alpout, Şəki qəzasının Kiçik Göynük, Cavanşir qəzasının Bərdə kəndlərində müəllimlik etmiş, bir müddət isə məktəb müdiri işləmişdir. İmperator Nikolay Aleksandroviçin tacgüzarlığı ilə bağlı Şuşada "müsəlman-rus" məktəbi yaradılanda Mir Haşım bəy oraya direktor vəzifəsinə dəvət edilmiş, məktəbdə işləməklə bərabər Şəhər bələdiyyə idarəsinə qlasnı seçilmişdi. O, ictimai iş-

lə qızğın məşğul olmaqla bərabər, Şuşa real məktəbinin hazırlıq sinfində ana dilindən dərs demişdir. O, 30 il jurnalistika sahəsində də çalışmış,“Tazə həyat”(1907 1908), “İttifaq” (1908-1909), “Səda” (1909-1911), “Kavkazets”(1911, rus dilində),“Sədayi-vətən” (1911),“Sədayi-həqq”(1912),“Sədayi-Qafqaz” (1915-1916) qəzetlərini və “Məzəli” (1914-1915) jurnalını nəşr etdirmişdir.

1915-ci ildə İrəvan Müəllimlər Seminariyası Armavirə köçürüldü və 1918-ci ilə qədər burada fəaliyyət göstərdi. 1918-ci ildə ermənilərin azərbaycanlılara qarşı apardıqları etnik təmizləmə nəticəsində seminariya fəaliyyətini dayandırdı, müəllim və tələbələrin bir qismi vəhşicəsinə qətlə yetirildi, sağ qalanlar isə öz doğma yurdlarını tərk etdilər.

37 illik fəaliyyəti dövründə İrəvan Müəllimlər Seminariyası öz üzərinə düşən vəzifəni şərəflə yerinə yetirmiş, Azərbaycan məktəb və pedaqoji fikir tarixində xüsusi tarixi xidməti olmuşdur. “Tanınmış simalardan Haşım bəy Vəzirov, Həmid ağa Şahtaxtinski, Xaqan bəy Səfiyev, İbadulla Muğanlinski, Şamil Mahmudbəyov, Cabbar Məmmədov bu seminariyanın məzunları olmuşlar. İrəvan Müəllimlər Seminariyasının məzunları quberniyanın (İrəvan quberniyasının – İ.B.) sərhədləri daxilindəki rus-tatar (Azərbaycan) məktəblərinə təyin edilirdi” [5. Mustafa, 2015]. Bu ziyalılar Azərbaycan elminin, təhsilinin inkişafında, eləcə də Azərbaycanın ictimai-siyasi, mədəni həyatında yaxından iştirak etmişlər.

İrəvan Müəllimlər seminariyası Azərbaycan təhsil tarixində özünəməxsus yer tutur. Bu təhsil ocağı mövcud olduğu 37 il ərzində öz fəaliyyəti ilə Cənubi Qafqazda, o cümlədən Azərbaycanda xalq məktəbi və təhsilin, mədəni-maarif işinin inkişafında əhəmiyyətli rol oynamışdır. Maarif və pedaqoji fikir tariximizin, maarifçilik və milli mədəniyyət tariximizin formalaşmasında İrəvan Müəllimlər Seminariyasının fundamental mövqeyi vardır. Azərbaycanda pedaqogika elminin yayılması və inkişafı, xalq maarifinin bütöv bir dövrü məhz Qori və İrəvan müəllimlər seminariyası məzunlarının fəaliyyəti ilə bağlıdır. Həmin təhsil ocaqlarının milli təhsil tariximizdəki yeri və rolu bu gün də öyrənilir,

tədqiq edilir, gənc nəslin, tələbələrin elmi-pedaqoji biliyinin artırılmasında istifadə edilir.

## Ədəbiyyat


1. Əhmədov, H. (2014). Azərbaycan məktəb və pedaqoji fikir tarixi. Bakı: Elm və təhsil.
2. Köçərli, F. (1981). Azərbaycan ədəbiyyatı. II c. Bakı: Elm.
3. Məhərrəmov, Z. (2010). İrəvanda məktəbdarlıq və maarifçilik (1800-1920-ci illərdə ədəbi-mədəni mühit). Bakı: Nurlan.
4. Məmmədov, İ. (2002). Tariximiz. Torpağımız.Taleyimiz, Bakı: Adiloğlu
5. Mustafa, N. (2015). İrevan şehri. Ankara: Berikan Yayın evi.


# ÜZEYİR HACIBƏYOV VƏ QORİ MÜƏLLİMLƏR SEMİNARİYASI


***Sücayə Natiq qızı Qarayeva***
***Bakı Dövlət Universiteti***
***sucayaqarayeva@gmail.com***


Üzeyir bəy yaradıcılıq fəaliyyətinə kiçik yaşlarından başlayıb. Hətta o, 13 yaşında da hekayə və nağıl yazmışdır. Sonralar o, köhnə əlifba ilə yazılmış bu kiçik hekayələri illüstrasiyalarla zənginləşdirib dostlarının köməkliyi ilə "Kitabi-məzhəkə" adı ilə 15 qəpiyə satmışdır. O, hər gün cəmi 3 hekayə hazırlayırdı. Gündəlik kitabdan qazandığı 45 qəpiyi gətirib anasına verirdi.

İllər sonra bəstəkarın ev-muzeyinin yaradıcısı, şəxsi katibi, kürəkəni Ramazan Xəlilov bu kitabın yeganə nüsxəsini taparaq dahi bəstəkarın 60 illik yubileyində ona hədiyyə etmişdir [1, s. 4].

Əgər yaradıcılıqdan danışırıqsa, o zaman qeyd etməliyik ki, Şuşa ab-havasının Üzeyir bəyə xüsusi təsiri olmuşdur. "Qafqaz konservatoriyası" adlandırılan Şuşa onun ilk musiqi məktəbi olub. Özünün də qeyd etdiyi kimi, ilk musiqi təhsilini burada mü-

ğənni və musiqiçilərdən alıb. Şuşada nümayiş etdirilən səhnə də gələcək bəstəkarda böyük təəssürat yaratmışdır. O vaxt Üzeyirin cəmi 13 yaşı olardı. Əbdürrəhim bəy Haqverdiyevin təşəbbüsü ilə Cabbar Qaryağdıoğlunun Şuşada "Məcnun Leylinin məzarı önündə" tamaşası nümayiş etdirilmişdir. Üzeyir də qardaşları ilə orada xorda oxuyurdu. Bu mənzərə balaca Üzeyirin xəyallarına, ürəyinə, zehninə hakimdir. Və illər sonra bu səhnənin təsiri ilə o, dahi Füzulinin poeması əsasında təkcə Azərbaycanda deyil, bütün Şərqdə operanın başlanğıcını qoyan "Leyli və Məcnun" operasını yaratmışdır. Maraqlıdır ki, operanın 1908-ci il yanvarın 12-də ilk tamaşası zamanı dirijoru Əbdürrəhim bəy Xaqverdiyev olmuşdur. O zaman Üzeyir bəy bu musiqini skripka ilə ifa etmişdir [3].

Peşəkar Azərbaycan musiqisinin, milli opera, operetta, musiqili komediya janrlarının, Şərqdə ilk musiqili teatrın və ilk konservatoriyanın yaradıcısı və banisi kimi Üzeyir bəy tarixdə mühüm iz qoymuşdur. O, Azərbaycan musiqisi nəzəriyyəsinin tərcümeyihalını (məqamini) araşdıran, üzə çıxaran və əsaslandıran ilk azərbaycanlı musiqişünas, alim, müəllim-ustad kimi tanınmışdır. Aradan yüz il keçməsinə baxmayaraq, o, həmişə aktual əsərləri ilə tanınan publisist, köşə yazarı və librettist-dramaturq, Azərbaycan SSR-in və müstəqil Azərbaycanın dövlət himnlərinin müəllifi, əsl yazıçı kimi ədəbi-bədii əhəmiyyətini hələ də itirməmişdir.Bütün bu inkişafa Şuşa mühitinin böyük təsiri olmuşdur.

Məlumdur ki, Azərbaycanda olduğu kimi, İrəvanda da dünyəvi məktəblər açılana qədər yalnız mollaxanalar və məscidlərin nəzdindəki mədrəsələr təhsil müəssisəsi kimi fəaliyyət göstərirdi [2, s.15]]. Əsrlər boyu fəaliyyət göstərən mollaxanlar, mədrəsələr xalqımızın mədəni tərəqqisini təmin edə bilmədi, onun inkişaf prosesinə mane oldu. XIX əsrin əvvəllərində Cənubi Qafqazda baş verən siyasi proseslər müxtəlif sahələrdə olduğu kimi, təhsildə və məktəblərdə də yeni cərəyanların yaranmasına səbəb olmuşdur. Artıq təhsil ocağı kimi fəaliyyət göstərən mollaxanlar və mədrəsələr getdikcə tənəzzülə uğrayaraq öz yerlərini dünyəvi məktəblərə verməyə məcbur oldular.

XIX əsrin 70-ci illərində Cənubi Qafqazın müxtəlif bölgələrində açılan məktəblərdə uşaqlara elmin əsaslarını yeni üsulla öyrədən təhsil ocaqları ciddi şəkildə təşkil olunmağa başladı. Cənubi Qafqazda yaranan bu maarifçilik hərəkatına onlarla mütərəqqi Azərbaycan ziyalıları qoşularaq gəncləri təhsilə cəlb etmək üçün mübarizəyə başladılar. 1832-ci il yanvarın 14-də İrəvanda açılan ilk qəza məktəbində müxtəlif millətlərin uşaqları ilə yanaşı, azərbaycanlı uşaqlar da təhsil almağa başladılar. 1832-ci ildə açılmış İrəvan qəza məktəbi 1869-cu ildə pro-gimnaziyaya, 1881-ci il martın 31-dən isə 5 sinifli gimnaziyaya çevrilmişdir.

İbtidai pedaqoji təhsilli mütəxəssislər hazırlamaq üçün yaradılmış Qori müəllimlər seminariyası 1876-cı il sentyabrın 12-də Qoridə (Gürcüstan) K.D.Uşinskinin layihəsi ilə açılmışdır.

Seminariya Zaqafqaziya xalqlarının, o cümlədən, Azərbaycan xalqının mədəni inkişafında mühüm rol oynamışdır. Bu seminariyanı Azərbaycanın bir sıra görkəmli təhsil, mədəniyyət, elm, ədəbiyyat və incəsənət xadimləri, eləcə də Ü.Hacıbəyov bitirmişdir.

Seminariyanın məzunlarından biri, məktəbi bitirdikdən sonra məktəblərdə müəllimlik edən, sonralar mətbuatda böyük uğurlar qazanan Hüseyn Minasazov 1909-cu ildə rus dilində nəşr olunan "Zaqafqaziya" qəzetində maraqlı bir fikir söyləmişdir. O, məqaləsində seminariyanın vəziyyətindən danışır və onun nəzdində olan müsəlman bölməsinin Azərbaycanın münasib şəhərlərindən birinə sərbəst şəkildə köçürülməsini təklif edir. Onun arzusu gerçəkləşdi, 1918-ci ildə Qoridə seminariya bağlandıqdan sonra F.Köçərlinin rəhbərliyi ilə Qazaxda Azərbaycan bölməsi fəaliyyətə başladı. Qori Seminariyası o dövrün ən yaxşı təhsil mərkəzlərindən biri hesab olunurdu. Bu isə təhsilə, elmə ciddi addım atan gənc Üzeyirin təkcə bədii təfəkkürünün inkişafında deyil, dünyagörüşünün formalaşmasında mühüm rol oynamışdır.

Üzeyir H. 1899-cu ildə rus-tatar məktəbini əla qiymətlərlə bitirmiş və həmin il təhsilini davam etdirmək üçün Qori Müəllimlər Seminariyasının aşağı hazırlıq sinfinə daxil olmuşdur.

Qeyd edək ki, seminariyaya qəbul olunanlar dövlət hesabına

təhsillə yanaşı, beş il oxumalı və dövlət məktəblərində də eyni məbləğdə dərs deməli idilər. Uşaqlara rus dili, hesab, musiqi və digər fənlərdən dərs deyən Üzeyir Hacıbəyov 1905-ci ildə erməni-müsəlman münaqişəsinin başlaması ilə əlaqədar Bakıya gəlir. Əvvəlcə Bayıl şəhərinin Bibi-Heybət kəndində, sonra isə "Səadət" xeyriyyə cəmiyyətinin "Səadət" məktəbində fəhlə övladlarına rus, riyaziyyat və təbiət elmlərini öyrətməyə başlayıb.

Arxiv sənədlərindən məlum olur ki, 1899-1904-cü illərdə seminariyada təhsil almış Ü.Hacıbəyova məxsus 1422 saylı şəxsi işdə bir çox xarakterik arayışlar qorunub saxlanılmışdır. Bu xarakterik məktublarda onun kitab oxumağa çox həvəs göstərdiyi, rəsm çəkdiyi, şeir yazdığı, azərbaycan dilində yazılan məqalələri rus dilinə və əksinə məharətlə tərcümə etdiyi, çox zəhmətkeş, səmimi və bacarıqlı olduğu yazılmışdır. Üzeyir bəy seminariyanın 25 illiyinə həsr olunmuş şeir də yazmışdır. Onu hətta sinifdə "tatar şairi" kimi tanıyırdılar.

Xalq mahnılarından nümunələri yenidən yazan Üzeyir bəy ilk orijinal əsərlərini də eyni üslubda bəstələməyə başlayır. Hətta R.Xəlilov (Ü.Hacıbəyovun ev-muzeyinin mərhum direktoru) öz xatirələrində deyirdi ki, seminariya rəhbərliyi Üzeyir müəllimin bu nadir istedadını nəzərə alaraq onun 1903-cü ildə Qoridə bəstələdiyi musiqi əsərlərinin notlarını təqdim etmişlər.

Üzeyir bəy ana dilini bilməklə yanaşı, rus, ərəb, fars, türk, tatar, gürcü və ləzgi dillərini də bilirdi. Bu, onun şəxsi kitabxanasından aydın görünür [1, s. 11].

Hər bir xalqın tarixində elə görkəmli sənətkarlar vardır ki, onların yaradıcılığı bu xalqın mədəniyyətinin inkişafında yeni səhifə açır, mühüm mərhələ təşkil edir. Üzeyir Hacıbəyov xalqımızın musiqi mədəniyyətinin inkişafında yeni mərhələ açmış dahi sənətkardır. O, Azərbaycan Milli Operasının banisi olmaqla dünya mədəniyyəti xəzinəsini parlaq incilərlə zənginləşdirib.

Azərbaycanda təhsil və mədəniyyət məşəlini alovlandıran Üzeyir bəy sevimli vətənində musiqi təhsili, maarifləndirmə və təbliğat sahəsində liderə çevrilmiş, böyük milli kadrlar ordusu yaratmış, musiqi sənətimizi dünyaya yüksəltməyə nail olmuşdur.

**Ədəbiyyat**

1. Hafizova S. (2009) Üzeyir bəy Qori seminariyasında. Bakı, 11 s.
2. Rzayev V. (2018) Naxçıvanda məktəb və pedaqoji fikir. Naxçıvan, "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi-2018, 392 s.
3. https://xanim.az/uzeyir-hacibeyovun-heyat-ve-yaradicilligi-172

## GÖRKƏMLİ PEDAQOQ VƏ PUBLİSİST

*Günel Qabil qızı Abbasova*
*BDU-nun Jurnalistika fakültəsinin I kurs magistrantı*
*E-mail: gunelabbasliii@gmail.com*
*Məcid Abdulla oğlu İsmixanov*
*Pedaqogika kafedrasının professoru*

Bu il 140 illik yubileyini qeyd etdiyimiz İrəvan Müəllimlər Seminariyasını Azərbaycan təhsil tarixində şərəfli bir səhifə hesab etmək olar. Xalqımızın bir sıra tanınmış nümayəndələri, maarif fədailəri - Həmid bəy Şahtaxtinski, Haşım bəy Nərimanbəyov, Haşım bəy Vəzirov, Tağı bəy Səfiyev, Vahid Musabəyov, Fərrux Ağakişibəyov, İbadulla Muğanlinski və başqaları vaxtilə ilk pedaqoji təhsillərini İrəvan Müəllimlər Seminariyasında alıblar. Onlardan biri də təəssübkeş maarifçi, pedaqoq, publisist Haşım bəy Vəzirov olub. Haşım bəy Vəzirov 1868-ci ildə Şuşa şəhərində dünyaya gəlib. Orta təhsilini Şuşa şəhər məktəbində alıb. Sonra o, təhsilini İrəvanda müəllimlər seminariyasında davam etdirib. Haşım bəy İrəvan Müəllimlər Seminariyasını bitirdikdən sonra Böyük Vedi kəndində müəllimliyə başlayıb. Sonra Cavanşir qəzasının Alpout, Şəki qəzasının Kiçik Köynük, Cavanşir qəzasının Bərdə kəndlərində pedaqoji fəaliyyətlə məşğul olub. Bir müddət isə Şuşada yaradılan müsəlman-rus məktəbinin müdiri işləyib. Şuşa realnı məktəbinin hazırlıq sinfində ana dilindən dərs deyib. 19 il müəllimlik edən Haşım bəy Vəzirov İrəvan, Bərdə, Şəki və Şuşada pedaqoq kimi fəalliyyətini davam etdirib. Çalışdığı tədris

ocaqlarında savadlı və tələbkar pedaqoq kimi tanınıb. Şagirdləri arasından müasirlərinin etiraf etdiyi kimi, "mərhumun ustalığı sayəsində həyat və məişətlərini lazımınca təmin edən ziyalılar yetişmişdilər". O, harada işləməyindən asılı olmayaraq daim müəllimliklə ictimai fəaliyyəti birləşdirib, xalqın maariflənməsində böyük əmək sərf edib. [1]

Haşım bəy Vəzirov Şuşada mədəni həyatın dirçəlməsində, Əhməd bəy Ağayevin qurduğu kitabxana və qiraətxananın fəaliyyətində, tamaşa və müsamirələrin təşkilində iştirak edib. Əliabbas Müznibin "Dirilik" jurnalında çap etdirdiyi bir materialdan öyrənirik ki, Haşım bəyin 1905-ci ildə, "müsəlman-erməni iğtişaşında göstərdiyi xidmətləri daha böyükdür. Qarabağda vaqe olan iğtişaş əsnasında müsəlmanları daima hökumət yanında və əfkari-ümumiyyə nəzərində müdafiə etmiş və dilsiz milləti əğyarın töhmət və təcavüzündən dili və qələmi ilə müdafiə və mühafizə etməkdən bir an geri durmayıb. O vəqtlərdə Qarabağın müsəlman və erməni münasibətini islahi bir yola qoymaq üçün Qafqaz hökuməti - aliyyəsi tərəfindən təyin olunan generalın hüzurunda böyük bir izdiham içində müsəlmanları müdafiə etmək yolunda mənidar və kəskin bir nitq söyləyib, nitqi sayəsində qarabağlıların hökumət nəzərində asayişsevici bir camaat olduqları bilinib. Hətta nitqinin arasında bir Quran ayəsini öylə şərh və təfsir edib ki, general fövqəladə məmnun olub mərhumdan nitqinin yazılıb ona verilməsini xahiş edib". [1]

Pedaqoji fəaliyyət H.Vəzirova xalqın məişətinin daha dərindən öyrənilməsinə imkan yaradıb. Xalq həyatından, məişətdən öyrəndikləri onun bir yazıçı-jurnalist kimi fəaliyyətinə səmərəli təsir göstərib. Haşım bəy müdir işlədiyi məktəbdə ciddi nizam-intizam yaratmaqla yanaşı, savadsızlar üçün axşam kursları da açıb. Bütün varlığıyla millətinin savadlanmasına, məktəbə gələn hər bir uşağın yüksək bilik almasına çalışıb. O, əlinin əməyi, zəhməti hesabına dolananları, cəmiyyətin bütün təbəqələrini əhatə edən çalışqan insanı millətinin sərvəti hesab edib. [2]

Hələ tələbəlik illərində Haşım bəy "Kəşkül" qəzetində kiçik yazılarla çıxış edib, xalqın savadlanması, uşaqların, xüsusən qız-

ların təhsilə cəlb edilməsi, təlimin ana dilində aparılması, avamlıq və köhnəpərəstliklə mübarizə və s. məsələlərlə bağlı mətbuatda çıxışlar edib. O, qarşılaşdığı haqsızlıqları, yalan və fırıldaqları, xalqın acınacaqlı vəziyyətini və onu bu hala salanları, tənqid atəşinə tuturdu. Bu məqsədlə məşhur məzhəkə jurnalı olan "Məzəli" jurnalında müntəzəm çıxış edirdi. Mətbuat tarixində "Molla Nəsrəddin"dən sonra məşhur satirik jurnal kimi tanınan bu mətbu orqanda təkcə məişət həyatı ilə deyil, siyasi həyatla bağlı məsələlər də geniş yer tuturdu. Burada avamlıq, köhnəpərəstlik, təhsil, maarif və mədəniyyətlə bağlı problemlər, rüşvətxorluq, xalqı cəhalətdə saxlayan din xadimləri, yalançı molla və ruhanilər tənqid olunur, gülüş hədəfinə çevrilirdilər. "Məzəli"də tanınmış yazıçılar – Məmməd Səid Ordubadi, Əli Nəzmi, Əliağa Vahid və digər qüdrətli qələm sahibləri çıxış edirdilər. [1]

Haşım bəy Vəzirov həm də yaxşı yazıçı olub. O, "Döymə qapımı, döyərlər qapını", "Evlənmək su içmək deyil", "Uprava xalanın qızı Tramvay xanımın toyu" və digər komediyaların müəllifidir. Bu komediyalarında köhnə adətlərə, ailə məişət məsələlərinə gülüb, oxucularını da güldürə-güldürə maarifləndirməyə çalışıb. Haşım bəy Vəzirovun ədəbi və ictimai fəaliyyəti də pedaqoji fəaliyyəti qədər çoxşaxəli olub. Hətta 1904-cü ildə onun tərcüməsində V.Şekspirin "Otello" faciəsi Şuşada tamaşaya qoyulur. Otello rolunda özü, Yaqo rolunda isə Məhəmməd Həsən bəy çıxış edir. Çox keçmədən Şuşa Şəhər Bələdiyyə İdarəsinə Duma qlasnı seçilir. Xalqına olan ögey, aşağı münasibətlə barışmayan Haşım bəy Bakıda rus dilində çıxan "Kaspi" qəzetində şəhərin müsəlman hissəsinə bələdiyyə idarəsinin münasibətini kəskin tənqid edən məqalə ilə çıxış edir. Bu məqalə çar mütləqiyyətçilərini hərəkətə gətirir. Azərbaycan ziyalılarını xalqından ayırmağa, onun bəsirət gözünü qapamağa çalışan hakim çinovniklər Haşım bəyin bu hərəkətindən dərhal "bəhrələnərək" onu vətənindən sürgün etdirirlər. Beləliklə, onun ilk sürgün həyatı başlayır. [1]

1906-cı ilin ortalarında gənc ziyalı sürgündən qayıdaraq əvvəlcə Şuşaya, oradan da Bakıya gəlir və Bakıda Əhməd bəy Ağaoğ-

lunun "İrşad" qəzetində fəaliyyətə başlayır. Sonradan bir müddət H.Vəzirov qəzetə redaktorluq edir. "İrşad"dakı fəaliyyəti ilə Vəzirovun professional jurnalistlik fəaliyyəti, 1906-cı ildən 1916-cı ilədək Azərbaycan dövri mətbuatının inkişafında müstəsna rolu başlayır. Bu vaxt Azərbaycanda xalqın tərəqqisi, milli azadlıq ideyaları ilə silahlanmış yeni ziyalı nəsli yetişirdi. Haşım bəy Vəzirov da öz qələmi, peşəsi və ictimai fəaliyyəti ilə bu mübarizəyə qoşulanların ön cərgəsində idi. Onlar xalqın nicata qovuşmasının, istiqlalın yeganə təbliğatçısı kimi mətbuatı görürdülər, bunun uğrunda da savaşırdılar. İdeya müəllimləri də böyük Həsən bəy Zərdabi idi. İrticanın hökm sürdüyü, xüsusən, türk mətbuatı və nəşriyyatı üzərində ciddi senzura nəzarətinin olduğu bir vaxtda çətinliklə də olsa, Haşım bəy Vəzirov "Tazə həyat" qəzetinin nəşrinə icazə alır və 1907-ci il aprelin 1-də özünün redaktorluğu ilə qəzetin birinci nömrəsi çapdan çıxır. "Tazə həyat"ın qarşısına qoyduğu birinci məsələ müsəlmanları düşdükləri fəlakətdən, faciəli vəziyyətdən çıxarmaq idi. Redaktor yazırdı: "Biz istəyirik ki, millətimiz xoşbəxt olsun, millətimizin xoşbəxtliyi qeyri millətlərin bədbəxtliyi üzərində qurulsun, demirik. Biz bütün millətlərin və insanların həddi-kəmalə yetişməyinin, onlar ilə bahəm öz millətimizin də xoşbəxtliyinin tərəfdarıyıq". Çox keçmir ki, qəzet ətrafına Mirzə Ələkbər Sabir, Məhəmməd Hadi, Ə.Müznib, Məmməd Səid Ordubadi, Süleyman Sani Axundov, Tağı Şahbazi, Mir Mehdi Seyidzadə, Mirzə Şərif Əfəndizadə, Bayraməli Abbaszadə, Məşədi Azər, Cəlal Yusifzadə və başqa qələm sahiblərini toplayır. Onlar ədəbi, ictimai-publisistik əsərləri ilə "Tazə həyat"da çıxış edir, millətini millət kimi yaşamağa, inkişaf etməyə çağırırdılar. Bunun qarışılığında onlar "mükafatsız" qalmırdılar. Tez-tez qəzetləri bağlanır, özləri həbs edilib sürgünə göndərilir, hədə-qorxu hədəfinə çevrilirdilər. [3]

1908-ci ilin sentyabrında Bakı general-qubernatorunun əmri ilə "Zərərli istiqamətinə görə" "Tazə həyat"ın nəşri 230-cu sayında dayandırıldı. Bu isə o demək idi ki, bu qədər ziyalının xalqa söz dediyi tribuna əlindən alınmışdı. Əlacsız qalan Haşım bəy bu

dəfə də Bakı qradonaçalnikinə müraciət edərək “İttifaq” adlı yeni qəzet çıxarılmasına icazə istəyir və elə həmin ilin noyabrında naşir-redaktor şəhadətnaməsini alaraq “Orucov qardaşları”nın mətbəəsində “İttifaq”ın nəşrinə başlayır. Bu dəfə də qəzetin ətrafına dövrün görkəmli şair, jurnalist və yazıçıları - Hüseyn Cavid, Məhəmməd Hadi, Əliqulu Qəmküsar, Məmməd Səid Ordubadi, Dadaş Bünyadzadə, Əli Müznib, Cəlal Yusifzadə və başqaları toplaşırlar. Onlar “İttifaq”ın səhifələrində bədii-publisistik yazılarla, şeir və felyetonlarla çıxış edirdilər. Haşım bəy özü “İttifaq”da yazılarını həm açıq, həm də gizli imzalarla dərc etdirirdi. “Keyfim gələndə”, “Birisi”, bəzi yazılarının axırında isə “H.Vəzirov” imzası qoyardı. Lakin senzura “İttifaq”dakı ziyalı toplusundan da təşvişə düşərək qəzeti cəzalandırmaq haqqında qərar çıxarır və 1909-cu ildə “İttifaq” da bağlanır. Yaşadıqlarından və başına gətirilənlərdən heç də yorulub çəkilməyən Haşım bəy bu dəfə də “Səda” qəzetinin nəşrinə nail olur.

Redaktor-naşir qəzetin birinci nömrəsində “İttifaq”ın bağlanma səbəbini ərzi-hal etdikdən sonra “Səda” haqqında bunları deyir: “Hər halda millətimizə ölüncəyə qədər xidmət etmək təmənnasında varıq. “Səda”nın məsləki millətimizin tərəqqisinə və oyanışına çalışan müsəlmanları ittifaq və ittihada dəvət etməkdən ibarət olacaq, dili isə türk, sadə Azərbaycan dili olacaq”. Lakin Baş Mətbuat İşləri İdarəsi Stolıpinin əmrinə əsaslanaraq az-çox çıxan qəzet və jurnallar, nəşriyyat və mətbəələr üzərində irticaya başlayır, redaktorları haqsız yerə cərimələyir, məhkəməyə cəlb edirdi. Məqsəd necə olursa-olsun, müsəlmanların ana dilində qəzeti çıxmamalıdır, onları yatdığı yuxudan kimsə oyatmamalıdır, bu işə başlayanlar cəzalandırılmalıdır. Haşım bəy Vəzirov məhz belə bir ağır şəraitdə jurnalistlik fəaliyyətini cəsarətlə davam etdirirdi. Ətrafında daha çox ədəbi qüvvə toplamış “Səda” artıq 5 min nüsxə tirajla çap olunurdu. Lakin 1911-ci il martın 18-dən 19-na keçən gecə jandarm idarəsi bir qrup mətbuat işçisini, o cümlədən Haşım bəy Vəzirovu həbs edərək Bayıl həbsxanasına salır. Mətbuat işçilərinin kütləvi həbsini digər qəzetlər səhifələrinə çıxara-

raq yazırdılar ki, "Səda", "Nicat", "Yeni həqiqət", "Yeni Füyuzat" və "Şəhabi-sadiq" qəzetlərinin idarələri axtarıldıqdan sonra müdir və mühərrirləri həbsxanalara göndərildi. [1]

Haşım bəy həbsdən qayıtdıqdan sonra - 1911-ci il avqustun 14-də qəzetin 146-cı sayında dərc edilmiş bir məqaləsinə görə qəzetin nəşri dayandırılır. H.Vəzirovun yenə də ağır günləri başlayır, yenə də günlərlə jandarm idarəsinə gedərək mətbuatsız yaşaya bilmədiyini izhar edir və yalvarır ki, "Səda"sını ona qaytarsınlar. Onun həyatını və jurnalistlik fəaliyyətini öyrəndikcə, aydın olur ki, bu fədakar insanın yaşadığı qısa ömür ardı-arası kəsilməyən münaqişələrdə, mübahisə, təqib, cərimə və həbslərdə, hökumət idarələrində, sürgündə, bir sözlə, mətbuat hüququ uğrunda çarpışmalarda keçib. "Panislamizm məsələsi və ermənilər" başlıqlı silsilə yazılarında işğalçı dövlətlərin panislamizm ilə mübarizədə məqsədləri, millətçi ermənilərin öz riyakar hərəkətlərini həyata keçirmək üçün hər qorxulu işlərə əl atdıqları, müsəlman aləmindəki daxili ziddiyyət və çəkişmələr, məzhəb münaqişələri ətraflı şərh olunurdu.

Mütəxəssislər Haşım bəyin qəzetçilik fəaliyyətini sələfi Həsən Bəy Zərdabi və Ünsizadə qardaşları ilə müqayisə edirlər. O, da çap etdiyi qəzet və jurnalların həm naşiri, redaktoru, həm korrektoru, bəzən çapçısı da olurdu. Onların maddi vəziyyətləri də bir-birinə oxşar olub. Sonralar yaratdığı "Nicat" Maarif Cəmiyyəti güzəştli qiymətlə aldığı mətbəəyə "Səda" adını vermişdi. Burada qəzetlərlə bərabər, dərsliklər, yazıçıların orijinal əsərləri, tərcümələr və dini kitablar da nəşr olunurdu. N.Vəzirovun "Ağa Kərim xan Ərdəbili" və "Vay şələküm, məlləküm", M.S.Ordubadinin "Qanlı sənələr", Y.V.Çəmənzəminlinin "İki hekayə" adlı kitabları və bir çox kitablar çap olunmuşdu.

Cəfakeş jurnalistin, azadlıq savaşçısının yaşadığı sürgünlər, həbslər, qadağalar tezliklə özünü göstərdi. 1916-cı il fevralın 4-də Haşım bəy Vəzirov ailəsini, nəşri yarımçıq qalmış "Sədayi Qafqaz" qəzetini və borcunu tamamilə ödəyə bilmədiyi "Səda" mətbəəsini silahdaşlarına əmanət edib dünyasını dəyişdi. Görkəmli

ictimai-siyasi xadim Nəriman Nərimanov cəfakeş jurnalistin dəfn mərasimində deyirdi: "İştə Haşım bəy öldü. O, iki yaradıcı qüvvətlərdən birini özü ilə apardı, bizi insanlıq dərəcəsinə dəvət edən qüvvəti isə bizimlə qaldı. Bu qüvvət bizə kiridar verib qələbəmizi qüvvətləndiriyor, Bizə ümid yolu açıb da diyor: - Millətin məsudluğu insanlara bağlıdır". [3]

**Ədəbiyyat**


1. az.wikipedia.org/wiki/Haşım_bəy_Vəzirov
2. edu.gov.az/az/news-and-updates/19472 ("Qarabağın məşhur müəllimləri" – Haşım bəy Vəzirov)
3. Hüseynzadə R.L. İrəvan pedaqoji mühiti. Elmin inkişafına dəstək ictimai birliyi. 13 yanvar, 2016
4. Rüstəmov F.A. İrəvan Müəllimlər Seminariyası - 140. Azərtac, 13 yanvar, 2022


## İRƏVAN MÜƏLLİMLƏR SEMİNARİYASININ MƏZUNU H.B. ŞAHTAXTİNSKİNİN ELMİ-PEDAQOJİ VƏ MAARİFÇİLİK FƏALİYYƏTİ


***Süleyman Vüqar oğlu Abbasov***
***BDU-nun I kurs magistrantı***
***absuleyman555@gmail.com***
***Məcid Abdulla oğlu İsmixanov***
***Pedaqogika kafedrasının professoru***
***m.ismixanov@mail.ru***


Tarixi Azərbaycan torpağı İrəvan şəhərində Müəllimlər Seminariyasının fəaliyyətə başlaması şəhərdə yeni tipli ictimai-pedaqoji mühitin formalaşmasına mühüm təsir göstərdi. Burada müxtəlif millətlərin nümayəndələri ilə yanaşı, azərbaycanlılar da təhsil alırdı. 1881-ci il noyabrın 3-də tərkibində iki sinif olmaqla İrəvan Müəllimlər Seminariyasının I sinfinin açılışı olmuşdur. Seminariyanın ilk direktoru Yakob Suşevskinin səyi nəticəsində birin-

ci il seminariyaya 9 müəllim və 42 şagird cəlb edilmişdi. 1882-ci ildə seminariyanın II sinfi, 1883-cü ildə III sinfi açılmışdır. Qafqazda olan bütün müəllimlər seminariyası kimi, İrəvan müəllimlər seminariyası da 4 sinifdən ibarət olmuşdur.[3] İrəvan Müəllimlər Seminariyasının pedaqoji kontingentinin formalaşmasında əsasən Qori müəllimlər seminariyasının məzunlarından istifadə edilmişdir. Seminariyanın əsasnaməsinə görə, bu təhsil ocağına ancaq oğlanlar qəbul oluna bilərdilər. İrəvan Müəllimlər Seminariyası və gimnaziyasının təşkil edilməsi Cənubi Qafqazda maarifçiliyin daha geniş vüsət almasına ciddi təsir göstərdi. Seminariyanın məzunları nəinki İrəvanın, eləcə də Tiflis də daxil olmaqla bütün Qafqazda yeni maarifçilik hərəkatının yayılmasında, ictimai-humanitar düşüncənin formalaşmasında mühüm xidmətlər göstərmişdir. İrəvan Müəllimlər Seminariyasında ilahiyyat, rus dili, hesab, həndəsə, coğrafiya, tarix və biologiya fənləri ilə yanaşı, tatar (Azərbaycan dili) dərsləri də keçirilirdi. İrəvan Müəllimlər Seminariyasının ilk buraxılışı 1884-cü ildə olmuşdur. Həmin il məktəbin 5 nəfər məzunu olmuşdu. XIX əsrin sonlarında Zaqafqaziyada işləyən kənd məktəbləri müəllimlərinin və müdirlərinin xeyli hissəsi ekstern yolu ilə imtahan verərək müəllimlik hüququ əldə etmişdilər. İrəvan Müəllimlər Seminariyasında dərs deyən ilk azərbaycanlı müəllim dövrünün görkəmli alimi Məmmədbağır Qazızadə olmuşdur. O, seminariya açılan gündən 1897-ci ilə qədər burada ilahiyyat və tatar dili (Azərbaycan dili) fənlərini tədris etmişdir. Seminariyada Azərbaycan məktəbləri üçün müəllimlərin hazırlanmasında bir çox ziyalıların böyük rolu olmuşdur. Bunlardan Axund Məmmədbağır Qazızadə, Mirzə Məmmədvəli Qəmərli, Rəşid bəy Şahtaxtinski, Həmid bəy Şahtaxtinski, Cəfər bəy Cəfərbəyov, Məmməd Axundov, Rəhim Xəlilov, Ələsgər Kərimov, Mirzə Cabbar Məhəmmədzadə ayrı-ayrı vaxtlarda seminariyada şəriət və ya tatar dili (Azərbaycan dili) fənnini tədris etmişlər.[4]

İrəvan Müəllimlər Seminariyasında 1904-cü ildə Rəşid bəy Şaxtaxtinski, 1907-ci ildə isə Həmid bəy Şahtaxtinski tatar (Azərbaycan dili) fənnini tədris etmişlər. Həmid bəy 23 oktyabr 1907-

ci ildə İrəvan Müəllimlər Seminariyasından azad edildikdən sonra onun yerinə Mirzə Cabbar Məmmədzadə tatar dili (Azərbaycan dili) fənnini tədris etmişdir. Mirzə Cabbar Məmmədzadə 19 yanvar 1913-cü ilə qədər İrəvan Müəllimlər Seminariyasında tatar dili (Azərbaycan dili) müəllimi işləmişdir. İrəvan Müəllimlər Seminariyası 1915-ci ildə Sərdarabada (indiki Armavirə) köçürüldü və 1918-ci ilə kimi orada fəaliyyət göstərdi. Həmin dövrdə seminariyaya V.Dobrıni rəhbərlik etmişdir.[2]

Həmid bəy Şahtaxtinski 1880-ci il martın 12-də Naxçıvan qəzasının Şahtaxtı kəndində anadan olmuşdur. İlk təhsilini mollaxanada almış, sonra üçüncü dərəcəli şəhər məktəbində oxumuşdur. Həmid bəy 1895-ci ildə İrəvan Müəllimlər seminariyasına daxil olmuş, 1899-cu ildə oranı bitirmişdir. Müəllimlik fəaliyyətinə İrəvan rus-tatar məktəbində Azərbaycan dili müəllimi kimi başlamışdır. İki ildən sonra 1901-ci ildə Qafqaz tədris dairəsi Təhsil idarəsinin fərmanı ilə Həmid bəy Şaxtaxtinski İrəvan Müəllimlər Seminariyasında türk dili müəllimi, 1902-ci ildə isə Azərbaycan şöbəsinin rəhbəri təyin edilir. İrəvan müəllimlər seminariyasında 5 ildən artıq bir müddətdə pedaqoji fəaliyyət göstərdikdən sonra 1907-ci il oktyabrın 23-də öz xahişi ilə vəzifəsindən azad edilmişdir. Bu müddətdə "Müsəlman xeyriyyə cəmiyyəti" nin üzvü olmuşdur.[2]

1907-ci ildə H. Şahtaxtinski Odessa Universitetinin hüquq fakültəsinə daxil olmuş, ikinci kursda oxuyarkən xəstəliyi üzündən Bakıya qayıtmış, 1908-ci ildə Bakı Alekseyevsk ali hazırlıq məktəbində müəllim işləmiş, 1909-cu ildə yenidən Odessaya qayıdaraq təhsilini davam etdirmişdir. 1912-ci ildə universiteti bitirərək hüquqşünas ixtisasına yiyələnmişdir. Tələbəlik illərində buradaki "Azərbaycan həmyerlilər təşkilatı" nın rəhbərlərindən biri olmuşdur.

Həmid bəy Şahtaxtinski Odessada ali təhsilini başa vurduqdan sonra Bakıya – ailəsinin yanına qayıtdı. 1913-cü ildən Bakı quberniyası Xalq məktəbləri direktorunun icazəsi ilə müəllimləri hazırlamaq üçün şəxsi kurslar açdı və eyni zamanda əvvəl Ramanada, sonra isə 1916-cı ilə qədər Alekseyevsk peşə məktəbində müəllim olaraq çalı-

şır, az keçmədən Qafqaz Təhsil dairəsi müdirinin əmri ilə Yelizavetpol şəhərindəki Müəllimlər Seminariyasına riyaziyyat müəllimi təyin olunur, bir il sonra isə keçmiş Yelizavetpol quberniyasının məktəblərinin baş müfəttişi vəzifəsində işləyir.[2]

H. Şahtaxtinski Rusiyada Fevral inqilabından sonra siyasi fəaliyyətə başlamışdır. 1917-ci ildə Tiflisdə keçirilən Müəllimlər qurultayında Müvəqqəti Zaqafqaziya Hökuməti tərəfindən Qafqaz Təhsil dairəsi komissarlığının üzvlüyünə seçilir, 1918-ci ildə Zaqafqaziya Seymi formalaşdıqdan sonra isə Zaqafqaziya Hökumətinin Xalq Təhsil naziri vəzifəsində çalışır.

H. Şahtaxtinski Azərbaycan Cümhuriyyəti dövründə 1919-1920-ci illərdə ADR-da Təhsil və Dini işlər naziri olmuş, maarif sisteminin inkişafına böyük əmək sərf etmişdir.[2]

O, Azərbaycanın şəhər və kəndlərində ana dilində məktəb və seminariyaların açılmasında, Bakı Dövlət Universitetinin açılışının təşkilində önəmli rol oynamışdır, orada müəllim, dekan, prorektor (1919–1925) kimi çalışmışdır. O, eyni zamanda Azərbaycan Cümhuriyyəti Hökumətinin tapşırığı ilə xalq təhsilinin yaxşı mütəxəssisi kimi Ali Pedaqoji İnstitutun yaradılması layihəsini tərtib etməyə başlamış, bu işi Azərbaycan sovetləşəndən sonra axıra çatdıraraq, Xalq Komissarları Sovetinin Sədri N. Nərimanova təqdim etmişdir. Həmçinin 1930-1940-cı illərdə Azərbaycan Dillər İnstitutunda və Azərbaycan Dövlət Tibb İnstitutunda işləmişdir. 1929-cu ildən professor kimi fəaliyyət göstərmişdir. H. Şahtaxtinski Azərbaycanın ümumtəhsil məktəbləri üçün dərsliklərin, Azərbaycan dilində elmi terminalogiya lüğətlərinin tərtibi üzrə komissiyaların sədri olmaqla yanaşı yeni Azərbaycan əlifbasının yaradılmasında da yaxından iştirak etmişdir.

Şahtaxtinski sovet repressiyasına məruz qalmış, 1941-ci ildə sürgün edilmiş, 1944-cü il fevralın 3-də Arxangelsk vilayətində sürgündə həlak olmuşdur.[2]

1918-ci ildə ermənilərin azərbaycanlılara qarşı törətdikləri etnik təmizləmə İrəvan Müəllimlər Seminariyasının fəaliyyətini dayandırmasına səbəb oldu. Müəllimlərin və tələbələrin bir qismi

amansızcasına qətlə yetirildi, sağ qalanlar isə doğma yurdlarını tərk edib, Türkiyə və Azərbaycana qaçaraq pənah gətirdilər. Ermənilər havadarlarının köməyilə bizləri tarixi torpaqlarımızdan didərgin salsalar da, Qərbi Azərbaycanda fiziki varlığımıza son qoysalar da, tarixin səhifələrindən silə bilmirlər. Çünki tarixin hər səhifəsində izimiz və irsimiz var. İrsimizə bütünlüklə sahib çıxmaq vaxtıdır.!

**Ədəbiyyat**


1. Əhmədov H.M. Şərəfli yol. B., 2009 N2
2. en.m.wikipedia.org/wiki/Həmid_bəy_Şahtaxtinski
3. Misir Mərdanov, Cəlal Allahverdiyev, Azərbaycan təhsil tarixinin şərəfli səhifəsi. 525-ci qəzet, 28 avqust, 2021
4. Nazim Mustafa Tanınmış İrəvan ziyalıları. İrevan.info/html


## НАШИ ПЕДАГОГИЧЕСКИЕ КОРНИ


***Улькер Эльхановна Алекперова***
***БГУ, Магистрантка II курса***
***yushey@list.ru***


Созданный 20 октября 1880 года Иреванская Учительская Семинария является одним из исторических доказательств обладания азербайджанским народом педагогическими знаниями, культурой и высого уровня образованности. Её открытие состоялось 8 ноября 1881 года. Здесь помимо научных предметов уделялось особое внимание на обучение Азербайджанского языка и шариатским урокам. Этот фактор является непростым: заведение было открыто в Иреванской губернии, которая является родной землёй для многих азербайджанцев, тюркских народов и мусульман. Выпускники этой же семинарии после окончания свою жизненную деятельность посвящали на открытие образовательных заведений в сёлах, получение начального образования жителями

этих местностей, одним словом, борьбе безграмотностью. Известные просветители как Вахид Мусабеков, Гашим бек Нариманбеков, Фарух бек Агакишибеков, Гашим бек Везиров также являются выпускниками этой семинарии. Это историческое событие стало толчком в формировании азербайджанской национальной педагогики. Для своего времени оно является крупномасштабным и очень значимым, на сегодняшний же день является великим историческим фактом проживания на этих землях наших предков.

Педагогические знания, которые передались нам с тех дней, отражаются в деятельности нашей молодёжи и являются базовой причиной формирования педагогического духа у народа. В целях образовательной политики государства также можно наблюдать значительные сходства с образовательными целями того периода. Современные условия, изменения в обществе, естественно, показывают свои характерные черты. Однако, любовь к Родине, к детям, религиозные взгляды, элементы культуры, которые передавались нам от наших предков, сказываются в конструировании современной национальной образовательной модели.

Прогрессирование образования привело изменению многих факторов в данной сфере. Одним из новшеств является внедрение процессов мониторинга и оценивания в образовательной сфере. Изучение истории возникновения мониторинга убеждает в том, что впервые данный термин появился в экологии. В почвоведении процесс постоянного наблюдения за состоянием плодородного слоя земли стал называться специальным термином – мониторинг (англ. «следить», «вести наблюдение»). Термин стал распространяться на другие области общественной деятельности. Мониторинг в образовании- понятие, которое появилось в XIX веке. Его основали священник Эндрю Белл и учитель Джозеф Ланкастер. Введение стандартов и оценка соответствия им содержания программ обучения в различных образовательных учреждениях и заложили основу мониторинга в системах образования, ин-

терес к развитию которого естественным образом усиливался в периоды проведения реформ. Именно мониторинг позволяет выстроить систему взаимодействия в управленческой структуре образовательной организации, находить конкретные пути решения имеющихся проблем на педагогическом совете, на собрании трудового коллектива или методическом совете учреждения.

Качество образования, высокий уровень академической жизни актуально прослеживаются со стороны Министерства Просвещения АР. Для контролирования этих факторов процесс мониторинга соответствует всем требованиям, отвечает на все необходимые вопросы, показывает пути решения актуальных проблем. Как влюблённая в свою Родину гражданка считаю, что задача нынешних поколений- стать хозяевами исторического наследия созданного нашим народом на исконных землях азербайджанских тюрков в Западном Азербайджане. После 44-дневной войны Азербайджан создал в регионе новые реалии и наметил новые стратегические цели. В своем выступлении на VI съезде партии «Ени Азербайджан» Президент Ильхам Алиев сказал: «… мы не должны забывать и не забываем наши исторические земли. Это должно стать ориентиром для нашей дальнейшей деятельности, так же, как мы и сегодня работаем в данном направлении. Наши исторические земли – Иреванское ханство, Зангезур, Гейча. Об этом должно знать и молодое поколение, и весь мир». Зная эти слова, становится необходимым совмещение нынешней образовательной политики с политикой наших педагогических корней.

## Литература


1. Бабайцева В. В. Избранное. 2005 – 2010: Сборник научных и научно-методических статей
2. Майоров А. Н. Мониторинг как научно-практический феномен // Школьные технологии. 1998.

3. https://www.sdu.edu.az/ru/news_society/71
4. https://ru.wikipedia.org/wiki/%D0%A3%D1%87%D0%B8%D1%82%D0%B5%D0%BB%D1%8C%D1%81%D0%BA%D0%B0%D1%8F_%D1%81%D0%B5%D0%BC%D0%B8%D0%BD%D0%B0%D1%80%D0%B8%D1%8F

## ПОЧЕТНАЯ СТРАНИЦА АЗЕРБАЙДЖАНСКОГО ОБРАЗОВАНИЯ

***Гюнель Фуад гызы Мамедова***
***Магистрантка II курса кафедры Педагогики БГУ***
***gunel-mamedova@internet.ru***

Город Иреван прославился как один из крупных научных и культурно-просветительных центров, где исторически проживало коренное азербайджанское население. После того, как Иреванское ханство было включено в состав России, здесь светскому образованию уделялось особое внимание. До 70-х годов XIX века на Кавказе не было ни одного учебного заведения, готовившего педагогических кадров для преподавания светских предметов. До этого времени, в качестве учебных заведений действовали только медресе при мечетях и моллаханах. Но они постепенно пришли в упадок и должны были уступить место светским школам. Именно в этот период азербайджанская интеллигенция начала активную борьбу за развитие образования и привлечение молодежи к нему.

8 ноября 1881 года открылась Иреванская учительская семинария. Ее создание повлияло на распространение просвещения на Южном Кавказе. Иреванская семинария была создана азербайджанскими тюрками и на протяжении тысячелетий являлась культурно-просветительным центром интеллигенции. Это учебное заведение просуществовало 37 лет. Педагоги Азербайджанского отделения семинарии сыграли роль в создании журнала «Молла Насреддин», «Совгат»,

«Иршад» и многих других. Именно журнал «Молла Насреддин» критиковал школьную систему того времени и рекомендовал опираться на педагогические учения Ж.Ж.Руссо, И.Г.Песталоцци, Я.А.Коменского и других. Выпускники получили лицензию сельских учителей и приняли участие в открытии школ и привлечении детей к образованию. Наличие профессиональных и образованных педагогов привело к повышению качества преподавания. Благодаря их деятельности был обеспечен высокий уровень образования.

Эта семинария стала одним из важных центров образования и науки, в котором учили чтению, письму и шариату. Создание школьной системы относят именно к 30- ым годам 19 века. А принятая «Инструкция на получение образования» дало право мусульманам, учиться наравне с православными.

Обучение длилось в течение трех лет, при нем действовали подготовительный класс и начальная школа. Здесь студенты практиковали свой педагогический опыт. Вступительные экзамены проводились по богословию, русскому языку, арифметике, геометрии, географии, истории и биологии. Ввиду того, что большую часть населения составляли азербайджанские тюрки –мусульмане, где также преподавался азербайджанский язык и шариат, кроме этого обучали русскому языку, математике, географии, истории.

Иреванская учительская семинария сыграла огромную роль в воспитании и подготовке педагогических кадров 19 века. Среди выпускников были такие выдающиеся личности, как Фируддин бек Кочарли, Нариман Нариманов, Узеир Гаджибеков, Джалил Мамедгулизаде и другие. Одним из первых учителей был именно Фируддин бек Кочарли. В результате его усилий, учительские семинарии начали действовать в Баку и Гяндже. К началу XIX века долгое время мектебы и медресе были единственными очагами просвещения среди азербайджанского и тюркского этноса на Кавказе. Многие мектебы и медресе обеспечивали профессиональную подго-

товку в области восточных языков и литературы.

Но не все учителя допускались к преподаванию в школах. Они проходили особое испытание на звание «муэллим» (учитель). Учителя должны были хорошо знать грамматику азербайджанского и фарсидского языка, уметь объяснять прочитанное в книгах на этих языках, правильно читать Коран. На этих испытаниях присутствовали депутаты и почетные лица из числа мусульман. Довольно часто, отдельные лица открывали у себя на дому школы, что воспрещалось законом. Это происходило потому, что школы, открытые без разрешения высшего начальства, закрывались. Причиной всему этому являлась боязнь распространения в школах, открытых без ведома начальства, неправильной системы обучения. Следует также добавить, что со второй половины XIX века и в начале XX века традиционные школы стали вытесняться новыми методами, в которых вводилось обучение русскому языку. Открытие новых учебных заведений без введения русского языка для мусульманского духовенства становилось невозможным. Это было одним из важных условий для всех мусульманских учебных заведений по всему Кавказу, в том числе и для города Иреван. Несмотря на то, что традиционно в азербайджанских семьях предпочитали именно начальное образование детей при мечетях и мектебах, как и было отмечено ранее, определенная часть учащихся-азербайджанцев обучалась в светских школах. Необходимо упомянуть о Распоряжении Президента Азербайджанской Республики Ильхама Алиева о праздновании 140- летия этой учительской семинарии в декабре 2021 года. Согласно данному Распоряжению, предпринимается подготовить ряд мероприятий, связанных с 140-летием Иреванской учительской семинарии.

Среди выпускников Иреванской учительской семинарии, которая начала свою деятельность в ноябре 1981 года, было много известных деятелей Азербайджана. Все их заслуги сыграли очень важную роль в воспитании и развитии образо-

вания. Таким образом, Ереванская учительская семинария внесла большой вклад в развитие национального образования и сыграла важную роль в педагогике.

### Литература


1. Hüseynzadə R. Zaqafqaziya Müəllimlər Seminariyasının Naxçıvanlı məzunları//Azərbaycan məktəbi, 2010 №1
2. Zeynalov Ə. İrəvan ziyalıları. Bakı: Oğuz eli, 1999
3. https://www.aqra.az
3. sdu.edu.az


## FİRUDİN BƏY KÖÇƏRLİNİN "BALALARA HƏDİYYƏ" KİTABININ TƏRBİYƏVİ ƏHƏMİYYƏTİ


***Nuranə Elçin qızı Kərimova***
***Bakı Dövlət Universiteti Sosial Elmlər və Psixologiya fakültəsi***
***Pedaqogika nəzəriyyəsi və tarixi ixtisaslaşması l kurs magistr***
***nuranakarimova659@gmail.com***


İrəvan Müəllimlər Seminariyası Azərbaycan pedaqoji fikir tarixində özünəməxsus yer tutur. Seminariyanın müəllim kollektivi sırasında fəxr hissi ilə Firudin bəy Köçərlinin adını qeyd etmək lazımdır. Azərbaycan maarifçiliyi tarixində özünəməxsus yeri olan Firudin bəy Köçərli pedaqoq, ədəbiyyatşünas alim, metodist kimi tanınmışdır. Firudin bəyin ədəbiyyatımız tarixindəki ən mühüm rolu ondan ibarətdir ki, o ilk dəfə Azərbaycan ədəbiyyatını "Azərbaycan ədəbiyyatı tarixi materailları" əsərində sistemləşdirir, ədəbiyyatı dövrlərə bölür və hər dövrün ədiblərinin əsərində yer verir. Firudin bəy Köçərli bundan başqa "Təlimi-Sokrat" adlı əsəri, "Torçu və balıq", "A kişi niyə yatıbsan?"," Üç xurma ağacı" kimi tərcümələrin müəllifidir. Bu dövrdə Firudin bəyi narahat edən ən mühüm məsələlərdən biri dərslik problemi idi. Firudin bəy Zöhrabzadə ilə birlikdə "Təlimi-lisani-türki" adlı dərsliyin, eləcə də "Balaları hədiyyə" kitabının müəllifidir. "Balalara hədiy-

yə" kitabı uşaq folklorunun öyrənilməsi və uşaq tərbiyəsinin formalaşdırılmasına yönəlmiş ilk addımlardan idi. "Balalara hədiyyə" kitabı Azərbaycan antologiyasında ilk uşaq antologiyası nümunəsidir. Kitabda xeyli sayda atalar sözü, məsəllər, tapmacalar, laylalar, nağıllar və s. şifahi xalq ədəbiyyatı nümunələri yer alır. Ümumiyyətlə, "Balalara hədiyyə" kitabı xalq pedaqogikasını öyrənmək baxımından böyük əhəmiyyətə malikdir. Kitab Firudin bəyin sözləri ilə başlayır. Müəllif kitabı yazma səbəbini qeyd edir ki, atalar sözləri məsəllər, tapmacalar, laylalar, nağıllar, təmsillər, vətənpərvərlik şeirləri yer alır, böyükdən kiçiyə hər kəsin zövqünü oxşayacaq. Ailə kiçik bir dövlətdir. Aydın məsələdir ki, şifahi xalq ədəbiyyatında xalq hikməti, mənəviyyat ucalığı, dosta sadiqlik, əhdə vəfa kimi insani keyfiyyətlər, eləcə də ailə dəyərləri yer alır. "Balalara hədiyyə" kitabında "laylalar" başlıqlı hissə yer alır. Qədimdən bəri analar övladları üçün laylalar söylərmişlər ki, bu da uşaqların psixologiyasında və mənəvi inkişafina təsir göstərərdi. Kitabda verilən laylada ananın övladı üçün keçirdiyi qüvvətli hislər, onun gələcəyi üçün düşüncələri, hətta Allahdan onu qoruması üçün dua etməsi, ananın çəkdiyi cəfa əksini tapıb.

Layla dedim adına,
Haqq yetişsin dadına,
Hər layla eşidəndə,
Balam düşəryadıma.

Qloballaşan dünyada baş verən hadisələr göstərir ki, tərbiyənin təməli ailə qoyulur. Bütün mənəvi, əxlaqi keyfiyyətlər də ailədə formalaşır. Təsadüfi deyil ki, Firudin bəy "Balalara hədiyyə" kitabında "Ata olmayan ata qədrini bilməz", "Anası çıxan ağacı qızı budaq-budaq gəzər", "Qırağına bax - bezini al, anasına bax - qızını al", "Ata oğula bağ qıydı, oğul ataya salxım qıymadı", "Oğul atanın kövşənini əkər" kimi atalar sözlərindən istifadə etməklə ailə dəyərlərinin cəmiyyət üçün nə qədər gərəkli olduğunu vurğulamışdır. Uşaq ilk göz açdığı gündən ailənin üzərinə böyük məsuliyyət düşür. Ailə yaşanan bütün problemlər və yaxud örnək götürüləsi hadisələr birbaşa uşağın inkişafına təsir göstərir. Firudin bəyin kitaba saldığı bu atalar sözləri dastançılıq ənənəmizdə də özünü göstərib. "Dədə-Qorqud" dastanında "Qazan bəyin oğlu

Uruzun dustaq olduğu boy”da bunun şahidi oluruq. Məclis qurub bəyləri ətrafına toplayan Qazan xan sağında solunda ad çıxarmış igidləri görüb sevinir. Oğlu Uruzu görəndə ağlamağa başlayır. Uruz səbəbini soruşanda Qazan xan deyir ki, indiyədək bir igidlik etməmisən, məndən sonra yurdum sənə qalacaq, sonumu görüb ağladım. Uruz deyir ki, ağam Qazan oğul hər şeyi atadan öyrənər, sən mənə ox atmağı, qılınc tutmağı nə zaman göstərdin? Təkcə bu misaldan aydın olur ki, övlad uşaq tərbiyəsi üçün ata-ananın davranışları, onların dünyagörüşləri nə qədər əhəmiyyətlidir. Bacı-qardaş münasibətlərinin möhkəmliyinə dair “Can versən, qardaşa ver, min il getsə, yad olmaz”, “Yaxşı gündə yad qonşu, yaman gündə vay qardaş” kimi atalar sözlərinin yer alması övlad tərbiyəsində xalq pedaqogikasının rolunun göstərməkdədir. Ailə tərbiyəsində yol verilən səhvlər pedaqoji tərbiyədə problemlər doğuran başlıca faktorlardandır. Uşaq üzərində ailə tərbiyəsinin düzgün tənzimlənməməsi, valideynin uşaqlara doğru qayğı göstərməməsi, yaş mərhələlərinə uyğun uşaqla davranışın düzgün tənzimlənməməsi ciddi tərbiyə problemlərinə gətirib çıxar bilir, çünki uşaqları əvvəlcədən necə öyrətsən, hansı istiqamətdə tərbiyə etsən, onlar da həmin istiqamətdə formalaşacaqlar. Məhz ailə tərbiyəsinin mental dəyərlər çərçivəsində təşkil edilməsində “Balalara hədiyyə” kitabı əvəzsiz vasitədir.

Kitabda uşaqlarda əməyə hörmət, əmək anlayışının yaradılmasına dair şifahi xalq ədəbiyyatı nümunələrinin yer alması vacib məqamlardandır.Hərtərəfli inkişaf etmiş şəxsiyyətə verilən mühüm tələblərdən biri də şəxsiyyətin əməyə qadir olması, istehsalın,əməyə, əmək adamlarına müsbət münasibətlərə malik olmasıdır. Xüsusilə də məktəbəqədər yaş mərhələsində uşaqlara əməksevərliyin inkişafına yer verilməlidir, çünki bu dövr uşaqların hər şeyi öyrənmə həvəsində olduğu dövrdür. Onlara əməksevərlik öyrədilməsə, laqeyd insan kimi böyümə ehtimalları çox yüksəkdir. Hətta rus pedaqoqu K.D.Uşinski həqiqi və azad əməyin insan həyatında o qədər böyük əhəmiyyətə malik olmasını qeyd edərdi. “Balalara hədiyyə” kitabı uşaqların əməklə tanış olması, onlarda müəyyən təsəvvürlərin yaranması baxımından əhəmiyyətlidir. Kitabda əməklə bağlı “Qalan işə qar yağar”,”Əldən qalan əlli il qa-

lar", "Bu günün işini sabaha qoyma" kimi atalar sözlərinə yer verilib.

"Balalara hədiyyə" kitabının uşaqlarda mənəvi tərbiyəni formalaşdıracaq 45 tapmaca yer alır. Aydın məsələdir ki, tapmacalar zehni qüvvətləndirmək, ətraf mühitə qarşı daha diqqətlə yanaşmağı, düşünmə və təhlil etmə qabiliyyətini inkişaf etdirmək baxımından əhəmiyyətlidir.

Kitabda ekoloji tərbiyə nümunələri də yer alır ki, burda ilin 4 fəslində təbiət təsviri, hər fəslin öz gözəlliyi,xüsusilə yaz fəslinin füsunkarlığının əks olunduğu nümunələrə yer verilib. Bu nümunələr uşaqlara təbiətə,gözəlliyə sevgi hissini aşılamağa onlarda estetik zövqü formalaşdırmış olur.

## ŞAXTAXTİNSKİLƏR NƏSLİNİN LAYİQLİ DAVAMÇISI HƏMİD BƏY ŞAXTAXTİNSKİNİN MAARİFÇİLİK FƏALİYYƏTİ

***Nuranə Elçin qızı Kərimova***
***BDU, Sosial Elmlər və Psixologiya fakültəsi***
***Pedaqogika nəzəriyyəsi və tarixi ixtisaslaşması I kurs magistrı***
***nuranakerim.filoloq@gmail.com***

XlX əsrdə Cənubi Qafqazda baş verən dəyişikliklər özünü maarif sahəsində də göstərirdi. 1881-ci ildə İrəvan Müəllimlər Seminariyasının yaradılması XlX əsrin qaranlığına qərq olmuş Şərq mühitinə elm işığı gətirdi. Seminariyada azərbaycanlılarla yanaşı, qeyri millətlərin nümayəndələri də təhsil alırdı. Təhsil həm ödənişli, həm də ödənişsiz əsaslarla təşkil olunmuşdu. Burda dövrün qabaqcıl ziyalıları -- Məmməd Axundov, Mirzə Məmmədvəli Qəmərlinski, Axund Məmmədbağır Tağızadə, Rəhim Xəlilov, Firudin bəy Köçərli, Molla Məmmədbağır Qazızadə, Rəşid bəy Şaxtaxtinski, Axund Məmmədbağır Kazımzadə, Mirzə Cabbar Məmmədzadə kimi müəllimlərlə yanaşı, seminariyanın məzunu olmuş, sonradan seminariyada müəllim kimi fəaliyyət göstərən Həmid bəy Şaxtaxtinski də dərs deyirdi. Həmid bəy Şax-

taxtinski məşhur Şaxtaxtinskilər nəslinin layiqli davamçılarından biridir . 1880-ci ilin mart ayında dünyaya göz açan Həmid bəy Şaxtaxtinski ilk təhsilini Naxçıvan gimnaziyasında almış, sonra İrəvan Müəllimlər Seminariyasına qəbul olmuşdur. Həmid bəy Şaxtaxtinski 4il İrəvan Müəllimlər Seminariyasında təhsil almış və Seminariyanı əla qiymətlərlə bitirmişdir. Təhsil aldığı illərdə fərqləndiyinə görə onu seminariyada müəllim kimi işə götürürlər. Həmid bəy Şaxtaxtinski burda Türk dili fənnini tədris etmişdir. Bu müddət ərzində Müsəlman Xeyriyyə Cəmiyyətinin üzvü olan Həmid bəy 1907-ci ildə öz xahişi ilə vəzifəsindən azad edilir. Bir müddət sonra təhsilini davam etdirmək üçün Odessa Universitetinin hüquq fakültəsinə daxil olur. 1 il Odessa Universitetində təhsil alan Həmid bəy xəstələnir və Bakıya qayıdır. Bakıda qaldığı 1il ərzində müəllimlik edir, sonra yenidən Odessaya qayıdır. Həmid bəy Şaxtaxtinski Odessadakı "Azərbaycan həmyerlilər təşkilatı"nın başçılarından biri olmuşdur. Hüquq təhsilini ikinci dərəcəli diplomla başa vurandan sonra yenidən vətənə qayıdır. Həmid bəy 1913-cü ildə Bakı quberniyası Xalq məktəbləri direktorunun icazəsi ilə müəllim kadrları hazırlamaq üçün şəxsi kurslar açdı. O, əvvəlcə Ramanada, 1912-1916-cı illərdə isə Alekseyevsk ali hazırlıq məktəbində müəllim kimi fəaliyyət göstərmişdir. 1914-cü ildə Gəncə quberniyasında Xalq məktəbləri quberniyasında məktəb inspektoru vəzifəsində çalışmışdır. 1916-cı ildə Yelizavetpolda Yelizavetpol Müəllimlər seminariyasına riyaziyyat müəllimi təyin olunur. 1917-ci ildə Həmid bəy Nuxa və Qazax qəzaları üzrə Xalq məktəblərinin təlimatçısı vəzifəsinə təyin olunur. Tiflis Müəllimlər Qurultayında Müvəqqəti Zaqafqaziya Hökuməti tərəfindən Qafqaz təhsil dairəsi komissarlığının üzvü seçilən Şaxtaxtinski 1917-ci ilin sonunda Cənubi Qafqaz Təhsil Dairəsi üzrə inspektor kimi təhsilin idarə olunmasında fəal iştirak edir, 1918-ci ildən isə artıq Xalq Təhsil Naziri kimi fəaliyyət göstərir. Həmid bəy Şaxtaxtinskidən danışarkən onun Azərbaycan Xalq Cümhuriyyəti dövründə maarif və ictimai -siyasi sahədəki rolunu xüsusilə vurğulamalıyıq. 1918-ci il dekabrın 26-da Üçüncü Hökümət Kabinetinin Maarif və Dini Etiqad nazirinin müavini, dördüncü hökümət kabinetinin fəaliyyəti dövründə Maarif və Dini

Etiqad nazirliyinin idarəedici vəzifəsini icra etmişdir. Nəsib bəy Yusifbəylinin təşkil etdiyi 5ci hökümət kabinetinin fəaliyyəti dövründə isə Maarif və Dini Etiqad naziri kimi fəaliyyət göstərmişdir. Həmid bəy Şahtaxtinski Cümhuriyyət dövründə şəhər və kəndlərdə Azərbaycan dilində fəaliyyət göstərən məktəb və seminariyanın yaradılmasında, eləcə də Bakı Dövlət Universitetinin açılışının təşkilində xüsusi rol oynamış, eləcə də dərslik müəllifi olmuşdur. Azərbaycan Pedaqoji İnstitutunun, yəni hazırkı Azərbaycan Dövlət Pedaqoji Universitetinin layihəsi də məhz Həmid bəy Şaxtaxtinskiyə məxsusdur. Lakin o, institutun layihəsini Nəriman Nərimanova AXC-nin süqutundan sonra Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra təqdim edə bilmişdir.

1919-cu il 20 avqust - 1sentyabr tarixində Müəllimlərin lll qurultayı keçirilir. Bu qurultayda Həmid bəy Şaxtaxtinski xüsusilə fərqlənir. O, qurultayda məktəb islahatının aparılması ilə bağlı təklif irəli sürmüşdür. Qurultayın qərarına əsasən 1919-cu il noyabrın 7-də Şaxtaxtinskinin sədrliyi ilə Xalq Maarif Nazirliyi yanında Hökumət komissiyası fəaliyyətə başladı. Komissiyanın qarşısındakı öhdəliklər aşağıdakılar idi: məktəb islahatının aparılması; ümumtəhsilin məzmunca milliləşdirilməsi ilə bağlı proqram; dərslik üzrə Dövlət proqramının hazırlanması.

Həmid bəy Şaxtaxtinski Azərbaycan Xalq Cümhuriyyəti süqut etdikdən sonra maarifçilik fəaliyyəti ilə məşğul olmağa davam edirdi, lakin Sovet hakimiyyəti qurulan zaman o artıq siyasi işlərdən uzaqlaşmışdı. 1921-1925-ci illərdə Bakı Dövlət Universitetinin prorektoru kimi fəaliyyət göstərən Həmid bəy təqiblərdən yaxa qurtarmaq üçün Tiflisə getmiş, burda tibb təhsili almış, 1929-cu ildən isə Azərbaycan Tibb Universitetində dərs deməyə başlamışdır. Həmid bəy Şaxtaxtinski 1929-cu ildə professor fəxri adına layiq görülmüş, İkiillik Müəllimlər İnstitutunda dərs demiş, ümumtəhsil məktəbləri üçün dərsliklərin hazırlanmasında, yeni Azərbaycan əlifbasının yaradılması üçün görülən işlərdə komissiya sədri olmuş, lüğətlərin tərtibi məsələlərində əvəzsiz xidmətləri olmuşdur.

Təəssüflər olsun ki, xalqımızın digər vətənpərvər ziyalıları kimi Həmid bəy Şaxtaxtinski də repressiya qurbanı olmuşdur. Onu 1941-ci ildə həbs edib sürgünə göndərirlər. Ağır sürgün şəraitinə

dözməyən Həmid bəy Şaxtaxtinski 1944-cü ildə Arxangelsk şəhərində 63 yaşında vəfat etmişdir.

## QORİ MÜƏLLİMLƏR SEMİNARIYASININ MƏZUNU MAHMUDBƏY MAHMUDBƏYOVUN MAARİFÇİ GÖRÜŞLƏRİ

***Nərmin Telman qızı Əkbərli***
***BDU, Filologiya fakültəsinin II kurs tələbəsi***

Maarifçilik fəaliyyəti ilə ədəbiyyatımızda silinməz iz qoyan ədiblərimizdən biri də Mahmudbəy Mahmudbəyovdur. Çoxşaxəli fəaliyyət dairəsi olan məşhur ziyalımız bir çox folklor nümunələrini toplayıb dərc etməklə yanaşı, bir sıra dərslik və məqalələrin də müəllifi olmuşdur. İlk milli tərcüməçimiz olan M. Mahmudbəyov 1883-cü ildə Qori müəllimlər seminariyasının məzunu olduqdan sonra Yelizavetpol qəzasının Padar kənd məktəbində müəllimlik fəaliyyətinə başlamış, həyatının sonuna qədər bu şərəfli peşə ilə məşğul olmuşdur. Bakı, Şamaxı, Ağdam kimi bölgələrimizdə də müəllimlik edən ziyalımız, 1917-ci il inqilabınadək məktəblərə Azərbaycan dili müəllimi qəbul edən imtahan komissiyasının sədri, inqilabdan sonra isə Xalq Maarif Komissarlığının işçisi olmuşdur. 1907-ci il “Yeni əlifba”, 1908-ci il “İkinci il”, 1909-cu il “ Üçüncü il” dərsliklərinin müəllifi olan M.Mahmudbəyov “Türk ədəbiyyatına ilk qədəm” kitabı ilə ilk müntəxəbatın əsasını qoymuşdur. Böyük pedaqoji səriştəsi olan maarifçinin 1906-cı ildə nəşr etdirdiyi “Rəhbər” jurnalındakı fəaliyyəti çox uğurlu alınmasa da, müntəxəbatı böyük maraq doğurmuşdur. Cəhalətə qarşı çıxan maarifçinin müridizm haqqında maraqlı, əhəmiyyətli tədqiqləri olmuş və bu tədqiqlər “Müridizm təriqəti” sərlövhəsi ilə 1893-cü ildə “Kaspi” qəzetində, 1898-ci ildə “SMOMPK” məcmuəsində çap olunmuşdur. Bir çox ziyalının dəstəyi ilə 1922-ci ildə “Yeni türk əlifbası”dərsliyini hazırlayan M.Mahmudbəyov Azərbaycan Dövlət Pedaqoji Universitetində dərs demiş,yeni əlifba komitəsinin üzvlərindən olmuşdur.

Folklor toplama sahəsində peşəkar olan M.Mahmudbəyov

“SMOMPK” məcmuəsi ilə əməkdaşlıq edərək xalqın dünyagörüşünü,tarixini,həyat tərzini özündə əks etdirən folklor nümunələrini böyük bir səbr və iradə ilə toplayaraq rus dilinə tərcümə etmişdir. Bu folklor nümunələrinə “Molla Qasım”, “Aşıq Qərib”, “Abbas və Gülgəz” dastanları və bir çox atalar sözlərini örnək gətirmək olar. Azərbaycan tarixində atalar sözləri və məsəllərin toplanmasında ilk addımı atan maarifçimiz 481 atalar sözünü və “Molla Qasım” dastanını “SMOMPK” məcmuəsinin 1894-cü ildəki XIX buraxılışında dərc etdirmişdir. Ziyalımızın topladığı çox da geniş yayılmayan bir sıra atalar sözləri və məsəllərə nəzər salaq: “Peşəngin axırı torbakeş olar.”, “Uşaqlar cəhənnəm,mal qarancadır.”,” Yer yiyəsiz qalanda donquz təpəyə çıxar.”və s. M.Mahmudbəyov həmçinin o dövrdə bir çox tədqiqatçının diqqət mərkəzində olan “Aşıq Qərib” dastanını Şamaxıdan toplamış, 1892-ci ildə tam halda “SMOMPK” məcmuəsində çap etdirmişdir. Ə.Cəfəroğlu M.Mahmudbəyovun topladığı versiyanı “Azərbaycan Yurd bilgisi” dərgisində nəşr etdirmiş, ancaq Mahmudbəyovun verdiyi məlumatı dolğun hesab etmədiyindən yenidən nəşr etdirdiyi mətnə bır sıra şərhlər də əlavə etmişdir. Qeyd edək ki, ədib “Aşıq Qərib” və “Molla Qasım” dastanlarının hər ikisini Şamaxıda Aşıq Orucdan yazıya almışdır. M.Mahmudbəyov topladığı üç dastandan ikisini, yəni “Abbas və Gülgəz” və “Molla Qasım” dastanlarının məzmununu nəqletmə yolu ilə, qoşmalarını isə rusca hərfi tərcüməsini göstərərək çap etdirmişdir. “Zaqafqaziya tatarlarının hekayəsi”, “Qafqazda müridizm təriqəti”, “Türk ədəbiyyatına ilk qədəm”kitabı və cocuq eyitimində türkçülük” kimi məqalələrin müəllifidir. M.Mahmudbəyov “Zaqafqaziya tatarlarının hekayəsi” məqaləsində “aşıq” sözünün etimologiyasını araşdırmış, həmçinin aşıqları improvizator və peşəkar olmaqla iki qrupa bölmüşdür. İmprovizator aşıqları vergili aşıqlar, yaxud haqq aşığı adlandırmış, burada “Koroğlu” dastanının adını çəkmişdir. Beləliklə, folklorun toplanması işində öz sözünü deyən, ilk milli tərcüməçi adını alan böyük müəllim və pedaqoq Mahmudbəy Mahmudbəyovun maarifçi görüşlərinə Qori müəllimlər seminariyasının böyük təsiri olmuşdur və o öz maarifçilik fəaliyyəti ilə Azərbaycan ədəbiyyatında dərin iz qoymuşdur.

**Ədəbiyyat**

1. Azərbaycan folklorşünasları /. T. Qəniyev; elmi red. P. Əfəndiyev; AMEA Folklor İnstitutu// Bakı: Nurlan, 2004.- S. 8-10.
2. Folklor və onun toplanması məsələləri/ F. Qasımova // Filologiya məsələləri / AMEA, M.Fizuli adına Əlyazmalar İnstitutu .-2015.- N5.- S.356-361.
3. Mahmudbəy Mahmudbəyovun Azərbaycan folklorunun tədqiqi və nəşri ilə bağlı fəaliyyəti haqqında bir neçə söz/ A. Hüseynova // Filologiya məsələləri / AMEA, M.Füzuli adına Əlyazmalar İnstitutu. -2015.- N5.- S.375-379.

## FİRİDUN BƏY KÖÇƏRLİ VƏ QORİ MÜƏLLİMLƏR SEMİNARİYASI

***Röya Rəşad qızı Hacıbabayeva***
***BDU, Filologiya fakültəsinin II kurs tələbəsi***

Ədəbi irsimizin tədqiqi,tənqidi,pedaqoji və estetik fikrimizin tarixi ilə məşğul olan görkəmli alim və pedaqoqlarımızdan biri də Firidun bəy Əhmədağa oğlu Köçərlidir.Azərbaycan ədəbiyyatının tənqidi və estetik fikir tarixində şərəfli yol tutan Firidun bəy Köçərli həyatının çox hissəsini doğma xalqının tərəqqisinə həsr etmişdir.Gənc nəslin maariflənməsində,mədəni inkişafında xüsusi rol oynayan pedaqoq Qori Müəllimlər Seminariyasında təhsil almış,oranı bitirdikdən sonra 1885-1895-ci illərdə İrəvan gimnaziyasında müəllim,1895-1918 Qori Zaqafqaziya Müəllimlər Seminariyasında müəllim,1918-ci ildən 1920-ci ilə qədər isə Qazaxda darülmüəllimin müdiri kimi çalışmışdır.Firidun bəy Köçərlinin ən böyük arzularından biri Qori Müəllimlər Seminariyasında Azərbaycan şöbəsinə rəhbərlik etmək olmuşdur.Əvvəlcə o,Qori Müəllimlər Seminariyasının Azərbaycan şöbəsini Ağdama köçürmək istəsə də,bundan xəbər tutan bəylər:Süleyman ağa,Mansur ağa Vəkilov,Annaq bəy və başqaları Qazaxda qatarın qarşısını kəsirlər və bu səbəbdən də Firidun bəy şöbəni Qazaxa köçürməli olur.Böyük maarifçi və ictimai xadim Firidun bəy Köçərli semi-

nariyaya başçılıq etməklə yanaşı,Qazaxda yüzlərlə qız uşağının savad əldə etməsi üçün yetimlər kursu təsis edib,qaçqınlara yardım fondu yaratmışdı,həmçinin həmvətənlərinin də təhsil almasına yardımçı olmuşdur.Maarif və mədəniyyətimizin inkişafında misilsiz xidməti olan F.Köçərli "Müəllimlərimiz və onların halı","Müəllimlər ictimaiyyətinə dair", "Yarımçıqlarımız" kimi məqalələrində müəllim haqqında dəyərli fikirlərindən söz açır və o dövrdə onu qane etməyən müəllimlərin olduğunu da bildirirdi.Məqalələrində o, yaxşı müəllimin cəhətlərini göstərirdi:Yaxşı müəllim xalqı ilə maraqlanmalı,kədərini bilməli,şagirdlərin qayğısına qalmalı,onlara həssas yanaşmağı bacarmalıdır.Müəllimi "millətin çırağı"adlandırmaqla bu peşənin nə qədər şərəfli olmasından bəhs edirdi.İrəvanda yaşadığı müddətdə yerli ziyalılardan Mirzə Məhəmməd Qənbərli ilə birlikdə ədəbi gecələr təşkil edir,poeziyaya,ədəbiyyata marağı olan gəncləri bir araya gətirərək onların formalaşması üçün böyük səy göstərirdi.Məsələn,onun təşkil etdiyi M.F.Axundovun "Müsyö Jordan və Dərviş Məstəli şah"komediyasının tamaşası İrəvan əhalisinin həyatında böyük mədəni hadisə sayılırdı.Qori Müəllimlər Seminariyasının Qazax şöbəsində müdir işləməklə yanaşı,həm də Pedaqogika, Azərbaycan dili və Ədəbiyyatdan dərs deyən F.Köçərli göstərirdi ki, Ana dili və Ədəbiyyat dərslikləri elə tərtib edilməlidir ki,uşaqlar oxuduqlarını dərk edə bilsin.Onun yaradıcılığında önəmli yeri tutan "Balalara hədiyyə" uşaqlar üçün yazılmış qiymətli,dəyərli bir kitabdır.Bu kitabı XIX əsrin sonları- İrəvan gimnaziyasında müəllimlik etdiyi illərdə yazmışdır. Bu kitabda "Tülkünün hekayəti","Göyçək Fatmanın nağılı", "Tülkü və Qurd" kimi kiçik həcmli nağıllarla yanaşı,atalar sözləri,məsəllər,tapmacalar,şeirlər də öz əksini tapmışdır.Uşaqları elm öyrənməyə,məktəbə getməyə həvəsləndirmək işində böyük xidmətləri olan F.Köçərli nəsihətamiz fikirlərini böyük bir ustalıqla qələmə almışdır.Kitabdakı "Oğlum"şeirinə nəzər salaq:

Ay afərin gül oğlum,
Gül oğlum, sünbül oğlum.
Oğlum, oğlum, naz oğlum,
Dərsindən qalmaz oğlum.

Qələmini al ələ,
Yaxşı-yaxşı yaz, oğlum.
Oğlum gedər məktəbə,
Oxur, çatar mətləbə.
Dərsin oxur rəvanlar,
Nə oxuyubdur, danışar...

Bu şeiri yazmaqda məqsədi odur ki,uşaqlarla savaşmaq, küçədə qaçmaq,heyvanlara daş atmaq,quşları incitmək kimi əməllərin pis olduğunu şirin dillə oxucusuna çatdırsın.Kitabda verdiyi "Pıspısa xanım və Siçan bəy"nağılında isə uşaqlara çatdırmaq istədiyi fikri məsəllər verməklə izah edir.Bu nağılın sonunda "Yaxşılıq elə, at dəryaya balıq bilməsə,xaliq bilər" və s. məsəllərdən misal çəkir. Şifahi ədəbiyyatımızı xalq dilinin mücəssəməsi sayan F.Köçərli xalq ədəbiyyatını dilin əsası sayır və bu fikri folklordan nümunələr gətirməklə əsaslandırır. Məsələn, o dövrdə yaşayan qadınların ağır həyat sürməsindən, hüquqsuzluğundan da bəhs edir.A.Bakıxanovun "Gülüstani-İrəm"əsəri tarixşünaslıqda olduğu kimi F.Köçərlinin "Azərbaycan ədəbiyyatı" əsəri də ədəbiyyatşünaslığımızda ilk və mötəbər mənbələrdən biridir.Burada Yusif Vəzir Çəmənzəminlinin fikrini xatırlamaq yerinə düşərdi:"Azərbaycan türklərinin ədəbiyyatı tarixi kitabını şərqşünas bir əcnəbi yazsaydı,Avropada onun ilə böyük ad qazanardı.Görəsən,bəs bizim aramızda F.Köçərli cənabları kimi adamların əmələ gəlməsini niyə şux və həvəs ilə qarşılamırıq".F.Köçərlinın pedaqoji fəaliyyətinə həm də tərcüməçilik daxildir. O,İrəvan gimnaziyasında çalışarkən Sokratın "Təlimati-Sokrat" kitabını, A.Puşkin,Lermontovun şeirlərini,Çexovun "At familiyası"hekayəsini Azərbaycan dilinə,M.F.Axundovun "Aldanmış kəvakib"əsərini isə rus dilinə tərcümə etmişdir.Yazıçı, ədəbiyyatşünas Mir Cəlal dostuna bu fikri belə ifadə etmişdi:"Bir institutun görə bilmədiyi işi F.Köçərli təkbaşına görüb".F.Köçərli haqqında onun tələbələri, onu yaxından tanıyan Qori Seminariyasının məzunlarından: Ə.Səbri,Ç.Abbasov,Q.Həsənov və başqaları maraqlı fikirlər söyləmişlər.F.Köçərlinin müdrik deyimləri də bizim üçün əvəzolunmaz nümunələrdir,o deyərdi: "Əsl gözəllik surətdə deyil,ağıl və

kamalda,əxlaq və rəftardadır".F.Köçərlinin pedaqoji fəaliyyəti XX əsr Azərbaycan maarifçiliyinin inkişafına böyük təkan vermişdir.Mənfur düşmənimiz ermənilər 57 yaşlı bu türk ziyalısının çırağını söndürsələr də,onun arzuları əbədi nur saçır və bu nurun işığında çox illərdir ki,neçə-neçə Firidun bəy Köçərlilər yol gəlir.

## ŞUŞA MÜHİTİ VƏ ÜZEYİR HACIBƏYLİ

***Nuridə Qüdrət qızı İsmayılova***
***BDU, Filologiya fakültəsinin II kurs tələbəsi***

Mədəniyyyət paytaxtımız olan Şuşa şəhəri əksər sənət sahələrinin inkişafında müstəsna xidmətləri olan şəxsiyyətlər yetirmişdir. Ədəbiyyat sahəsində Xurşidbanu Natəvan, Nəcəf bəy Vəzirov, Molla Pənah Vaqif, Qasım bəy Zakir, Əbdürrəhim bəy Haqverdiyev; musiqi sahəsində Xan Şuşinski, Məşədi İsi, Hacı Hüsü, Cabbar Qaryağdıoğlu, Seyid Şuşinski, Sadıqcan; xəttatlıq sahəsində Mir Möhsün Nəvvab və başqalarını bunlara misal göstərmək olar. Həmçinin yurdumuzun bu səfalı guşəsi dəyərli pedaqoqlar da yetirmişdir. Bu sıraya Fərhad Ağazadə, Haşım bəy Vəzirov, Firidun bəy Köçərli kimi şəxslər daxildir. Sahələrin və şəxslərin sayını artırmaq olar. Bunlardan biri də həm musiqi, həm ədəbiyyat, həm pedaqogika, həm jurnalistika sahələrində mühüm xidmətləri olmuş dahi şəxsiyyət Üzeyir Hacıbəylidir.

"Adətən, böyük şəxsiyyətlərin vətəni olmur. Onlar bütün zamanlar üçün və hər insan oğlu əzizdir. Hamı onları özününkü sayır",- professor Aydın Abiyevin bəzi türk şairləri haqqında yazdığı bu sözləri elə Üzeyir Hacıbəyova da aid etmək olar. O, Ağcabədidə anadan olmuş, qısa müddətdən sonra ailəsi ilə birgə Şuşa şəhərinə köçmüşdür. Əlbəttə ki, onun formalaşmasında Şuşa mühitinin təsiri əvəzsiz olmuşdur. Təbii ki, ortaya belə sual çıxır: Şuşa mühiti olmasa idi, belə bir dahi şəxsiyyət yetişərdimi? Fikrimizcə, bu suala birmənalı cavab vermək mümkün deyil. Birincisi, Azərbaycanın fərqli bölgələrində dünyaya göz açıb elmə və sənətə müstəsna töhfələr verən kifayət qədər elm və sənət xadimimiz var. İkincisi, məlum olduğu kimi, şəxsiyyətin inkişafında irsiyyət

mühüm rol oynayır və Üzeyir bəyin nəslində musiqi xadimləri olub. Üçüncüsü, şəxsiyyətin inkişafına təsir edən amillərdən biri də mühitdir. Deməli, belə nəticəyə gələ bilərik ki, Üzeyir bəyin Üzeyir Hacıbəyli olmasında Şuşa mühitinin birbaşa təsiri olmuşdur.

Üzeyir Hacıbəyli İslam dünyasında ilk operanın və Azərbaycan Dövlət Himninin müəllifi, ilk çoxsəsli xorun və ilk notlu xalq çalğı alətləri orkestrinin yaradıcısı olmaqla yanaşı, müəllim idi. O, 1899-1904-cü illərdə Qori Müəllimlər Seminariyasında təhsil almış, seminariyanı bitirdikdən sonra bir müddət Hadrut kəndində müəllim işləmişdir. 1905-ci ildə inqilab ərəfəsində Bakıya gəlmiş və Bibiheybət neft rayonunda fəhlələrin uşaqlarına dərs demişdir. O, hesab fənnindən Azərbaycan dilində dərslik tərtib etmiş və Qoqolun "Şinel" əsərini dilimizə tərcümə etmişdir. Əlbəttə ki, bir çox mənbələrdən Üzeyir bəyin müəllimlik və digər fəaliyyətləri ilə bağlı məlumatlar ala bilərik. Qeyd etdiyimiz kimi, o həm də yazıçı olmuşdur. Deməli bu mənbələr sırasına onun əsərləri də daxildir. Onun əsərlərindən çıxan nəticələr hazırkı dövrdə də pedaqogika üçün aktualdır və o dövrdə məktəblərin vəziyyətini təsvir edir. Məsələn, onun "Müəllimə" hekayəsinə qısaca nəzər salaq:

Kiçik həcmli bu satirik hekayədə hadisələr xəstə müəllimin yerinə başqa müəllimənin sinfə göndərilməsindən bəhs edir. Əvəzedici müəllimə rus, şagirdlər isə azərbaycanlıdırlar. Artıq başlanğıcdan təhsil sistemindəki bir çatışmazlıq görünür: bu sahədə milli kadrların azlıq təşkil etməsi görünür. İlk dəqiqələrdən uşaqların çirkli və cırıq paltarları, "klas"dan gələn çirk və gizlədilmiş şirniyyat qoxuları, zibillənmiş döşəmə müəlliməyə çox mənfi təsir edir. Sonra müəllimə ilə şagirdlər arasında növbəti və ən dərin ziddiyyət meydana çıxır. Müəllimə rusca danışır və uşaqlar onu başa düşməyib bildiklərini edirlər. Beləliklə, sinifdə qarışıqlıq yaranır. Bu hadisədən belə nəticə çıxır ki, müəllim və şagird mütləq ortaq dilə malik olmalıdır. Pedaqoji prosesin subyekt və obyektləri bir-birlərini başa düşə bilməsələr, təlim, tərbiyə və təhsildən söhbət gedə bilməz. Hadisələrin növbəti gedişində müəllimə bir şagirdin nizamlı olduğunu, yaxşı xətlə yazdığını və az-çox rusca bildiyini görür. Onda şagirdə qarşı rəğbət hissi yaranır. Sonra mü-

əllim uşaqlara papaqlarını çıxarmağı tapşıranda intizamlı şagirddən başqa hamısı birtəhər başa düşüb çıxarır. Müəllim təəccüblənir və özü uşağın papağını çıxarır və onun başının keçəl olduğunu görür. Hekayə belə bitir və bu sonluğa əsaslanıb belə bir pedaqoji fikir söyləmək olar: Müəllimə qarşı intizamsızlıq etməyən uşaq birdən səhv bir hərəkət edərsə, güzəştə getmək və işin səbəbini düzgün üsulla müəyyənləşdirmək lazımdır. Çünki burada şagirdin özündən asılı olan və olmayan səbəblər ola bilər. Göründüyü kimi, Üzeyir bəyin kiçik bir hekayəsində bir çox ciddi məsələlərə toxunulub. Belə məqamda Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın bu sözlərini xatırlatmaq yerinə düşərdi: "Üzeyir irsi həqiqətən, böyük bir dünyadır. Bu dünyanın əzəməti ondadır ki, Üzeyir bəy bu gün də əsl pedaqoq kimi bizi tərbiyə edir, bizə kədərlənməyi və gülməyi öyrədir. Muğam dramaturgiyasının sirlərini açır. Aşıq sənətinin qüdrətini dərk etməyə kömək edir". Deməli, biz dahi şəxsiyyətdən pedaqoji fəaliyyətindən bəhs edərkən yalnız onun müəllimlik etməsini və ya əsərlərindəki bu yöndə olan fikirləri nəzərdə tutmamalıyıq. Elə o, bəstəkarlıq fəaliyyəti ilə insanlara nə qədər bilik, bacarıq və vərdişlər aşılamışdır. Bəstəkar Səid Rüstəmov bu fikirləri boşuna demirdi: "Azərbaycan xalqının ləyaqətli oğlu olan Üzeyir Hacıbəyov istedadlı bəstəkar, qabil sənətkar olmaqla gənclərimizin tərbiyəsi ilə məşğul olan ən yaxşı müəllimdir". Doğrudan da, Üzeyir Hacıbəylinin musiqi ilə bağlı yazdığı elmi əsərlərdən bu gün də musiqi məktəblərində dərs vəsaiti kimi istifadə olunur. Onun 1985-ci ildə nəşr etdirdiyi "Azərbaycan xalq musiqisinin əsasları" kitabı öz praktiki əhəmiyyətini müasir dövrdə də itirməyib. Musiqi təhsil ocaqları üçün nəzərdə tutulan eyniadlı dərs vəsaiti bu kitab üzərində qurulmuşdur. Qeyd etdiyimiz kimi, Üzeyir bəy Şərqdə ilk operanın banisidir. O bu janrın əsasını "Leyli və Məcnun" operası ilə qoymuşdur. Operanın və, ümumiyyətlə, Azərbaycan musiqi tarixinin ilk dirijoru Şuşa mühitinin istedadlı nümayəndələrindən olan Əbdürrəhim bəy Haqverdiyev olmuşdur.

Bəstəkarın yaradıcılığının zirvəsi isə "Koroğlu" operasıdır. Müəllif 1932-1936-cı illərdə opera üzərində işləmiş, ilk tamaşa

1937-ci ildə olmuşdur. Üzeyir bəy operanın əksəriyyət tərəfindən sevilməsinin səbəbini onun musiqi mətnində muğam siteminin əsas götürülməsi ilə izah edib.

Göründüyü kimi, Üzeyir Hacıbəyov mədəniyyət, ədəbiyyat, pedaqogika və s. sahələrə qiymətli töhfələr vermişdir. Təkcə bunu demək kifayətdir ki, onun yaratdıqları bir əsr keçməsinə baxmayaraq, bu gün də xalq tərəfindən sevilir.

## F.KÖÇƏRLİ VƏ QORİ MÜƏLLİMLƏR SEMİNARİYASI

***Səidə Maarif qızı Qurbanlı***
***BDU, Filologiya fakültəsinin II kurs tələbəsi***

Azərbaycan pedaqoqu, maarifçisi, publisisti, metodisti, ədəbiyyatşünası olan Firidun bəy Köçərli ilk təhsilini Şuşada yerləşən Mirzə Kərim Münşinin mədrəsə məktəbində almış, 1876-cı ildə isə Şuşadakı rus məktəbinə daxil olmuşdur. Aleksey Çernyayevski 1878-ci ildə Zaqafqaziya Müəllimlər Seminariyasına tələbə toplamaq məqsədi ilə Şuşadakı rus məktəbinə gəlmişdi. Bu tələbələrin içərisində Firidun bəy Köçərlidə təhsil alırdı.Seminariyanı bitirəndən, yəni 1885-ci ildən sonra İrəvan gimnaziyasına təyinat alır. O, 1885-1890-cı illərdə İrəvanda, 1893-1894-cü illərdə İrəvan gimnasiyasında fəaliyyət göstərir. 1895-ci ildə Qori Müəllimlər Seminariyasının "tatar şöbəsi"nə Azərbaycan dili və şəriət müəllimi təyin edilir. 1910 -cu ilədək Seminariyada müəllim kimi çalışmışdır. 1910-cu ilin əvvəllərində Seminariyanın Azərbaycan şöbəsinin inspektoru vəzifəsini icra etmiş, 1917-ci il avqustun 17-si isə həmin şöbənin inspektoru vəzifəsinə təyin olunmuşdur. Çətinliyin hökm sürdüyü bir vaxtda o, Azərbaycan Maarif Nazirliyindən icazə almış və 1918-ci ilin sentyabrında Qori Seminariyasının Azərbaycan bölməsinin tədris ləvazimatını Qazağa köçürmüşdür. Seminariyanın direktoru təyin olunan Firidun bəy Köçərli yerli ziyalıların köməyi ilə məktəb üçün uşaq topladı və 1918-ci ilin sentyabrın 17-də Qazaxda Azərbaycan Müəllimlər Seminariyasında ilk dərs ili başlandı.Firidun bəy Köçərli Qazax Seminariyasında direktor və müəllim vəzifəsində çalışmışdır. O, dərs demək,

yaxud seminariyanı idarə etməklə qalmamış, əhalini maarifləndirmək üçün bir sıra işlər görmüşdür. Firudun bəy Köçərlinin fəaliyyəti rəngarəngdir. O, özfəaliyyət dərnəkləri təşkil etmiş, yeni məktəblər, uşaq evi yaratmaq üçün təşəbbüs göstərmiş, xalq ədəbiyyatı nümunələri toplamış, yaşlılardan ötrü savad kursları açmış, Musavat partiyasının Qazax bölməsinə rəhbərlik etmiş və s. kimi dəyərli fəaliyyət göstərmişdir. Azərbaycan Xalq Cümhuriyyətinin süqutu görkəmli ziyalının xəyallarına da son qoymuşdur.

Onun fəaliyyətinə dəyər verən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev belə demişdi: "Firidun bəy Köçərli Azərbaycan ədəbiyyatının tarixi inkişaf yoluna dair qiymətli mənbə təşkil edən əsərlər yaratmış və çoxcəhətli zəngin fəaliyyəti ilə ictimai - mədəni fikrin təşəkkülünə mühüm töhfələr vermişdir". İlham Əliyevin F.Köçərlinin zəhmətinə, elmi yaradıcılığına dair dəyərli fikirləri pedaqoji ictimaiyyəti sevindirən haldır. Firidun bəy Köçərlinin fəaliyyəti bizim üçün çox əhəmiyyətlidir. İstər Qori müəllimlər seminariyasının Azərbaycan şöbəsini Qazax şəhərinə köçürməsi, istər ilk uşaq evi açması, "İstiqlal bəyannaməsi" imzalaması, istər yazdıqları -"Təlimi - Sokrat" (1884), "Təlimi-lisani-türkü" (Zöhrabzadə ilə birlikdə tərtib etdikləri dərslik), "Tatar komediyası" (ilk elmi məqaləsi), "Ərəb əlifbası və onun qüsurları" (silsilə məqaləsi), "Azərbaycan tatarlarının ədəbiyyatı","Mirzə Fətəli Axundov", "Balalara hədiyyə"(1912), "Azərbaycan ədəbiyyatı tarixi"(III cildlik, 1913), "Vətən dili"(1920),istər Azərbaycanın görkəmli ziyalısının əsərlərini səhnəyə qoyması ilə-“Müsyö Jordan və dərviş Məstəli şah”(1890, İrəvanda səhnəyə qoyulmuşdur), istərsə də tərcümələri ilə ictima-mədəni fikrin inkişafına öz töhfələrini vermiş, Azərbaycan ədəbiyyatının tarixi inkişaf yoluna işıq salmışdır.

Professor Əhməd Seyidov Firidun bəy Köçərli haqqında deyirdi : "Firidun bəy Köçərli böyük pedaqoqdur. Qori Müəllimlər Seminariyasının Azərbaycan şöbəsini Qazaxa köçürməklə xalqımızın maariflənməsində əvəzolunmaz əməyi olan şəxsiyyətdir. Firidun bəy sadəcə praktik müəllim deyildi. O tədqiqatçı alim, ədəbiyyatşünas, nəzəriyyəçi pedaqoq və yüksəs mədəniyyətli hüma-

nist ziyalı idi". 1880-ci ildən Cənubi Qafqaz Müəllimlər Seminariyasının Azərbaycan şöbəsinin köçürülməsi məsələsi qaldırılmışdır. Azərbaycan şöbəsini Bakı, Gəncə, Şamaxı, Şuşa və ya Ağdam şəhərlərindən birinə köçürmək istəyirdilər. Firidun bəy Köçərli 13 oktyabr 1918-ci ildə yazdığı məqalədə müəllimlər seminariyasının Qazaxda açılması ilə bağlı fikrini belə izah etmişdir. Firidun bəy Köçərli məqalədə yazmışdır: "1918-ci il may ayının əvvəlində Qazax şəhərinin əhalisi və bir neçə kəndin camaatı Qafqaz Təhsil dairəsi qarşısında vəsatət qaldırdı ki, Qori şəhərində yerləşən Cənubi Qafqaz Müəllimlər Seminariyasının Azərbaycan şöbəsi Qazax şəhərinə köçürülsün və onun əsasında müstəqil müəllimlər seminariyası yaradılsın. Qazax əhalisi gələcəkdə seminariya binasının inşası, bağ salınması üçün 10 desyatin suvarılan torpaq ayırmağı öhdəsinə götürdü. Seminariyanın fəaliyyətə başlaması üçün yerli əhali həmçinin birdəfəlik 3 min manat və hər il 1 min manat vəsait ödəməyi də vəd etdi".

1918-ci il iyunun 22-də Gəncə xəzinədarlığı Qoridən Qazax şəhərinə Firidun bəy Köçərlinin hesabına 5 min manat pul köçürdü. 1918-ci ilin sentyabrında Qori Müəllimlər Seminariyasının Azərbaycan şöbəsi Qazaxa köçürüldü. Ziyalı pedaqoq Köçərli seminariyanın müfəttişi təyin edildi. 12 oktyabr 1918-ci ildə Köçərli xalq maarif nazirinin qərarı ilə Qazax Müəllimlər Seminariyasına direktor təyin edildi.Seminariyaya müəllim seçilməsi də Köçərliyə tapşırıldı. F.Köçərli bu vəzifəni layiqli şəkildə tamamlamışdır. Seminariyanın direktoru F.Köçərlinin 1919-cu il dekabrın 8-də Xalq Maarif Nazirliyinə seminariyanın şəxsi heyəti haqqında aşağıdakı açıqlamanı vermişdir:

1. Seminariyanın direktoru F.Köçərli - 1885-ci ildə Cənubi Qafqaz Müəllimlər Seminariyasını bitirmişdir.

2. İlahiyyat müəllimi İ.Qayıbov - 1911-ci ildə Tiflisdə sünni müsəlmanları ruhani məktəbini bitirmişdir.

3. Türk dili müəllimi Y.Qasımov - 1917-ci ildə Cənubi Qafqaz Müəllimlər Seminariyasını bitirmiş, 1918-ci ildə Tiflisdə Aleksandrovsk Müəllimlər İnstitutunda tarix üzrə 1-ci kursun dinləyicisi olmuşdur.

4. Riyaziyyat müəllimi M.Hüseynzadə - 1917-ci ildə Cənubi Qafqaz Müəllimlər Seminariyasını bitirmişdir.

5. Tarix və coğrafiya müəllimi Əli Hüseynov - kurs bitirmişdir və 1901-ci ildən müəllim kimi fəaliyyət göstərmişdir.(Əli əfəndi Hüseynov 1901-ci ildə Cənubi Qafqaz Müəllimlər Seminariyasını bitirmişdi - T.B.)

6. Hazırlıq sinfi müəllimi M.Vəlizadə - 1889-cu ildə Cənubi Qafqaz Müəllimlər Seminariyasını bitirmişdir.

7. Rus dili müəllimi İ.Vəkilov - 1907-ci ildə Cənubi Qafqaz Müəllimlər Seminariyasını bitirmişdir.

8. Nəğmə müəllimi Həsən Bəsri - İstanbul Darülmüəllimini - Müəllimlər Seminariyasını bitirmiş, 1919-cu ilin oktyabr ayında nazirliyin əmrinə əsasən Qazax Müəllimlər Seminariyasında işləməyə başlamışdır.

Seminariyada tədrisin əsasında dayanan dərslik məsələsidə özünəməxsus yer tuturdu. Əldə edilən məlumatlara görə bu dərsliklər türk dilində yazılmışdır: Nazirliyin dəftərxanasında olan qeyddə :" 1919-cu il dekabrın 7-də F.Köçərliyə 20 ədəd "Ədəbiyyat dərsləri", 10 ədəd "Müntəxəbat" kitabı verilmişdi". Nazirliyin dəftərxanasında saxlanılan 1920-ci il 6 yanvar tarixinə aid məlumatda isə:" Qazax Müəllimlər Seminariyasının direktoruna 4282 man. 90 qəp. dəyərində türk dilində dərslik və kitablar verilmişdir" və s. göstərilmişdir.

Qazax Müəllimlər Seminariyası Azərbaycanda milli müəllim kadrları hazırlamağa başlayan ilk pedaqoji məktəb idi.Bu pedaqoji məktəbin gördükləri işlər nəticəsində artıq 1919-cu ilin əvvəlində Bakıda, Gəncədə, Nuxada, Salyanda, Şuşa və Qazaxda 23 dövlət orta təhsil müəssisəsi, o cümlədən 6 kişi, 4 qadın gimnaziyası, 5 realnı məktəb, 3 müəllim seminariyası, 3 qadın təhsil müəssisəsi, 1 politexnik və 1 ticarət məktəbi fəaliyyət göstərirdi.

Qori Müəllimlər Seminariyasını "günəşin dünyanı işıqlandırdığı kimi işıqlandıran" Köçərlinin müəllimliyə dair fikri diqqəti cəlb edir. O, deyirdi: "Müəllimlik ağırdır, ancaq pak və müqəddəs xidmətdir. Seminariyada aldığınız elm və tərbiyəni elə yüksək və hündür məqamda saxlayın ki, nuru ətrafı da işıqlandıra bilsin".

## MÜNDƏRİCAT


1. *Ləzifə Nağı qızı Qasımova.* Firudin bəy Köçərli və İrəvan müəllimlər seminariyası ....................................................4
2. *Hümeyir Əhmədov.* İrəvan müəllimlər seminariyası milli təhsil tariximizin aynasıdır ........................................7
3. *İramin Namaz oğlu İsayev.* XIX əsrin sonu XX əsrin əvvəllərində Qərbi Azərbaycan təhsili ................................11
4. *İramin Namaz oğlu İsayev.* Qərbi Azərbaycan pedaqoji mühiti və təhsil .......................................................14
5. *Нубар Мухтар кызы Мухтарова.* Возвращение к своей исторической памяти - цель каждого Азербайджанца!.....................................................20
6. *Нубар Мухтар кызы Мухтарова.* Выдающийся ученик Горийской учительской семинарии – Нариман Нариманов! ...................................................25
7. *Hikmət Əbdül Oğlu Əlizadə.* İrəvan müəllimlər seminariyasının məzunlarının maarifçilik fəaliyyətinin istiqamətləri ...................................................................32
8. *Rüfət Lətif oğlu Hüseynzadə.* İrəvan milli maarifçilik mühiti və tədris müəssisələri .............................................35
9. *Məcid Abdulla oğlu İsmixanov.* İrəvan müəllimlər seminariyası Qori seminariyasının xələfi kimi ...................39
10. *Məcid Abdulla oğlu İsmixanov, Nəzakət Bəylər qızı İmamverdiyeva.* Təhsil tariximizin önəmli mərhələsi .........44
11. *İntiqam Hilal oğlu Cəbrayilov.* Azərbaycan maarifçiliyinin hərəkətverici qüvvəsi: İrəvan müəllimlər seminariyası ......50
12. *Qahirə Lələ qızı Şahbazova.* İrəvanda gimnaziya...............58
13. *Həsən Bayramov* İrəvan müəllimlər seminariyası: tarixilik və müasirlik .........................................................61
14. *Nigar Eldar qızı Zeynalova.* XIX əsrdə pedaqoji kadr hazırlığı problemləri.........................................................74
15. *Fərrux Rüstəmov.* XIX Ə srin ikinci yarısı, XX əsrin əvvəllərində İrəvanda maarifçiliyin inkişafi .......................78

16. *Rəhimə Mahmudova.* XIX Əsrin sonu-XX əsrin əvvəllərində Azərbaycanda qız məktəblərinin açılmasının sosial-pedaqoji əhəmiyyəti ........................................82
17. *Mehparə Alış qızı Quliyeva, İlahə Sərdar qızı Qədirova.* Azərbaycan xalq cümhuriyyət dövründə maarifçilik..........88
18. *Mehparə Alış qızı Quliyeva.* M.Ə.Rəsulzadənin pedaqoji ideyaları haqqında ..........................................................93
19. *Гамар Гусейнали kызы Тагиева.* Краткий исторический путь существования иреванской учительской семинарии ..................................................................97
*20. Safura Bayram qızı Allahverdiyeva* irəvan müəllimlər seminariyasının Azərbaycan pedaqoji fikir tarixində yeri və rolu ..................................................................100
21. *Elza Mollayeva,* XX əsrin əvvəllərində İrəvan təhsil mühitində qız məktəblərinin vəziyyəti ................................104
*22. Kamalə Kamal qızı Qəhrəmanova.* Şuşalı qadınların fəaliyyəti..........................................................................108
23. *Kamalə Kamal qızı Qəhrəmanova,* Müəllimlər seminariyaları və Şuşalılar ................................................111
24. *Рена Мухтар kызы Ибрагимова.* Преподавательская и научная деятельность выпускников Закавказской учительской семинарии........................................................113
25. *Nəzakət İbrahim qızı Zamanova.* Zaqafqaziya müəllimlər seminariyalarının inkişaf tarixi: Qori, İrəvan və Qazax müəllim seminariyasının işığı günümüzdə.........................125
26. *Kəmalə Rafiq qızı Quliyeva.* Azərbaycanlı müəllim kadrları hazırlığında İrəvan müəllimlər seminariyasının rolu..........131
27. *Əkrəm Rüfət Oğlu Hüseynzadə.* İrəvan maarifçilik mühitinin görkəmli pedaqoji kadrlarına bir nəzər ..............................140
28. *Firudin Məmmədov.* İrəvan müəllimlər seminariyasında təlimin təşkilinin yeni ideya və istiqamətləri ......................144
29. *Firudin Məmmədov.* Zaqafqaziyada müəllimlər seminariyalarının inkişaf tarixi ..........................................156
30. *Firudin Məmmədov.* İrəvan müəllimlər seminariyasının pedaqogika tarixində yeri..................................................166

31. *Şəhla Vaqif qızı Hüseynova.* İrəvan müəllimlər seminariyasının pedaqogika tarixində yeri ........................ 176
32. *Şəhla Vaqif qızı Hüseynova.* История создание Ереванской семинарии ........................................................ 180
33. *Илаха Вагиф кызы Шихалиева.* История развития учительских семинарий в Закавказье ........................ 185
34. *Илаха Вагиф кызы Шихалиева.* Педагогическая деятельность выпускников Горейской семинарии ........ 192
35. *Илаха Вагиф кызы Шихалиева.* Выпускники Иреванской семинарии ................................................ 197
36. *Arzu Fikrət qızı Məmmədova.* İrəvan təhsil müəssisələrində təlim – tərbiyə məsələlərinin metodoloji əsasları ................ 206
37. *Püstəxanim Balayeva.* İrəvan müəllimlər seminariyasının məzunlarının fəaliyyət istiqamətləri ................................. 213
38. *Tamara Kərəm qızı Məmmədrzayeva.* İrəvan müəllimlər seminariyasının məzunlarının pedaqoji fəaliyyətləri və onlarin acı taleləri ........................................................ 221
39. *Gülmira Sahib qızı Haciyeva.* İrəvan pedaqoji mühitində məktəblər, tədris müəssisələri və məzunlar ...................... 225
40. *Nuridə Rafiq qızı Quliyeva.* Qori və İrəvan müəllimlər seminariyasının müəllimi Firudin bəy Köçərlinin Qazax müəllimlər seminariyasının təşkilində və inkişafinda rolu . 228
41. *Сабина Рафик Кызы Гаджиева.* Роль Иреванской учительской семинарии в подготовке Азербайджанских учительских кадров ........................................................ 231
42. *Fəridə Tofiq qızı Xudiyeva.* Məhəmməd ağa Şahtaxtlının elmi-pedaqoji fəaliyyətində İrəvan müəllimlər seminariyasının mühüm rolu ............................................ 236
43. *Bilal Ərdoğan.* İrəvan musiqi mühiti ................................ 243
44. *Səbinə Elçin qızı Cəfərova.* XIX əsrin sonunda təhsilimizin inkişafinda müəllimlər seminariyalarının rolu .................... 247
45. *Aydan Əhədova, Məcid Abdulla oğlu İsmixanov.* Firidun bəy köçərlinin ədəbi-pedoqoji fəaliyyəti ............... 249

46. *Mərziyə Namiq qızı Mirzəbəyova, Nəzakət Bəylər qızı İmamverdiyeva.* İrəvan seminariyasının ilk Azərbaycanlı müəllimi Axund Məmmədbağır Qazizadə ..........................253
47. *Ayşən Namiq qızı Orucova, Vəfa Məsim qızı Çiraqova.* İrəvan müəllimlər seminariyasının Azərbaycan təhsil tarixində rolu ...................................................................256
48. *Sücayə Natiq qızı Qarayeva.* Üzeyir Hacibəyov və Qori müəllimlər seminariyası ..................................................262
49. *Günel Qabil qızı Abbasova, Məcid Abdulla oğlu İsmixanov* Görkəmli pedaqoq və publisist .........................................266
50. *Süleyman Vüqar oğlu Abbasov, Məcid İsmixanov* İrəvan müəllimlər seminariyasının məzunu H.B. Şahtaxtinskinin elmi-pedaqoji və maarifçilik fəaliyyəti ......................... 272
51. *Улькер Эльхановна Алекперова.* Наши педагогические корни ......................................................................... 276
52. *Гюнель Фуад qızı Мамедова.* Почетная страница Азербайджанского образования ....................................279
53. *Nuranə Elçin qızı Kərimova.* Firudin bəy Köçərlinin “Balalara hədiyyə” kitabının tərbiyəvi əhəmiyyəti ............282
54. *Nuranə Elçin qızı Kərimova.* Şaxtaxtinskilər nəslinin layiqli davamçisi Həmid bəy Şaxtaxtinskinin maarifçilik fəaliyyəti ...........................................................................285
55. *Nərmin Telman qızı Əkbərli.* Qori müəllimlər seminariyasının məzunu Mahmudbəy Mahmudbəyovun maarifçi görüşləri ............................................................288
56. *Röya Rəşad qızı Hacibabayeva.* Firidun bəy Köçərli və Qori müəllimlər seminariyası ............................................290
57. *Nuridə Qüdrət qızı İsmayilova.* Şuşa mühiti və Üzeyir Hacibəyli ..........................................................................293
58. *Səidə Maarif qızı Qurbanlı.* F.Köçərli və Qori müəllimlər seminariyası .......................................................................296

**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ**

**BAKI DÖVLƏT UNİVERSİTETİ**

**SOSİAL ELMLƏR və PSİXOLOGİYA FAKÜLTƏSİ**

**PEDAQOGİKA KAFEDRASI**

**İrəvan müəllimlər seminariyasının 140 illiyinə həsr olunmuş "İrəvan müəllimlər seminariyası: Tarixilik və müasirlik" mövzusunda Respublika elmi konfransının**

**MATERİALLARI**

**22-23 noyabr 2022-ci il**


Nəşriyyat direktoru: Elnarə Abbasova
Texniki redaktor: Asim Səfərov
Dizayner: İradə Əhmədova
Operator: Həmidə Bağırova

---

Yığılmağa verilmişdir: 25.043.2023
Çapa imzalanmışdır: 10.05.2023
Format: 60 ×84 1/16
Şərti çap vərəqi – 19
Sifariş № 68
Tiraj – 100 nüsxə

"Füyuzat" nəşriyyatında çap edilmişdir.
Ünvan: Bakı şəh., Z.Xəlilov küç., 26
Tel.: 055 850 98 69